

**“Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Oktyabr - Dekabr (2019-cu il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan “Azərbaycan Prokurorluğu” jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmişdir.

Çapa imzalanmışdır: 12.01.2020
60x84 1/8 formatda 162 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© “Azərbaycan Prokurorluğu”, 2020

# MÜNDƏRİCAT

## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR


**4** Prezident İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib

**8** Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib

**15** Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü uğurla başa çatıb

**16** Bakı Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verilib

**19** Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib

**27** Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**30** Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günu və Yeni ilə münasibətilə Azərbaycan xalqını təbrik edib


## RƏSMİ TƏDBİRLƏR


**32** Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**35** Hərbi Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**38** Bakı şəhər prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**40** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**42** Bakıda "Güclü və nüfuzlu vəkillik – müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans keçirilib

**45** Baş prokuror Zakir Qaralov Rusiya Federasiyası Baş prokurorunun müavini - Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**47** Baş prokuror Zakir Qaralov Litvanın Xüsusi İstintaq Xidmətinin baş direktoru Zidrinas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**50** Baş prokuror Zakir Qaralov Qırğızıstan Respublikası Baş prokurorunun müavini Cəmilə Camanbayevanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**54** Vətəndaşların müraciətlərinə baxılması işi prokurorluq orqanlarının daim diqqət mərkəzindədir

**57** Baş prokurorun müavini Namiq Əsgərov Türkiyənin Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyətini qəbul edib

**58** Hərbi prokuror Xanlar Vəliyev Rusiya Federasiyası Baş prokurorunun müavini - Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib


## AZƏRBAYCAN PROKURORLUĞU – 101. TƏDBİRLƏR


**61** Prokurorluq işçilərinin peşə bayramı günü və milli prokurorluq orqanlarının yaradılmasının 101-ci ildönümü qeyd olunub

**67** Bir qrup prokurorluq işçisinin həvəsləndirilməsi haqqında Baş prokurorun əmri

**73** Prokurorluq işçiləri növbəti ağacəkmə kampaniyası keçiriblər

**74** Hərbi Prokurorluqda prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib

**77** Bakı şəhər prokurorluğunda prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib

**78** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib


## AZƏRBAYCAN PROKURORLUĞU – 101. MƏQALƏLƏR


**80** Zakir Qaralov – "Ölkənin davamlı tərəqqisinə aparan hərtərəfli islahatlar məhkəmə-hüquq sisteminin inkişafının yeni mərhələsini şərtləndirmişdir"

**86** Xanlar Vəliyev – "Azərbaycan Prokurorluğunun zəngin və şərəfli tarixi"


## TƏHLİLLƏR, TƏKLİFLƏR


**94** Fəxri Ələsgərov – "Azərbaycan Prokurorluğu qanunun aliliyini təmin edir"

**97** Seyfulla Aslanov – "Cinayət prosesində informasiya təhlükəsizliyinin təmin olunması (məxfilik və konfidensiallıq)"

**100** Firad Əliyev – "Məhkəmə-hüquq islahatları ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsini şərtləndirir"


## İCTİMAİYYƏTƏ HESABAT


**104** Baş Prokurorluqda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilərin andiçmə mərasimi keçirilib

**107** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən müxtəlif sahələr üzrə tədbirlər təşkil olunub


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**114** Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

**118** Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti model kimi tövsiyə edilib

**119** Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib


## HÜQUQİ AKTLAR


**120** Qanunvericiliyə dəyişikliklər

**150** Konstitusiya Məhkəməsinin Plenum qərarları

**160** Prokurorluq üzrə hüquqi aktlar

# Prezident İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib

**Prezident İlham Əliyev: Azərbaycanda düşünülmüş uzunmüddətli siyasət ən yüksək səviyyədə həyata keçirilir.**

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib.

Müşavirədə 2019-cu ilin 9 ayının sosial-iqtisadi yekunları və 2020-ci ilin dövlət və icmal büdcəsi layihələri müzakirə edilib.

Prezident İlham Əliyev müşavirədə çıxış edib.

Dövlətimizin başçısı müşavirədə nitq söylədi.



## Prezident İlham Əliyevin nitqi

– Doqquz ayın sosial-iqtisadi göstəriciləri müsbətdir. İqtisadi artım təmin olunub. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu, onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir. Əlbəttə, biz istərdik ki, artım daha da yüksək olsun. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar, potensial var. Sadəcə olaraq, biz bu potensialdan maksimum səmərə ilə istifadə etməliyik.

Yenə də qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu, onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15

faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər.

Bununla bərabər, bildiyiniz kimi, son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyulmuşdur. Kənd təsərrüfatının inkişafı prioritet sahə kimi müəyyən edilmişdir. Mən, eyni zamanda, əvvəlki illərdə bir qədər təəccüblənirdim ki, nə üçün bu qədər investisiyaların müqabilində, bu qədər dəstəyin, subsidiyaların, güzəştli şərtlərlə verilmiş kreditlərin olduğu bir zamanda kənd təsərrüfatında artım 2-3 faiz idi. Ancaq hazırda bu sahədə də ciddi irəliləyiş müşahidə olunur. Beləliklə, kənd təsərrüfatı doqquz ayda 7 faizdən çox artmışdır.

Digər iqtisadi göstəricilərimiz də çox müsbətdir. Bizim xarici dövlət borcumuz çox aşağı səviyyədədir – ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünya miqyasında doqquzuncu yerdəyik. Onu da bildirməliyəm ki, bizdən daha yaxşı nəticəsi olan ölkələrin bəziləri o ölkələrdir ki, onlara, ümumiyyətlə, xaricdən heç bir kredit verilmir. Ona görə də onların yüksək pillədə olması əlbəttə ki, obyektiv mənzərəni əks etdirmir. Beləliklə, biz dünya miqyasında xarici borcun aşağı səviyyəsinə görə qabaqcıl yerdəyik. Bunu bir daha demək istəyirəm, mən hökumət qarşısında vəzifə qoymuşam ki, biz xarici dövlət borcumuzu ildən-ilə azaldaq və gələn ilin büdcəsində bu, nəzərdə tutulur.

İnflyasiya çox aşağı səviyyədədir, 2 faizdən bir qədər çoxdur. Nəzərə almalıyıq ki, bu il çox ciddi və böyük sosial paket reallaşdı – 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı. Yəni, bu məqsədlər üçün milyardlarla manat vəsait xərclənib və bu vəsait sosialyönümlü istiqamətə nəzərdə tutulurdu. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu, çox yaxşı göstəricidir. Əhalinin gəlirləri yenə də inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir.

Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir. Əlbəttə ki, bu, bizi qane edə bilməz. Ancaq mən müqayisə üçün bunu bildirməliyəm. Hər şey müqayisədə ölçülür. Gələcəkdə də minimum əməkhaqqının, minimum pensiyanın artırılması üçün bizdə iradə var və imkanlar buna uyğun olmalıdır. Buna nail olmaq üçün bütün maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir. Hazırda kifayət qədər çox ehtiyatlarımız var və hökumət qarşısında vəzifə qoyulub ki, biz bütün bu ehtiyatları aşkarlayaq və həm büdcə gəlirlərimizi artıraq, həm də büdcə xərclərimiz məqsədyönlü və şəffaf olmalıdır.

Bir neçə gün bundan əvvəl mənim Sərəncamımla Əli Əsədov Baş Nazir vəzifəsinə təyin edilib. Əli Əsədov uzun illər mənim köməkçim kimi fəaliyyət göstərib. Əminəm ki, Baş Nazir kimi o, mənim tərəfimdən qarşıya qoyulan vəzifələri icra edəcək. Əsas vəzifə iqtisadi artımı daha da yüksək rəqəmlərə qaldırmaq və islahatları davam etdirməkdir.

Keçən il prezident seçkilərindən sonra mənim andiçmə mərasimindəki çıxışımda demək olar ki, bütün əsas istiqamətlər üzrə hədəflər müəyyənləşdirilibdir. O çıxış proqram xarakterli çıxış idi. O çıxışdan sonra biz əməli addımlara başladıq, islahatları dərinləşdirdik. Vergi və gömrük sahələrində aparılan islahatlar, şəffaflıqla bağlı addımlar öz səmərəsini verməkdədir. Gömrük və vergi orqanları doqquz ayda büdcəyə plandan əlavə 700 milyon manatdan çox vəsait daxil ediblər. Bu, bir daha onu göstərir ki, bizim nə qədər böyük ehtiyatlarımız var. Bu gün də hələ bir çox şirkətlər vergiləri tam ödəmirlər. Onların qara mühasibatlığı var. Bəzi şirkətlərdə işləyənlər orada qeydiyyata alınmır. Düzdür, son müddət ərzində on minlərlə iş yeri rəsmiləşdirildi və beləliklə, qara bölgədən ağ bölgəyə transfer olundu. Amma bu, kütləvi xarakter daşımalıdır. Bir çox özəl şirkətlər vergiləri hələ də tam həcmdə ödəmir və ikili mühasibat saxlayır.

Vergi orqanları, digər hüquq-mühafizə orqanları bu tipli dırnaqarası sahibkarlara qarşı çox ciddi tədbirlər görməlidirlər. Həmin sahibkarlar da bilməlidirlər ki, vergiləri ödəmək onların borcudur. Onlardan heç bir başqa ödəniş tələb oluna bilməz. Mən bütün qurumlar qarşısında bu vəzifəni qoydum, maksimum şəffaflıq, dürüstlük olmalıdır, rüşvətxorluğa, korrupsiyaya son qoyulmalıdır. Ancaq sahibkarlar dövlət vergisini tam şəkildə ödəməlidirlər. Biz bu vergilər hesabına sosial layihələri icra edirik, vergilər hesabına köçkünləri yerləşdiririk, vergilər hesabına ordumuzu gücləndiririk. Ona görə də vergini ödəməyən cinayət məsuliyyətinə cəlb edilməlidir.

Bir çox hallarda eşidirik ki, bizdə standartlar, meyarlar Avropa standartlarına uyğun olmalıdır. Avropa ölkələrində vergisini ödəməyənə hansı cəza verilirsə, biz də onlardan nümunə götürməliyik. Ona görə vergidən yayınmaq çox ciddi nəticələrə gətirib çıxarmalıdır. Mən bütün aidiyyəti qurumlara bir daha bu tapşırığı verirəm.

Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqı, pensiyalar

artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il on mindən çox insan bu proqramla əhatə olunacaq. Ünvanlı sosial yardım alanların sayı artır. Mən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin qarşısında vəzifə qoydum ki, biz bu kateqoriyadan olan insanlara daha geniş həcmdə yardım göstərək. İndi hər bir ailə orta hesabla 200 manatdan çox yardım alır. O, ailələrin sayı artmalıdır, qarşıya belə vəzifə qoyulub.

Əlbəttə ki, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Beynəlxalq aparıcı maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirirlər. Mənim Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə çoxsaylı görüşlərim deməyə əsas verir ki, Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirilir.

“Doing Business” hesabatında biz biznes mühitinə görə dünya miqyasında 25-ci yerdəyik. Son hesabatda Azərbaycan yenə də 20 ən islahatçı ölkə sırasında yer alıb. Bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumu yeni hesabat dərc edib. Bu hesabat bir daha onu göstərir ki, Azərbaycanda aparılan islahatlar ardıcıl xarakter daşıyır. Hesabatdan bəzi məqamları mən Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Bildiyiniz kimi, burada rəqabətqabiliyyətliliklə bağlı bir çox meyarlar mövcuddur, həm ictimai-siyasi vəziyyət, həm də cinayətkarlığa qarşı mübarizə, iqtisadi islahatlar, sosial islahatlar, infrastruktur və sair.

Beləliklə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə Azərbaycan dünyada 18-ci yerdədir. Deyə bilərəm ki, bu hesabat dünyanın 141 ölkəsi arasında keçirilən tədqiqatın nəticələri əsasında hazırlanıb dərc edilmişdir. Polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə Azərbaycan 30-cu yerdədir. Mülkiyyət hüquqlarının qorunması sahəsində bizim yerimiz 37-cidir. Hökumətin, yəni, dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan, fikir verin, dünya miqyasında 10-cu yerdədir. Yəni, bu, onu göstərir ki, düşünülmüş uzunmüddətli siyasət Azərbaycanda ən yüksək səviyyədə həyata keçirilir. Rəhbərliyin dəyişikliklərə, yəni, islahatlara meyillilik səviyyəsinə görə biz dünyada 5-ci yerdəyik. Nəqliyyat infrastrukturuna görə 31-ci yerdəyik. Yol infrastrukturuna görə 27-ci yerdəyik. Biz keçən hesabatda 34-cü yerdə idik, indiki hesabatda 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Dəmir yollarının səviyyəsinə görə 34-cü yerdəyik. Nəqliyyat xidmətlərinin səmərəliliyinə görə 12-ci yerdəyik. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə biz dünyada ikinci yerdəyik.

Son illərdə bu qədər elektrik stansiyalarının, yarımstansiyaların, ötürücü xətlərin tikilməsi, bax, bizi dünya miqyasında ikinci yerə gətirib çıxardı. Fəal əhalinin rəqəmsal qabiliyyətinə görə 19-cu yerdəyik. Bu, xalqımızın istedadını və mütərəqqi meyillərə yaxın olduğunu göstərir. Biznesi başlamaq baxımından biz 8-ci yerdəyik və bu rəqəmlər əlbəttə ki, həqiqəti əks etdirir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyanın aparıcı beynəlxalq maliyyə qurumlarından biridir və çox mötəbər forumdur. Bildiyiniz kimi, Azərbaycan Prezidenti müntəzəm olaraq forumun iclaslarında iştirak edir.

Bütün bunlar əlbəttə ki, gördüyümüz işlərə verilən yüksək qiymətdir. Ən böyük qiymət Azərbaycan xalqı tərəfindən verilən qiymətdir. Bu yaxınlarda aparılan sorğuya əsasən demək olar ki, əhalinin mütləq əksəriyyəti Azərbaycan rəhbərliyini, bizim apardığımız siyasəti birmənalı şəkildə dəstəkləyir. Əlbəttə ki, bu dəstək bizə güc verir, iradəmizi artırır və biz islahatlara daha da böyük həvəslə, daha da böyük imkanlarla meyil göstəririk, bu islahatları aparırıq. Ancaq buna baxmayaraq, əlbəttə, bir daha demək istəyirəm ki, istifadə olunmayan kifayət qədər ehtiyatlar var və biz bu ehtiyatları aşkar etməliyik. Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin. Əlbəttə ki, bu məqsədə nail olmaq üçün korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalıdır. Hesab edirəm ki, hazırda bu mübarizə bizi tam qane edə bilməz. Çünki biz bilirik ki, korrupsiya halları geniş vüsət alıb, təkcə Azərbaycanda yox, bütün MDB məkanında. Yəni, bu, bizim keçmişdən qalan acı mirasımızdır. Ancaq biz xoşagəlməz hallara qarşı mübarizə aparmalıyıq və təkcə hüquq-mühafizə orqanları yox, bütün aidiyyəti qurumlar, o cümlədən vətəndaşlar. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət daha da güclü olmalıdır. Hər bir yerdə, hər bir bölgədə, Bakının hər bir yerində əgər hansısa qanunsuzluq baş verirsə, aidiyyəti orqanlar bunu aşkarlamalı və bu qanunsuzluğa yol açan vətəndaşları, insanları məsuliyyətə cəlb etməlidirlər. Vətəndaşlar da öz növbəsində məlumat verməlidirlər, ictimai nəzarət baxımından daha da fəal olmalıdırlar ki, biz islahatları aparaq və ölkəmizin qüdrətini artıraq.

Hazırda gələn ilin büdcəsi hazırlanır və bilirsiniz ki, büdcə hər bir ölkənin əsas sənədlərindən biridir. Yeni hökumət qarşısında bir çox vəzifələr qoyulub. Mən Əli Əsədovu bu vəzifəyə təyin edərkən ona

bir çox vəzifələr tapşırdım. Onun qarşısına vəzifə qoydum ki, islahatlar aparılmalıdır, o cümlədən kadr islahatları. Müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir. Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik? Nə qədər biz təbii resurslara arxalanaraq, necə deyərlər, belə ətalət yolu ilə gedə bilərik? Düzdür, islahatlar aparılır, dediyim rəqəmlər bunun əyani sübutudur. Hər bir ölkə bu nəticələrlə öyünə bilər. Ancaq biz bilirik ki, ehtiyatlarımız çoxdur. Onu da bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və Vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük. Hesab olunurdu ki, bizdə elə sahələr var ki, orada islahatlar aparıla bilməz. Onlardan biri də vergi sistemidir. Hesab olunurdu ki, necə deyərlər, o biabırçı vəziyyət əbədi qalmalıdır və burada heç bir irəliləyişə nail ola bilmərik. Amma hər kəs gördü ki, biz vəziyyəti islahatlar yolu ilə düzəldə bildik. Büdcəyə 100 milyonlarla manat vəsait daxil olub, digər sahələrdə də həmçinin.

Sosial müdafiə sahəsində nə qədər pozuntular olub. Yeni nazir Sahil Babayev bunları üzə çıxardı və çox ciddi islahatlar aparır. Onu da bildirməliyəm ki, bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meyilli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən mətbuatda. Mətbuat bir növ daxili mübarizə növünə çevrilib. Bu, dözülməzdir. Mən indi dərinə getmək istəmirəm. Amma bildirməliyəm: bu, dözülməzdir, bir hökumətin bəzi üzvləri digər üzvləri tərəfindən şantaj edilir. Onlar ləkələnir. Prezidentin tapşırığı ilə onların apardığı islahatların üzərinə kölgə salınır. Dözülməz vəziyyətdir. Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik. Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz.

Gələn ilin büdcəsi ilə əlaqədar tapşırıqlar verildi. Hökumət üzvləri artıq neçə vaxtdır ki, işləyirlər. Deməliyəm ki, gələn ilin büdcəsi həm sosialyönümlü, həm də investisiyayönümlü olmalıdır. Biz gələn il də ciddi sosial proqramlar icra edəcəyik, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq, infrastruktur layihələrinin icrası ilə əlaqədar kifayət qədər vəsaitimiz olmalıdır. Ancaq gələn ilin xərclərinə biz çox böyük diqqətlə baxmalıyıq və burada şəffaflığı tam təmin etmək üçün hökumət gərək təkliflər versin. Tezliklə, ilin sonuna qədər bu təkliflərə baxılacaq. Beləliklə, əminəm ki, biz eyni həcmdə olan işi az vəsaitlə icra edə bilərik. Buna nail olmaq üçün, ilk növbədə, şəffaflıq, dövlət nəzarəti və ictimai nəzarət olmalıdır. Bütün dövlət qurumlarına deyirəm, yoxsa onlar pis öyrəşiblər. Hər ilin sonunda büdcə müzakirə olunarkən, sifarişlər göndərirlər. Özü də orada şişirdilmiş rəqəmlər öz əksini tapır, havadan götürülmüş rəqəmlər. Onlardan soruşanda ki, misal üçün bənd tikmək, yol çəkmək, kabel çəkmək bu qədər vəsait barədə rəqəmi haradan götürürsən!? Havadan. Sonra araşdırma aparılır, görünür ki, şişirdiblər. Nəyə görə şişirdiblər? Aydın məsələdir nəyə görə. Buna da son qoyulmalıdır. Ona görə Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, – bunu təkcə onların boynuna atmaq olmaz, – hökumət də nəzarətçi kimi şişirdilmiş bütün o rəqəmləri təhlil etsinlər və real rəqəmləri müəyyənləşdirsinlər. O rəqəmləri verənlər gərək məsuliyyət daşısınlar. Əgər bu dəfə bizim dövlət qurumlarımız, şirkətlərimiz yenə də şişirdilmiş rəqəmlər versələr, artıq özlərini ifşa etmiş olacaqlar. Hökumət əlbəttə ki, onların bütün təkliflərinə baxacaq. Amma onlar əgər şişirdilmiş rəqəmləri versələr, öz cəzalarını alacaqlar. Ona görə zəhmət çəkib normal işləsinlər və pis vərdişlərdən əl çəksinlər. Beləliklə, biz büdcəyə böyük qənaət edərik, maaşların, pensiyaların artırılmasına imkan yaradarıq və şəffaflığı təmin edə bilərik. Ona görə qarşıdakı həftələr ərzində gələn ilin büdcəsinin parametrləri ilə əlaqədar çox fəal iş aparılmalıdır. Bugünkü müşavirə, o cümlədən bu məsələyə həsr olunub. Ona görə istərdim ki, indi burada gələn ilin büdcəsi ilə əlaqədar fikirlər və təkliflər səslənsin.

***

Müzakirələrdə Birinci vitse-prezident Mehriban Əliyeva, Baş Nazir Əli Əsədov, Azərbaycan Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, Maliyyə naziri Samir Şərifov, İqtisadiyyat naziri Şahin Mustafayev, Vergilər naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov çıxış ediblər.

# Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib

**Qlobal sülh missiyasının təminatı Azərbaycanın Prezidenti İlham Əliyevə həvalə olunub**




Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başlayıb.

“Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək” mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak edirlər. Ümumilikdə Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşündə iştirak edən Belarus parlamenti Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonu, Oman Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haeni, Liviyanın Baş Naziri Faiz Saracı, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olini, Banqladeşin Baş Naziri xanım Şeyx Hasinanı, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah




Naidunu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinhi, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogonu, Sudanın Prezidenti Abdul-Fattah Al-Burhanı, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb əsilli Sədri Milorad Dodiki, Cibutinin Prezidenti İsmail Ömər Qellehi, Qananın Prezidenti Nana Akufo-Addonu, Əlcəzairin Prezidenti Abdelkader Bensalahı, Namibiyanın Prezidenti Haqe Qotfrid Qeynqobu, Venesuelanın Prezidenti Nikolas Maduronu, Esvatininin Kralı III Msvatini, Əfqanıstanın Prezidenti Məhəmməd Əşrəf Qanini, Kubanın Prezidenti Migel Diaz-Kaneli, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovu, İranın Prezidenti Həsən Ruhanini, Pakistanın Prezidenti Arif Alvini qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Zirvə Görüşünü açaraq təşkilata üzv bəzi ölkələrin dünyasını dəyişən keçmiş dövlət və hökumət başçılarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsini təklif etdi.

Nikolas Maduro çıxışında Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür etdi. Maduro Venesuelanın sədrliyi dövründə Qoşulmama Hərəkatının böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin güclənməsinə xidmət göstərdiyini dedi və növbəti üç il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan etdi.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təhvil verildi.

Qoşulmama Hərəkatının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşündə nitq söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün bütün iştirakçılarını səmimiyyətlə salamlayır və hər birinizə “Xoş gəlmisiniz!” deyirəm.

2016-2019-cu illərdə Qoşulmama Hərəkatına sədrlik etdiyinə görə Venesuela Bolivar Respublikasına təşəkkürümü bildirirəm.

Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliğinə xidmət edir və bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirir. Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır.

Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana




həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür. Bunu dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının bizim siyasətimizə verdiyi dəstək kimi qiymətləndirir və bu qərara görə bir daha sizlərə təşəkkürümü bildirirəm.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.

Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcəkdir. Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan Hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür. Bu mənada keçən ay Azərbaycanın “77-lər qrupu”na qoşulması sosial-iqtisadi sahədə beynəlxalq miqyasda səylərimizi daha da artırmağa imkan verir. Üzv dövlətlərin maraqlarının BMT çərçivəsində birgə səylərlə müdafiə olunması xüsusi əhəmiyyət kəsb edir.

Ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusən diqqət yetirilməlidir. 2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərmişdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proq-




ramları və digər sahələrdə layihələr həyata keçirir.

Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc bu proqramdan faydalanır.

Azərbaycanda gənclər siyasəti prioritet sahə kimi müəyyən edilmişdir. Azərbaycan gəncləri milli ruhda, ənənəvi dəyərlərlə, Vətənə bağlı və vətənpərvər ruhda tərbiyə alırlar. Buna görədir ki, Qoşulmama Hərəkatı tarixində ilk dəfə olaraq Gənclər Sammitinin keçirilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırkı Zirvə Görüşü ərəfəsində keçirilmiş Gənclər Sammitində 40 dövlətdən ölkəmizə gəlmiş gənclər iştirak etmişlər.

Xanımlar və cənablar, hörmətli qonaqlar.

Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı var. Bir həftə öncə – oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon – ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür.

Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən




isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur.

2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla altı azərbaycanlı mülki şəxs həlak olmuş, 26-sı yaralanmışdır, yüzlərlə ev dağıdılmışdır. Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dostlar qazandırmışdır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya-

NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə ev sahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır. Bu ölkələr arasında qeyd etdiyim görüşlər üçün Azərbaycanın seçilməsi bizim yürütdüyümüz müstəqil xarici siyasətə olan hörmətin göstəricisidir.

Hörmətli qonaqlar, müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox keşməkeşli olmuşdur. Xəyanətkar, satqın, qorxaq, səriştəsiz Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti illərində ölkəmiz böyük bəlalara düçar olmuşdur. Azərbaycanda vətəndaş müharibəsi başlamışdır. Yalnız 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Prezident Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkəmizi daha böyük faciələrdən xilas etdi. Azərbaycan demokratik, dayanıqlı inkişaf yoluna qədəm qoydu, ölkədə sabitlik və əmin-amanlıq bərqərar oldu.

Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri vardır. Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Azərbaycana 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artmışdır. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Son 15 il ərzində Azərbaycanda 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Üç yüz mindən çox məcburi köçkün pulsuz evlər və mənzillərlə təmin edilmişdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 ABŞ dolları ekvivalentində aylıq müavinət verilir.

Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Azərbaycan kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən üç peykimiz var. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Azərbaycanda enerji təhlükəsizliyi təmin edilmişdir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək deməliyəm ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Azərbaycan, eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr – Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir.

İqlim dəyişikliyi qlobal təhlükədir. Azərbaycan onun fəsadlarına qarşı mübarizə üzrə beynəlxalq səyləri dəstəkləyir. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdür. Elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su elektrik stansiyalarından istifadə olunur.

Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. On bir il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız "Bakı Prosesi" təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı Prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. "Bakı Prosesi"nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumu artıq BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınmışdır.

Hörmətli qonaqlar, əminəm ki, Zirvə Görüşü çərçivəsində aparılacaq müzakirələr Qoşulmama

Hərəkatının gündəliyində duran hədəflərin həyata keçirilməsinə xidmət göstərəcəkdir. Azərbaycan Hərəkata sədrlik edəcəyi müddətdə öz prioritetlərini üzv dövlətlərlə birgə həyata keçirmək üçün ardıcıl səylər göstərəcəkdir.

Mən Zirvə Görüşünün işinə uğurlar arzulayır və bir daha hamınıza "Xoş gəlmisiniz!" deyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra Zirvə Görüşü Prezident İlham Əliyevin sədrliyi ilə davam etdi.

Zirvə Görüşünün gündəliyi qəbul edildi, Büro üzvləri seçildi, xüsusi qonaq olan dövlətlərin və təşkilatların siyahısı təsdiqləndi.

Daha sonra BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande çıxış etdi.

BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmari DiKarlo çıxış etdi və Baş katib Antonio Quterreşin müraciətini oxudu.

Zirvə Görüşü "77-lər qrupu" təşkilatının sədri Riyad Mənsurun və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun çıxışları ilə davam etdi.

Çıxışlarda Qoşulmama Hərəkatının qarşısında mühüm vəzifələrin durduğu bildirildi, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyi vurğulandı.

Çıxışlardan sonra Prezident İlham Əliyev Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının sessiyasını bağlı elan etdi.

Fasilədən sonra Prezident İlham Əliyevin sədrliyi ilə davam edən Zirvə Görüşündə Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Həsən Ruhani, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamad, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Kuba Prezidenti Migel Diaz-Kanel, Cibuti Prezidenti İsmail Ömər Qelleh, Prezident Vladimir Putinin Zirvə Görüşünə ünvanladığı müraciəti səsləndirən Rusiyanın Xarici İşlər nazirinin müavini Sergey Verşinin, Əlcəzair Prezidenti Abdelkader Bensalah, Esvatininin Kralı III Msvati, Qana Prezidenti Nana Akufo-Addo, Namibiya Prezidenti Haqe Qotfrid Qeynqob, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogo, Sudan Prezidenti Abdul-Fattah Al-Burhan, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinh, Banqladeşin Baş Naziri xanım Şeyx Hasina, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Oli və Liviyanın Baş Naziri Faiz Sarac çıxış etdilər.

Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür edən natiqlər Qoşulmama Hərəkatının qarşısında mühüm vəzifələrin durduğunu deyərək dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğuladılar. Çıxışlarda terrorçuluqla mübarizə, münaqişələrin həlli ilə bağlı beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi, beynəlxalq hüquq və öhdəliklərin yerinə yetirilməsi, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, qaçqınlar problemi, yoxsulluğun azaldılması, ətraf mühitin qorunması, üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və digər məsələlərlə bağlı fikirlər diqqətə çatdırıldı. Çıxış edənlər mövcud problemlərin həllində Qoşulmama Hərəkatının kifayət qədər güclü mövqelərə malik olduğunu deyərək 60 il bundan qabaq qəbul olunan Bandunq prinsiplərinin bu gün də aktual olması fikrində həmrəylik nümayiş etdirdilər.

Qeyd edək ki, Qoşulmama Hərəkatının yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır. Tamhüquqlu 120 üzvü olan Qoşulmama Hərəkatı özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirir. 1961-ci ildə yaradılmış təşkilata üzv olan hər bir dövlət onun prinsiplərinə bağlılığını bildirməlidir. Hərəkata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl, 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfrans zamanı qəbul edilib.

Azərbaycan Respublikası 2011-ci il mayın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil dəstəyini əldə edərək təşkilata tamhüquqlu üzv qəbul olunub. Azərbaycan Hərəkatın müxtəlif səviyyəli iclas və konfranslarında iştirak etmək və üzv ölkələrlə ikitərəfli münasibətlərini sıxlaşdırmaqla onun məqsəd və prinsiplərinə öz töhfəsini verir. Hərəkata üzv olduğumuz qısa müddət ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş dairələrində məlumatlılıq daha da artıb, təşkilatın daxili prosedur və sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək əks olunub. Hərəkata üzvlük, həmçinin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa dair proseslərə ölkəmizin daha yaxından cəlb olunması və çoxsaylı dövlətlərlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə münasib şərait yaradıb.

Beləliklə, Azərbaycan Respublikası 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək.

# Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü uğurla başa çatıb

## 120 dövlət Ermənistanı işğalçı ölkə kimi tanıdı

Oktyabrın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işini başa çatdırıb.

Zirvə Görüşünün ikinci iş günü ümumi debatlarla davam edib.

Ümumi debatlarda Qoşulmama Hərəkatına üzv ölkələrin yüksək vəzifəli rəsmi şəxsləri, beynəlxalq təşkilatların rəhbərləri və nümayəndələri, xüsusi qonaqlar, diplomatlar çıxış etdilər.

Çıxış edən natiqlər dünyada baş verən böhranlardan, regional münaqişələrdən və onların həlli yollarından, işğalların, yoxsulluğun, dini və irqi ayrı-seçkiliyin aradan qaldırılması üçün görülməsi zəruri olan tədbirlərdən, ölkələrin ərazi bütövlüyünün və suverenliyinin qorunmasının əhəmiyyətindən, iqlim dəyişikliklərinə qarşı mübarizədən danışıblar. Onlar bu problemlərin həllinin tapılması üçün çoxtərəflilik prinsiplərinin bərqərar olmasının, daha tarazlı yanaşmanın tətbiqinin vacibliyini bildiriblər. Həmçinin qeyd olunub ki, üzv dövlətlərin qarşılıqlı fəaliyyətləri nəticəsində Qoşulmama Hərəkatı çərçivəsində bir sıra nailiyyətlər əldə edilib. Lakin təşkilatın fəaliyyətinin daha da təkmilləşdirilməsi və onun BMT-nin kağız üzərində qalan qərarlarının həyata keçirilməsinə təsir göstərmək iqtidarında olması, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi üçün hələ bir sıra işlər görülməlidir. Bildirilib ki, Qoşulmama Hərəkatına üzv dövlətlər dayanıqlı inkişafın təmin olunması üçün göstərilən səyləri təşviq etməlidir və qarşıya çıxan çağırışlarla birgə mübarizə aparmalıdırlar.

Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə, Azərbaycan Hökumətinə və xalqına minnətdarlıqlarını bildirən natiqlər əmin olduqlarını vurğuladılar ki, ölkəmizin Qoşulmama Hərəkatına sədrlik edəcəyi növbəti üç il ərzində təşkilat Bandunq prinsiplərinə sadiq qalaraq daha böyük uğurlara imza atacaq.

Məhsuldar müzakirələrə görə Zirvə Görüşünün iştirakçılarına təşəkkürünü bildirən Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün dörd yekun sənədinin təsdiq edilərək dövlət və hökumət başçılarına təqdim olunduğunu bildirdi.

Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcəyini bildirən E.Məmmədyarov ölkəmizə göstərilən etimada görə üzv dövlətlərə minnətdarlığını bildirdi. Nazir qeyd etdi ki, qəbul edilən sənədlər üzv dövlətlərin Bandunq prinsiplərinə sadiqliklərini bir daha nümayiş etdirir.

Ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən layihələrə toxunan nazir bildirdi ki, təşkilata sədrliyi dövründə Azərbaycan dialoqun və əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

Sonra Bakı Yekun Sənədi, Bakı Bəyannaməsi, Fələstinə dair Bəyannamə və Azərbaycan Respublikası hökumətinə və xalqına təşəkkür və həmrəylik Sənədi qəbul olunub.

Beləliklə, 120 üzvü tamhüquqlu olan, 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı özündə birləşdirən Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşü uğurla başa çatıb.

# Bakı Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verilib

**Prezident İlham Əliyev: Məqsədimiz dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, dayanıqlı inkişafa və ədalətin təmin olunmasına töhfələr verməkdir.**

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ziyafətdə iştirak ediblər.

Dövlətimizin başçısı rəsmi ziyafətdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən sizin hamınızı bir daha salamlayır, “Azərbaycana xoş gəlmisiniz!” deyirəm.

Zirvə Görüşümüzün birinci günü başa çatır. Sabah işimizi davam etdirəcəyik. Hərəkata üçillik sədrlik səlahiyyətlərinin yekdilliklə Azərbaycana verilməsinə görə bütün üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycan öz prioritetlərini tarixi Bandunq prinsipləri üzərində quracaqdır. Məqsədimiz üzv dövlətlərlə birgə Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemindəki rolunu və

nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, dayanıqlı inkişafa və ədalətin təmin olunmasına töhfələr verməkdir.

Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasəti ilə üst-üstə düşür.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Qoşulmama Hərəkatının sənədlərində əks olunan, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlara görə təşəkkürümü bildirirəm. Biz bu dəstəyi yüksək qiymətləndiririk.

Ölkəmizin Hərəkata sədrliyi dövründə üzv dövlətlər arasında həmrəylik və qarşılıqlı dəstək münasibətlərinin təşviqi prioritetimiz olacaqdır. Biz, həmçinin üzv ölkələr arasında mövcud olan məsələlərin, yarana biləcək problemlərin həllinə kömək göstərməyə çalışacağıq.

BMT Baş Assambleyasından sonra üzv dövlətlərin sayına görə ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının bu iki gün ərzində – bu gün və sabah Bakıda keçirilən Zirvə Görüşü dünya miqyasında ən önəmli hadisədir.

Ümid edirəm ki, nümayəndə heyətlərinin üzvləri imkan tapıb paytaxt Bakı ilə tanış olacaqlar. Bakı dünyanın ən qədim şəhərlərindən biridir. Ən azı 20 min il tarixi olan Qobustan petroqlifləri, VI əsrə aid olan Qız qalası, XII əsrdə inşa edilmiş İçərişəhər, Qala divarları və Şirvanşahlar Sarayı kimi abidələrimiz UNESKO-nun Ümumdünya İrs Siyahısına daxildir. Üç ay bundan əvvəl Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında qədim Azərbaycan şəhəri olan Şəkinin tarixi mərkəzi və Şəki Xan Sarayı Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə malikdir. Ölkəmizdə mövcud olan tarixi abidələr bunu əyani şəkildə təsdiq edir. Azərbaycan ərazisində eramızdan əvvəl birinci əsrdə yaradılmış və böyük bir ərazini əhatə etmiş Qafqaz Albaniyasına aid çoxlu tarixi abidələrimiz mövcuddur. Belə abidələrdən biri də Şəki rayonunun Kiş kəndindəki alban məbədidir.

On üç əsr bundan əvvəl, 743-cü ildə inşa olunmuş Şamaxı Cümə Məscidi Qafqazda və Yaxın Şərqdə ən qədim məscidlərdən biridir. Zaman-zaman təbii fəlakətlərdən və qəsdlərdən zərər çəkmiş bu qədim məsciddə sonuncu dəfə mənim Sərəncamımla əsaslı təmir və bərpa işləri aparılmış, 2013-cü ildə məscidin açılışı olmuşdur. Bakı yaxınlığında atəşpərəstliyin erkən orta əsrlərə aid Atəşgah məbədi mövcuddur. Bizim dini və etnik müxtəlifliyimiz böyük sərvətimizdir. Bu il biz qədim Şamaxı şəhərində dünyaya gəlmiş böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edirik. Mənim Sərəncamımla 2019-cu il Azərbaycanda “Nəsimi ili” elan olunmuşdur. Azərbaycan dünya mədəniyyətinə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, böyük sərkərdə və şair Şah İsmayıl Xətai və digər dühalar bəxş etmişdir. Onların əsərləri dünya ədəbiyyatının inciləri sırasına daxildir.

Bakı şəhəri müntəzəm olaraq sanballı beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bunların sırasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, Dünya Dini Liderlərinin Forumunu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu qeyd etmək olar. 2008-ci ildən bizim təşəbbüsümüzlə həyata keçirilən “Bakı Prosesi” və onun məntiqi davamı olaraq təsis edilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal platforma kimi BMT Baş Assambleyasının qətnamələri ilə dəstəklənir. Gələn ay isə ölkəmizdə Dünya Dini Liderlərinin II Sammiti keçiriləcəkdir. 2015-ci ildə Azərbaycanda keçirilmiş birinci Avropa Oyunlarında, 2017-ci ildə ölkəmizdə təşkil olunmuş IV İslam




Həmrəyliyi Oyunlarında ümumilikdə Avropa və müsəlman dünyasını təmsil edən 104 ölkədən idmançılar iştirak etmişlər. Söz düşmüşkən, Azərbaycan komanda hesabında Avropa Oyunlarında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında isə birinci yeri tutmuşdur. İdman Azərbaycanın dövlət siyasətini təşkil edir. Rioda keçirilmiş son yay Olimpiya Oyunlarında ölkəmiz qazanılan medalların sayına görə dünyada 14-cü, Avropa ölkələri arasında 7-ci, müsəlman aləmində isə 1-ci yeri tutmuşdur. Onu da deyim ki, hər il Bakı şəhəri 500 milyon tamaşaçısı olan Formula 1 yarışlarına da ev sahibliyi edir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bizim tarixi abidələrimizlə yanaşı, gözəl təbiətimiz, mülayim iqlimimiz, zəngin mətbəximiz və ən əsası isə qonaqpərvər xalqımız var. Müasir infrastruktura malik Bakı şəhəri isə dünyanın ən gözəl və təhlükəsiz şəhərlərindən biridir. Ümid edirəm ki, nümayəndə heyətləri buradan ən xoş təəssüratlarla ayrılaraq Bakıya bir daha qayıtmaq istəyəcəklər. İnanıram ki, Bakı haqqında qəlbinizdə daim xoş xatirələr qalacaqdır.

Sağ olun.

***

Rəsmi ziyafət konsert proqramı ilə davam edib.

# Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib

**Bakı Dövlət Universiteti - 100**

Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

– Hörmətli xanımlar və cənablar.

Hörmətli müəllimlər, tələbələr.

Mən sizi və bütün Azərbaycan xalqını Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Universitetin bütün kollektivinə yeni uğurlar arzulayıram.

Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmişdir. Bu qərar bir daha onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişdir. Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki, savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil. Baxmayaraq ki, gənc respublika böyük çətinliklərlə üzləşmişdi və ölkə ərazisinə tam nəzarət edə bilmirdi, bu qərar bir daha respublikanın niyyətini, qurucuların siyasətini əks etdirir. Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Bu, bir daha onu göstərir ki, müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha asandır. Müstəqilliyi qorumaq, onu müdafiə etmək, onu gücləndirmək böyük siyasi biliklər, böyük cəsarət tələb edir.

Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirirdi. Yüz il ərzində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirmişdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxmışdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini vermişdir.

Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi. O vaxt, – gənclər təbii ki, bunu bilmirlər, – respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici "Qırmızı bayraq" var idi. Yəni, "Qırmızı bayraq" ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax, Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu "Qırmızı bayrağı" alırdı. Bu, bir daha onu təsdiq edirdi ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda biz ən sonuncu yerlərdə idik. O, Azərbaycanı böyük inkişafa doğru apararaq ən qabaqcıl yerlərə qədər ucaltdı. Əgər sovet dövründə cəmi iki respublika var idi ki, onlar donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi.

Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət göstərirdi, hər il böyük müşavirələr keçirirdi. Eyni zamanda, Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərmişdi və bu, unikal xarakter daşıyırdı. Çünki sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda im-




tahanlar verməklə Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərindəki aparıcı ali məktəblərinə ezam edilmişdir. Beləliklə, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialı yaradılırdı. Məhz bu kadr potensialı, o cümlədən bu gün ölkəmizin, müstəqil dövlətin uğurlu inkişafını təmin edir. Həmçinin o illərdə yüksək təhsil almış kadrlar bu gün Azərbaycanı ləyaqətlə təmsil edirlər.

Heydər Əliyevin qərarı ilə 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Bu da Ulu Öndərin uzaqgörənliyini göstərir. Çünki o vaxt azərbaycanlılar sovet ordusunda az təmsil olunurdu. Heydər Əliyev çox istəyirdi ki, Azərbaycan hərbçiləri yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqil dövlət olacaq və bu kadrlar bizə lazım olacaq.

Bir sözlə, təhsilə, bütün başqa sahələrə göstərilən diqqət, onun fədakar əməyi və Azərbaycan xalqının müdrikliyi imkan verdi ki, Heydər Əliyev Azərbaycanın ən ağır günlərində öz xilaskarlıq missiyasını icra etsin. Əgər 1970-ci illərdə onun gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, – 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı, - Azərbaycan xalqı ona müraciət etməzdi. Məhz o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində ona inam hissini saxlayırdı.

Ölkəmizin müstəqilliyə qədərki dövründə də, müstəqillik dövründə də Heydər Əliyev daim xalqın yanında idi və xalqa xidmət etmək onun başlıca missiyası idi. 20 Yanvar faciəsindən sonra o, səsini ucaltdı, Moskvadakı daimi nümayəndəliyə gəlib, orada mətbuat konfransı keçirib, sovet rəhbərliyini, Kommunist Partiyasının rəhbərliyini ittiham etmişdir, bu qanlı faciəni pisləmişdir və bütün dünyaya bu həqiqəti çatdırmışdır. Çünki onun böyük nüfuzu var idi və onun dilindən səslənən sözlər, həqiqətlər dünyanın bütün yerlərində əks-səda vermişdi. Halbuki o vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq. O cəsarətli addım Heydər Əliyevin xalqa nə qədər bağlı olduğunu göstərir.

Ondan sonra uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi. O da böyük təhlükə



idi. Onu da bildirməliyəm ki, 20 Yanvar faciəsindən sonra Azərbaycan rəhbərliyində təmsil olunanlar susmuşdular, ağızlarına su alıb susmuşdular, biri də bu qanlı faciəni qınamadı, biri də öz səsini ucaltmadı. Bu, bir daha göstərdi ki, ovaxtkı rəhbərlik antimilli rəhbərlik idi. O hakimiyyəti əvəzləyən, qanunsuz yollarla hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü bir ildən çox hakimiyyətdə idi. Bir il ərzində 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət vermədi. Hakimiyyət onların əlində idi. Nə üçün bunu etmədilər? Nə üçün xalqımızın bu faciəsinə, bu yarasına biganə qalmışdılar? Bu, həqiqətdir. 20 Yanvar faciəsinə, Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətə məhz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra siyasi-hüquqi qiymət vermişdir və bu, tarixdir. Bu, bir daha Ulu Öndərin xalqa nə qədər bağlı olduğunu göstərir.

Müstəqilliyə gedən yol da Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun qərarı ilə Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsis olundu və buna oxşar digər qərarlar qəbul edildi. O vaxt Sovet İttifaqının saxlanmasına dair referendum keçirilmişdir və Azərbaycan üzrə referendum saxtalaşdırılmışdır. Guya ki, Azərbaycan əhalisi Sovet İttifaqının saxlanmasına səs vermişdir. Halbuki bu, belə deyildi. Naxçıvanda referendum keçirilmədi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarıldı. Bu da müstəqilliyə aparan yol idi. Azərbaycanda siyasi sistemi formalaşdıran Yeni Azərbaycan Partiyası təsis edildi. Çünki partiya yaranana qədər Azərbaycanda siyasi sistem, partiyalar yox idi. Ayrı–ayrı silahlı dəstələr öz adlarını partiya qoymuşdular və bir-biri ilə mübarizə aparırdılar, torpaqlar isə işğal altına düşürdü. Əgər Heydər Əliyev müstəqilliyin ilk illərindən Azərbaycanda rəhbər olsaydı, heç vaxt torpağımız işğal altına düşməzdi. Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə tərk etmiş, qaçmışlar, ikisi Moskvaya, biri Kələkiyə. Bu, fərarilikdir, bu, satqınlıqdır, bu, xəyanətdir. Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz

üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidirlər. Mən dəfələrlə bunu demişəm. Biz – bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əli silahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti – özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin. Azərbaycan heç vaxt gözü kölgəli olmasın, heç vaxt başqasının iradəsindən asılı olmasın, heç vaxt başqa dövlətlər qarşısında baş əyməsin. AXC-Müsavat cütlüyü dövründə prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar, ona göstərişlər verirdilər. O da məzlum bir adam kimi o göstərişləri yerinə yetirirdi. Ona görə belə günə düşdü. Məgər bizi bizdən çox sevən, istəyən varmı? Bu gün bəzi hallarda bəzi xarici dairələrdən eşidirik ki, biz Azərbaycana kömək etmək istəyirik, biz Azərbaycanı belə inkişaf etmiş ölkə kimi görmək istəyirik. Hamısı yalandır. Mən tam səmimiyyətlə deyirəm. Bizim ən ağır günlərimizdə xəzinə boş idi, Xalq Cəbhəsi-Müsavat cütlüyü talamışdı, ləl-cavahirat fondunu talamışdı. İnsanlar öz axırıncı qızıl əşyalarını aparırdılar ki, ordumuza kömək etsinlər. O vaxt prezident, dövlət katibi, baş nazir o ləl-cavahirat fondunu talan etmişlər. İndi onun izi-tozu da qalmayıb. O vaxt xəzinə boş olanda, biz kreditlər üçün müraciət edəndə heç kim bizə kredit vermirdi. Yaxşı, əgər siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik. İndi istənilən məbləğdə – bax, sabah 10 milyard dollar lazım olsa, alarıq. Almırıq, qoymuram. Borcu yenə də endirirəm. Ona görə kimsə deyəndə ki, biz Azərbaycanın yaxşılığını istəyirik, inanmayın, gənclər də inanmasınlar. Bizdən çox bizi istəyən heç vaxt olmayıb və olmayacaq.

Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlərboyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur? O vaxt hətta müstəqil dövlətlər olanda onların da imkanları məhdud idi. Elə götürək Azərbaycan Xalq Cümhuriyyətini, ölkəni idarə edə bilmirdi. Xarici hərbi missiyaların rəhbərləri qərarlar qəbul edirdilər. Hətta bizim o vaxt qəbul edilmiş birinci dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirildi. Ultimatum qoyuldu, tarixçilər bunu yaxşı bilirlər. Müstəqil dövlətin rəhbərliyinə ultimatum qoyuldu ki, siz bu bayrağı dəyişdirməlisiniz və dəyişdirdilər. Ondan sonra indiki üçrəngli bayraq təsis edildi. Ona görə hətta o dövrlərdə müstəqillik yarımçıq idi, natamam idi.

Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir. Əhalinin mütləq əksəriyyəti bizə alternativ görmür və kim ola bilər bu alternativ? Hətta havadarları artıq onlardan üz döndərmişlər. Biz bunu dəqiq bilirik. Mən indi bu auditoriyada bəzi operativ məlumatları da bölüşə bilərəm sizinlə, Azərbaycan xalqı ilə. İndi anti-Azərbaycan dairələr, xaricdəki dairələr artıq açıq deyirlər ki, bizdə ənənəvi müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr var ki, onların da kitabı bağlanıb, onlara ümid bəsləmək olmaz. Ona görə onlara pul təminatı da azalıbdır, ona görə çabalayırlar. Əsas hədəf gənclər olmalıdır. Onlar gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbi qurumları tərəfindən maliyyələşən qu-

rumlar bu boşluqlardan istifadə edirlər, xüsusilə bu gün ki, azad internet mövcuddur. Azərbaycanda internet istifadəçilərinin faiz nisbəti 80-ni keçib. Azərbaycanda azad, demokratik cəmiyyət formalaşıb, azad media var. Ona görə istənilən yalanı ortalığa atmaq olar. Ondan sonra bu yalan ətrafında müzakirələr təşkil olunur, bu yalan artıq bir real fakt kimi təqdim edilir və gənclərin beyinlərini zəhərləmək istəyirlər. Biz buna imkan verə bilmərik. Gənclər özləri də bilməlidirlər, tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Bir daha demək istəyirəm ki, bizim müstəqillik dövrlərimiz Azərbaycan xalqının tarixində çox məhduddur. Məhz ona görə ki, aldanmışıq, əzilmişik. Buna imkan vermək olmaz və verməyəcəyik, biz möhkəm dayanmışıq. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy, ləkələsinlər, qoy, yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, Vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək.

Bu gün Azərbaycan bax, belə inkişaf edir. Ona görə dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər. Necə ki, 8 il bundan əvvəl səs veriblər, biz 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də necə seçilmişik. İndi diplomatlar bunu yaxşı bilirlər ki, adətən səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi. Üç gün, 16 tur. Nəyə görə? Çünki bizə rəqib olan ölkə öz namizədliyini geri götürmürdü. Biz hər bir turda böyük səs fərqi ilə qalib idik, amma lazım olan səsləri yığa bilmirdik. Adətən belə olan halda, səslərdə fərq böyük olanda məğlub ölkə öz namizədliyini geri götürür. O isə götürmürdü. Özü də bizə dost ölkə idi. Təəccüb etdim, bu, nə məsələdir, sonra öyrəndik ki, imkan vermirlər. Bəzi böyük dövlətlər imkan vermir və istəyirdilər ki, bizim üzvlüyümüzün qarşısı alınsın. Bir daha qayıdıram bu məsələyə. Əgər həmin o ölkələrin nümayəndələri sizə desələr ki, "biz Azərbaycanı istəyirik, inkişafını istəyirik", inanmayın. İstəsəydilər, imkan verərdilər. Mən indi onların adını çəkmək istəmirəm, maraqlananlar öyrənə bilərlər. On altı tur və üç gün bizim üzvlüyümüzü əngəlləmək istəyirdilər. Sonra nə oldu? Gəldilər bizim nümayəndələrə yaxınlaşıb dedilər ki, Azərbaycan, öz namizədliyinizi geri götürün. Gələn il biz sizə kömək edərik, amma indi geri götürün. Mən bu üç gün ərzində Nyu-Yorkla birbaşa əlaqədə idim. Dedim ki, qətiyyən, axıra qədər, lap bir il çəksə, biz orada bu səsvermədə iştirak edəcəyik. Bir il çəksə, biz Təhlükəsizlik Şurasının işini iflic vəziyyətə sala bilərik. Ancaq ondan sonra həmin o rəqib ölkəyə göstəriş verildi, o, namizədliyini geri götürdü. Bu, nəyin bahasına oldu? Çünki əksər ölkələr bu sistemdən beziblər, yorulublar. Bizə səs verənlər də vaxtilə bizim kimi müstəmləkə olublar, əziliblər, soyulublar, talan ediliblər. Daha artıq onların da səbri tükənib.

Bu yaxınlarda biz 120 ölkənin qərarı ilə Qoşulmama Hərəkatına sədrlik etməyə başladıq. Mən sizə deyim və Bakıda keçirilmiş Zirvə Görüşü onu bir daha göstərdi, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri – 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üz qalsaq belə. Bu müddət ərzində belə təxribatlar az olmayıb. 2003-cü ili xatırlayaq. Prezident seçkilərindən sonra Azərbaycanda çevriliş cəhdi. Heç kimə sirr deyil ki, mən prezident seçkilərində təmiz qələbə qazanmışdım. Çünki insanlar Heydər Əliyev siyasətinə səs vermişdilər. İğtişaş törədildi. 2005-ci il. Azərbaycan artıq o inqilabların sırasında növbəti yer kimi göstərilirdi. Belə maykalar buraxılmışdı, üzərində yazılmışdı: "Gürcüstan, Ukrayna, Qırğızıstan, Azərbaycan". Yəni, dördüncü biz olmalı idik və bizdən sonra da başqaları olmalı idi. Biz dayandırdıq bu vəbanı, bu xəstəliyi, bu azarı. İndi bütün dünya görür ki, bu inqilablar o ölkələrə ancaq bədbəxtlik gətirib və indi öz problemləri ilə üz-üzədirlər, orada iğtişaşlar səngimir. Çünki oralara bu zəhərli inqilab toxumu səpilmişdi. Necə ki, bu zəhərli alaq otu kimi Xalq Cəbhəsi-Müsavat cütlüyü hakimiyyətdə bir il qaldı. O qədər zəhərlədilər ki, bu günə qədər də o zəhərin təsiri bəzi yerlərdə qalır. Ona görə növbəti məntəqə biz olmalı idik və narıncı maykaları da gətizdirmişdilər, sadəcə olaraq, özünü müxalifət adlandıran ünsürlər bir daha öz kütlüyünü göstərmişlər. Fikirləşmədilər ki, noyabr ayında parlament seçkiləri keçirilməli idi, noyabr ayı soyuq keçir. Ona görə o maykaları bilmirlər necə geyinsinlər, bəziləri pencəyin üstündən maykalar geymişdilər. Yəni, çox gülməli bir mənzərə idi. O da alınmadı. Nəyə görə?! Xalq istəmədi! Xalq dedi ki, yox, bəsdir, görmüşük sizi, necə ki, hakimiyyət uğrunda mübarizə

naminə talamısınız, döymüsünüz, söymüsünüz, öldürmüsünüz, Gəncəni bombalamısınız, vətəndaş müharibəsini başlamısınız, Qarabağı satmısınız, Şuşanı satmısınız, Laçını satmısınız. Sonra da fərari kimi qaçmısınız, prezident Kələkiyə, dövlət katibi Kələkiyə, o birilər isə vəzifələrini dondurdular. Belə də hakimiyyət olar? Belə də qorxaq adamlar olar? Heç adi adam hansı ki, özünü lider hesab etmir, özünə rəva bilməz ki, belə, bu cür biabır olsun. Amma bunların belə utanan üzü yoxdur. Bu yaxınlarda yenə də o mənzərəni hamımız görmüşük, biabırçılıqdır, xəstədilər, dəlidirlər, nədirlər, vallah deməyə söz tapmıram. Ona görə bu gün müxalifət düşərgəsində boşluq yaranıbdır və bizi istəməyənlər gənclərdən istifadə etmək istəyirlər ki, onları xalqın üstünə qaldırsınlar. Sağlam müxalifət yaradılmalıdır. Dövlətçiliyə sadiq olan, xalqa bağlı olan, doğrudan da təklif verən, hakimiyyəti tənqid edən, amma konstruktiv təklif verən, yol göstərən. Ancaq biz sevinərik əgər belə müxalifət yaranarsa. Doğrudan da bizim işimizə kömək olar. Biz hər şeyi indi öz üzərimizə götürmüşük, bəlkə də hansısa alternativ yanaşma, yaxud da ki, mövqe kömək edə bilər. Amma yoxdur və yaxın üfüqlərdə də görünmür.

Bizim xarici siyasətlə bağlı uğurlarımız təkcə bu sədrliklə məhdudlaşmır. Halbuki bu, çox önəmli məsələdir. Oktyabr-noyabr aylarında - cəmi iki ay ərzində görün nə qədər böyük hadisələr baş verdi. Prezident Putinin dəvəti ilə mən "Valday" Diskussiya Klubunda iştirak etdim. Oraya cəmi 3 dövlət başçısı dəvət olunmuşdu, o cümlədən Azərbaycan. Bu, bir daha göstərir ki, Rusiya və onun Prezidenti Azərbaycana nə qədər böyük önəm verir və bizə böyük hörmət göstərir. Orada da canlı efirdə sözümü dedim. Mən bunu Bakıda da, hansısa rayonda da deyə bilərdim. Onu kim eşidəcəkdi? Bizimkilər, yəni, biz bunu özümüz üçün demirik, biz deyirik ki, dünya bilsin və orada canlı efirdə mən dedim: "Qarabağ Azərbaycandır, nida işarəsi". Bir daha bütün dünya gördü ki, Qarabağ Azərbaycanındır, bir daha bütün dünya bu həqiqəti gördü.

Ondan sonra MDB Zirvə Görüşündə, – o, "Valday"dan bir neçə gün sonra baş verdi, – mən qeyd etdim ki, biz Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin ərəfəsindəyik. Biz imkan verə bilmərik ki, MDB məkanında faşistlərə abidələr ucaldılsın. Dedim ki, Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir. Dedim ki, o vaxt o, həbs olunmuşdur və həbsxanada da çürümüşdür. Onu da bildirmək istəyirəm ki, həbs edən təşkilatın adı "СМЕРШ" idi. Bilməyənlər bilsinlər ki, bu, abreviaturadır, bunun adı "Смерть Шпионам", "СмерШ", yəni, "Casuslara ölüm". Yəni, casus kimi həbs olundu, ona 25 il cəza verildi, faktiki olaraq, ölüm cəzası və o, Vladimir türməsində dünyadan getdi. İndi, görün, Ermənistanın baş nazirinin cavabı nə oldu? Dedi ki, Soljenitsın da lagerdə olub, dissidentlər də türmədə olub. Yəni, bu adam Soljenitsını və söz azadlığına görə həbs edilən və sonra reabilitasiya olunan digər adamları faşist Njde ilə eyniləşdirir. Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir. Mən onlara şans verdim. Öz çıxışımda dedim ki, onu əvvəlki hakimiyyət ucaldıb. İndiki hakimiyyət özünü demokratik adlandırırsa, söksün, yıxsın bu abidəni. Bu ləkəni yusun Ermənistan üzündən. Heç olmasa, onlar bir ləkədən canlarını qurtarsınlar. Yox, görün, bunların faşist mahiyyəti hara gedib çıxıb ki, bu, türklərə qarşı vuruşub. Yəni, onlar üçün əsas budur. Onlar uşaqları da belə yetişdirirlər, bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrət ab-havasında.

Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə İslam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Ona görə bizim bu istiqamətdə siyasətimiz davam etdiriləcək. Amma məsələ bununla bitmir. Ermənistanın baş naziri Aşqabad Zirvə Görüşündə böyük səhv buraxdı, Soljenitsınla faşisti eyniləşdirdi. Amma heç olmasa, ondan sonra bir nəticə çıxaraydı. Çünki həm mətbuatda, özü də Rusiya mətbuatında, başqa mətbuatda bunu lağa qoydular ki, bu, nə deyir, nə danışır, bu, nədir? Ondan sonra, görün, nə deyir? Rusiya jurnalistləri ilə görüşdə deyir ki, nə olsun ki, Njde Hitlerlə görüşüb, Molotov da Hitlerlə görüşüb. Bax, bilirsiniz, buna daha şərh vermək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub, 1939-cu ildə müharibənin mümkünlüyünü aradan qaldırmaq üçün gedibdir, görüşübdür. O, Hitlerə xidmət etmirdi. O, Hitlerə qarşı koalisiyanın başında duran Sovet İttifaqının aparıcı simalarından biri idi. Onu Njde ilə eyniləşdirmək olar?! Mən, eyni zamanda, bu misalları ona görə gətirirəm ki, gənclər yaxşı

oxusunlar, gələcəkdə belə gülünc vəziyyətə düşməsinlər, tarixi yaxşı bilsinlər. Amma bunu deyən bu gün o ölkənin rəhbəridir. Yəni, onlardan nə gözləmək olar? Bu sual ritorik sualdır.

Elə bu iki ay ərzində bizim xarici siyasətlə bağlı digər önəmli hadisələr də baş vermişdir. Biz oktyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərimizə götürdük və Zirvə Görüşünü Bakıda keçirdik. Qoşulmama Hərəkatının sədrliyini öz üzərimizə götürmüşük. Üç il ərzində biz bu təşkilata sədrlik edəcəyik. Bu, BMT-dən sonra dünyada ikinci təşkilatdır və əslində, birinci təşkilatdır. Çünki BMT indi elə vəziyyətdədir ki, onu islah etmək istəyənlərin sayı gündən-günə artır, bu, bir. İkincisi, BMT-nin rəhbəri yoxdur. Heç bir ölkə BMT-yə rəhbərlik etmir. Təhlükəsizlik Şurasına da sıra ilə rəhbərlik olunur. Biz də, o cümlədən rəhbərlik etmişik. Bu rəhbərlik müddətlidir. Biz isə dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik və indi bizim sözümüz keçəcəkdir. Gündəliyi biz formalaşdırırıq, məsələləri biz müzakirəyə çıxaracağıq. Əlbəttə ki, öz məsələmizi və əzilmiş, ədalətsizliyə düçar olmuş ölkələrin məsələlərini qaldıracağıq, onları müdafiə edəcəyik.

Noyabr ayında Bakıda Dünya dini liderlərinin II Zirvə Görüşü keçirilmişdir, 70 ölkənin dini liderləri Bakıya gəlmişlər. Dünyada buna bənzər ikinci yığıncaq yoxdur. Mən iclaslarda bir-birinin yanında oturanlara fikir verirdim, əgər onlar başqa yerdə görüşsəydilər, bəlkə başqa cür danışardılar. Amma oturublar, bir-birini dinləyirlər, bir-birinə salam verirlər. Biz bunu istəyirik. Çünki dünya başqa istiqamətdə gedir. Deyirlər ki, multikulturalizm ölübdür, yoxdur. Müsəlman miqrantlarını qəfəsdə saxlayırlar, “Stop İslam” deyirlər demokratiya beşikləri. Deyirlər ki, biz miqrantları qəbul edə bilərik, – mən Avropa ölkələrini nəzərdə tuturam, – ancaq müsəlman miqrantları yox. Deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma biz göstəririk ki, yox, elə deyil. Bu, siyasi iradədən, baxışlardan asılıdır, sən nə istəyirsən, hansı siyasət yürüdürsən. Bax, biz bu siyasəti yürüdürük. Bu siyasət yeganə düzgün siyasətdir. Əks təqdirdə, gələcək müharibələr, o cümlədən ola bilsin, dini müharibələr qaçılmazdır. Ona görə, bax, dini liderlərin Zirvə Görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik.

O ki qaldı, daxili məsələlərə, onlar da öz həllini tapır. Azərbaycan iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq. Mən göstəriş vermişəm təqribən 10 faizə qədər, indi ümumi daxili məhsulun 17 faizini təşkil edir, 10 faizinə qədər getməlidir. Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır. Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır.

İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə də etməliyik.

Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol vermək olmaz. Mən bir neçə dəfə bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var getməlidir, qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan verməyəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi – bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən “ağsaqqal”,

"ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir.

O ki qaldı, müəllimlərin fəaliyyətinə, mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm. Müəllim peşəsi çox şərəfəli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var. Daim müəllimlər yeniliklərə baxsınlar, onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda, müəllimlər də daim öz üzərlərində işləməlidirlər.

Mən də müəllim olmuşam. İnstitutu bitirəndə mən bir xarici ölkəyə təyinat aldım, ancaq ondan imtina etdim, xaricə getmək istəmədim. Qaldım institutda, aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim və 23 yaşımda dərs verməyə başlamışdım, özü də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, 23 yaşında, 5 il ərzində. Ona görə müəllim peşəsi mənim üçün yad peşə deyil. Mən də müəllim olmuşam, müəllim kimi sizi salamlayıram.

Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil. Sovet vaxtında belə bir söz var idi: "tapş", o, instituta "tapşla" daxil oldu. Əvvəllər sovet dövründə əsas məqsəd diplom almaq idi. Evlənmək üçün, yəni, elçiliyə getmək üçün diplomu var, yoxsa yox? Hə varsa, onda markası artır. Diplom heç nədir, bilin. Əgər bilik olmasa, savad olmasa müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad – onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir – bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin.

Biz 1920-ci ildən müstəqilliyi əldən verdik. Bunun obyektiv və subyektiv səbəbləri vardır. Ancaq bu, reallıqdır, indi hansı səbəbi istəyirsən gətir, xeyri yoxdur, getdi əldən müstəqillik. Nəyə görə gücümüz çatmadı? Onun da müxtəlif səbəbləri var, amma fakt odur ki, çatmadı. Ona görə bu acı tarix daim bizim gözümüzün önündə olmalıdır.

Müstəqillik 1993-cü ildə də əldən gedirdi, əgər Heydər Əliyev gəlməsəydi. O, müstəqilliyi qorudu, saxladı, gücləndirdi, bizi düz yola gətirdi. Biz də onun yolu ilə gedirik, müstəqilliyi möhkəmləndiririk və möhkəmləndirəcəyik.

Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir. Bir daha sizi təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

***

Sonra universitetin rektoru Elçin Babayev, universitetin professoru, hüquq elmləri doktoru Firuzə Abbasova çıxış etdilər.

Bakı Dövlət Universitetinin məşhur 60 aliminə həsr olunmuş "İthaf" kompozisiyası təqdim edildi.

Universitetin Jurnalistika fakültəsinin ikinci kurs tələbəsi Rəşad İmanov çıxış etdi

Daha sonra universitetin loqotipinin və 16 fakültəsi üzrə elm sahəsini əhatə edən "Tələbənin yolu" qrafik-rəqəmsal təqdimatı oldu.

Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunan mərasim bu qocaman təhsil ocağının himninin ifası və müxtəlif ölkələrdən gəlmiş ali məktəb nümayəndələrinin təbrikləri ilə yekunlaşdı.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**Prezident İlham Əliyev: Müasir, müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.**



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.




Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.

***

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq heç də hər kəsə nəsib olmur. Xalq yalnız sevdiyi insanları yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman

onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", – deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", – deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin mənafeyini praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Odur ki, Azərbaycan müstəqil siyasət yürütmə prinsiplərinin bərqərar olduğu güc mərkəzinə çevrilib. Dünya birliyində hörmət və ehtiram ünvanına çevrilən ölkəmiz beynəlxalq aləmdə dostluq, tərəfdaşlıq və qardaşlığın mühüm nümunəsi kimi tanınır və sözün əsl mənasında, tam müstəqil ölkəyə çevrilib. Dahilik intellektin fövqəladə böyüklüyüdür. Heydər Əliyev isə özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr etdi. Ona görə də müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.

Əziz həmvətənlər.

# Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik edib

*İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki*



2019-cu il arxada qalır. Bu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz inkişaf yolu ilə uğurla gedib.

2019-cu ildə ölkəmiz sabitlik, əmin-amanlıq şəraitində yaşamışdır. Dünyada gedən proseslər göz qabağındadır. Dünyanın müxtəlif yerlərində, bizim yerləşdiyimiz regionda, postsovet məkanında, Avropada, Asiyada, Latın Amerikasında münaqişələr, müharibələr, qanlı toqquşmalar, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının tapdalanması geniş vüsət almışdır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf məkanıdır. Bu, bizim böyük nailiyyətimizdir. Azərbaycan xalqı 2019-cu ildə təhlükəsizlik şəraitində yaşamış, qurmuş, yaratmışdır.

Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. İl ərzində 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana səfər etmişdir. Bizim ikitərəfli əlaqələrimiz böyük dərəcədə genişlənmişdir, çoxtərəfli formatda uğurla əməkdaşlıq edirik, ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Onların arasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşünü qeyd etməliyəm. Zirvə Görüşü nəticəsində Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməyə başlamışdır. Qoşulmama Hərəkatının Zirvə Görüşü Azərbaycanda keçirilmişdir və 120 ölkənin yekdil qərarı ilə Azərbaycan bu böyük təsisata 3 il ərzində sədrlik edəcəkdir. Bu, bizə göstərilən böyük etimaddır. Bu, onu göstərir ki, dünya birliyinin böyük əksəriyyəti Azərbaycanı dəstəkləyir və bizə böyük hörmətlə yanaşır.

Bu il Bakıda Dünya dini liderlərinin Zirvə görüşü keçirilmişdir, 70 ölkədən gəlmiş dini liderlər Azərbaycanda gedən proseslərə çox müsbət qiymət vermişlər. Azərbaycan multikultural, öz ənənələrinə, milli, dini dəyərlərinə sadiq ölkə kimi özünü bu Zirvə görüşündə təqdim etdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün aparıcı beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər, öz mövqeyini ortaya qoymuşlar. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir, orada açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına böyük dəstək ifadə edilmişdir. Beləliklə, həm tarixi baxımdan, həm beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səslənirdi. Gah deyirdilər ki, qondarma "Dağlıq Qarabağ respublikası" müstəqil dövlətdir və Azərbaycan bu dırnaqarası müstəqil dövlətlə danışıqlar aparmalıdır. Bu, yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində

danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır. Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Əminəm ki, bizim ardıcıl, düşünülmüş siyasət münaqişənin həllinə gətirib çıxaracaq. İqtisadi gücümüz, hərbi gücümüz, siyasi gücümüz, demoqrafik artım - bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əminəm, gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə bu il böyük addımlar atılmışdır.

2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları, iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırmışdır. Bu il iqtisadiyyat artmışdır, iqtisadiyyatın qeyri-neft sektoru 3 faizdən çox artmışdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu da dünya miqyasında 9-cu göstəricidir və bundan sonrakı illərdə xarici borcumuz daha da aşağı düşəcək. Bizim valyuta ehtiyatlarımız bu il 4,5 milyard dollar artmışdır və rekord həddə – 50 milyard dollara çatmışdır. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, bu, ölkəmizin iqtisadi və maliyyə imkanlarının dayanıqlılığını ifadə edir. Sənaye istehsalı artmışdır, xüsusilə qeyri-neft sektorunda sənaye artımı 14 faiz təşkil etmişdir. Kənd təsərrüfatında 7 faiz artım vardır. Yəni, bütün əsas istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafı reallıqdır.

Biz Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında donor ölkəyə çevrildik. Biz indi borc alan yox, borc verən ölkəyik. Bütün bunlar düşünülmüş siyasətin təzahürüdür. Bütün bu uğurlu nailiyyətlər imkan verir ki, biz sosial sahəyə daha böyük həcmdə vəsait ayıraq və bunu etdik. Bu il də bu baxımdan çox yaddaqalan il olmuşdur. Çox geniş, hərtərəfli sosial paket təqdim edildi və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etdi. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 100 faiz, yəni, 2 dəfə artmışdır. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz artmışdır. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz bu gün MDB məkanında birinci yerdəyik. Bizim sosial siyasətimiz bir daha onu göstərir və mən dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əminəm ki, gələcək illərdə iqtisadi imkanlarımız genişləndikcə sosial sahəyə bundan da böyük diqqət göstəriləcək.

Şəffaflıq baxımından bu il çox uğurlu il olmuşdur. Vergi və gömrük orqanları xəzinəyə plandan əlavə 1 milyard manatdan çox vəsait daxil etmişlər və əlbəttə, bu, imkan verir ki, – əminəm, bu meyil gələn il də müşahidə olunacaq, – biz daha geniş miqyasda sosial və infrastruktur layihələri icra edək.

Məcburi köçkünlərin problemləri həll olunur. Bu il 5 mindən çox məcburi köçkün ailəsi, 800-ə yaxın şəhid ailəsi üçün yeni mənzillər, evlər tikilmişdir. Zəlzələdən əziyyət çəkmiş Şamaxı, İsmayıllı, Ağsu rayonlarının sakinləri üçün minlərlə ev tikilmişdir. Bu böyük zəlzələnin fəsadlarının mütləq əksəriyyəti cəmi 10 ay ərzində aradan qaldırıldı. Bu da unikal məsələdir, çünki bu, bizim niyyətimizi, gücümüzü göstərir. Azərbaycan dövləti və rəhbərlik bir daha göstərdi ki, hər zaman vətəndaşların yanındadır.

Bu il TANAP layihəsi istismara verildi, bu, tarixi layihədir. TANAP artıq Avropa İttifaqı sərhədinə çatdırıldı. Biz bu tarixi hadisəni bu ilin noyabr ayında böyük təntənə ilə qeyd etmişik. TANAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Cənub Qaz Dəhlizi 4 layihədən ibarətdir və onlardan 3-ü – “Şahdəniz-2”, Cənubi Qafqaz Qaz Kəməri və TANAP artıq reallığa çevrildi. Dördüncü layihə – TAP, o da artıq uğurla icra edilir və bu layihənin icra səviyyəsi 90 faizi ötübdür. Biz Avropanın, Avrasiyanın energetika və nəqliyyat xəritəsini yenidən cızırıq. Biz bu layihənin təşəbbüskarı olmuşuq. Biz əsas yükü – həm maliyyə, həm texniki məsuliyyəti öz üzərimizə götürmüşük və tərəfdaşlarla birlikdə bu nəhəng və böyük əhəmiyyət kəsb edən layihəni uğurla icra edirik.

Bu il turizm sahəsində rekord il olmuşdur. Bizim apardığımız siyasət, ölkəmizin inkişafı, ölkəmizdə hökm sürən təhlükəsizlik, əmin-amanlıq, Azərbaycanda keçirdiyimiz böyük mötəbər tədbirlərin nəticəsində bu il tarixdə ilk dəfə olaraq 3 milyondan artıq turist Azərbaycana səfər etmişdir.

Bu il 10 milyonuncu vətəndaş dünyaya gəldi. Bu da böyük tarixi hadisədir. Müstəqillik dövründə bizim əhalimiz 3 milyondan çox artmışdır. Bu, bizim həm gücümüzü, həm də məsuliyyətimizi artırır. Çünki artan əhali böyük üstünlükdür, eyni zamanda, iqtisadi artım artan əhalini daim qabaqlamalıdır. Artan əhali o deməkdir ki, yeni məktəblər, yeni uşaq bağçaları, yeni xəstəxanalar tikilməlidir, yeni iş yerləri yaradılmalıdır. Beləliklə, Azərbaycanın əhalisi artdıqca gücü də artır. Bu il dünyaya gələn gözəl Mehriban balamız bizim hamımızı sevindirdi. Allah onu xoşbəxt eləsin, Allah bütün uşaqlarımızı xoşbəxt eləsin, Allah bütün balalarımızı qorusun.

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara öz səmimi salamlarımı çatdırıram. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb.

Əziz həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



Dekabrın 10-da Baş Prokurorluqda Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, prokurorluq əməkdaşları, görkəmli dövlət xadimi Heydər Əliyevin anım mərasimini keçirməklə onun zəngin irsinə, nəsillərə örnək olan həyat yoluna nəzər salaraq əziz və unudulmaz xatirəsini hörmətlə yad edir, gördüyü möhtəşəm işlərin əhəmiyyətini minnətdarlıq hissi ilə dərk edirlər.



Bildirilmişdir ki, dahi şəxsiyyətin parlaq dühası onu dünya siyasətinin nəhəng şəxsiyyətlərindən birinə çevirmişdir. “Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi və mədəni inkişafına xidmət olmuşdur” - deyən dahi rəhbər 30 ildən artıq bir müddətdə - istər sovetlər dövründə, istərsə də müstəqillik illərində qüdrəti və dərin zəkası, müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxarmışdır. Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi kimi qiymətləndirilən bu dövrdə ulu öndərimiz tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmışdır.

Vurğulanmışdır ki, məhz ulu öndərin rəhbərliyi dövründə onun qətiyyətli addımları sayəsində məhkəmə-hüquq sistemində mütərəqqi islahatların həyata keçirilməsinə başlanılmış, qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Respublikada əfvetmə institutunun bərpası, ölüm hökmü üzərində moratoriumun qoyulması və 1998-ci ildə birdəfəlik ləğv olunması, İnsan hüquqları üzrə Müvəkkil İnstitutunun yaradılması, hüquq mühafizə orqanlarında dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılması gerçəkliyə çevrilmişdir.

Mərasim iştirakçılarının nəzərinə çatdırılmışdır ki, Azərbaycan dövlətinin memarı və qurucusu,

ümummilli liderin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmuş, bu unudulmaz hadisə prokurorluq orqanlarının fəaliyyətinə verilən yüksək qiymətin təcəssümü kimi dəyərləndirilmişdir. Azərbaycan Respublikası Prokurorluğunun çoxsaylı kollektivi ulu öndərin müdrik rəhbər kimi diqqət və qayğısını daim hiss etmiş, fəaliyyətinə verilən yüksək qiyməti səmimi minnətdarlıq duyğuları ilə qarşılamış, xalqımıza ləyaqətlə xidmət göstərmişdir.

Bildirilmişdir ki, Azərbaycan Respublikasının bütün dövlət təsisatları kimi prokurorluq orqanlarının idarəetmə sistemində statusuna uyğun layiqli yerini tutması Heydər Əliyevin dövlətçilik siyasəti və bu siyasəti yeni müstəvidə uğurla davam etdirən cənab Prezident İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində mümkün olmuşdur.

Ulu Öndər Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktiki fəaliyyətində həyata keçirən, mərkəzində Azərbaycan vətəndaşı, onun qayğı və maraqları dayanan sosialyönümlü dövlət siyasəti həyata keçirən Möhtərəm Prezidentimiz daim öz müdrik qərarları, bacarıqlı idarəçiliyi ilə xalqımızı ciddi sınaqlardan, iqtisadi risklərdən və onların yarada biləcəyi fəsadlardan xilas etmiş, ölkənin davamlı və dayanıqlı tərəqqisini təmin etmişdir. Ölkədə son dövrlərdə həyata keçirilən mütərəqqi islahatlar, idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm yeniliklər, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın və ictimai nəzarətin artırılması ilə bağlı qəbul olunan strateji əhəmiyyətə malik innovativ qərarlar bunun bariz nümunəsi olmaqla Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləyir.

Həmçinin vurğulanmışdır ki, bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ictimai-siyasi və sosial-iqtisadi sahələrdə, eləcə də məhkəmə-hüquq sistemində həyata keçirilən institusional qanunvercilik, struktur və kadr islahatlarının Azərbaycan xalqı tərəfindən tam dəstəklənməsi, vətəndaşlarımızın rifah halının günü-gündən yaxşılaşması və xalq-iqtidar birliyinin sarsılmazlığından narahat olan bir sıra antimilli qruplar və onların qeyri-adekvat liderlərinin ölkəmizdə ictimai-siyasi sabitliyi, əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısı qətiyyətlə alınmışdır və bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacaqdır.

Xüsusilə qeyd edilmişdir ki, ulu öndərin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyən etdiyi ideyaları reallaşdıran, məqsədlərinin əhəmiyyətinə və miqyasına görə alternativi olmayan Heydər Əliyev Fondu tərəfindən milli-mənəvi dəyərlərimizin qorunması, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verilməsi, Azərbaycanda müasir xeyriyyəçilik institutunun əsasını qoymuş Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı və əzmkar fəaliyyəti xalqımız tərəfindən Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir.

Anım mərasiminin iştirakçıları və Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun müəyyən etdiyi siyasi kursa və strateji inkişaf konsepsiyasına daim sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

Mərasimin sonunda ümummilli liderin əziz xatirəsinə həsr olunmuş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Əbədiyyət: Heydər Əliyev və dövlət quruculuğu" filmi nümayiş etdirilmişdir.

**Baş Prokurorluq**

# Hərbi Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



Dekabrın 11-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqın ümummilli lideri Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə bağlı anım mərasimi keçirilib.

Tədbir iştirakçıları, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yaradılmış "Heydər Əliyev guşəsi"ndə ulu öndər Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyub, dünya şöhrətli siyasətçi-böyük şəxsiyyətin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev ömrü boyu qəlbi vətən sevgisi ilə döyünən, milli-mənəvi dəyərlərə sıx bağlı olan, azadlığa, müstəqilliyə gedən yolumuzu nurlandıran, daim milləti ilə birlikdə olmaqla, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin şəraitdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin beynəlxalq aləmdə və Azərbaycan tarixində rolu, o cümlədən demokratik, hüquqi dövlət quruculuğu və ölkəmizin qüdrətlənməsi istiqamətində həyata keçirdiyi tədbirlər və gördüyü nəhəng işlər barədə ətraflı məlumat verib.

Dahi şəxsiyyətin zəngin və mənalı həyatı, çoxşaxəli fəaliyyəti və misilsiz xidmətlərindən bəhs etməklə, çıxışını davam etdirən Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, şərəfli və mənalı ömür yolunun 34 ilini ölkəmizin rəhbəri kimi dövlətimizin tərəqqisinə və xalqımızın rifahına həsr edən ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq



qazanmışdır. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ ulu öndərin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılmışdır. Bugünkü müstəqilliyimizin əldə olunması məhz həmin dövrdə ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial, iqtisadi, siyasi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanması istiqamətində istər açıq, istərsə də gizli şəraitdə gördüyü əhəmiyyətli işlər nəticəsində mümkün olmuşdur. Azərbaycanın müstəqilliyinin davamlılığı və suveren siyasət həyata keçirməsi, böyük insan Heydər Əliyev tərəfindən möhkəm təməl üzərində qurulmuş və uğurla davam etdirilmiş dövlətçilik ənənələrinin sayəsində təmin edilmişdir. Ulu öndər Heydər Əliyevin istefa verdiyi vaxtdan, yəni 1987-ci ilin oktyabr ayından 1993-cü ilin iyun ayında növbəti dəfə hakimiyyətə qayıdışınadək olan dövr ərzində ölkədə yaranmış özbaşınalığın, anarxiyanın, xaosun, hakimiyyət nümayəndələrinin xalq və dövlətin deyil, ayrı-ayrı şəxslərin maraqlarına xidmət etməsinin iqtisadiyyatımızın iflic vəziyyətə düşməsi, ictimai-siyasi sabitliyin pozulması, eləcə də tarixi torpaqlarımızın işğal olunması ilə nəticələndiyini, eyni zamanda vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdığını, yalnız ümummilli liderin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şey müsbətə doğru dəyişmişdir. Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdış ölkəmizin müstəqil dövlət kimi varlığını şərtləndirdi və bununla da vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alındı, respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirildi, separatçı meyillərə son qoyuldu, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görüldü.

Sonra dahi lider Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış müdrik siyasətini yeni müstəvidə və dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən nəhəng işlərdən, həyata keçirilən hərtərəfli islahatlardan, o cümlədən köklü struktur və kadr islahatlarından, dövlətimizin daha da qüdrətlənməsindən, xalqımızın rifahının davamlı olaraq yaxşılaşdırılmasından danışıldı. Dövlət başçısı cənab İlham Əliyevin yüksək erudisiyası, müdrik siyasəti, mükəmməl rəhbərliyi, qətiyyəti və yorulmaz fəaliyyəti sayəsində, eləcə də iqtidarla xalq arasında olan sıx bağlılığın nəticəsində ölkəmizdə ümumi daxili məhsul, bütövlükdə sənaye, o cümlədən mədən sənayesi və

qeyri-neft sektorunda sənaye istehsalı, kənd təsərrüfatı məhsulları və sairə istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda əhalinin pul gəlirləri, əməkhaqları, pensiyaları da dəfələrlə artmış, ölkə iqtisadiyyatına, o cümlədən qeyri-neft sektoruna yüz milyardlarla manat həcmində sərmayələr qoyulmuş və dövlətin valyutası olan manatın məzənnəsinin sabitliyi təmin olunmuşdur. Azərbaycan son illər ərzində misli görünməmiş uğurlar əldə etmiş, ölkənin müasirləşməsi istiqamətində mükəmməl layihələr icra olunmuş, paytaxt Bakı şəhəri ilə yanaşı, regionlar da sürətli inkişaf etdirilmiş, insanların yaşayış və əmək şəraiti əsaslı yaxşılaşdırılmışdır.

Millətinə xidməti həyat amalına çevirmiş cənab İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə doğruldaraq hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirmişdir. Ölkə başçısının hər zaman xalqın içində olması, mütəmadi olaraq vətəndaşlarla bilavasitə görüşməsi, onların qayğıları ilə maraqlanması, müraciətlərinə xüsusi həssaslıqla yanaşması, ciddi problemləri ilə bağlı məsələləri nəzarətə götürməsi, üzləşdikləri bütün çətinlikləri aradan qaldırması dövlətin və rəhbərinin vətəndaşa verdiyi yüksək dəyərin təcəssümü olduğu bildirilərək "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli Fərmanının müstəsna əhəmiyyəti, adı çəkilən normativ hüquqi aktın yüz minlərlə insanın rifahına müsbət təsiri xüsusi vurğulandı.

Bildirilmişdir ki, ölkədə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, dünya tarixi-mədəni irsinin inkişafına və tolerantlığa xüsusi önəm verilməsi, beynəlxalq hüquqa və dünyada mövcud olan siyasi dəyərlərə sədaqət Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırmaqla dünya dövlətləri sırasında mövqeyini hərtərəfli möhkəmləndirmişdir. Ölkədə gedən sürətli inkişafın beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Davos Ümumdünya İqtisadi Forumuna əsasən, Azərbaycan islahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə dünyada birinci onluqda qərarlaşmışdır. Dünya Bankı tərəfindən yayılan "Doing Business 2020" hesabatında isə Azərbaycan 20 ən islahatçı dövlət siyahısına daxil edilməklə dünyanın bir çox ölkələrini geridə qoymuşdur. Bütün bunlar qəti əminliklə onu deməyə əsas verir ki, Azərbaycan etibarlı və peşəkar əllərdədir.

Ölkəmizdə bütün sahələrdə uğurlar əldə olunmasını və dövlətimizin hərtərəfli qüdrətlənməsini vurğulamaqla nitqini davam etdirən Hərbi prokuror Xanlar Vəliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın görkəmli dövlət xadimi kimi uzun illər ərzində ölkəmizin sürətli inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqın rifahının yaxşılaşdırılması, dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsi, xalqın, milli-mənəvi dəyərlərin və mədəniyyətimizin bütün dünyaya tanıdılması istiqamətindəki zəngin və dəyərli fəaliyyətindən söz açdı. Dünya dövlətləri ilə, o cümlədən qonşu ölkələrlə qarşılıqlı etimada əsaslanan münasibətlərin daha da möhkəmləndirilməsinin, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin cənab Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətin prioritet istiqamətlərindən olduğunu bildirilərək Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan-Rusiya arasında olan sıx əlaqələrin daha da inkişafına və şaxələndirilməsinə xidmət edən 20-25 noyabr 2019-cu il tarixlərdə Rusiya Federasiyasına rəsmi səfərinin mühüm əhəmiyyəti xüsusi vurğulandı. Bildirildi ki, ölkənin hərtərəfli inkişafında və qazanılan ardıcıl nailiyyətlərdə millətinə və dövlətinə sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan bu nəcib insanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn misilsiz sevgidən bəhs etməklə qeyd olundu ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən ulu öndər siyasətinin möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə, Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcəkdir.

Çıxışının sonunda Hərbi prokuror Xanlar Vəliyev bildirdi ki, mənalı və fədakar həyatı, çoxşaxəli zəngin fəaliyyəti ilə "Dünyanın ən böyük azərbaycanlısı" adını qazanmış ulu öndər Heydər Əliyevin əziz və unudulmaz xatirəsi dünya tarixində və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaqdır.

Tədbir böyük şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatdı.

**Hərbi Prokurorluq**

# Bakı şəhər prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



Dekabrın 11-də Bakı şəhər prokurorluğunda Azərbaycan dövlətinin memarı və qurucusu, xalqın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin şəhər prokurorluğunun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov diqqətə çatdırmışdır ki, görkəmli dövlət xadimi, dahi lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında, onun müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində, ölkənin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, demokratik imicinin yüksəldilməsində, dövlətçilik tarixində müstəsna xidmətləri əvəzsiz və danılmazdır.

Bildirilmişdir ki, Azərbaycan dövlətinin banisi Heydər Əliyev bütün ömrü boyu Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü



həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş onun adı ilə bağlıdır.

Qeyd edilmişdir ki, Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkənin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.

Xüsusi olaraq vurğulanmışdır ki, Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Diqqətə çatdırılmışdır ki, ölkədə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə əsası Heydər Əliyev tərəfindən qoyulmuş qanunvericilik və hüquqi islahatlar daha da genişləndirilməkdədir. Demokratik və hüquqi dövlət quruculuğu prosesi hazırda ulu öndər siyasi kursunun ən layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, idarəetmənin bütün sahələrində köklü islahatlar aparılır. Bu islahatlar nəticəsində ölkədə idarəetmə təkmilləşdirilməklə əhalinin rifahı, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsi yüksəlməkdədir.

Bakı şəhər prokuroru İlqar Abbasov şəhər prokurorluğunun kollektivinin Heydər Əliyevin dövlətçilik ideyalarına daim sadiq qalacağını, dövlətin müstəqilliyinin, milli maraqların, ictimai-siyasi sabitliyin qorunması işində səylərini daha da artıracağını vurğulamışdır.

Mərasimin sonunda ümummilli liderin əziz xatirəsinə həsr olunmuş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Ömür, Tale, Epoxa" filmi nümayiş etdirilmişdir.

**Bakı şəhər prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini anma mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat verərək vurğulayıb ki, XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür.

Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikamızın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb. 1969-cu ildən ötən 50 il ərzində bu, bir daha təsdiq olunub. Ulu öndərimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: “Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi.”

Məhz dahi şəxsiyyətin fədakar əməyinin, uzaqgörən rəhbərlik və təşkilatçılıq istedadının sayəsində Azərbaycan bu illər ərzində sürətlə və hərtərəfli inkişaf edərək keçmiş İttifaqın öncül respublikalarından birinə çevrilmişdir. 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının bütün sahələrində istehsalın sürətlə artması nəticəsində iqtisadi və sosial inkişafın ümumiləşdirici göstəricisi olan milli gəlir 2,5 dəfə artmışdır. Respublikamızda bütün sahələrin – sənayenin, elmin, təhsilin, səhiyyənin inkişafı, elm tutumlu istehsal sahələrinin yaradılması dahi Heydər Əliyevin səyləri və məqsədyönlü fəaliyyəti ilə təmin olunmuş, intellektual, elmi-texniki və iqtisadi potensialı ciddi dərəcədə yüksəlmişdir.

Dahi şəxsiyyət müdrikcəsinə dilini, tarixini, mədəniyyətini dünyaya tanıtdırdır. O bildirmişdir ki, dil də, tarix də, mədəniyyət də millətsiz mövcud ola bilməz və hər hansı bir milləti yer üzündən izsiz olaraq silmək üçün onun dilini, mədəniyyətini, tarixini əlindən almaq kifayətdir. Həyata keçirdiyi tədbirlərdə ulu öndər bu faciənin qarşısını almağa çalışmış və ona nail olmuşdur. Öz uzaqgörənliyi ilə seçilən dahi şəxsiyyət hələ SSRİ kimi böyük imperiyanın tərkibində olan Azərbaycanın 1978-ci ildə qəbul olunan Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsinə nail olmuşdur. Bu, Heydər Əliyevin dilinə, dininə, milli dəyərlərinə bağlılığının, əsl vətəndaş qətiyyətinin parlaq təzahürüdür.

Bu, bir faktdır ki, ulu öndər Azərbaycanı parçalamaq istəyənlərin qarşısında həmişə böyük maneə olmuşdur. Odur ki, bədxah niyyətlilər bu məsələnin yeganə çıxış yolunu dahi şəxsiyyəti siyasi fəaliyyətdən uzaqlaşdırmaqda görürdülər. 1987-ci ildə əvvəlcədən hazırlanmış məkrli planın həyata keçirilməsi nəticəsində ümummilli liderimizin rəhbər vəzifədən uzaqlaşdırılmasından sonra Azərbaycanda bir-birinin ardınca torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, 20 Yanvar faciəsinin, Xocalı soyqırımının törədilməsi bu faktı bir daha təsdiqlədi. O zamankı Azərbaycan rəhbərliyinin Moskvadakı xüsusi dairələrin nümayəndələri ilə əlbirliyi nəticəsində həyata keçirilən bu hadisələrdən sarsılan böyük insan xalqının səsinə səs verdi, siyasi təqiblərə baxmayaraq, Azərbaycan uğrunda mübarizəyə qalxdı. Bu mübarizə ulu öndərin 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını cəsarətlə ittiham etməsi, xalqımızın başına gətirilən bu müsibəti bütün dünyaya çatdırması ilə başlandı.

Qeyd olunmuşdur ki, ümummilli liderimiz 1990-cı il iyulun 20-də Bakıya gəldi. İki gün sonra – iyulun 22-də isə doğma Naxçıvana qayıtdı, bu qədim diyardan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ümummilli lider 1990-1993-cü illərdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası və böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər gördü. Dahişəxsiyyətin Naxçıvandan başladığı müstəqillik

yolu Azərbaycanın qurtuluş mübarizəsinə çevrildi. Üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentində qaldırıldı, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvandan başlandı, müstəqil dövlətçilik yolunda mühüm və əhəmiyyətli addımlar atıldı.

31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması, keçmiş SSRİ-dən miras qalmış təhlükəsizlik orqanlarının ləğv edilərək milli maraqlara xidmət edən yeni müvafiq qurumun yaradılması, rus qoşun hissələrinin muxtar respublikadan çıxarılması, Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlərin görülməsi, nizami ordu hissələrinin təşkili, diyarımızın tarixi taleyi üçün müstəsna əhəmiyyətə malik Qars müqaviləsinin şərtlərinin beynəlxalq aləmin diqqət mərkəzinə çəkilməsi, idarəetmə strukturlarında ədalətin, demokratiyanın, operativliyin və dinamikliyin təmin olunması, aqrar islahatların, özəlləşdirmənin uğurla aparılması, yeni iqtisadi münasibətlərin formalaşdırılması, əhalinin sənaye mallarına, ərzaq məhsullarına kəskin ehtiyacının ödənilməsi, enerji təminatı sahəsində böhranlı vəziyyətin aradan qaldırılması üçün layihələrin həyata keçirilməsi, ağıryüklü təyyarələrin qəbulu üçün aeroportun yenidən qurulması, mədəni mühitin dirçəldilməsi, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm addımların atılması və sadalamadığımız yüzlərlə belə böyük tədbirlər məhz bu qısa müddətdə Naxçıvanda yüksək səviyyədə gerçəkləşdirilmişdi. Ölkəmizin ən kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə aiddir.

1990-1993-cü illərdə ölkəmiz hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Azərbaycana "rəhbərlik edənlər" ölkənin və xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdürdülər. Belə bir dövrdə xalqımız ümid yeri kimi Naxçıvana – ümummilli liderimiz Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, ölkəmiz təlatümlər burulğanından xilas oldu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmağa nail oldu.

Beləliklə ölkədə baş verən vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsində atəşkəsə nail olundu. Dahi şəxsiyyət Heydər ƏliyevAzərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Qeyd olunmuşdur ki, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 40 ilə yaxın bir dövr ərzindəki fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr olunmuşdur. Ulu öndərin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyası bu siyasətin layiqli davamçısı cənab İlham Əliyevin böyük əməyi sayəsində reallaşmış, nəticədə ölkəmiz sürətli tərəqqi yoluna qədəm qoymuşdur.

Tarix özü sübut edir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin intensiv inkişaf mərhələsini və tariximizin ən şanlı dövrünü təşkil edir. Bunun nəticəsidir ki, Azərbaycan bu gün dünyada özünəməxsus yeri olan dövlətlərdən biridir. Xalqını sonsuz məhəbbətlə sevən bu böyük insan bütün həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr edib. Ali Məclis Sədrinin dediyi kimi: "Ümummilli liderimizin bütün həyatını göz önünə gətirsək, keçdiyi mənalı ömür yolunu nəzərdən keçirsək, böyük ömrün yalnız bir məqsədə xidmət etdiyinin şahidi olarıq: bu – Azərbaycandır. Ulu öndərimiz Azərbaycan naminə, bütöv, müstəqil Azərbaycan və Azərbaycançılıq uğrunda çalışmış, mübarizə aparmış və qalib gəlmişdir".

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidentı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Məruzə ətrafındakı çıxışlarda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü möhtəşəm işlərdən danışılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Bakıda “Güclü və nüfuzlu vəkillik – müasir dövrün çağırışları” mövzusunda beynəlxalq konfrans keçirilib




Oktyabrın 4-də “Marriott” Abşeron Bakı mehmanxanasında Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə, Azərbaycanda vəkillik peşəsi ilə bağlı yubiley tədbirlər çərçivəsində “Güclü və nüfuzlu vəkillik – müasir dövrün çağırışları” mövzusunda beynəlxalq konfrans öz işinə başlamışdır.

Tədbirdə Prezident Administrasiyasının nümayəndələri, Milli Məclisin deputatları, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və digər məhkəmələrin sədrləri və hakimləri, prokurorluq və ədliyyə orqanlarının rəhbərləri və nümayəndələri, o cümlədən, 20-dən çox ölkənin vəkillər kollegiyalarının rəhbərləri və üzvləri, Avropa Şurası, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatların, habelə dövlət orqanları və qeyri-hökumət təşkilatlarının nümayəndələri, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri, hüquq ictimaiyyətinin təmsilçiləri iştirak etməkdədir.




İki sessiyadan ibarət konfransın məqsədi beynəlxalq ekspertlərin və dünyanın müxtəlif ölkələrinin vəkillər kollegiyaları nümayəndələrinin vəkillik peşəsinin idarəetmə və rolu ilə bağlı perspektivlərinin bir araya gətirilməsidir. Tədbirlərdə müvəkkillərinin insan hüquqlarının müdafiəsini həyata keçirərkən vəkillərin əməl etməli olduqları tələb və şərtlərin müqayisəli təhlili aparılmışdır. Konfrans iştirakçılarının çıxışları, əsasən vəkillik peşəsinin təşkili və idarəetməsi, vəkil etikası və vəkillərin peşəyə qəbul mövzularına həsr olunmuşdur.

Tədbirin iştirakçılarından Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov, Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev, Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Azərbaycan üzrə direktoru Sonya Fonteyn, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Azərbaycan üzrə hüquq layihəsinin rəhbəri Tomas Herrman da açılış sözləri ilə çıxış etmişlər.

Konfransda çıxış edən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov tədbir iştirakçılarını salamlayaraq 2019-cu ilin Azərbaycan vəkilliyi üçün əlamətdar olduğunu, bununla əlaqədar Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən silsilə tədbirlər keçirildiyini bildirmiş, hazırki konfransın məqsədi və proqramı barədə məlumat vermiş, həmçinin son dövrdə Azərbaycanda vəkillik peşəsinin inkişafı istiqamətində aparılan tədbirlər,




bununla bağlı Azəraycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamı və 3 aprel 2019-cu il tarixli Fərmanının əhəmiyyəti, ölkəmizdə bu sahədə olan çatışmazlıqlar, onların aradan qaldırılması və məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi üçün aparılan işlər barədə danışmış, bu baxımdan hazırki konfransın müxtəlif ölkələrlə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq üçün mühüm rol oynadığını bildirmişdir.

Daha sonra, Türkiyə Barolar Birliyinin sədri, "TÜRK-AV"ın rəhbəri Metin Feyzioğlu, Rusiya Federal Vəkillər Palatasının prezidenti Yuriy Pilipenko, Gürcüstan Vəkillər Kollegiyasının sədri David Asatiani, Bütöv Çin Vəkillər Birliyinin vitse-prezidenti Zhu Zhengfu, İran Vəkillər Kollegiyası Birliyinin rəhbəri Morteza Şahbazinia, Belarus Respublikası Vəkillər Kollegiyasının sədri, Belarus Milli Məclisinin qanunvericilik və hüquq siyasəti daimi komissiyasının sədr müavini Viktor Çaiçits, Ukrayna Milli Vəkillər Kollegiyasının prezidenti Lidiya İzovitova, Özbəkistan Respublikası Vəkillər Palatasının sədri Alim Ernazarov, Litva Vəkillər Kollegiyasının vitse-prezidenti Mindauqas Kukaitis "Vəkillik fəaliyyətində müasir çağırışlar" barədə öz ölkələrinin təcrübələrini bölüşmüşlər.

Bundan əlavə, tədbir iştirakçılarının səfər çərçivəsində ölkəmizin mədəniyyəti, eləcə də bölgələri ilə tanış olmaq imkanı yaradılmışdır.

Qeyd olunmalıdır ki, yubiley tədbirləri çərçivəsində 3-6 oktyabr tarixlərində Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Gürcüstan Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə "Vəkillər arasında 1-ci Cənubi Qafqaz Beynəlxalq Futbol Turniri" keçirilmişdir. Turnirdə 10 ölkəni –– Azərbaycan, Gürcüstan, Rusiya, Türkiyə, Belarus, İran, Polşa, Qazaxstan, Özbəkistan və Bolqarıstanı təmsil edən 16 komanda birincilik uğrunda mübarizə aparılmışdır.

**Vəkillər Kollegiyası**

# Baş prokuror Zakir Qaralov Rusiya Federasiyası Baş prokurorunun müavini - Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş Prokurorluq bir sıra ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları, eləcə də beynəlxalq təşkilatlarla işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.

Oktyabrın 8-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Baş prokurorunun müavini - Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə olduğu kimi hərbi və hüquq sahələrində də uğurla inkişaf etdiyini xüsusilə qeyd olunmuşdur.

Xalqımızın taleyüklü problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizin 20% ərazisinin erməni işğalı altında olması, 1 milyondan artıq qaçqın və məcburi köçkünlərimizin doğma yurdlarından didərgin düşməsini qeyd edən Baş prokuror, bu günlərdə Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı illik toplantısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ifadə etdiyi tarixi tezislərdən sitatlar gətirmişdir.



Dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlərin, o cümlədən hüquqi sahədə əlaqələrin getdikcə inkişaf etdiyini qeyd edən Baş prokuror, dövlət başçısı cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi sosial-iqtisadi sahədə və məhkəmə-hüquq sistemində aparılan islahatlar, o cümlədən səmərəli dövlət idarəetməsi, əhalinin həyat səviyyəsinin və sosial rifahının yüksəldilməsi üzrə tədbirlər və əldə olunmuş nailiyyətlərdən geniş danışmışdır.

Baş prokuror ötən illər ərzində prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, gənc hüquqşünaslardan ibarət kadr korpusunun formalaşdırılması istiqamətində aparılan mütərəqqi işlər, korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqələr barədə qonaqlara məlumat vermişdir.

Azərbaycan və Rusiyanın hərbi prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayan Baş prokuror bu əlaqələrin gələcəkdə də inkişaf etidirlməsinin zəruriliyindən və gələcək perspektivlərindən danışmışdır.

Möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan Azərbaycan - Rusiya əlaqələrinin bir çox sahələrdə olduğu kimi özünü hüquq mühafizə sahəsində də büruzə verdiyini diqqətə çatdıran Baş prokuror cari ilin iyununda Rusiya Federasiyası Baş prokuroru Yuri Çayka ilə Moskvada baş tutmuş görüşünü xatırlatmış, səfər çərçivəsində iki ölkənin Baş Prokurorluqları arasında imzalanmış “Əməkdaşlıq haqqında Saziş”in əhəmiyyətini vurğulamışdır.

Səmimi görüşə və ətraflı məlumata görə təşəkkür edən Valeri Petrov ölkəmizə ilk səfəri olduğunu qeyd edərək, nümayəndə heyətinin üzvlərində artıq Azərbaycan haqqında çox sürətlə inkişaf edən, dinamik, müasir və təhlükəsiz ölkə imicinin formalaşdığını bildirmişdir. Qonaq qarşılıqlı səfərlərin, geniş ünsiyyətin və mütəmadi təmasların ikitərəfli əlaqələrin inkişafına müsbət təsir edəcəyinə əminlik ifadə edərək, ölkəmizlə bir çox sahələrdə olduğu kimi, hərbi və hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verildiyini, Azərbaycan hərbçilərinin Rusiyada keçirilmiş "Beynəlxalq Ordu Oyunları-2019" çıxışını qeyd etmişdir.

Görüşdə hərbi xidmət əleyhinə olan cinayətlər, təlim səfərləri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Baş prokuror Zakir Qaralov Litvanın Xüsusi İstintaq Xidmətinin baş direktoru Zidrinas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar strategiyasının dərinləşməsi çərçivəsində ölkəmizdə korrupsiyaya qarşı mübarizə ilə bağlı qətiyyətli siyasi iradədən qaynaqlanan sistemli institusional tədbirlər həyata keçirilmiş, mütərəqqi anti-korrupsiya qanunvericiliyi formalaşdırılmışdır. Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər beynəlxalq standartlar nəzərə alınmaqla və bu prosesdə qabaqcıl xarici ölkələrlə təcrübə mübadiləsi aparılmaqla həyata keçirilir.

Oktyabrın 28-də Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin baş direktoru Zidrinas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyəti təcrübə mübadiləsi məqsədilə ölkəmizə rəsmi səfərə gəlmişdir.

Nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqın ümummilli lideri, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuş, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmişdir.

Həmçinin nümayəndə heyəti Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.



cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi istiqamətində görülən məqsədyönlü tədbirlərin nəticəsi olaraq, kriminogen duruma səlahiyyətli dövlət təsisatları tərəfindən ciddi nəzarətin həyata keçirildiyi, qeydə alınan bütün cinayətlərə, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə qarşı kəsərli mübarizənin təmin olunduğu, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin profilaktikası istiqamətində qətiyyətli işlərin görüldüyü, MDB məkanında əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayına görə ölkəmizin müsbət göstəricilər əldə etdiyi diqqətə çatdırılmışdır.

Görüşdə xüsusi vurğulanmışdır ki, Prezident cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı dövrdən rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə məsələləri dövlət siyasətinin prioritet istiqaməti səviyyəsinə



Daha sonra Baş Prokurorluqda görüş keçirilmişdir. Nümayəndə heyətini qəbul edən Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə son dövrlərdə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ-hüquqi bazanın yaradılması, müasir informasiya texnologiyaları üzrə qabaqcıl təcrübənin tətbiq olunması, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan yeni kadr siyasətinin reallaşdırılması ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir. Azərbaycan Respublikasında qaldırılmış, Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" konvensiyalarına, Korrupsiyaya qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyasına qoşulan ölkəmizdə milli dövlətçilik ənənələrinə və müvafiq dünya standartlarının tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılmış, o cümlədən "Korrupsiyaya qarşı mübarizə haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunların və digər normativ-hüquqi aktların qəbul edilməsi təmin olunmuşdur.



İnam ifadə olunmuşdur ki, Azərbaycan və Litva Respublikalarının korrupsiyaya qarşı mübarizə qurumları arasında Tvininq layihəsi ilə təməli qoyulan və 2011-cu ildə «Anlaşma memorandumu»nun imzalanması ilə keyfiyyətcə yeni müstəviyə qaldırılan ikitərəfli əlaqələr bundan sonra da yüksələn xətlə inkişaf edəcək və öz səmərəsini verəcəkdir.

Görüşdə çıxış edən Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin baş direktoru Zidrinas Bartkusun göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirmişdir. İki ölkənin korrupsiyaya qarşı mübarizə qurumları arasında uzunmüddətli sıx əlaqələrin olduğunu bildirən cənab Zidrinas respublikamızın qısa zamanda mühüm nailiyyətlər əldə etməsini qeyd edərək, xüsusi olaraq məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin müvafiq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir. Nümayəndə heyəti daha sonra Azərbaycan Respublikası Prokurorluğunun Tarix muzeyi ilə tanış olmuşdur.

Nümayəndə heyəti həmçinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində olmuş, Xidmət rəisi Əli Nağıyevlə keçirilmiş ikitərəfli görüşdə qurumlar arasında əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

Bundan sonra nümayəndə heyəti Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuşdur. Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev nümayəndə heyətinə prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan islahatlar, Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Hələ 2009-2011-ci illərdə Litvanın qeyd olunan qurumu ilə Baş İdarə arasında Tvinninq layihəsi çərçivəsində əməkdaşlığın Avropa strukturlarına inteqrasiya istiqamətində mühüm nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynadığını bildirən Kamran Əliyev Avropa İttifaqının qabaqcıl təcrübələrinə çıxış əldə etməyin, həyatımızın müxtəlif sahələrini Avropa İttifaqının standartlarına yaxınlaşdırmağın ölkəmiz üçün çox önəmli olduğunu vurğulamış, bu tədbiri birgə məhsuldar fəaliyyət kimi qiymətləndirmişdir.

Çirkli pulların yuyulması ilə mübarizə istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər, prokurorluq orqanları tərəfindən bu qəbildən olan cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi sahəsində fəaliyyətə dair nümayəndə heyətinin üzvləri tərəfindən verilmiş suallar ətraflı cavablandırılmış, korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılmışdır.

Nümayəndə heyəti milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş İdarənin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitab portallarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 nömrəli “Qaynar xətt” əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olmuşdur.

Nümayəndə heyəti o cümlədən, korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin səmərəli nümunəsini təşkil edən ASAN Xidmət modeli ilə tanış olmaq məqsədilə 5 saylı ASAN Xidmət mərkəzində, eləcə də şəhərimizin müasir memarlıq incisi olan Heydər Əliyev Mərkəzində olmuşdur.

**Baş Prokurorluq**

# Baş prokuror Zakir Qaralov Qırğızıstan Respublikası Baş prokurorunun müavini Cəmilə Camanbayevanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**Qırğızıstan Respublikasının Prokurorluğu Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində iş təcrübəsini öyrənir**



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikası Prokurorluğu cinayətkarlıqla mübarizə sahəsində bir sıra beynəlxalq və regional təşkilatlarla, o cümlədən xarici ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları ilə işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması zəminində səmərəli fəaliyyətini davam etdirir.

Belə əməkdaşlıq əlaqələrinin davamı olaraq, noyabrın 4-də Qırğızıstan Respublikasının Baş prokurorunun müavini Cəmilə Camanbayevanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlmişdir.

Tədbirin ilk günündə nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad

edərək məzarı önünə əklil qoymuş, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmişdir.

Həmçinin qonaqlar Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Daha sonra Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov nümayəndə heyətini qəbul etmişdir.





Görüşdə eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malik ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi xüsusilə qeyd olunmuş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəvəti ilə Qırğızıstan dövlət başçısı cənab Sooronbay Şaripoviç Jeenbekovun da yaxından iştirak etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 15 oktyabrda Bakıda keçirilmiş VII Zirvə Görüşünün nəticələrinin ölkələrimiz arasındakı həmrəyliyin növbəti əyani göstəricisi olduğu bildirilmişdir.

Görüş əsnasında etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan Azərbaycan - Qırğızıstan əlaqələrindən danışan Baş prokuror Zakir Qaralov dövlət başçısı cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi ilə reallaşdırılan kompleks və ardıcıl islahatlar nəticəsində cəmiyyət həyatının bütün sahələrində, o cümlədən sosial-iqtisadi sferada, korrupsiyaya qarşı mübarizə istiqamətində və məhkəmə-hüquq sistemində əldə edilən son nailiyyətlərə mütənasib olaraq ölkəmizin mötəbər beynəlxalq reytinqlərdəki mövqelərinin ildən ilə daha da yaxşılaşdığını bildirmişdir.

Həmçinin, Azərbaycan və Qırğızıstan prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayan Baş prokuror bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışmışdır. Habelə qonaqlara Azərbaycan Prokurorluğunun fəaliyyət istiqamətləri, strukturu və kadr potensialının təkmilləşdirilməsi sahəsində əldə etdiyi müsbət təcrübələr barədə ətraflı məlumat verilmiş, digər hüquq mühafizə orqanları ilə birgə qarşılıqlı fəaliyyət nəticəsində ölkəmizin MDB məkanında cinayətlərin sayına görə ən müsbət göstəricilərə sahib olduğu diqqətə çatdırılmışdır.

Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Qırğızıstan Respublikasının Baş prokurorunun müavini Cəmilə Camanbayeva göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirmişdir. İki qardaş türk dövlətinin prokurorluq orqanları arasında uzunmüddətli sıx əlaqələrin olduğunu bildirən qonaq respublikamızın qısa zamanda bir çox



sahələrdə mühüm uğurlar əldə etməsinin canlı şahidi olduğunu qeyd edərək, xüsusilə məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri təqdirəlayiq islahat nümunəsi kimi dəyərləndirmişdir.

Xanım Cəmilə Camanbayevə səfərinin əsas məqsədinin ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi nəaliyyətləri, Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional qurumlarla əməkdaşlığını, xüsusilə Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD) kimi təşkilatlarla iş təcrübəsini öyrənmək, o cümlədən ASAN xidmət və DOST mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olmaq olduğunu bildirmişdir.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin müvafiq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir. Qonaqlar daha sonra Azərbaycan Respublikası Prokurorluğunun Tarix muzeyi ilə tanış olmuşlar.

Bundan sonra qonaqlar Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuşlar.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev qonaqlara ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan mütərəqqi qanunvericilik aktları, prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan əsaslı islahatlar, eləcə də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, o cümlədən Baş İdarədə fəaliyyət göstərən əməliyyat axtarış qurumları və “161-Qaynar xətt” əlaqə mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir. Kamran Əliyev Azərbaycanın Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) ilə 2004-cü ildən davam edən uğurlu əməkdaşlığını xüsusi qeyd edərək gələcəkdə də beynəlxalq qurumlarla əməkdaşlığın daha da dərinləşəcəyini diqqətə çatdırmışdır.

Çıxışında 2011-ci ildə Baş İdarəyə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyası ilə yanaşı, Müstəqil Dövlətlər Birliyi məkanında, habelə Azərbaycan prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinin verildiyini də bildirən Kamran Əliyev bu təcrübənin Baş İdarənin fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artırdığını, eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Anti-Korrupsiya Şəbəkəsi tərəfindən bu qurumun beynəl-





xalq aləmdə səmərəli anti-korrupsiya fəaliyyətinin nümunəvi modeli kimi tövsiyə edildiyini vurğulamışdır.

Nümayəndə heyəti milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş "161-Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olmuşlar.

Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin deputatları ilə görüşlər keçirmiş, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasını və korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin səmərəli nümunəsini təşkil edən ASAN Xidmət modeli ilə tanış olmaq məqsədilə 5 saylı ASAN Xidmət mərkəzini ziyarət edərək onların fəaliyyəti ilə yaxından tanış olmuşdur.

**Baş Prokurorluq**

# Vətəndaşların müraciətlərinə baxılması işi prokurorluq orqanlarının daim diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

## Baş prokuror Zakir Qaralov Siyəzən rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov oktyabrın 25-də Siyəzən rayon prokurorluğunda Siyəzən və Xızı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Siyəzən rayon İcra Hakimiyyətinin başçısı xalqın ümummilli lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 21 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

## Baş prokuror Zakir Qaralov Abşeron rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov noyabrın 15-də Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan və Şuşa rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Abşeron rayon İcra Hakimiyyətinin başçısı xalqın ümummilli lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 18 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

# Baş prokuror Zakir Qaralov Sumqayıt şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov dekabrın 13-də Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhər və Qubadlı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 23 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

***

Qəbullarda vətəndaşların müraciətlərinin bir qismi dərhal həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

**Baş Prokurorluq**

# Baş prokurorun müavini Namiq Əsgərov Türkiyənin Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş Prokurorluq xarici ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları ilə işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.

Ölkəmizlə dost və qardaş Türkiyə arasında hərtərəfli strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətləri çərçivəsində hüquqi əlaqələr xüsusi yer tutur.

Bu sahədə çoxşaxəli əməkdaşlığın növbəti təzahürü olaraq Türkiyə Respublikası Hakimlər və Prokurorlar Şurasının Birinci Dairə rəhbəri Halil Koçun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərə gəlmişdir.

Səfərin birinci günü nümayəndə heyəti Fəxri Xiyabana gələrək Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuşdur. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülmüşdür.

Nümayəndə heyəti Şəhidlər Xiyabanını və Bakıdakı Türk Şəhidliyi abidəsini ziyarət etmişlər.

Daha sonra Baş Prokurorluqda görüş keçirilmişdir. Qonaqları səmimi salamlayan Baş prokurorun müavini Namiq Əsgərov tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdiyini bildirərək bu əlaqələrin hər iki qardaş ölkənin dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, yürütdükləri uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıqdan qaynaqlandığını xüsusi vurğulamışdır.

Xalqımızın taleyüklü problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizin 20% ərazisinin erməni işğalı altında olması, 1 milyondan artıq qaçqın və məcburi köçkünlərimizin doğma yurdlarından didərgin düşməsini qeyd edən Baş prokurorun müavini, Türkiyənin daim Azərbaycanın haqlı mövqeyini qətiyyətlə dəstəklədiyini bildirmişdir.

Azərbaycanın məhkəmə sistemi, Azərbaycan Prokurorluğunun strukturu və fəaliyyəti, məhkəmələrdə dövlət ittihamının müdafiəsi barədə qonaqlara ətraflı məlumat verilmişdir.

Görüşdə həmçinin, ölkəmizdə məhkəmə-hüquq sistemində aparılan genişmiqyaslı islahatlar və yeniliklər, xüsusilə bu sahədə yeni mərhələ olan Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı və "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ilə əlaqədar görülmüş işlər barədə məlumat verilmişdir.

Səmimi görüşə və ətraflı məlumata görə təşəkkür edən Halil Koç ölkəmizə ilk dəfə səfər etdiyini qeyd edərək, nümayəndə heyətinin üzvlərində Azərbaycan haqqında sürətlə inkişaf edən, dinamik, müasir və təhlükəsiz ölkə imicinin formalaşdığını bildirmişdir. Qonaq qarşılıqlı səfərlərin və mütəmadi təmasların ikitərəfli əlaqələrin inkişafına müsbət təsir edəcəyinə əminliyini ifadə edərək, ölkəmizlə bütün sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verildiyini vurğulamışdır.

Halil Koç hər iki ölkənin müvafiq strukturları arasında əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəyini, əməkdaşlığımızın xalqlarımız və ölkələrimizin mənafelərinə xidmət edəcəyini bildirmişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Hərbi prokuror Xanlar Vəliyev Rusiya Federasiyası Baş prokurorunun müavini – Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib





Rusiya Federasiyası Baş prokurorunun müavini-Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyevin rəhbərlik etdiyi heyətlə birlikdə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoymuşlar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılaraq, məzarı üzərinə gül dəstələri düzülmüşdür. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının




xatirəsinə ehtiram ifadə olunmaqla, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulmuşdur.

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Rusiya Federasiyasının Baş Hərbi prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Respublikası Hərbi prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında rəsmi görüş keçirilmişdir. Qonaqlar səmimiyyətlə qarşılandıqdan sonra, görüş iştirakçıları əvvəlcə Respublika Hərbi Prokurorluğunun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ni ziyarət etməklə, ulu öndər Heydər Əliyevin əziz və unudulmaz xatirəsini dərin ehtiramla anaraq, büstü önünə əklil qoymuş, qonaqlara böyük şəxsiyyətin zəngin və mənalı həyatı, çoxşaxəli fəaliyyəti və misilsiz xidmətləri barədə ətraflı məlumat verilmişdir.

Bundan sonra, hər iki dövlətin Hərbi Prokurorluqlarının nümayəndə heyətlərinin iştirakı ilə Brifinq keçirilmişdir. Brifinqi açıq elan edən Hərbi prokuror Xanlar Vəliyev iki dövlətin prokurorluq orqanları arasında olan işgüzar əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edən səfərlərin əhəmiyyətini vurğulamaqla, rəhbərlik etdiyi nümayəndə heyətinin 4-7 iyun 2018-ci il tarixlərdə Rusiya Federasiyasına səfərini məmnunluqla xatırlayıb, orada göstərilmiş yüksək qonaqpərvərliyə, səmimi və doğma münasibətə görə Baş Hərbi prokuror Valeri Petrova bir daha minnətdarlığını bildirmişdir. Hərbi prokuror Xanlar Vəliyev çıxışına davam etməklə ulu öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış müdrik siyasətini yeni müstəvidə və dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş uğurlardan və görülən böyük işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən, xalqımızın maddi və sosial rifah halının davamlı olaraq yaxşılaşdırılmasından bəhs etmişdir.

Əldə olunan nailiyyətlər və qazanılan ardıcıl uğurlar fonunda ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların və icra olunan mütərəqqi tədbirlərin bu sahədə də yeni mərhələnin başlanmasını, həmçinin penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin dövrün tələblərinə uyğun yenidən qurulmasını şərtləndirdiyi bildirilərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, müasir texnoloji vasitələrin tətbiq edilməsi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamdan və

özündə müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək üçün məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsini, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılmasını, məhkəmə icraatının effektivliyinin yüksəldilməsini, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinin təmin olunmasını, süründürməçiliyin, eləcə də digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlərin gücləndirilməsini ehtiva edən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmandan və sözügedən normativ hüquqi aktların əhəmiyyətindən danışılmışdır.

Bildirildir ki, ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddialarının irəli sürülməsi və qondarma Dağlıq Qarabağ probleminin ortaya atılması xalqımıza qarşı soyqırım törədilməsi, azərbaycanlıların kütləvi şəkildə qırğını, əsrlər boyu yaşadığı tarixi ərazilərindən, doğma torpaqlarından deportasiyası, şəhər və rayonlarımızın talan edilməsi, mədəniyyət abidələrimizin dağıdılması və milli genofondumuzun məhvinə yönəlmiş digər qəsdlərlə nəticələnmiş, Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycanın ərazilərinin 20 faizi işğal olunmuş, etnik təmizləmə siyasətinin aparılması 1 milyondan çox azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə salmışdır. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlər üzrə istintaqın aparılması və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 18 dekabr 2003-cü il tarixdə Azərbaycan Respublikası Baş Prokurorunun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin vahid əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmış, 5 may 2005-ci il tarixdən isə həmin cinayət işinin istintaqı ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika Hərbi prokuroruna həvalə edilməklə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılmışdır.

Ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasındakı əməkdaşlığının yüksək səviyyədə olduğunu bildirən hər iki dövlətin Hərbi prokurorları, bunun tarixən xalqlarımız və dövlətlərimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə formalaşmış səmimi münasibətlərə söykənməsini qeyd etməklə, bununla əlaqədar ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Rusiya Federasıyasının Prezidenti cənab Vladimir Putinin xalqlarımızın rifahı naminə gördükləri nəhəng işləri xüsusi vurğulamışlar. Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrov öz adından və rəhbərlik etdiyi nümayəndə heyətinin adından onlara göstərilən yüksək diqqətə, səmimi qonaqpərvərliyə və doğma münasibətə görə Respublika Hərbi prokuroru Xanlar Vəliyevə dərin minnətdarlığını bildirməklə, məmnunluğunu ifadə etmişdir.

Hər iki ölkənin Hərbi prokurorları rəhbərlik etdikləri Hərbi Prokurorluq orqanlarının strukturu, fəaliyyət istiqamətləri, qanunların icra və tətbiqinə nəzarətlə bağlı gördüyü işlər, o cümlədən məhkəməyədək cinayət təqibinin həyata keçirilməsi zamanı Hərbi Prokurorluq işçilərinin fəaliyyəti və cinayət işlərinə məhkəmələrdə baxılmasında hərbi prokurorların iştirakı barədə ətraflı məlumat vermişlər.

Hərbi Prokurorluqların fəaliyyətlərinin təşkili məsələləri ilə əlaqədar müxtəlif mövzularda -"iki dövlətin hərbi-hüquq orqanları arasında qarşılıqlı faydalı əlaqələrin inkişafı" sərlövhəli, "Peşəkar dialoqun davam etdirilməsi və kadrların hazırlığı sahəsində təcrübənin mübadiləsi" sərlövhəli, "Koorupsiya ilə mübarizə və onun qarşısının alınması istiqamətində görülən işlər" sərlövhəli və "Prokurorluq, o cümlədən Hərbi Prokurorluq orqanlarının fəaliyyətinin təşkili" sərlövhəli çıxışlar edilmiş, nümayəndə heyətlərinin fəaliyyət istiqamətləri üzrə verdikləri qarşılıqlı suallar cavablandırılmış, geniş fikir mübadiləsi aparılmışdır.

Görüşdə, həmçinin hüquqi sahədə həm ikitərəfli, həm də beynəlxalq səviyyədə qarşılıqlı səmərəli fəaliyyət, o cümlədən hüquqi əməkdaşlıq sahəsində mövcud münasibətlər və onlardan irəli gələn hüquq və vəzifələr müzakirə edilmişdir.

Brifinqdən sonra qonaqlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Beynəlxalq əlaqələri barədə məlumatları özündə əks etdirən stendlərlə tanış olmuşlar.

Sonda Azərbaycanın tarixi ərazilərinin Ermənistanın işğalı altında olmasını, həmçinin qaçqın və məcburi köçkün vəziyyətində yaşayan həmvətənlərimizi bir daha xatırladan Hərbi prokuror Xanlar Vəliyev, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik siyasəti və qətiyyətli iradəsi sayəsində işğal altında olan torpaqlarımız azad edilməklə, ərazi bütövlüyümüzün bərpa olunacağına, soydaşlarımızın öz tarixi torpaqlarına, doğma yurdlarına qayıdacaqlarına və xalqımıza qarşı xüsusilə ağır cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb ediləcəklərinə əminliyini ifadə etmişdir.

**Hərbi Prokurorluq**

# Prokurorluq işçilərinin peşə bayramı günü və milli prokurorluq orqanlarının yaradılmasının 101-ci ildönümü qeyd olunub



Azərbaycan Prokurorluğunun kollektivi müasir müstəqil dövlətimizin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Sərəncamına əsasən, 1998-ci ildən etibarən hər il oktyabrın 1-də peşə bayramını geniş qeyd edir. Builki bayram milli prokurorluq orqanlarının yaradılmasının 101-ci ildönümünə təsadüf edib. Bu münasibətlə Baş Prokurorluğun, Respublika Hərbi və Bakı Şəhər prokurorluqları orqanlarının kollektivləri oktyabrın 1-də Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı




uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyub, “Əbədi məşəl” abidəsini ziyarət ediblər.

Daha sonra Baş Prokurorluqda 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və milli prokurorluğun yaradılmasının 101-ci ildönümü münasibətilə mərasim keçirilib.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Baş prokuror Zakir Qaralov prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini peşə bayramı münasibətilə təbrik edib.

Baş prokuror bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövrün bütün reallıqlarını nəzərə alaraq uzaqgörənliklə həyata keçirilən strateji inkişaf konsepsiyası, müdrik dövlət siyasəti və səmərəli idarəetmə üsulu respublikamızın dayanıqlı sosial iqtisadi inkişafına, əhalinin yaşayış şəraitinin və sosial rifahının ilbəil yüksəldilməsinə şərait yaradıb. Ölkəmizin bütün sahələrdə sürətlə inkişaf etdiyini vurğulayan Baş prokuror bu nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və siyasi iradəsi nəticəsində reallaşan “Əsrin müqaviləsi”nin dayandığını qeyd edib. Bu müqavilənin mühüm əhəmiyyət kəsb etməsinin nəzərə alınaraq beynəlxalq tərəfdaşların qarşılıqlı razılığı ilə 2049-cu ilədək uzadıldığı vurğulanıb. Diqqətə çatdırılıb ki, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan ciddi addımlar nəticəsində Dünya Bankının “Doing Business” proqramında 10 ən islahatçı ölkə kimi tanınan Azərbaycan 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşıb.

Vətəndaşların sosial problemlərinin daim Prezident cənab İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzində olduğunu vurğulayan Baş prokuror bildirib ki, son bir neçə ayda ölkəmizdə sosial problemlərin səmərəli həllində böyük irəliləyişə nail olunub, əhalinin etibarlı sosial müdafiəsinin təminatı istiqamətində inqilabi nailiyyətlər əldə edilib.

Dövlətimizin başçısının Sərəncamı ilə Azərbaycanda “Nəsimi ili” elan olunan 2019-cu ilin ötən dövrünün ölkəmizin mədəni həyatı və idman sahələrində də mühüm uğurlarla yadda qaldığını diqqətə çatdıran Baş prokuror müharibə şəraitinin hökm sürdüyü bir vaxtda respublikamızın bir sıra mötəbər tədbirlərə, o cümlədən Formula 1 Azərbaycan Qran-Prisinə, “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına, bədii gimnastika üzrə 37-ci dünya çempionatına




yüksək səviyyədə ev sahibliyi etdiyini vurğulayıb.

Xüsusi vurğulanıb ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılaraq dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilib, onun dövlətçiliyə sədaqəti ilə seçilən peşəkar kadr korpusu yaradılıb. Azərbaycan Respublikasında reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları müasir məzmunda yeniləşdirilməklə cəmiyyətdə






statusuna uyğun yerini tutub. Ulu öndərin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 2000-ci il aprelin 26-da keçirdiyi tarixi görüşdən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli və bütün sahələri əhatə edən islahatlar aparılıb, zəruri normativ hüquqi baza yaradılıb, "Prokurorluq haqqında" Qanun qəbul edilib və peşəkar kadr korpusu formalaşdırılıb.

Diqqətə çatdırılıb ki, ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində genişmiqyaslı işlər görülür. Son dövrlərdə Azərbaycan Respublikasında ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq birliyin tamhüquqlu üzvü kimi layiq olduğu yerini tutub.

Baş prokuror bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il 3 mart tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun tətbiq edilməsi barədə Sərəncamına əsasən, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılması və sonrakı illərdə fəaliyyətinin təkmilləşdirilməsi, ən müasir tələblərə cavab verən inzibati bina ilə təmin olunması, dövlətimizin başçısının həmin binanın açılış mərasimində şəxsən iştirakı və prokurorluq işçiləri ilə görüşdə tövsiyə və tapşırıqlar verməsi ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində siyasi iradənin ən yüksək təzahürü və ölkə rəhbərliyinin prokurorluq orqanlarının cəmiyyətdəki roluna, funksiyalarına və fəaliyyətinə göstərdiyi yüksək inam və etimadın nümunəsidir. Bu diqqət və qayğının sonrakı mərhələlərdə də ən yüksək səviyyədə davam etdirildiyini vurğulayan Baş prokuror Prezident cənab İlham Əliyevin prokurorluğa yüksək diqqətinin daha bir nümunəsi olan, 2008-ci il 27 sentyabr tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi, prokurorluq orqanlarının müasir dövrün tələblərinə və yüksək beynəlxalq standartlara uyğun fəaliyyətinin yeni keyfiyyət müstəvisinə yüksəldilməsinə şərait yaratdığını qeyd edib.

Cari ilin ölkəmizin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi dövrü kimi yadda qaldığını vurğulayan Baş prokuror bildirib ki, bu il aprelin 3-də Prezident cənab İlham Əliyevin imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda vətəndaşların ədalət müha-

kiməsinə çıxış imkanlarının artırılması, sahibkarlıq fəaliyyəti subyektlərinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması və mübahisələrin məhkəmədənkənar həlli mexanizmlərinin təşviqi, dövlət resurslarının prioritet hesab olunan dövlət xidmətləri üzrə səmərəli və qənaətlə istifadə edilməsi, dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrin yaradılaraq onlara ötürülməsi əsas hədəflər kimi müəyyənləşdirilib. Fərmanda Baş Prokurorluğa tövsiyə edilən məsələlərlə bağlı qanun layihəsinin hazırlanaraq təqdim edilməsi və digər zəruri tədbirlərin həyata keçirilməsi məqsədilə Ali Məhkəmə, Baş Prokurorluq və Ədliyyə Nazirliyi ilə birgə yaradılmış işçi qrupu tərəfindən Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar məcəllələrinə 400-ə yaxın dəyişikliklər edilməsi haqqında qanun layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Tövsiyələrin icrası ilə əlaqədar cinayət mühakimə icraatında dövlət ittihamçıları qarşısında qoyulmuş vəzifələrin daha səmərəli həyata keçirilməsi, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, həmçinin müəyyən edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə Bakı Şəhər Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsində mövcud vəzifələrin yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri hesabına komplektləşdirilməsi üçün müsabiqə keçirilib. Həmin şöbənin yeni tərkibdə formalaşdırılması məqsədilə 2 böyük prokuror və 23 prokuror vəzifəsinə təyinatlar aparılıb.

Diqqətə çatdırılıb ki, Baş Prokurorluqda Fərmanın icrası istiqamətində görülən işlərin davamı kimi, dövlət ittihamının daha effektiv həyata keçirilməsi, vahid istintaq-məhkəmə təcrübəsinin formalaşdırılması, ibtidai istintaqa prosessual nəzarəti həyata keçirən prokurorlarla dövlət ittihamının müdafiəsini həyata keçirən prokurorlar arasında qarşılıqlı əlaqələrin səmərəli təşkil edilməsi məqsədilə “Elektron Dövlət İttihamı” proqramı hazırlanaraq istifadəyə verilib.

Baş prokuror bildirib ki, 2002-ci ildən tətbiqinə başlanılan və ölkəmizdə reallaşdırılan dövlət gənclər siyasəti çərçivəsində daha da geniş vüsət alan prokurorluq orqanlarına dövlət orqanlarının, QHT-lərin, beynəlxalq qurumların və KİV-lərin nümayəndələrinin iştirakı ilə aşkarlıq şəraitində, müsabiqə yolu ilə qulluğa qəbulun həyata keçirilməsi nəticəsində indiyədək 19 müsabiqə təşkil olunub. Həmin müsabiqələr əsasında işə qəbul edilmiş gənc mütəxəssislər təyinat aldıqları müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərirlər. Xidmətdə fərqləndiklərinə və vəzifə borclarını nümunəvi icra etdiklərinə görə müsabiqə yolu ilə qulluğa qəbul edilmiş 873 gənc hüquqşünasın bir çoxu prokurorluğun müxtəlif struktur qurumlarında məsul vəzifələrə irəli çəkiliblər. Həmçinin cari il fevralın 18-də prokurorluq orqanlarına işə qəbul olunmaq üçün 80 vakant ştat vahidi üzrə elan edilmiş 20-ci müsabiqənin sonuncu mərhələsi başa çatdıqdan sonra vakant ştat vahidlərinin tam komplektləşdirilməsi hesabına prokurorluğun kadr korpusunun 70 faizdən çoxunu gənc mütəxəssislər təşkil edəcək.

Azərbaycan Respublikası Prokurorluğu sistemində informasiya-kommunikasiya sisteminin, “Elektron hökumət” layihəsi çərçivəsində prokurorluq orqanlarında “Elektron sənəd dövriyyəsi” və “Elektron cinayət” proqramlarının yaradılması istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini xüsusi qeyd edən Baş prokuror dövlətimizin başçısının müvafiq göstəriş və tövsiyələrə uyğun olaraq, Baş Prokurorluğun “Elektron Cinayət” proqramının Ədliyyə Nazirliyinin “Elektron Məhkəmə” informasiya sisteminə inteqrasiya olunması prosesinə başlanıldığını, bu istiqamətdə zəruri işlərin görüldüyünü bildirib.

Qeyd olunub ki, müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması istiqamətində Baş Prokurorluqda və bütün tabe prokurorluqlarda elektron müraciətlərin qəbulu və baxılması üçün lazımi imkanlar təmin olunub. Vətəndaş müraciətlərinə baxılması sahəsində yeni informasiya texnologiyalarının tətbiqi, “Qaynar xətt” əlaqə mərkəzi və Azərbaycan Prokurorluğunun veb-saytı vasitəsilə Baş Prokurorluğun rəhbərliyinə birbaşa müraciət etmək imkanının yaradılması kimi islahat tədbirləri müsbət nəticə verib. Prokurorluq orqanlarında vətəndaş müraciətlərinin qəbulu üzrə fəaliyyətin daha da təkmilləşdirilməsi, vətəndaş məmnunluğunun təmini, daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi, bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsi məqsədilə Baş prokurorun imzaladığı əmrə əsasən, Baş Prokurorluqda yaradılmış “961” nömrəli Çağrı Mərkəzi oktyabrın 2-dən fəaliyyətə başlayacaq.

Ötən il Azərbaycan Prokurorluğunun həyatında baş vermiş ən əlamətdar hadisələrdən birinin də milli prokurorluq orqanlarının yaranmasının 100 illik yubileyinin təntənəli surətdə qeyd edilməsi olduğunu vurğulayan Zakir Qaralov yubiley ərəfəsində dövlətimizin başçısının Sərəncamı ilə 43 prokurorluq əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsinin böyük sevinclə qarşılandığını bildirib. Dövlətimizin başçısının göstərişi ilə ötən il prokurorluğun 100 illiyi ərəfəsində Gəncə və Sumqayıt şəhərlərində, bu il isə Lənkəran, Salyan və Bakı şəhəri Səbail rayon prokurorluqlarının müasir üslubda tikilmiş yeni inzibati binalarının açılışı olub.

Vurğulanıb ki, Respublika Prokurorluğunun ötən müddətdə daxili işlər, ədliyyə, dövlət təhlükəsizlik və digər hüquq-mühafizə orqanları ilə əlaqəli birgə fəaliyyətinin nəticəsində cinayətkarlığın dinamikasında



istiqamətini təşkil etdiyindən bu sosial bəlaya qarşı mübarizə tədbirlərinin görülməsi, ardıcıl islahatların aparılması, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması, onları törətmiş şəxslərə münasibətdə ciddi tədbirlərin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilir.

Son zamanlar ölkə daxilində olan antimilli qüvvələrin və radikal müxalifət partiyalarının köməyi ilə guya ölkədə "siyasi təqiblərə" məruz qaldıqları görüntüsü yaratmaqla Azərbaycanı tərk edərək xarici ölkələrdə özlərinə bir vasitə ilə sığınacaq tapmış və ermənipərəst xarici dairələrin diktəsi ilə hərəkət edən, milli-mənəvi dəyərlərdən uzaq bəzi şəxslər tərəfindən sosial şəbəkələrdə səsləndirilən ekstremist çağırışların, təhqir və böhtanların qarşısının alınması üçün kəsərli tədbirlər həyata keçirilir. Bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində xalqımızın rifah halının gündən-günə yaxşılaşması və xalq-iqtidar birliyinin sarsılmazlığından narahat olan, xaricə satılmış antimilli müxalifət düşərgəsinin təmsilçilərinin ölkəmizdə ictimai-siyasi sabitliyi və əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısı bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacaq.

Baş prokuror çıxışının sonunda əminliklə bildirib ki, prokurorluq orqanlarının əməkdaşları göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini səfərbər edəcək, bundan sonra da öz vəzifələrinə məsuliyyətlə yanaşaraq, ictimai asayişin təmin olunmasında və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasında respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə yaxından iştirak edəcək, ölkəmizdə sabitliyi pozmaq istəyən qüvvələrə qarşı barışmaz mövqe nümayiş etdirəcək.

Sonra xidmətdə fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə Baş prokuror tərəfindən "Fəxri Fərman"lar və digər təltiflər təqdim olunub.

Tədbirin yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevə müraciət qəbul edilib.

və strukturunda müşahidə olunan müsbət tendensiya cari ildə də davam edib. Ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, dövlət maraqlarının müdafiəsi və cinayətkarlığa qarşı kəsərli mübarizənin təşkili, ən əsası isə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətində zəruri tədbirlər görülüb, kriminogen sabitliyə nail olunub, mənfi təzahürlərin qarşısı alınıb. Məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan MDB və Şərqi Avropa məkanında ən təhlükəsiz və sabit ölkələrdən biri olaraq qalır.

Məruzədə qeyd edilib ki, prokurorluq orqanları tərəfindən bir çox ağır, mürəkkəb və çoxepizodlu, böyük ictimai rezonansa səbəb olan cinayət işlərinin ibtidai araşdırılması müvəffəqiyyətlə aparılıb. Onlardan bəziləri üzrə istintaq tamamlanaraq baxılması üçün müvafiq məhkəmələrə göndərilib.

Xüsusi vurğulanıb ki, korrupsiyaya qarşı səmərəli və barışmaz mübarizə Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin əsas

**Baş Prokurorluq**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU
ƏMR
№ 11/497-k

Bakı şəhəri 26 sentyabr 2019-cu il

**1 Oktyabr - Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 101 illiyi münasibətilə bir qrup prokurorluq işçisinin həvəsləndirilməsi haqqında**

1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 101 illiyi münasibətilə, xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 32-ci və “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 18.10-cu, 23-cü və 24-cü maddələrini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1. Aşağıda adları çəkilən prokurorluq işçiləri “Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı” ilə təltif edilsinlər:**

| | |
|---|---|
| kiçik ədliyyə müşaviri<br>Bəşirov Rəşad Tofiq oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi |
| ədliyyə müşaviri<br>Paşayev Sənan İsa oğlu | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi |
| kiçik ədliyyə müşaviri<br>Babayev Orxan Zahid oğlu | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi |
| kiçik ədliyyə müşaviri<br>Zeynalov Kamil Əlizeynal oğlu | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi |
| kiçik ədliyyə müşaviri<br>Tağıyev Fuad Nazim oğlu | Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru |
| ədliyyə müşaviri<br>Əliyev Ceyhun Zülfüqar oğlu | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Kassasiya instansiyası məhkəməsi və Bakı Apellyasiya Məhkəməsi üzrə) |
| baş ədliyyə müşaviri<br>Aslanov Seyfulla Xalıq oğlu | Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə) |
| ədliyyə müşaviri<br>Əhmədov Ülvi Rövşən oğlu | Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin mühüm işlər üzrə böyük müstəntiqi |
| ədliyyə polkovnik-leytenantı<br>Ağayev Emil Canıbəy oğlu | Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin mühüm işlər üzrə müstəntiqi |

| | |
|---|---|
| ədliyyə polkovnik-leytenantı<br>İsmayılov Bahəddin İsmayıl oğlu | Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru |
| kiçik ədliyyə müşaviri<br>Həsənov Anar Süleyman oğlu | Naxçıvan Muxtar Respublikası Şərur rayon prokurorunun müavini |
| ədliyyə müşaviri<br>Cəlilov Emin İsmayıl oğlu | Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi |
| kiçik ədliyyə müşaviri<br>Abıyev İsmayıl Rahib oğlu | Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin prokuroru |
| kiçik ədliyyə müşaviri<br>Əliyev Mirdamət Daşdəmir oğlu | Siyəzən rayon prokurorunun böyük köməkçisi |

**2. Aşağıda adları çəkilən prokurorluq işçilərinə mükafatlandırma qaydasında növbəti xüsusi rütbələr verilsin:**

**baş ədliyyə müşaviri**

| | |
|---|---|
| ədliyyə müşaviri<br>Əyyubova Günay Çingiz qızı | Azərbaycan Respublikası Baş prokurorunun köməkçisi |
| ədliyyə müşaviri<br>Əliyev Əsəd Sahib oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Daxili təhlükəsizlik şöbəsinin böyük prokuroru |
| ədliyyə müşaviri<br>Mustafayev Azər Həmid oğlu | Baş Prokurorluğun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru |
| ədliyyə müşaviri<br>Tağıyev Mahir Nəriman oğlu | Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru |

**ədliyyə müşaviri**

| | |
|---|---|
| kiçik ədliyyə müşaviri<br>Mahmudov Zamir Nəcəf oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin böyük prokuroru |
| kiçik ədliyyə müşaviri<br>Mansurov Ziya İlham oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi |
| kiçik ədliyyə müşaviri<br>Hüseynov İlqar Qulamhüseyn oğlu | Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru |
| kiçik ədliyyə müşaviri<br>Abdullayev İlkin Həsən oğlu | Baş Prokurorluğun Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru |
| kiçik ədliyyə müşaviri<br>Şəmşirli Şəmşir Cavid oğlu | Bakı şəhər prokurorunun köməkçisi |

**kiçik ədliyyə müşaviri**

| | |
|---|---|
| I dərəcəli hüquqşünas<br>İsgəndərov Rəşad Çingiz oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin böyük prokuroru |
| I dərəcəli hüquqşünas<br>Şahvələdov Rafail Həmdulla oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>Süleymanov Vasif Səlim oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>Əliyev Şaiq Allahyar oğlu | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Lənkəran Ağır Cinayətlər Məhkəməsi üzrə) |
| I dərəcəli hüquqşünas<br>Yusifli Zəkayi Rafiq oğlu | Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin prokuroru |
| I dərəcəli hüquqşünas<br>Haqverdiyev Tural Oqtay oğlu | Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin böyük müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>Əliyev Hafiz Samir oğlu | Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin böyük müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>Novruzov Yusuf Malik oğlu | Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin Kriminalistika şöbəsinin prokuroru vəzifəsini icra edən |
| I dərəcəli hüquqşünas<br>Qazızadə Orxan Cavanşir oğlu | Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin prokuroru |
| I dərəcəli hüquqşünas<br>Zeynalabdıyeva Arzu Səməd qızı | Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin prokuroru |

**I dərəcəli hüquqşünas**

| | |
|---|---|
| II dərəcəli hüquqşünas<br>Musayev Təbriz Elşən oğlu | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Bakı Ağır Cinayətlər Məhkəməsi üzrə) |
| II dərəcəli hüquqşünas<br>Məmmədova Nigar Natiq qızı | Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin Hüquqi statistika şöbəsinin prokuroru |
| II dərəcəli hüquqşünas<br>Paşazadə Elmir Hikmət oğlu | Baş Prokurorluğun Kadrlar idarəsinin prokuroru vəzifəsini icra edən |
| II dərəcəli hüquqşünas<br>Eyvazov Elşad Akif oğlu | Bakı şəhər prokurorluğunun Təşkilat-analitik şöbəsinin prokuroru vəzifəsini icra edən |

**3. Aşağıda adları çəkilən prokurorluq işçilərinə təşəkkür elan edilsin:**

| | |
|---|---|
| II dərəcəli hüquqşünas<br>Səmədzadə-Əliyeva Pirayə Zahid qızı | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru |

| | |
|---|---|
| ədliyyə müşaviri<br>Məcidov Nəriman Eldar oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>Cahangirov Emin Elcan oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi |
| kiçik ədliyyə müşaviri<br>Abbasov Həbib İlham oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat idarəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı |
| I dərəcəli hüquqşünas<br>Əhmədov Anar Puşkin oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı |
| II dərəcəli hüquqşünas<br>Musayev Elçin Malik oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı |
| kiçik ədliyyə müşaviri<br>Vəlibəyov Tural Mehman oğlu | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin böyük prokuroru |
| I dərəcəli hüquqşünas<br>Babayev Əli İbrahim oğlu | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>Babayev Ramiq Tahir oğlu | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin Kriminalistika şöbəsinin prokuroru |
| I dərəcəli hüquqşünas<br>Əhmədov Telman Akif oğlu | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Yevlax rayon məhkəməsi üzrə) |
| kiçik ədliyyə müşaviri<br>Yusubov Orxan Eldəniz oğlu | Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru |
| ədliyyə mayoru<br>Rəhimov Amil Abbas oğlu | Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi |
| ədliyyə kapitanı<br>Əliyev Vətən Kamal oğlu | Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Ağır cinayətlərə dair İşlər üzrə istintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi |
| kiçik ədliyyə müşaviri<br>İbrahimov Ramal Hidayət oğlu | Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət şöbəsinin böyük prokuroru |
| I dərəcəli hüquqşünas<br>Salmanov Surac Çingiz oğlu | Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru |
| ədliyyə baş leytenantı<br>Səlimli Səlim Akif oğlu | Füzuli hərbi prokurorluğunun prokuror-kriminalisti vəzifəsini icra edən |

| | |
|---|---|
| ədliyyə leytenantı<br>Vəliyev Fuad Namizəd oğlu | Qarabağ hərbi prokurorunun köməkçisi |
| ədliyyə baş leytenantı<br>Abbasov Cabir Etibar oğlu | Qazax hərbi prokurorluğunun müstəntiqi |
| ədliyyə baş leytenantı<br>Əzimzadə Bəxtiyar Xalıq oğlu | Tərtər hərbi prokurorluğunun prokuror-kriminalisti vəzifəsini icra edə |
| II dərəcəli hüquqşünas<br>Novruzov Hikmət Şəmsəddin oğlu | Bakı şəhəri Nəsimi rayon prokurorunun böyük köməkçisi |
| III dərəcəli hüquqşünas<br>Hacıyev Asiman Sani oğlu | Bakı şəhəri Nəsimi rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>Hümmət-zadə Tural Ramazan oğlu | Bakı şəhəri Nizami rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>Şabmirzəli Elvin Fikrət oğlu | Bakı şəhəri Nizami rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>Mehralıyev Zamil Zahid oğlu | Bakı şəhəri Yasamal rayon prokurorluğunun böyük müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>Niftullayev Tamerlan Alim oğlu | Ağcabədi rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Bağırzadə Nəriman İbrahim oğlu | Ağdaş rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>Hüseynli Qədimalı Muxtar oğlu | Ağstafa rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Babazadə Ruslan Allahverdi oğlu | Astara rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| II dərəcəli hüquqşünas<br>Eminov Rizvan Tofiq oğlu | Balakən rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Məmmədli Sahil Rəfail oğlu | Bərdə rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Verdiyev Zöhrab Ədalət oğlu | Cəlilabad rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| II dərəcəli hüquqşünas<br>Əhmədov Vasif Maarif oğlu | Goranboy rayon prokurorunun böyük köməkçisi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Əliyev Mİrkamal Bədəl oğlu | Goranboy rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| II dərəcəli hüquqşünas<br>Musayev Sabir Elşən oğlu | Gəncə şəhər prokurorunun böyük köməkçisi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Vəliyev Orxan İlham oğlu | Gəncə şəhər prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |

| | |
|---|---|
| III dərəcəli hüquqşünas<br>Səmədzadə Ləman Nemət qızı | İmişli rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>Əsədov Nəriman Sabir oğlu | İsmayıllı rayon prokurorunun böyük köməkçisi |
| II dərəcəli hüquqşünas<br>Əsgərov Seymur Vilayət oğlu | Qəbələ rayon prokurorluğunun müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>Vəliyev Təqan Eldar oğlu | Quba rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>İbrahimli Rahim Adif oğlu | Qusar rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Qurbanov Cahangir Çingiz oğlu | Masallı rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| II dərəcəli hüquqşünas<br>Lalayev Rəmzi Mikayıl oğlu | Mingəçevir şəhər prokurorunun böyük köməkçisi |
| III dərəcəli hüquqşünas<br>Cəbrayılov Elgün Gündüz oğlu | Mingəçevir şəhər prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>İsgəndərli Aqil Səhman oğlu | Neftçala rayon prokurorunun böyük köməkçisi vəzifəsini icra edən |
| I dərəcəli hüquqşünas<br>Babayev Aftandil Əsgər oğlu | Oğuz rayon prokurorunun köməkçisi |
| II dərəcəli hüquqşünas<br>Mahmudov Hikmət Fərhad oğlu | Sabirabad rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| II dərəcəli hüquqşünas<br>Həsənov Ozal Mübariz oğlu | Sumqayıt şəhər prokurorluğunun böyük müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>Novruzov Elxan Mirzəli oğlu | Şabran rayon prokurorunun böyük köməkçisi vəzifəsini İcra edən |
| III dərəcəli hüquqşünas<br>Məmmədov Məhərrəm Qəşəm oğlu | Şəmkir rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>Mahmudov Araz Arif oğlu | Zərdab rayon prokurorluğunun müstəntiqi |

6. Baş Prokurorluğun Kadrlar idarəsi (N.Rəcəbov) və Maddi-texniki təminat şöbəsi (N.Məmişov) tərəfindən bu əmrdən irəli gələn müvafiq təşkilatı məsələlərin həlli təmin edilsin.

7. Əmr prokurorluq işçilərinə elan edilməsi üçün tabe prokurorluqlara göndərilsin.

*Əsas: təqdimatlar.*

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**

# Prokurorluq işçiləri növbəti ağacəkmə kampaniyası keçiriblər





Sentyabrın 28-də Baş Prokurorluğun, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının işçiləri "Nəsimi ili" və prokurorluq işçilərinin peşə bayramı münasibətilə ağacəkmə kampaniyası keçiriblər.

Son illər respublikamızda yaşıllıqların artırılması, yeni park və xiyabanların salınmasına diqqət artırılıb. Yaradılan parklar və yaşıllıqlar sakinlərdə xoş əhval-ruhiyyə yaradır. Əkilən ağaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, paytaxtın ümumi mənzərəsinə yeni çalarlar əlavə edir. Əsas məqsəd paytaxtın ekoloji cəhətdən sağlamlaşdırılmasına töhfə verməkdir.

Xalqın ümummilli lideri Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikası Prokurorlugu orqanlarının işçiləri də bu xeyirxah və nəcib tədbirdə həmişə yüksək əhval-ruhiyyə ilə iştirak ediblər. Ulu öndər tərəfindən əsası qoyulan ekoloji siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin Baş Prokurorluqda yaranmış ənənəyə uyğun olaraq prokurorluq orqanlarının işçiləri dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi və prokurorluq işçilərinin peşə bayramı münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçiriblər.

Tədbir çərçivəsində paytaxtın Suraxanı rayonu ərazisində - Heydər Əliyev adına hava limanına gedən yolun Zığ qəsəbəsinin yaxınlığında 1 hektar ərazidə mindən artıq müxtəlif növ ağaclar əkilib. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Ağacəkmə kampaniyasının gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.

**Baş Prokurorluq**

# Hərbi Prokurorluqda prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib




Oktyabrın 1-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında Respublika Hərbi Prokurorluğu, Bakı hərbi prokurorluğu işçilərinin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 101 illiyinə həsr olunan mərasim keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək böyük şəxsiyyətin əziz və unudulmaz xatirəsinə olan dərin ehtiramlarını bildirmişlər.

Mərasimi giriş nitqi ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev bildirmişdir ki, Azərbaycan Prokurorluğu 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsi ilə əlaqədar dövlət səviyyəsində heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməmişdir. Məhz ulu öndər Heydər Əliyevin imzaladığı 17 iyul 1998-ci il tarixli Sərəncam ilə "1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü"nün təsis edilməsi tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət səviyyəsində olan qayğının ifadəsi və prokurorluğun roluna rəsmi münasibətin təzahürü olmuşdur.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış müdrik siyasətini yeni müstəvidə və dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının



Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən nəhəng işlərdən, dövlətin daha da qüdrətlənməsindən, xalqın maddi və sosial rifah halının davamlı olaraq yaxşılaşdırılmasından danışılmışdır. Bildirilmişdir ki, dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinin, sarsılmaz qətiyyətinin və yorulmaz fəaliyyətinin xalqın mübarizliyi ilə sıx vəhdəti nəticəsində ölkəmizdə ümumi daxili məhsul, bütövlükdə sənaye, o cümlədən mədən sənayesi və qeyri-neft sektorunda sənaye istehsalı, kənd təsərrüfatı məhsulları və sairə istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda əhalinin pul gəlirləri, əməkhaqları, pensiyaları da dəfələrlə artmış, ölkə iqtisadiyyatına o cümlədən qeyri-neft sektoruna yüz milyardlarla manat həcmində sərmayələr qoyulmuş və dövlətin valyutası olan manatın məzənnəsinin sabitliyi təmin olunmuşdur. Ölkədə gedən sürətli inkişafın beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyi vurğulanmış, Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 35-ci yerə layiq görməsi qeyd olunmuşdur. Eyni zamanda dövlətin inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə üçüncü yerdə qərarlaşmışdır. Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında isə Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilmiş və ən çox islahat aparan ölkə elan olunmuşdur. Hesabata əsasən, Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyib, 190 ölkə sırasında 25-ci yerdə qərarlaşmaqla, dünyanın bir çox ölkələrini geridə qoyaraq, Müstəqil Dövlətlər Birliyi ölkələri sırasında lider mövqeyə yüksəlmişdir. Bütün bunlar qəti əminliklə onu deməyə əsas verir ki, möhtərəm Prezidentimizin apardığı daxili və xarici siyasətin alternativi yoxdur.

Bildirilmişdir ki, ölkənin hərtərəfli inkişafında və qazanılan ardıcıl uğurlarda millətinə və dövlətinə sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Dövlətin hərtərəfli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də müsbət təsir etdiyi bildirilərək, son illər Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi, hərbçilərin sosial vəziyyəti daha da yaxşılaşdırılması qeyd olumuşdur. Bunun nəticəsində vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmləndirilmiş, mənəvi-psixoloji hazırlıqlı, yüksək



əhval-ruhiyyəli, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Təsadüfi deyildir ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı yeni hesabatda Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda, ordumuz 52-ci yeri tutmuşdur.

Qeyd olunmuşdur ki, möhtərəm Prezident cənab İlham Əliyevin müdrik siyasəti və gərgin əməyi sayəsində ölkə iqtisadiyyatının durmadan inkişaf etməsi Hərbi Prokurorluğun maddi təminatının, eləcə də işçilərin sosial müdafiəsinin daha da gücləndirilməsinə zəmin yaratmış, müasir standartlara uyğun və zəruri avadanlıqlarla təchiz olunmuş binalar tikilib istifadəyə verilmiş, əməkdaşlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. Bütün bunlar hərbi prokurorluq işçilərinin xidməti vəzifələrinə vicdanla və daha məsuliyyətlə yanaşmalarına rəvac vermişdir. Hərbi prokurorluq orqanlarının fəaliyyəti Silahlı Qüvvələrdə hərbi intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər qanun pozuntularının qarşısının alınması və aradan qaldırılmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, o cümlədən hərbi idarəçilik strukturlarında hərbi qulluqçuların və mülki vətəndaşların hüquq və qanuni mənafelərinə zərər vuracaq əməllərin qarşısının alınmasına, işin səmərəliliyinin artırılmasına, eyni zamanda ordu quruculuğuna mənfi təsir edə biləcək nöqsanların və qanun pozuntularının aradan qaldırılmasına yönəldilmişdir. Beləliklə də, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər səmərəli olmuş, nəticə etibarı ilə Silahlı Qüvvələrdə törədilən cinayətlərin və digər qanun pozuntularının ildən-ilə azalması tendensiyası davam etmişdir.

Tədbirə yekun vuran Respublika Hərbi prokuroru Xanlar Vəliyev Prokurorluq orqanlarından yüksək diqqət və qayğısını əsirgəməyən Prezident, cənab İlham Əliyevə dərin ehtiramını ifadə edərək, dövlət başçısını əmin etmişdir ki, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu bundan sonra da Silahlı Qüvvələrdə nizam-intizamın və qanunçuluğun daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini daim gücləndirəcək, cinayətkarlığa və digər qanun pozuntularına, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək hallara qarşı mübarizədə barışmaz mövqe tutaraq üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəkdir.

**Hərbi Prokurorluq**

# Bakı şəhər prokurorluğunda prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib



Oktyabrın 1-də Bakı şəhər prokurorluğunda Azərbaycan Prokurorluğunun yaradılmasının 101-ci ildönümü və prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilmişdir.

Tədbirdə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov, ölkəmizdə ilk prokurorluq orqanının Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla fəaliyyətə başlamasını qeyd edərək Azərbaycan Prokurorluğunun keçdiyi mürəkkəb və şanlı inkişaf yolundan bəhs etmişdir.

Xüsusilə vurğulanmışdır ki, ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində aparılan əsaslı islahatlar Azərbaycan prokurorluğunu da əhatə etməklə müasir tələblərə cavab verən orqan kimi formalaşdırılmasına başlanmışdır.

Bildirilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluğa daim dövlət səviyyəsində diqqət və qayğı göstərilir, prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə Dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş Dövlət proqramı bu dövlət orqanının müasir dövrün tələbləri səviyyəsində inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur. Prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən işlər sırasında peşə bayramı ərəfəsində Səbail rayon prokurorluğunun müasir standartlara cavab verən yeni inzibati binasının tikilərək əməkdaşların istifadəsinə verilməsi xüsusi qeyd edilmişdir.

Diqqətə çatdırılmışdır ki, respublikada davamlı şəkildə həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq Bakı şəhər prokurorluğu da inkişaf yolu keçməklə öz fəaliyyətini təkmilləşdirmiş və qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi istiqamətində uğurlu nəticələr əldə etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, həyata keçirilən köklü islahatlar Azərbaycan prokurorluğunu və onun tərkib hissələrindən olan Bakı şəhər prokurorluğunu insan hüquq və azadlıqlarının layiqli müdafiəçisinə çevirən etibarlı dövlət orqanı kimi formalaşdırmışdır.

Tədbirdə çıxış edən Bakı şəhər prokurorunun müavini Azər Əsgərov prokurorluq orqanlarının keçdiyi şərəfli tarixdən, prokurorluğa göstərilən dövlət qayğısından bəhs edərək prokurorluq orqanlarının dövlət orqanları sistemindəki rolunu diqqətə çatdırmışlar.

Bakı şəhər prokuroru İlqar Abbasov yekunda prokurorluq orqanları işçilərinin peşə bayramı günü münasibəti ilə prokurorluq işçilərini bir daha təbrik edərək, prokurorluğa göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

İlqar Abbasov əmin etmişdir ki, Bakı şəhər prokurorluğu bundan sonra da dövlətçiliyimizin, suverenliyimizin qorunması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində yüksək məsuliyyət hissi ilə çalışacaqdır.

Tədbirin sonunda Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə barələrində həvəsləndirmə tədbirləri tətbiq edilmiş əməkdaşlara mükafatlar təqdim edilmişdir.

**Bakı şəhər prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib

Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü" və prokurorluq orqanlarının yaradılmasının 101 illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamı ilə milli prokurorluq orqanlarının yarandığı gün- oktyabr ayının 1-i “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd olunur. Prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına yüksək dövlət qayğısıının ifadəsi olmaqla yanaşı, həm də prokurorluq işçilərinin fəaliyyətinə verilən böyük dəyərin təzahürüdür.

Azərbaycan prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra milli prokurorluq orqanlarının ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının müdafiəsində cox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təşkilat kimi formalaşmışdır. 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratdı.

Həmin dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanıldı. “Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir”, – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanan "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası qanunlarının, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin və digər normativ-hüquqi aktların qəbul edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Qeyd olundu ki, ulu öndər Heydər Əliyevin prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir əməkdaşın xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaratmışdır. Ümummilli liderin "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız" sözlərini prokurorluq işçiləri öz fəaliyyətlərində əsas istiqamət kimi götürürlər.

Ölkəmizin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq prokurorluq orqanları da bu gün əvvəlki istənilən bir dövrdə olduğundan daha çox inkişaf etməklə müasirləşmiş və fəaliyyətini ən yüksək tələblər səviyyəsində təkmilləşdirməyə çalışmışdır. İnkişaf etmiş dünya dövlətlərinin bu qəbildən olan qurumlarına məxsus olan müsbət keyfiyyətləri özündə birləşdirən, prokurorluğun müasir dövrdə fəaliyyət istiqamətinə və roluna dair Avropa Şurasının, Beynəlxalq Prokurorlar Assosiasiyasının və digər nüfuzlu beynəlxalq təşkilatların müəyyən etdiyi standartlara cavab verən prokurorluq orqanları, dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına və insan hüquq və azadlıqlarının ən ümdə dəyər kimi qorunmasına xidmət edən, sıralarında öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirən, yüksək mənəvi, əxlaqi və peşə keyfiyyətlərinə malik olan, etik davranış qaydalarına riayət etməklə cəmiyyətin etimadını qazanmış dövlət qurumu kimi fəaliyyət göstərir. Dövtət başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön

plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir."

Dövlət başçısı cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində prokurorluğun fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və əhəmiyyətli tədbirlər həyata keçirilməklə əsaslı təkmilləşməyə və müasirləşməyə nail olunmuşdur.

Qeyd olundu ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquqmühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq, cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Bununla bağlı hüquqi maarifləndirmə işinin əhəmiyyətini qeyd edən Ali Məclisin Sədri demişdir: "Hüquqi maarif işinin təşkil edildiyi bir cəmiyyətdə işləmək də, yaşamaq da rahatdır və belə cəmiyyət inkişaf edir. Ona görə də bizim əsas vəzifələrimiz hüquq maarifi işini gücləndirməkdən ibarət olmalıdır". Ali Məclis Sədrinin proqram xarakterli tapşırıqlarını muxtar respublikanın prokurorluq orqanları özləri üçün prioritet vəzifə kimi qəbul edərək əsas diqqəti həyata keçirilən profilaktik tədbirlərin təsirliliyinin artırılmasına yönəltmişlər.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Sonda əminliklə ifadə olunmuşdur ki, dövlət qayğısını daim üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaq, Azərbaycan dövlətçiliyinə sadiq olaraq ölkəmizin müstəqilliyinin daha da möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak etməklə öz xidmətlərini layiqincə yerinə yetirəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Məhərrəm Talıbov, Prokurorluğun şöbə rəisləri və rayon (şəhər) prokurorları çıxış edərək prokurorluq orqanlarına göstərilən dövlət qayğısından danışmışlar.

Sonda bir qrup prokurorluq işçisi mükafatlandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Ölkənin davamlı tərəqqisinə aparan hərtərəfli islahatlar məhkəmə-hüquq sisteminin inkişafının yeni mərhələsini şərtləndirmişdir

*"Prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir".*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Müasir Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin uzaqgörən milli dövlətçilik ideya və düşüncələrinin tam əsaslılığının və birmənalı düzgünlüyünün triumfu və əyani sübutu olmaqla Ulu Öndərin siyasi kursunun, onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən dövrün reallıqları və gerçəklikləri nəzərə alınmaqla daha da zənginləşdirilərək həyata keçirilməsi nəticəsində uğurla inkişaf edir. Sosial-iqtisadi sahə ilə bağlı dövlət başçısının yanında keçirilmiş müşavirədə qeyd olunduğu kimi, iqtisadi vəziyyət çox müsbət olmaqla ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələr icra olunur.

Vətəndaşların rifahının daha da yüksəldilməsi istiqamətində çox önəmli kompleks tədbirlər görülməklə əməkhaqqı və pensiyalar əhəmiyyətli dərəcədə artırılmış, manatın məzənnəsi sabit olmaqla inflyasiya cəmi 2,5 faiz təşkil etmişdir. Minimum pensiyanın 70 faizdən çox, minimum əməkhaqqının isə iki dəfəyə yaxın artırılması nəticəsində alıcılıq qabiliyyətinə görə bu göstəricilər üzrə ölkənin MDB məkanında müvafiq olaraq birinci və ikinci yerlərdə qərarlaşmasını şərtləndirmişdir. Əhalinin sosial cəhətdən həssas təbəqəsi olan əlillərin, məcburi köçkünlərin, tələbə və gənclərin rifahının daha da yaxşılaşdırılması məsələlərinə xüsusi diqqət yetirilməklə, onlara ödənilən müavinət və təqaüdlər artırılaraq gəlirləri əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Ölkədə sosialyönümlü dövlət siyasətinin həyata keçirilməsində, əhalinin rifahının yüksəlməsində, sosial xidmətlərin asan, şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsində, insanları narahat edən problemlərin aradan qaldırılmasına nail olunmasında, dinlərarası və mədəniyyətlərarası münasibətlərin qurulmasında, milli-əxlaqi əsasların möhkəmləndirilməsində, idmanın və multikultural dəyərlərin, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, genişmiqyaslı proqram və layihələrin gerçəkləşdirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti və misilsiz xidmətləri xüsusi qeyd olunmalıdır.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmanı məhkəmə-hüquq islahatlarının yeni mərhələsinin başlanğıcı olmuşdur. Bu fərman konseptual əhəmiyyətli proqram xarakterli mühüm dövlət sənədi olmaqla ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatların məhkəmə-hüquq sisteminin inkişafında da yeni mərhələnin başlanması və bu sahədə islahatların genişləndirilməsi zərurətindən irəli gəlmişdir. Ölkə Prezidentinin Nazirlər Kabinetinin cari ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində qeyd etdiyi kimi, fərmanın icrası bu sahədə də ciddi dönüşə səbəb olacaqdır.

Məhkəmə-hüquq islahatlarının yeni mərhələsinin əsasını qoymaqla bu sahədə strateji hədəfləri müəyyən edərək həmin istiqamətdə görülən işlər üçün "yol xəritəsi" əhəmiyyətinə malik olan bu fərmanın tələblərindən irəli gələrək prokurorluq orqanlarının üzərinə düşən mühüm vəzifələrin vaxtında və səmərəli icrasını təmin etmək məqsədilə Baş Prokurorluq üzrə 4 aprel 2019-cu il tarixli sərəncamla işçi qrupu yaradılaraq müntəzəm iş aparılmışdır.

Eyni zamanda, Prezidentin 3 aprel 2019-cu il

tarixli fərmanının 2-4-cü bəndlərinin icrasını vaxtında və keyfiyyətlə təmin etmək məqsədilə Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi, Ali Məhkəmə və Baş Prokurorluğun 5 aprel 2019-cu il tarixli sərəncamı ilə həmin qurumların əməkdaşlarından ibarət tərkibdə birgə işçi qrupu yaradılaraq intensiv fəaliyyət göstərmişdir.

Fərmanın 2-ci hissəsinin icrası üzrə müvafiq təhlillər aparılmaqla təkliflərin hazırlanması məqsədilə birgə işçi qrupu tərəfindən qabaqcıl xarici ölkələrin qanunvericilik və məhkəmə təcrübəsi öyrənilməklə, yeni və mütərəqqi hüquq normalarının milli qanunvericiliyə implementasiya imkanları nəzərdən keçirilərək Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların İcrası məcəllələrinə 400-ə yaxın dəyişikliyin edilməsini nəzərdə tutan qanun layihələri hazırlanmışdır. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmandan irəli gələn məsələlərlə bağlı məhkəmələrdə dövlət ittihamının müdafiəsinin səmərəliliyinin daha da artırılması məqsədilə cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının məhkəməyə daxil olması, onların hazırlıq iclasları, həmin işlərin məhkəmədə baxılmasının nəticələrinin elektronlaşdırılmasını əhatə edən, cinayət işlərinə nəzarət, sürətli axtarış, cinayət işi üzrə vurulmuş ziyanın məbləğinin, cəzaların hədlərinin müəyyən olunması, cəzanın cinayətlərin məcmusu üzrə hesablanması, qısa müddətdə ümumiləşdirmələr aparılması və digər imkanları nəzərdə tutan "Elektron Dövlət İttihamı" proqramı hazırlanaraq cari il sentyabr ayının 24-də istifadəyə verilmişdir. Bu proqrama "Elektron Cinayət" proqramı inteqrasiya olunmuşdur ki, həmin funksiya cinayət işinin nömrəsinin daxil edilməsi ilə "Elektron Cinayət" proqramına daxil edilmiş cinayət işi materialları ilə tanış olmaq imkanı yaradır.

"Elektron Cinayət" proqramı 2015-ci ildə istifadəyə verildikdən sonra indiyədək 52 mindən çox sənəd, o cümlədən 7 minə yaxın cinayət işi və 45 mindən çox cinayət xarakterli materiallar qeydiyyatdan keçirilmişdir. Bu da prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini təsdiq edən göstəricilərdən biridir. Artıq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Bakı şəhər prokurorluğunun İstintaq idarəsi də daxil olmaqla "Elektron Cinayət" proqramından tam istifadə edilməsi təmin olunmuşdur.

"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmanla cinayət mühakimə icraatında dövlət ittihamçıları qarşısında qoyulmuş vəzifələrin daha səmərəli həyata keçirilməsi, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Baş Prokurorluq üzrə Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsində 2 böyük və 23 prokuror vəzifələrinin yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri ilə komplektləşdirilməsi üçün müsabiqə elan olunmaqla bu prosesin həyata keçirilməsi üçün Müsabiqə Komissiyası yaradılmışdır. Komissiyanın üzvləri olan prokurorluq işçiləri ilə yanaşı, onun işində Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin müvafiq üzvləri iştirak etməklə keçirilmiş müsabiqənin yekununda yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri seçilmiş, onlardan dövlət ittihamının müdafiəsi sahəsində iş təcrübəsi olmayanlar Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən birgə təşkil olunmuş müvafiq ixtisasartırma kursu keçmişlər. Müsabiqə nəticəsində müvəffəqiyyət qazanmış prokurorluq işçiləri Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin müvafiq vəzifələrinə təyin olunmuşlar.

Ölkə Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş, prokurorluğun daha da təkmilləşərək müasirləşdirilməsi dövrünün əsasını qoymuş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın icrası prokurorluğun hüquq sisteminin inkişafı prosesində rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətinin təşkili, insan hüquq və azadlıqlarının qorunması, fəaliyyətində müasir elmi-texniki nailiyyətlərdən geniş istiadə edilməsi, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bu dövlət orqanının fəaliyyətinin bütün istiqamətləri üzrə peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki təminatının yaxşılaşdırılması sahələrində ciddi nailiyyətlər əldə edilmişdir.

Tarixi inkişaf baxımından çox da böyük olmayan müddətdə respublikamızda məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi, hüquq sisteminin inkişafı istiqamətində mühüm tədbirlər görülməklə

prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün yüksək tələblərinə uyğun qurulması üçün son illər ərzində daha böyük işlər görülmüşdür. İslahatların həyata keçirilməsi, fəaliyyətdə səmərəliliyin artırılması üçün təkmilləşmənin aparılmasının, bütövlükdə müasirləşmənin sonu olmadığından bu proses bu gün də intensiv şəkildə davam etməkdədir.

### Prokurorluq işçilərinin peşə bayramları və yubileyləri yüksək dövlət səviyyəsində qeyd olunur

Bu gün Azərbaycanda milli prokurorluq orqanlarının yaranmasının 101-ci ili tamam olur. Bu gün prokurorluq işçiləri, prokurorluğun veteranları, bütün hüquq ictimaiyyəti üçün əlamətdar bir hadisə kimi böyük ruh yüksəkliyi ilə qeyd olunur.

Qürurverici tarixi həqiqətdir ki, 1918-ci il may ayının 28-də Şərqdə ilk dəfə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bəşəriyyətin inkişaf salnaməsində yeni parlaq bir səhifə açmaqla xalqımızın dünya dövlətçilik irsinə, demokratik dövlət quruculuğu prosesinə mühüm töhfəsi olmuşdur. Prokurorluq hər bir demokratik dövlətin zəruri atributlarından biri olduğundan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk aylarında həyata keçirilmiş dövlət orqanlarının strukturunun yaradılması prosesi çərçivəsində qəbul edilmiş ən mühüm qərarlardan biri də məhz prokurorluq orqanlarının təsis edilməsi ilə bağlı olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluğun təsis edilməsi yalnız o zaman üçün deyil, həmçinin sonrakı dövrlər üçün, bütövlükdə milli prokurorluq orqanlarımızın hazırkı yüksək inkişaf səviyyəsində formalaşdırılmasının əsasının qoyulması baxımından tarixi əhəmiyyətə malik hadisədir. Lakin Azərbaycan Prokurorluğunun ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təsisat kimi formalaşması yalnız Ümummilli Lider Heydər Əliyev tərəfindən hazırlanaraq həyata keçirilməyə başlanılmış, sonradan onun layiqli davamçısı, müdrik və uzaqgörən dövlət başçısı İlham Əliyev tərəfindən yeni dövrün tələbləri nəzərə alınmaqla müasir müstəvidə uğurla reallaşdırılan hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olmuşdur.

Milli prokurorluq orqanları 1918-ci ildə yaranaraq bu dövlət təsisatının tarixinin həmin vaxtdan hesablanmasına, idarəetmənin digər sahələrində müvafiq təcrübənin mövcud olmasına baxmayaraq, prokurorluq işçilərinin peşə bayramı çox illər qeyd olunmamışdır. Məhz Ümummilli Lider Heydər Əliyevin prokurorluğa və prokurorluq işçilərinə diqqətinin ifadəsi olan və tarixi gerçəkliyi əbədiləşdirən, 17 iyul 1998-ci il tarixli sərəncamı ilə milli prokurorluq orqanlarının yarandığı gün - oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilməklə qeyd olunmağa başlanmışdır. Prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi prokurorluq işçilərinə yüksək dövlət qayğısının təzahürü olmaqla prokurorluq orqanlarının fəaliyyətinə böyük dəyər verilməsinin təsdiqidir.

Ümummilli Lider prokurorluq işçilərinin peşə bayramını təsis etdikdən sonra prokurorluq işçilərinin hər il bu günün təntənəli şəkildə qeyd olunması ənənəsi yaranmışdır. Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş 28 noyabr 1998-ci il tarixli yığıncaqda Ümummilli Lider dərin məzmunlu nitq söyləyərək prokurorluq işçiləri üçün önəmli olan məsələlərə toxunmuş, onlara çox dəyərli tövsiyələr verərək prokurorluq orqanlarının ümdə vəzifələrini qeyd etmişdir. Heydər Əliyevin qeyd etdiyi dərin mənalı "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız” kəlamı prokurorluq işçilərində böyük ruh yüksəkliyi və iftixar hissi yaratmaqla yanaşı, onları öz fəaliyyətlərinə daha yüksək tələbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər edərək gündəlik fəaliyyət şüarına çevrilmişdir.

2018-ci ildə milli prokurorluq orqanlarının dövlətçilik tariximiz, ölkənin hüquq sisteminin, hüquq mühafizə orqanlarının və məhkəmə hakimiyyətinin formalaşdırılması və inkişaf tarixi üçün əlamətdar hadisə olan 100 illik yubileyi xüsusi təntənə ilə qeyd olundu. Azərbaycan Respublikasının 31 may 2018-ci il tarixli qanunu ilə "Azərbaycan prokurorluğunun 100 illiyi (1918-2018) Azərbaycan Respublikasının yubiley medalı” təsis edilməklə onun Əsasnaməsinin təsdiq edilməsi prokurorluq orqanlarına dövlət başçısı səviyyəsində göstərilən qayğının növbəti təsdiqi olmuşdur.

Yubiley medalı ilə prokurorluq orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində peşəkarlığı ilə fərqlənən, uzun müddət qüsursuz xidmət edən prokurorluq əməkdaşları və veteranları ilə yanaşı, prokurorluq orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər də təltif olunmuşlar.

## Cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılır, sabitlik təmin olunur

Prokurorluq orqanlarının daxili işlər, ədliyyə, dövlət təhlükəsizliyi və məhkəmə orqanları ilə əlaqəli şəkildə birgə fəaliyyətinin nəticəsi olaraq ölkədə dayanıqlı ictimai-siyasi sabitlik qorunaraq dövlət maraqlarının müdafiəsi, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılmaqla kriminogen durumun stabilliyi və bütün mənfi təzahürlərin qarşısının alınması təmin edilir.

Görülmüş səmərəli birgə tədbirlərin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və xarakterində müsbət cəhətlər möhkəmlənmiş, cari ilin birinci yarımilində qeydə alınmış bir sıra cinayət növlərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə azalmışdır.

Əvvəlki illərdə bağlı qalmış ağır və xüsusilə ağır cinayətlərin, qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə və adam öldürməyə cəhd cinayətlərinin açılması istiqamətində görülən məqsədyönlü intensiv istintaq tədbirləri, Baş Prokurorluqda bu işlərə rəhbərliyi həyata keçirən idarənin zona prokurorlarının yerlərə ezam olunaraq istintaqın planlaşdırılmasında və təşkilində əməli kömək göstərmələri sayəsində cari ilin birinci yarımilinin göstəriciləri ötən ilin müvafiq dövrünə nisbətən xeyli artmışdır.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi dövlət siyasətinin və strateji inkişaf konsepsiyasının prioritetlərinə uyğun olaraq ölkədə korrupsiyaya qarşı ardıcıl və sistemli mübarizə aparılmaqla, bu sosial bəlaya qarşı əks-təsir mexanizmlərindən daha geniş istifadə edilməklə onun baş verməsinə səbəb olan və şərait yaradan halların aradan qaldırılması istiqamətində mühüm islahatlar, institusional, struktur və təşkilati tədbirlər davam etdirilmişdir. Korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən önəmli istiqaməti olaraq bu sahədə səmərəliliyinin artırılması və daha intensiv tədbirlərin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməklə işin effektivliyinin yüksəlməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarına dövlət tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində göstərilən etimadın yüksəlməsinin nəticəsi olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə yeni vəzifələr həvalə edilməklə Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 2018-ci il tarixli fərmanı ilə bu qurumun Əsasnaməsində dəyişiklik edilərək ona cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin mərkəzləşmiş statistikasının elektron formada aparılmasını təşkil etmək, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətini təmin etmək tapşırılmışdır. Prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin səmərəli icrasının həyata keçirilməsi ilə bağlı zəruri məsələlərin tənzimlənməsi məqsədilə Baş Prokurorluq üzrə 27 noyabr 2018-ci il tarixli əmrlə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin vahid məlumat bazasına dair” Təlimat və "Təqdim edilməli olan məlumatların Siyahısı” təsdiq edilmişdir.

Fərmanın icrası ilə bağlı görülən işlər çərçivəsində 2019-cu il sentyabrın 7-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Baş Prokurorluğun aidiyyəti struktur qurumlarının, o cümlədən Daxili İşlər, Vergilər, Fövqəladə Hallar və Ədliyyə nazirlikləri, habelə Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin nümayəndələrinin iştirakı ilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi və əlaqəli cinayətlərlə bağlı statistik məlumatların bir mərkəzdə toplanmasını təmin edəcək Vahid İnformasiya Bazasının təqdimat mərasimi keçirilmişdir. Vahid İnformasiya Bazası statistik məlumatların vahid mərkəzdə toplanmasını təmin etməklə yanaşı, əldə edilmiş informasiyanın müxtəlif parametrlər üzrə emalına imkan verir. Belə ki, proqramın geniş texniki imkanları qeyd edilən növ cinayətlərin ümumi dinamikasını izləməklə yanaşı, toplanan məlumatlar əsasında müxtəlif istiqamətlər üzrə analitik təhlillər aparılmasına və son nəticədə cinayətkarlığın bu növləri ilə mübarizə işinin daha keyfiyyətli təşkilinə şərait yaradacaqdır.

Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanlarına inamın artmasının nəticəsi olaraq ötən ilin peşə bayramından hazırkı dövrədək olan müddətdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə vətəndaşların 8118 müraciəti daxil olmuşdur. Onlar "Qaynar xətt" əlaqə mərkəzi üzrə müraciətlərin 3302-si nəzarətdə saxlanılmaqla aidiyyatı üzrə nazirlik, komitə və təşkilatlara göndərilmiş, 117-si prokurorluğun müvafiq struktur qurumlarında, 217-si isə Baş İdarədə araşdırılmış, korrupsiya ilə əlaqədar olmayan məsələlərlə bağlı 46 müraciət üzrə vətəndaşlara hüquqları izah edilmişdir. Həmin müraciətlərin 27-si üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanılaraq istintaq aparılmışdır. Həmçinin əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa olunmuş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir.

**Gənc kadrların müsabiqə əsasında təyinatı təkmilləşməyə rəvac vermişdir**

Prokurorluq orqanlarının inkişafı, yüksək beynəlxalq standartlar səviyyəsində təkmilləşərək hazırkı statusa malik dövlət təsisatı kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Kadr siyasətinin həyata keçirilməsi, yüksək ixtisaslı, peşəkar milli kadrların yetişdirilməsi, onların irəli çəkilməsi məsələlərinə hər zaman xüsusi əhəmiyyət verən Ulu Öndər 19 iyun 2001-ci il tarixli fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" təsdiq edərək prokurorluq orqanlarına işə qəbulun ən sivil və demokratik üsul olan müsabiqə yolu ilə, şəffaf prosedurlar əsasında aparılması qaydalarını müəyyən etmişdir. Prokurorluq orqanlarına işə qəbulun müsabiqə əsasında həyata keçirilməsi prokurorluğun kadr tərkibinin hərtərəfli, savadlı və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanları qarşısında müəyyən etdiyi, dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesinin uğurla həyata keçirilməsi üzrə zəruri tədbirlər görülərək gənc hüquqşünasların prokurorluğa işə qəbulu ilə bağlı mütəmadi olaraq müsabiqələr keçirilmişdir. Bu istiqamətdə görülən işlər prokurorluğun inkişafının sürətlənməsində əhəmiyyətli olmaqla, fəaliyyətimizin daha səmərəli qurulmasına imkan yaratmışdır. Bununla əlaqədar olaraq dövlət başçısı prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulunun prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsinə təkan verdiyini vurğulamışdır.

Gənclərə hərtərəfli diqqət və qayğının göstərilməsi, onların sosial-iqtisadi, elmi-mədəni və digər sahələrdə irəli çəkilməsi, potensiallarından daha geniş istifadə edilməsi ölkədə həyata keçirilən sosialyönümlü dövlət siyasətinin tərkib hissəsidir.

2002-ci ildən başlayaraq Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə prokurorluq orqanlarına qəbulla bağlı 19 müsabiqə keçirilmişdir. 2018-ci ildə müsabiqə yolu ilə 85, ümumilikdə isə uğur qazanmış 873 gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir ki, onlar da hazırda prokurorluq işçilərinin 67 faizini təşkil edir. Diqqətəlayiq haldır ki, müsabiqə yolu ilə qulluğa qəbul olunmuş işçilərin bir çoxu yuxarı təsnifat vəzifələrə irəli çəkilmiş, o cümlədən 22 nəfəri ilk dəfə olaraq müstəqil rayon, şəhər və ərazi hərbi prokuroru vəzifələrinə təyin edilmişlər.

Ötən illərin təcrübəsi nəzərə alınaraq, müsabiqənin sənəd qəbulu mərhələsinin sadələşdirilməsi məqsədilə Baş Prokurorluq üzrə 7 sentyabr 2015-ci il tarixli əmrlə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları"nda dəyişikliklər edilmişdir.

2019-cu il fevral ayının 18-də prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən şəxslər üçün 80 vakant ştat vahidi üzrə elan edilmiş növbəti 20-ci müsabiqə çərçivəsində sənədlərin qəbulu prosesi 2019-cu ilin avqust ayının 2-də başa çatmışdır. Sənəd qəbulu mərhələsinin sadələşdirilməsi nəticəsində müsabiqə şərtlərinə cavab verən 301 namizədin (o cümlədən 39 qadın) sənədləri qəbul edilmişdir. Avqust ayının 9-da müsabiqənin ilkin

mərhələsi olan test imtahanı, 21-də isə ikinci - yazılı imtahan mərhələsi keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyası Dövlət İmtahan Mərkəzi ilə birlikdə imtahanın birinci - test mərhələsinin və komissiya tərəfindən yazılı mərhələsinin tam aşkarlıq şəraitində, şəffaf üsullarla, obyektiv prosedurlar əsasında və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün bütün zəruri tədbirləri təmin etmişdir. Vahid auditoriyada - Bakı İdman Sarayında keçirilən imtahanı 17 dövlət qurumunun, qeyri-hökumət və beynəlxalq təşkilatın, həmçinin 8 kütləvi informasiya vasitəsinin nümayəndələri müşahidə etmişlər.

İndiyədək ictimai köməkçi qismində fəaliyyət göstərməsi ilə bağlı 145 tələbənin müraciəti qeydiyyata alınmış və onlardan 100 nəfəri prokurorluğun müvafiq struktur qurumlarında fəaliyyətə qəbul olunmuşdur. Müraciət etmiş gənclərin əksəriyyəti Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin, bir qismi isə xarici dövlətlərin ali təhsil müəssisələrinin tələbəsidir.

### Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinə diqqət və qayğı daha da artırılmışdır

Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbuluna xüsusi qayğı göstərilməklə, daxil olan hər bir ərizə və şikayətlərə diqqətlə yanaşılır. Bu da ölkədə dövlət başçısı tərəfindən uğurla həyata keçirilən siyasətin tələblərindən irəli gəlir. Müraciətlərə baxılması və vətəndaşların qəbulunun təşkili və həyata keçirilməsi üzrə fəaliyyət ölkə Prezidentinin rəhbər göstəriş və tövsiyələrinə uyğun olaraq qurulmaqla, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun, digər qanunvericiliyin tələblərinə tam və dəqiq əməl edilməklə aparılır.

Həmin sahədə fəaliyyətin təkmilləşdirilməsinə, aşkarlığın və operativliyin artırılmasına önəmli əhəmiyyət verilərək bu məsələlər daim diqqət mərkəzində saxlanılmaqla, Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluğun fəaliyyət istiqamətləri üzrə vətəndaşların müraciətlərinin qəbulu və qeydə alınması işinin daha səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə "Çağrı Mərkəzi"nin yaradılması prosesi yekunlaşdırılaraq qısa müddətdə fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. "Çağrı Mərkəzi" həftənin bütün günləri 24 saat ərzində fasiləsiz fəaliyyət göstərməklə vətəndaşlara şəhərlərarası, respublikadaxili və mobil telefonlar vasitəsilə ödənişsiz zəng etmək imkanı yaradaraq, daxil olan hər bir müraciətin və zənglər zamanı aparılan telefon danışıqlarının səs yazılarının xüsusi proqram vasitəsilə qeydə alınması, hər bir daxil olmuş müraciət üzrə yoxlama aparılmaqla zəruri tədbirlərin görülməsi təmin ediləcəkdir.

Baş Prokurorluqda son bir il ərzində 1489 vətəndaşın qəbulu həyata keçirilmiş, o cümlədən 213 nəfər Baş Prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilmişdir. Eyni zamanda, ölkənin müxtəlif bölgələrində Baş Prokurorluğun rəhbərliyi tərəfindən mütəmadi olaraq əhalinin səyyar qəbulu keçirilməklə vətəndaşların qaldırdıqları məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə görülən tədbirlər müntəzəm xarakterli olmaqla, cari ilin ötən doqquz ayı ərzində bölgələrdə Baş Prokurorluğun rəhbərliyi tərəfindən keçirilmiş on səkkiz səyyar qəbul zamanı 300 vətəndaş qəbul edilmiş, onlardan daxil olmuş 261 müraciətdən 251-i prokurorluğun icraatına qəbul edilmiş, 10-u isə baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir. Həmin qəbullar zamanı vətəndaşlardan daxil olmuş müraciətlərin hərtərəfli araşdırılması və qısa müddətdə qanuni həlli üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Bir sözlə, prokurorluq işçiləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosialyönümlü dövlət siyasətini tam dəstəkləyərək, bundan sonra da ölkənin davamlı tərəqqisinin təmin edilməsi üçün həyata keçirilən hərtərəfli islahatlar konsepsiyasının reallaşdırılmasına, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə, ölkənin hüquq sisteminin möhkəmləndirilməsinə və hüquqi dövlət quruculuğu prosesinin sürətləndirilməsinə, prokurorluğun fəaliyyətinin ən yüksək dünya standartları səviyyəsində təkmilləşdirilməsinə çalışaraq, üzərlərinə düşən vəzifələri yüksək məsuliyyət hissi ilə icra etməklə dövlət müstəqilliyimizin və suverenliyimizin etibarlı müdafiəsinə, ictimai-siyasi sabitliyin qorunmasına, qanunçuluğun və təhlükəsizliyin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının təmin edilməsinə xidmət edəcəklər.

**Zakir Qaralov,**
*Azərbaycan Respublikasının Baş prokuroru,*
*I dərəcəli dövlət ədliyyə müşaviri*

"Azərbaycan" qəzeti, 1 oktyabr 2019-cu il

# Azərbaycan Prokurorluğunun zəngin və şərəfli tarixi

*"Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma, eyni zamanda, çox şərəfli, hörmətli peşədir".*

***Heydər Əliyev,***
***Ümummilli lider***

*"Prokurorluq orqanları qanunların icra və tətbiq olunmasına prokuror nəzarətini və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirməklə, istintaq və dövlət ittihamının müdafiəsi sahəsindəki fəaliyyəti ilə dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır".*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü haqqında" 17 iyul 1998-ci il tarixli sərəncama əsasən, öz peşə bayramlarını qeyd etmək imkanı əldə etmiş prokurorluğun kollektivi hər il olduğu kimi, bu il də növbəti peşə bayramını qeyd edir. Fəxr olunmalıdır ki, Azərbaycan Prokurorluğu hər zaman xalqına və dövlətinə sıx bağlılığı, şərəfli fəaliyyəti ilə seçilməklə, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində xüsusi xidmətlər göstərmişdir.

1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra dövlət quruculuğunda qarşıda duran mühüm vəzifələrdən biri də müstəqil dövlətin hüquq-mühafizə sisteminin, o cümlədən məhkəmə və prokurorluq orqanlarının yaradılması olduğundan, elə ilk vaxtlardan bu istiqamətdə mühüm işlər görülməyə başlandı. Azərbaycan hökumətinin qərarı ilə əvvəllər mövcud olmuş, o cümlədən Bakı Soveti dövründə yaradılmış məhkəmə və istintaq orqanlarının, eləcə də məhkəmə səlahiyyətli komissiyaların fəaliyyəti dayandırıldı və Bakı Dairə Məhkəməsinin, habelə ona tabe olan struktur qurumların işi bərpa olundu. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanları fəaliyyətə başladı və bununla da, Azərbaycan Prokurorluğunun əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyəti Prokurorluğunun fəaliyyəti əsasən məhkəmədə dövlət ittihamını müdafiə etməkdən və qanunların düzgün tətbiqinə nəzarət funksiyalarını həyata keçirməkdən ibarət olmuşdur. Bununla bərabər, prokuror müavinlərinə, həmçinin ibtidai istintaqın aparılmasına faktiki nəzarət vəzifəsi də həvalə edilmişdir.

Qeyd olunmalıdır ki, Cümhuriyyət dövründə hərbi məhkəmələrin nəzdində də Prokuror Nəzarəti qurumu mövcud olmuşdur. Sözügedən qurumun fəaliyyəti 14 aprel 1919-cu il tarixdə qəbul edilmiş "Hərbi və alay məhkəmələrinin yaradılması haqqında" Qanunla (Məhkəmeyi-hərbiyyə qanunu) tənzimlənmişdir. Hərbi Məhkəmənin prokuroru və daimi üzvləri nazirin əmri ilə hərbi prokuror, dairə məhkəməsi prokurorunun müavini, hərbi hakim və ya müstəntiq, alay hakiminin təhqiqat üzrə köməkçisi, yaxud vəkil vəzifələrində işləmiş şəxslərdən təyin olunurdular. Hərbi prokuror, onun müavinləri, hərbi müstəntiq isə ali hüquq təhsili almış və ya məhkəmə işində təcrübəsi olan şəxslərdən seçilirdi. Azərbaycan Ordusu 1919-cu ilin avqust ayına qədər Gəncə şəhərində yerləşdiyindən, Azərbaycan Hərbi Məhkəməsi və Azərbaycan Hərbi Prokurorluğu da orada fəaliyyət göstərmişdir. Ordu Bakı şəhərinə köçürüldükdən sonra, adları çəkilən qurumlar da fəaliyyətlərini Bakıda davam etdirmişlər. Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərsə də, respublikanın ədliyyə, məhkəmə və prokurorluq orqanlarının yaradılmasına xüsusi əhəmiyyət verilmişdir. Bununla belə, digər sahələr kimi, bu sahədə də qarşıya qoyulan ali məqsədlərə tam nail olunmamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra demokratik respublikanın mövcud olduğu dövrdə yaradılmış bütün struktur qurumların, o cümlədən prokurorluq

və istintaq orqanlarının yenidən yaradılması prosesi başladı.1920-ci il aprelin 28-də Azərbaycan Məhkəmə Palatası Prokurorunun tabeliyindəki prokurorlara "Hökumətin prokurorluğa və məhkəməyə aid olan xüsusi sərəncamı olmadan bütün əməkdaşlar öz yerlərində qalaraq, xidməti vəzifələrinin icrasını davam etdirməklə, sakitliyə riayət etsinlər" məzmunlu müraciət məktubu göndərildi. Azərbaycan İnqilab Komitəsinin 12 may 1920-ci il tarixli "Xalq Məhkəməsi haqqında" dekret ilə Azərbaycan Məhkəmə Palatası, Bakı və Gəncə dairə məhkəmələri, onların yanında fəaliyyət göstərən prokuror nəzarəti və istintaq hissələri ləğv edilərək, cinayət işləri üzrə məhkəmədə ittiham və müdafiə funksiyalarının həyata keçirilməsi üçün qəza və quberniya sovetlərinin icraiyyə komitələri yanında ittihamçılar və müdafiəçilər kollegiyaları yaradıldı. 11 iyun 1922-ci il tarixdə Azərbaycan MİK-in qəbul etdiyi "Azərbaycan SSR Dövlət Prokurorluğu haqqında" Dekretdə isə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının tərkibində xalq ədliyyə komissarı olan Baş prokurorun rəhbərlik etdiyi və kifayət qədər səlahiyyətlərə malik sovet prokurorluğu orqanının təsis edilməsi nəzərdə tutuldu. 17 noyabr 1923-cü il tarixdə, prokurorluğun təhqiqat və istintaq orqanlarının fəaliyyətinə nəzarət və məhkəmədə dövlət adından ittihamı müdafiə etmək funksiyalarına malik olduğunu özündə əks etdirən "Azərbaycan SSR-nin məhkəmə quruluşu haqqında" 1922-ci il Əsasnaməsinə dəyişikliklər edilərək, həmin hüquqi akta dövlət prokurorluğu barədə xüsusi bölmə əlavə olunmuş, bununla da, Xalq Ədliyyə Komissarlığının nəzdində prokurorluq təsis edilmişdir. 6 iyun 1927-ci il tarixdə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarlar Sovetinin təsdiq etdiyi "Məhkəmə quruluşu haqqında" yeni Əsasnamədə bütöv bir bölmə prokurorluğa həsr olunmaqla, Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının tərkibində Respublika Prokurorluğu İdarəsi yaradılmış və prokurorluğun ərazi orqanlarında dəyişikliklər edilərək, əvvəllər fəaliyyət göstərmiş mahal prokurorluqları birbaşa respublika prokuroruna tabe olan qəza və şəhər prokurorluqları ilə əvəz olunmuşdur. 1929-cu ilin iyun ayında isə Azərbaycan SSR-nin inzibati-ərazi bölgüsündə dəyişiklik edilməsi ilə əlaqədar qəza prokurorluqlarının əvəzinə yenidən mahal prokurorluqları yaradılmışdır.

1936-cı ildən etibarən SSRİ-də mərkəzi hakimiyyətin gücləndirilməsi, İttifaq respublikalarının səlahiyyətlərini məhdudlaşdırmaqla asılılığın artırılması məqsədilə prokurorluq sisteminin də mərkəzləşdirilməsi prosesi həyata keçirilmiş, SSRİ MİK və XKS-nin "SSR İttifaqı Xalq Ədliyyə Komissarlığının yaradılması haqqında" 20 iyul 1936-cı il tarixli qərarı ilə bütün müttəfiq respublikaların, o cümlədən, Azərbaycan SSR-nin prokurorluq və istintaq orqanları Xalq Ədliyyə Komissarlığının sturukturundan çıxarılaraq birbaşa SSR İttifaqı Prokurorluğunun tabeliyinə verilmişdir. İkinci dünya müharibəsi dövründə digər dövlət qurumları kimi prokurorluğun da fəaliyyəti bir müddət hərbi məqsədlərə, daha dəqiq desək, ölkənin hərbi gücünə xələl gətirə biləcək hallarla mübarizəyə yönəldilmişdir. 24 may 1955-ci il tarixdə "SSRİ-də prokuror nəzarəti haqqında" Əsasnamə təsdiq edilmiş və orada prokurorluğun əsas təyinatının qanunçuluğun təmin edilməsindən ibarət olması vurğulanmaqla, vəzifələr və fəaliyyət istiqamətləri konkret müəyyən olunmuşdur. 1979-cu il noyabrın 30-da isə "SSRİ Prokurorluğu haqqında" Qanun qəbul olunmuş və həmin vaxtadək qüvvədə olan normativ hüquqi aktlardan fərqli olaraq yeni qanunla prokurorluğun səlahiyyətləri xeyli genişləndirilərək fəaliyyət istiqamətləri və funksiyaları uzun müddətli, daha dəqiq və əhatəli tənzimlənmişdir. Qeyd olunan qanunun bəzi müddəalarından irəli gələn bir sıra məsələlərin əlavə tənzimlənməsinə ehtiyac yarandığından "SSRİ Prokurorluğu orqanları işçilərinin rütbə dərəcəsi haqqında" 28 oktyabr 1980-ci il tarixli, "SSRİ Prokurorluğu orqanları prokurorlarının və müstəntiqlərinin həvəsləndirilməsi və intizam məsuliyyəti haqqında" 17 fevral 1984-cü il tarixli və "Prokuror-kriminalistlər haqqında" 27 iyun 1984-cü il tarixli əsasnamələr və digər normativ hüquqi aktlar qəbul edilmişdir. Yeri gəlmişkən qeyd olunmalıdır ki, SSRİ Prokurorluğu sisteminə daxil olan Hərbi Prokurorluğun fəaliyyətini isə onun strukturunu, funksiya və səlahiyyətlərini müəyyən edən "Hərbi Prokurorluq haqqında" 14 dekabr 1966-cı il tarixli Əsasnamə xeyli müddət tənzimləmişdir. "Hərbi Prokurorluq haqqında" 4 avqust 1981-ci il tarixli Əsasnamə isə uzun müddət, hətta ölkəmiz müstəqillik əldə etdikdən sonra belə, müəyyən dövr ərzində Hərbi Prokurorluğun fəaliyyətinin hüquqi əsası olmuşdur.

## Müasir tələblərə cavab verən prokurorluğun formalaşması

Müstəqil Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi, o cümlədən olkəmizin ali qanunu olan Konstitusiyanın qəbul edilməsi, orada hakimiyyətlərin bölünməsi prinsipinin

təsbit olunması, qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, yeni idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının, o cümlədən prokurorluğun müasir dövrün tələblərinə uyğun formalaşdırılması ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı nəhəng işlərin sayəsində mümkün olmuşdur.

Azərbaycan Prokurorluğunun dövlətçiliyin maraqlarına, qanunun aliliyinə, insan hüquqlarının və azadlıqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericiliyin təkmilləşdirilməsi, maddi və sosial bazanın yaradılması, ölkəmizdə həyata keçirilən köklü islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının təşəbbüskarı və rəhbəri, dahi lider Heydər Əliyevin müdrik siyasətinin bəhrəsi olmuşdur. Hakimiyyətdə olduğu bütün dövrlərdə prokurorluğa böyük dəstək, yüksək diqqət və xüsusi qayğı göstərmiş ümummilli lider Heydər Əliyev deyirdi: “Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır...”. Ümummilli liderin söylədiyi bu dəyərli kəlamlar reallığa çevrilməklə davamlı xarakter aldı.

Sirr deyil ki, istər Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı, istərsə də ölkəmizin SSRİ-nin tərkibində olduğu dövrdə milli prokurorluq orqanları tam formalaşa, cəmiyyətdə və dövlətdə öz layiqli yerini tuta bilməmiş, onun milli maraqları və insan hüquqlarını layiqincə müdafiə edən təsisata çevrilməsi mümkün olmamış, müstəqilliyimizin ilk illərində isə ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında olan uçurum səbəbindən vəzifə uğrunda gedən mübarizələrdə bir alətə çevrilmişdir. Bununla belə, çətin dövrlərdə, eləcə də ölkəmizdə separatçılıq meyillərinin və dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında prokurorluq əməkdaşları da üzərlərinə düşən vəzifələri layiqincə icra edərək, dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törətmiş şəxslərin tez bir zamanda ifşa edilib məsuliyyətə cəlb olunmasına bütün güclərini səfərbər etməklə cəmiyyətin və dövlətin onlara olan etimadını doğrultmuşlar.

Müstəqilliyin ilk illərində ictimai münasibətlərin əhəmiyyətli dəyişməsi yeni qanunların qəbul edilməsini zəruri etsə də, bu prosesin qısa bir zamanda və ələlxüsus da, əlverişsiz ictimai-siyasi bir şəraitdə baş tutması mümkün olmadığı üçün, müvəqqəti olaraq əvvəlki qanunlardan istifadə edilməsi labüd olduğundan, 18 oktyabr 1991-ci il tarixdə qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının 4-cü maddəsində müvafiq qanunlar qəbul edilənədək keçmiş SSRİ qanunlarının respublikanın suverenliyinə və ərazi bütövlüyünə zidd gəlməyən həddə Azərbaycan Respublikasında qüvvəsini saxlamasına dair müddəalar təsbit edildi. Ulu öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə növbəti dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də köklü islahatlar həyata keçirilməyə başlandı. Hər kəsə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların əsasını və onun hüquqi bazasının təməlini ulu öndərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmiş və ali qanunda ilk dəfə olaraq cinayət mühakimə icraatında mühüm funksiyaları yerinə yetirməsi nəzərə alınmaqla ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, funksiyaları və səlahiyyət dairəsi qanunvericilik qaydasında təsbit olunmuşdur. Bir müddət sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etdi. Beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında”, “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında”, “Prokurorluğun rəsmi emblemi haqqında” Azərbaycan Respublikası qanunlarının və digər hüquqi aktların qəbul olunması ilə prokurorluğun fəaliyyətini tənzimləyən hüquqi baza dövrün tələblərinə və beynəlxalq standartlara uyğun formalaşdırıldı. Xüsusi vurğulanmalıdır ki, ulu öndər Heydər Əliyevin 19

iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin qəbul edilməsi və onun icraya yönəldilməsi Azərbaycan Prokurorluğunda aparılan islahatların ən böyük uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi əhəmiyyətli məsələnin hüquqi əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər rəhbər tutularaq, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsi nəticəsində prokurorluğun kadr tərkibinin yüksək mənəvi keyfiyyətlərə və dərin biliyə malik, geniş dünyagörüşü olan, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq, bir sözlə, püxtələşmiş gənc hüquqşünaslardan formalaşdırılmasına və mütəmadi olaraq yenilənməsinə müyəssər olunmuşdur. 19 sentyabr 2002-ci il tarixdə qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Referendum Aktı ilə Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsi prokurorluğun əhəmiyyətini daha da artırdı. Beləliklə, ölkədə görülən nəhəng işlər çərçivəsində həyata keçirilən mütərəqqi islahatlar sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında struktur və mahiyyət baxımından tamamilə yenidən qurulmuş, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilmiş, fəaliyyəti, eləcə də vəzifələri və səlahiyyətləri beynəlxalq standartlara uyğun və müasir tələblərə cavab verən Azərbaycan Prokurorluğu formalaşdırıldı. Göründüyü kimi, Azərbaycanı bütün bəlalardan və çətinliklərdən məharətlə qorumaqla, qısa zaman ərzində ölkəsini olduqca çətin vəziyyətdən yüksək peşəkarlıqla çıxarmış müdrik lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət qurumlarının, o cümlədən prokurorluğun müasir dövlət təsisatına çevrilməsi istiqamətində görülən əhəmiyyətli işlərin nəticəsində prokurorluq demokratik orqan kimi tamamilə yenidən təşkil olunaraq, dövlət orqanları sırasında öz layiqli yerini tutdu və bununla da, dövlətçiliyimizin əsas sütunlarından birinə çevrildi.

## Qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində Hərbi Prokurorluğun rolu

Hərbi prokurorluq orqanlarının fəaliyyəti Silahlı Qüvvələrdə hərbi intizamın möhkəmləndirilməsinə, cinayətlərin və digər qanun pozuntularının qarşısının alınması və aradan qaldırılmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, o cümlədən hərbi idarəçilik strukturlarında hərbi qulluqçuların və mülki vətəndaşların hüquq və qanuni mənafelərinə zərər vuracaq əməllərin qarşısının alınmasına, işin səmərəliliyinin artırılmasına, eyni zamanda, dövlətimizin qüdrətinə xələl gətirə biləcək hallarla mübarizəyə yönəlmişdir. Qeyd olunmalıdır ki, müstəqil Azərbaycanın prokurorluq, o cümlədən Hərbi Prokurorluq orqanlarının formalaşması prosesində, fəaliyyət istiqamətlərinin və səlahiyyətlərinin qanunvericiliklə müəyyən edilməsində yeni mərhələ ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə başlanmışdır. Bu məqsədlə, müxtəlif qanunlar qəbul edilmiş və Milli Hərbi Prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üçün bir sıra digər müstəsna əhəmiyyətli işlər görülmüşdür. Dərin minnətdarlıq hissi ilə qeyd etmək zəruridir ki, bu istiqamətdə aparılan islahatlar bu gün möhtərəm Prezidentimiz tərəfindən də müvəffəqiyyətlə davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Hərbi Prokurorluq orqanlarının işinin daha səmərəli təşkil olunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin müasir tələblərə uyğun aparılmasının təmin edilməsi məqsədilə imzaladığı "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Hərbi Prokurorluğa Silahlı Qüvvələrdə törədilən və hazırlanan cinayətlərin qarşısının alınmasında mühüm əhəmiyyətə malik əlavə səlahiyyətlərin verilməsi və buna uyğun olaraq mövcud strukturda müvafiq dəyişikliklər edilməklə yeni qurumların yaradılması Hərbi Prokurorluğun fəaliyyətinin səmərəliliyini şərtləndirdi. Möhtərəm Prezidentimizin dəyərli tövsiyələri və hərtərəfli dəstəyi ilə Azərbaycan Prokurorluğunda, o cümlədən Hərbi Prokurorluqda həyata keçirilən islahatlar bu orqanın milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun hərtərəfli müasirləşdirilməsi, səmərəli fəaliyyəti üçün bütün imkanların yaradılması ilə nəticələndi. Bütün bunlar hərbi prokurorluq işçilərinin xidməti vəzifələrinə vicdanla və daha ciddi yanaşmalarına rəvac verdi.

Hərbi Prokurorluğa və onun əməkdaşlarına dövlət səviyyəsində verilən yüksək dəyərin məntiqi nəticəsi olaraq, 2005-ci ildən başlayaraq, xüsusən də son dövrlərdə bu qurum fəaliyyətində ardıcıl nailiyyətlər əldə etmişdir. Qazanılan uğurlardan bəhs edərkən xüsusi vurğulanmalıdır ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində 1992-2004-cü illərdə törədilmiş qəsdən adam öldürmə və digər ağır, xüsusilə ağır cinayət hadisələri ilə bağlı

həmin dövrdə başlanılmış, uzun müddət istintaq aparılmasına baxmayaraq, səriştəsizlik və bəzi hallarda isə yarıtmaz fəaliyyət ucbatından iş üzrə ibtidai araşdırmanın yekunlaşdırılması mümkün olmadığından, icraatı dayandırılmış cinayət işlərinin 2005-ci ildən başlayaraq təcrübəli əməkdaşlar tərəfindən öyrənilməklə, bir neçəsi üzrə icraatın təzələnərək ibtidai istintaqın davam etdirilməsi, yekun qərarların qəbul olunması, bununla da ibtidai araşdırmanın qurtarması təmin edilmişdir. Belə ki, icraatı təzələnmiş işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində məharətlə həyata keçirilmiş prosessual rəhbərlik, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, eləcə də istintaqçıların peşəkarlığı və əzmi sayəsində Cinayət Məcəlləsinin qəsdən adam öldürmə maddəsi ilə istintaq olunan 30-a yaxın cinayət işinin ibtidai araşdırmasının yekunlaşdırılmasına, o cümlədən cinayət törətmiş şəxslərin ifşa olunmasına, faktlara və şəxslərin əməllərinə hüquqi qiymət verilməsinə nail olunmuşdur.

Qeyd etmək lazımdır ki, göstərilən cinayət işləri üzrə nöqsanlara və qanun pozuntularına yol vermiş prokurorluq işçiləri müvafiq məsuliyyətə cəlb edilmişlər. Yeri gəlmişkən, o da qeyd olunmalıdır ki, 2005-ci ildən etibarən Silahlı Qüvvələrdə səbəb və şəraitindən asılı olmayaraq baş vermiş hər bir ölüm hadisəsi üzrə cinayət işi başlanmış, iş üzrə hərtərəfli, tam, obyektiv və vaxtında ibtidai araşdırmanın aparılması, təqsirkar şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmələri, eləcə də hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin edilmişdir. Eyni zamanda, hər bir cinayət işi üzrə ibtidai araşdırmanın aparılması zamanı cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait müəyyən edilməklə, müvafiq vəzifəli şəxsin ünvanına belə halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərilərək həmin halların qarşısının alınması, eləcə də iş üzrə əməllərində cinayət tərkibi olmayan, lakin başqa hüquq pozuntusuna yol vermiş şəxslərin digər müvafiq məsuliyyətə cəlb edilməsi təmin olunmuşdur.

Sözsüz ki, sadalananlarla kifayətlənilməmiş, Silahlı Qüvvələrdə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində müxtəlif səmərəli tədbirlər həyata keçirilmişdir. Belə ki, Silahlı Qüvvələrdə cinayətkarlığın qarşısının alınması məqsədilə müxtəlif qəbildən olan cinayətlərin istintaq və məhkəmə təcrübəsi dövri olaraq ümumiləşdirilərək Respublika Hərbi Prokurorluğunun kollegiyalarında Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilməklə, kollegiyaların qərarlarına əsasən, həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair aidiyyatı qurumların rəhbərlərinə məlumat məktubları, komandanlıqlara təqdimatlar, ərazi hərbi prokurorlarına icmal məktublar göndərilmişdir.

Qeyd olunanlarla bərabər, Azərbaycan ordusunda və başqa silahlı birləşmələrdə insan hüquq və azadlıqlarına riayət olunmasını, qanunçuluğun və hüquq qaydasının qorunmasını təmin etmək məqsədilə hər il Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və digər hərbi qurumlarla birgə hazırladığı "Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə dair", "Cinayətkarlığa qarşı mübarizəyə dair", "Cinayət hadisələrinin qarşısının alınmasına dair", "Hərbi qulluqçularda vətənpərvərlik hisslərinin gücləndirilməsinə dair" və sair mövzular üzrə tədbirlər planları əsasında adıçəkilən qurumların yüksək vəzifəli əməkdaşlarının iştirakı ilə səmərəli işlər görülmüş, eləcə də, mütəmadi olaraq hərbi qulluqçuların fərdi qəbullarının keçirilməsi təmin olunmuşdur. Eyni zamanda, milli və rəsmi dövlət bayramlarında, digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçular və valideynlərinin iştirakı ilə bayram mərasimləri, o cümlədən konsertlər təşkil edilmiş və xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunmuşdur. Bundan başqa, əsgərlərin, xüsusən də hərbi xidmətə yeni başlayan şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hüquq və vəzifələri barədə tam məlumatlandırılmasını, o cümlədən bir-birinə münasibətdə həmişə nəzakətli və təmkinli olmasını, nizam-intizamın daha da möhkəmləndirilməsini və onların hərtərəfli maarifləndirilməsini təmin etmək məqsədilə "əsgər kitabçası" broşürləri hazırlanaraq, əsgərlərə çatdırılmışdır.

Bunlarla yanaşı, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsini və bununla əlaqədar görülən işlərin səmərəliliyini artırmaq məqsədilə müxtəlif istiqamətlər üzrə bir neçə – hərbi hissələrdə intihara meyilli hərbi qulluqçuların, belə şəxslərə mənfi təsir edə biləcək halların, onlarda psixi-

emosional gərginlik yaradacaq amillərin vaxtında aşkar edilməsi və baş verə biləcək hadisələrin ən qısa zamanda qarşısının alınması məqsədi ilə preventiv və profilaktik tədbirlərin icrasını nəzərdə tutan "Silahlı Qüvvələrdə suisid hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin həyata keçirilməsinə dair"; hauptvaxtlarda saxlanılan hərbi qulluqçuların qanunvericilikdə nəzərdə tutulmuş hüquqlarının və qanuni mənafelərinin qorunmasına, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarəti artırmaq, bu sahədə baş verə biləcək qanun pozuntularını vaxtında aşkar etməklə aradan qaldırılmasını təmin etmək məqsədilə "Hərbi qulluqçuların hauptvaxtlarda saxlanılması zamanı qanunlara əməl edilməsinə nəzarət qaydasında keçirilən yoxlamalara dair"; təhqiqat üzərində prosessual rəhbərliyin səmərəliliyini artırmaq, o cümlədən bu mühüm fəaliyyət istiqamətində işin daha da təkmilləşdirilməsini, nəzarətin gücləndirilməsini, baş verə biləcək pozuntu, nöqsan və çatışmazlıqların vaxtında müəyyən edilməklə, təxirəsalınmadan aradan qaldırılmasını təmin etmək məqsədilə "Hərbi qulluqçuların zədə almaları faktları ilə bağlı araşdırmaların aparılmasına prokuror nəzarətinin xüsusiyyətlərinə dair"; hərbi qulluqçuların qəbulu işini daha da təkmilləşdirmək, o cümlədən onların qayğı və problemləri ilə yerində maraqlanmaq, rastlaşdıqları çətinliklər barədə zamanında məlumat əldə etmək, eləcə də müraciətlərin operativliyini artırmaq məqsədi ilə "Ərazi hərbi prokurorluqlarının əməkdaşları tərəfindən hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkili və keçirilməsinə dair" və sair metodiki tövsiyələr, eləcə də digər maarifləndirici vəsaitlər hazırlanmış və hərbi qulluqçulara çatdırılmışdır.

Bundan əlavə, hərbi qulluqçuların, xüsusilə gənc əsgərlərin müraciət hüququnu həm asanlaşdırmaq, həm də real təmin etmək məqsədilə hərbi hissələrin ərazisində ən münasib yerlərdə "Etimad qutuları" qoyulmuş və onların üzərində müvafiq ərazi hərbi prokurorluqlarının məsul işçilərinin, növbətçi hissələrinin, habelə Respublika Hərbi Prokurorluğunun növbətçi hissəsinin əlaqə nömrələri yerləşdirilmişdir. Qeyd olunmalıdır ki, həmin nömrələr vasitəsilə edilən müraciətlərə və hərbi prokurorluq əməkdaşları tərəfindən qutulardan götürülmüş ərizələrə qanunvericiliklə müvafiq qaydada qeydə alınmaqla baxılması təmin edilmişdir. Təbii ki, yuxarıda sadalananlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun fəaliyyətini tam ehtiva etmir və ötən illər ərzində hərbi prokurorluq orqanları tərəfindən digər işlər də görülərək, qanunun aliliyi prinsipi rəhbər tutulmaqla Silahlı Qüvvələrdə qanun pozuntularına və cinayətkarlığa qarşı ciddi mübarizə aparılmışdır.

Xüsusi vurğulanmalıdır ki, dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan möhtəşəm islahatlar sayəsində dövlətimiz hərtərəfli qüdrətlənmiş, o cümlədən ordu quruculuğunda həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq, bu gün vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmləndirilmiş, mənəvi-psixoloji hazırlıqlı, yüksək əhval-ruhiyyəli, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Təsadüfi deyildir ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı yeni hesabatda Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda, ordumuz 52-ci yeri tutmuşdur. Bu isə Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusu olduğunu bir daha təsdiq etmişdir. Hər kəsə məlumdur ki, 2003-cü ildən bu günə qədər hərbi xərclərimiz 15 dəfə artmış, cənab Prezidentin təşəbbüsü ilə 20-dən çox hərbi zavod yaradılmış, bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal olunaraq nəinki ordumuzun potensialı gücləndirilmiş, eyni zamanda hərbi məhsullarımızın ixrac olunmasına da başlanılmışdır. Bununla bərabər, xarici ölkələrdən ən müasir zirehli texnikalar, gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, döyüş təyyarələri, nəqliyyat vasitələri, helikopterlər, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri, eləcə də digər texnika və silahlar alınmaqla Silahlı Qüvvələrimizin maddi-texniki bazası daha da gücləndirilmişdir. Qeyd olunanlar, yəni Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılmış köklü islahatlar və görülmüş nəhəng işlər, eləcə də Hərbi Prokurorluğun səmərəli fəaliyyəti son illər ölkədə hərbi xidmət əleyhinə olan cinayətlərin və hərbi qulluqçular tərəfindən törədilən digər cinayətlərin sayının əhəmiyyətli dərəcədə azalması ilə nəticələnmiş, fərarilik cinayətinin kökü isə demək olar ki, tamamilə kəsilmişdir. Belə ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğu üzrə qeydə alınmış müxtəlif qəbildən olan cinayətlərin müqayisəli təhlili aparılarkən məlum olmuşdur ki, 2003-cü illə müqayisədə 2018-ci ildə qeydə alınmış cinayətlərin ümumi sayı 43,2 faiz, müxtəlif səbəblərdən ölən hərbi

qulluqçuların sayı 18 faiz, qəsdən adam öldürmə cinayətləri 60 faiz, hərbi xidmətdən yayınma cinayətləri 88,5 faiz, fərarilik cinayətləri isə 200 dəfədən artıq azalmışdır. Vurğulanmalıdır ki, əksər cinayət növlərinin azalması tendensiyası bu il də davam etmişdir. 2018-ci ilin birinci yarımili ilə müqayisədə 2019-cu ilin müvafiq dövründə qeydə alınmış xüsusilə ağır cinayətlər üç dəfə, qəsdən adam öldürmə, qəsdən sağlamlığa ağır zərər vurma, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma və maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 50 faiz, hakimiyyətdən sui-istifadə etmə cinayətləri 29,3 faiz, öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma cinayətləri isə 7,7 faiz azalmışdır.

Silahlı Qüvvələrimizin daha da qüdrətlənməsi istiqamətində həyata keçirilən tədbirlər, əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi, əsgərlərin məişət işlərindən azad edilməsi, yüksək tələblərə cavab verən əsgər yataqxanalarının istifadəyə verilməsi, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, həmçinin onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli peşəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Yeri gəlmişkən qeyd edilməlidir ki, əsgərlərin məişət işlərindən azad olunması, onların daha səmərəli hərbi xidmət etmələri, mülki vətəndaşlardan ibarət peşəkar personalın formalaşdırdığı məişət şəraiti ilə təmin olunmaları ilə yanaşı, həm də minlərlə yeni iş yerlərinin açılması ilə nəticələnmişdir. Bütün bunlar, Silahlı Qüvvələrdə nizam-intizamın daha da möhkəmləndirilməsini şərtləndirmişdir.

## Prokurorluğa olan dövlət qayğısı ədalətin zəfərinə xidmət edir

Dərin minnətdarlıq hissləri ilə qeyd olunmalıdır ki, ulu öndərin hakimiyyətə qayıdışından bu günədək olan dövr ərzində prokurorluğa olan dövlət qayğısı hər zaman hiss edilmiş, bu da prokurorluq işçilərini həvəsləndirməklə bərabər, onların xidməti vəzifələrinin icrası zamanı daha məsuliyyətli olmaları ilə nəticələnmişdir. Qeyd etmək zəruridir ki, bütün hüquq- mühafizə orqanlarına, həmçinin prokurorluğa hərtərəfli diqqət və dövlət qayğısı göstərilməsi ənənəsi, bu gün də davam etdirilir. Müdrik rəhbər cənab İlham Əliyevin mütəmadi olaraq verdiyi səmərəli tövsiyələr əsasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarında yeni müstəvidə və yüksək intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur.

İftixar doğuran haldır ki, Azərbaycana ümummilli lider Heydər Əliyevin zəngin dövlət idarəçiliyi təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, ulu öndərin siyasətinə sadiqliyini öz müstəsna xidmətləri ilə əyani şəkildə sübuta yetirmiş, özünü xalqın birinci xidmətçisi hesab etməklə millətinə xidməti həyat amalına çevirmiş İlham Əliyev kimi aqil lider, dünya şöhrətli şəxsiyyət və peşəkar siyasətçi rəhbərlik edir. Məhz möhtərəm Prezident cənab İlham Əliyevin hərtərəfli elmi biliyi, uzaqgörən düşüncəsi, mükəmməl rəhbərlik qabiliyyəti və misilsiz xidmətləri sayəsində ölkəmiz dünyada böyük nüfuz qazanaraq ən qüdrətli dövlətlər sırasında özünəməxsus yerini müəyyən etməklə söz sahibinə çevrilmişdir. Möhtərəm Prezidentin vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşması, onların ciddi problemləri ilə bağlı məsələləri nəzarətə götürməsi, bir çox hallarda şəxsən qərar qəbul etməklə üzləşdikləri bütün çətinlikləri aradan qaldırması dövlətin və rəhbərinin vətəndaşa verdiyi yüksək dəyərin təcəssümüdür. Uzaqgörən strateji inkişaf kursunu müasir müstəvidə zənginləşdirməklə dövrün tələblərinə uyğun şəkildə reallaşdıran cənab İlham Əliyev təvazökarlığı, sadəliyi və verdiyi vədləri mütərəqqi əməllərlə doğrultmağı ilə xalqın sonsuz rəğbətini qazanmışdır. Bütün bunlar əminliklə onu deməyə əsas verir ki, müdrik liderimizin analoqu olmayan siyasəti alternativi istisna edir.

Hər kəsə məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin möhkəm siyasi iradəsinin, sarsılmaz qətiyyətinin və yorulmaz fəaliyyətinin xalqın mübarizliyi ilə sıx vəhdəti nəticəsində ölkəmizdə ümumi daxili məhsul, qeyri-neft sektoru, sənaye istehsalı, qeyri-neft sektorunda sənaye istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Qeyd olunanlarla bərabər, əhalinin pul gəlirləri, əməkhaqları, pensiyaları da dəfələrlə artmış, ölkə iqtisadiyyatına

o cümlədən qeyri-neft sektoruna sərmayələr qoyulmuş və manatın məzənnəsi uzun müddətdir ki, sabit qalmaqda davam etmişdir. Bütün bunların nəticəsində insanların rifahı daha da yaxşılaşdırılmış və təbii olaraq əhalinin sayı da artmaqla on milyonu keçmişdir. Vurğulanmalıdır ki, ölkəmizdə gedən sürətli inkişaf beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dövlətimizin qüdrətlənməsində, ölkəmizin hərtərəfli inkişafında və qazanılan ardıcıl uğurlarda zəngin elmi bilikləri, dərin düşüncəsi, peşəkar idarəçilik qabiliyyəti, millətinə və dövlətinə sədaqəti və digər məziyyətləri ilə örnək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Cənab Prezident İlham Əliyevin onu ölkənin Birinci vitse-prezidenti kimi mühüm dövlət postuna təyin etməsi milli maraqlara və dövlətimizin daha da qüdrətlənməsinə hesablanmış növbəti müdrik bir qərar idi. Hər kəsə məlumdur ki, insanların qəlbində Mehriban xanıma sonsuz inam və misilsiz etimad var. İnsanların öz qayğıları ilə bağlı müraciətlərinin böyük bir hissəsinin ona ünvanlanması bunun əyani göstəricisidir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən müdrik siyasət sayəsində dövlətimizin qüdrətlənməsi, iqtisadiyyatımızın durmadan güclənməsi prokurorluğa kifayət qədər maddi vəsait ayrılmasına imkan vermişdir ki, bu da Hərbi Prokurorluğun maddi təminatının, eləcə də işçilərin sosial müdafiəsinin daha da güclənməsinə zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı” da prokurorluğa göstərilən növbəti dövlət qayğısının təzahürü olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində inkişafın, təkmilləşmənin və hərtərəfli müasirləşmənin təməlini qoyan bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, fəaliyyətinin daha səmərəli təşkili, digər hüquq mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsi, eləcə də, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli şərait yaratdı ki, bu da prokurorluq işçilərində özünəgüvən hissini bir qədər də artırdı.

Vurğulanmalıdır ki, ötən illər ərzində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun maddi-texniki bazasının gücləndirilməsi, o cümlədən ardıcıl olaraq, Hərbi Prokurorluğun mərkəzi aparatının, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun, Qazax, Zaqatala və Gəncə hərbi prokurorluqlarının ən müasir standartlara uyğun tikilməklə bütün zəruri avadanlıqla təchiz olunmuş inzibati binalarla təmin olunması, əksər hərbi prokurorluqların inzibati binalarının əsaslı təmir edilməsi, əməkdaşların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması uğurla həyata keçirilən müdrik siyasətin bəhrəsidir.

Böyük qürur hissləri ilə qeyd olunmalıdır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 1 oktyabr 2018-ci il tarixdə Azərbaycan Prokurorluğunun yaranmasının yüz illik yubileyi münasibəti ilə Azərbaycan Respublikası Prokurorluq orqanlarının əməkdaşlarına və veteranlarına ünvanlanan təbrik müraciətində prokurorluq orqanlarının bir əsrlik tarixi ərzində keçdiyi inkşaf yolu növbəti dəfə yüksək qiymətləndirilmiş, prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğunun milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilməsi vurğulanmış, prokurorluq əməkdaşlarının bundan sonra da qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edəcəklərinə, cinayətkarlığa qarşı mübarizədə əzmkarlıq nümayiş etdirəcəklərinə və üzərlərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirəcəklərinə əminlik ifadə olunmuşdur.

Prokurorluğun fəaliyyətinin, həmçinin dövlətçiliyə və xalqa olan sədaqətinin dövlət tərəfindən daim yüksək dəyərləndirilməsi hər bir prokurorluq işçisini qürurlandırmaqla bərabər, üzərimizə daha böyük məsuliyyət qoyur. Odur ki, fəaliyyətində hər zaman ümummilli lider Heydər Əliyevin ali ideyalarını və möhtərəm Prezidentimiz İlham Əliyevin idarəçilik prinsiplərini rəhbər tutan Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivi dövlət başçısının prokurorluq orqanlarına göstərdiyi yüksək diqqət, xüsusi qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, Silahlı Qüvvələrdə insan hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, qanun pozuntularının qarşısının alınmasını və aradan qaldırılmasını, habelə cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirlərin görülməsini bundan sonra da ləyaqətlə davam etdirəcəkdir.

**Xanlar Vəliyev,**
*Azərbaycan Respublikasının Hərbi prokuroru,*
*ədliyyə general-leytenantı.*

“Xalq” qəzeti, 30 sentyabr 2019-cu il

# Azərbaycan Prokurorluğu qanunun aliliyini təmin edir

Ölkəmizin prokurorluq orqanlarının əməkdaşları və hüquq ictimaiyyəti böyük sevinc və fərəh hissi ilə Azərbaycan prokurorluq orqanlarının yaranmasının 101-ci ildönümünü qeyd edirlər.

Bu bir tarixi həqiqətdir ki, 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik dövlət quruluşu olaraq yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bəşəriyyətin inkişaf salnaməsində yeni parlaq bir səhifə açmaqla xalqımızın dünya dövlətçilik irsinə, parlamentli dövlət quruculuğu prosesinə mühüm töhfəsi olmuşdur. Bir çox dövlət təsisatı kimi, prokurorluq orqanlarının da yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövrünə təsadüf edir. Belə ki, 1918-ci il 1 oktyabr tarixli qərarla Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla əsası qoyulmuş milli prokurorluq orqanları öz 101 illik tarixi ərzində xalqımızı müstəqilliyi uğrunda apardığı mübarizə ilə bərabər çətin və mürəkkəb, eyni zamanda, şərəfli bir inkişaf yolu keçmişdir.

Xalq Cümhuriyyətinin süqutundan sonra sovet hakimiyyəti illərində prokurorluq orqanları öz funksiyasını müxtəlif formalarda həyata keçirmişdir.

1991-ci ilin oktyabrında müstəqillik haqqında bəyannamə qəbul edilsə də, Azərbaycan ilk vaxtlar böyük çətinliklərlə üzləşdi. Yalnız 1993-cü ildə xalqımızın təkidli tələbi ilə siyasi hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsində bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılaraq, dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilmişdir. Hələ böyük öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə cəmiyyətdə haqq və ədalətin zəfər çalması uğrunda böyük əzm və fədakarlıqla çalışaraq insan hüquq və azadlıqlarının müdafiəsinin ən ali forması kimi qanunlara eyni cür, dürüst əməl edilməsinə nail olmuşdur. O dövrdə Heydər Əliyevin təşəbbüsü ilə respublikada ali məktəblərin hüquq fakültəsinə qəbulda aparılan islahat nəticəsində sadə ailələrdən çıxan bilikli və istedadlı gənclər hüquqşünas ixtisası alaraq hüquq-mühafizə sistemində, o cümlədən prokurorluq orqanlarında işləməyə başlamış, yüksək vəzifələrə irəli çəkilmişlər. Ulu öndər sonralar nitqlərinin birində 1960, 1970, 1980-ci illərdə hüquq təhsili almış bir çox kadrların bu gün müstəqil dövlətçiliyimizə ləyaqətlə xidmət etmələrini xüsusi vurğulamışdır.

Böyük öndərin təşəbbüsü və yaxından iştirakı ilə hazırlanıb referendum yolu ilə 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğun fəaliyyətinə aid xüsusi maddə həsr olunmuş, onun yerini məhkəmə hakimiyyəti sistemində müəyyən etməklə statusunu, təşkili əsaslarını və fəaliyyət prinsiplərini, səlahiyyətlərini və vəzifələrini təsbit etmişdir. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının 1999-cu il tarixli qanunu qəbul olunmaqla prokurorluq sovetlər dönəminin məqsəd, vəzifə və funksiyalarından azad edilmiş, onun fəaliyyətinin demokratik prinsip, forma və metodları müəyyən edilmiş, sistem və təşkili, kadr təminatı və işçilərin sosial müdafiəsi müasir beynəlxalq standartlara uyğun tənzimlənmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarının rəsmiləşməsi, hər il 1 oktyabrın Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi qeyd olunması da məhz ulu öndərin xidmətidir. Böyük öndərin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına dövlət qayğısının ifadəsi olmaqla yanaşı, prokurorluq işçilərinin fəaliyyətinə yüksək dəyər verilməsinin təzahürüdür.

Nəhayət, ümummilli liderin 26 aprel 2000-ci ildə prokurorluğun rəhbər işçiləri ilə keçirdiyi müşavirədəki tarixi nitqində qeyd olunmuş, prokurorluq orqanları qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı aparılmış hərtərəfli islahatlar nəticəsində Azərbaycan Prokurorluğu həmin vaxtadək fəaliyyətində mövcud olmuş neqativ cəhətlərdən təmizlənməklə struktur və mahiyyət baxımından tam yenidən qurularaq müasir məzmunlu prinsip və metodlardan istifadə etməklə mütərəqqi normativ-hüquqi baza əsasında fəaliyyət göstərən, xalqımızın və dövlətçiliyimizin maraqlarının qorunmasına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən dövlət təsisatına çevrilmişdir.

Məhz prokurorluq işçiləri üçün taleyüklü əhəmiyyət kəsb edən sözügedən müşavirədən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli islahatlara start verildi, dövlət başçısının həmin görüşdəki proqram xarakterli çıxışından irəli gələn tövsiyə və göstərişləri əsasında məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluqda fəaliyyətin əsas istiqamətləri müəyyənləşdirildi. Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ da ulu öndər Heydər Əliyevin təklifi ilə 2002-ci ildə "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən verildi.

Heydər Əliyevin müstəqillik illərində respublikaya rəhbərlik etdiyi dövrdən başlayaraq bu gün uğurla davam etdirilən hərtərəfli kadr islahatları prosesində qulluğa qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi kadr korpusunun formalaşmasının ən demokratik və mütərəqqi vasitəsi kimi müstəsna əhəmiyyət kəsb edir. 19 iyun 2001-ci il tarixli Fərmanla təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, 2002-ci ildən başlayaraq Baş Prokurorluq

tərəfindən Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində, şəffaf prosedurlar əsasında, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin, beynəlxalq təşkilatlar və kütləvi informasiya vasitələrinin iştirakı ilə işə qəbul həyata keçirilir.

Ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni mərhələyə qaldıran Prezident İlham Əliyevin ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində gördüyü işlər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Son dövrdə ölkə başçısının rəhbərliyi altında ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq arenada böyük nüfuz sahibinə çevrilib.

Dünyada maliyyə və iqtisadi böhranın hələ də hökm sürməsinə baxmayaraq respublikamızda sosial-iqtisadi tərəqqinin təmin edilməsi, iqtisadi rəqabətqabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi, dünyada nüfuzunun artması, ölkəmizin ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi hər bir Azərbaycan vətəndaşını daha uğurlu gələcəyə ruhlandırır.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan Prokurorluğunun əsas fəaliyyət istiqamətlərindən biri də ümumbəşəri sosial bəla olan korrupsiyaya qarşı mübarizədir. Bu baxımdan, dövlət başçısının 3 mart 2004-cü il tarixli sərəncamı ilə Korrupsiyaya qarşı mübarizə idarəsinin Baş prokuror yanında yaradılması prokurorluğa dövlət səviyyəsində göstərilən inam və etimadla yanaşı, onun strukturunun daha da təkmilləşdirilməsinə yönəlmiş mühüm bir addım olmaqla, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və işin daha səmərəli təşkil olunmasında əhəmiyyətli rol oynayır.

Sonrakı illərdə prokurorluğa etimad və inamın yüksəldilməsinin nəticəsi olaraq prokurorluq orqanları qarşısında daha önəmli və mühüm vəzifələr qoyulmuş, Azərbaycan Respublikası Prezidentinin siyasi iradəsinə uyğun olaraq dövlətin fəaliyyətinin ən prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş korrupsiyaya qarşı mübarizə ilə bağlı cinayətlər üzrə ibtidai istintaq və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi işi bu dövlət təsisatına həvalə edilmiş, prokurorluğun fəaliyyətini tənzimləyən qanunvericiliyin daha da təkmilləşdirilməsi prosesi mütəmadi qaydada həyata keçirilmişdir.

Korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən prioritet istiqaməti olduğundan bu sahədə görülən işlərin səmərəliliyinin və effektivliyinin artırılması məsələlərinə xüsusi önəm verilir. Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı ardıcıl iş aparılaraq korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən vasitələrin davamlılığının təmin edilməsi, korrupsiyanın qarşısının alınmasında daha səmərəli nəticə verə bilən yeni mexanizmlərin tətbiqi, preventiv təsirə malik üsul və metodlardan daha geniş istifadə edilməsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, əhalinin dövlət orqanlarına inam və etimadının artırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Dövlətimizin başçısı tərəfindən prokurorluq orqanlarına daim yüksək diqqət və qayğı göstərilərək prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə 2008-ci il 27 sentyabr tarixli sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" bu sahədə ən önəmli hadisələrdən biri olmaqla yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoymuşdur.

Prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasında müstəsna əhəmiyyətə malik olan Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin reallaşdırılması nəticəsində prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin qurulması üçün hərtərəfli zəmin yaradılmışdır. Eləcə də prokurorluq işçilərinin sosial müdafiəsi gücləndirilərək prokurorluğun maddi-texniki təminatı yaxşılaşdırılmışdır. Prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər sırasında Gəncə və Sumqayıt şəhər prokurorluqlarının ən müasir standartlara cavab verən yeni inzibati binalarının ötən il Azərbaycan Prokurorluğu orqanlarının 100 illik yubileyi ərəfəsində, eləcə də cari il peşə bayramı ərəfəsində Səbail, Salyan və Lənkəran rayon prokurorluqlarının yeni inzibati binalarının istifadəyə verilməsi bu istiqamətdə atılan addımlardan biridir.

Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış, "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" və digər qanunvericilik aktlarının qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" əsasnamə və digər normativ sənədlərin dövlət başçısı tərəfindən təsdiq edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə prosesi yeni bir mərhələyə yüksəlmişdir.

Ötən dövrlər ərzində "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin düzgün təşkili, istintaq fəaliyyətinin təkmilləşdirilməsi, habelə

ibtidai araşdırmaya prosessual rəhbərliyin və istintaq üzərində prokuror nəzarəti, dövlət ittihamının müdafiəsi, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin səmərəliliyinin yüksəldilməsi, mövcud çatışmazlıqların təxirəsalınmadan aradan qaldırılmaqla ciddi nəzarət mexanizminin yaradılması, xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Prokurorluğun ölkəmizin hüquq sistemində rolunun artmasının, dövlətimizin daha yüksək inkişaf mərhələsində prokurorluq orqanlarına daha böyük inam və etimad göstərilməsinin nəticəsi olaraq bu dövlət təsisatı qarşısında yeni vəzifələrin müəyyən olunması prosesi həyata keçirilir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının 2016-cı il martın 1-dən qüvvəyə minmiş yeni İnzibati Xətalar Məcəlləsində qanunçuluğun təmin olunmasında prokuror nəzarətinə xüsusi önəm verilərək prokuror nəzarəti qanunçuluq prinsipinin təminatı kimi nəzərdə tutulmuşdur.

Yeni İnzibati Xətalar Məcəlləsində prokurorun inzibati sahədə fəaliyyət dairəsi xeyli genişləndirilmiş, prokuror nəzarətinə xüsusi yer verilməklə prokurorluq orqanlarının üzərinə bir sıra yeni vəzifələr qoyulmuş, prokurorun inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görməsi və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarəti həyata keçirilməsi müəyyən edilmişdir. İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrası ilə bağlı prokurorluğun fəaliyyətinə nə dərəcədə əhəmiyyət verildiyini göstərmək üçün təkcə onu qeyd etmək kifayətdir ki, yeni məcəllənin xüsusi hissəsinin 60-a yaxın maddəsində nəzərdə tutulmuş, idarəçilik qaydaları, iqtisadi fəaliyyət qaydaları əleyhinə, əhalinin siyasi, sosial, əmək və digər hüquqlarının pozulması ilə bağlı və başqa daha çox zərər vuran inzibati xətalar üzrə inzibati icraatın başlanması prokurorun müstəsna səlahiyyətinə aid edilmişdir.

Son dövrlərdə Azərbaycan Respublikası Prokurorluğunun digər hüquq-mühafizə orqanları, ilk növbədə isə daxili işlər, dövlət təhlükəsizlik, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli şəkildə birgə fəaliyyətinin nəticəsi olaraq cinayətkarlığın dinamikasına və xarakterinə ciddi keyfiyyət dəyişiklikləri baş verərək qeydə alınmış cinayətlərin, o cümlədən zorakı, ağır və xüsusilə ağır, cinayətkar qruplar tərəfindən törədilən cinayətlərin sayı ilbəil kəskin surətdə azalmış, mütəşəkkil dəstələr və cinayətkar birliklər tərəfindən törədilən cinayətlər bu xarakterli hadisələrin çox az faizini təşkil etmişdir. Görülmüş sistem xarakterli ardıcıl tədbirlərin nəticəsində kriminogen durum ciddi nəzarət altında saxlanılmaqla özbaşınalığın və qanunsuzluğun tüğyan etdiyi ötən əsrin 90-cı illərinin əvvəlləri ilə müqayisədə qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin sayı dəfələrlə azalmış, əvvəlki illərdə törədilməklə uzun müddət ərzində bağlı qalan bir çox ağır və xüsusilə ağır cinayətlərin açılması, çoxsaylı cinayətkar dəstələrin zərərsizləşdirilməsi və təqsirkar şəxslərin layiq olduqları məsuliyyətə cəlb edilməsi təmin olunmuşdur.

Müstəqil Azərbaycanın hərtərəfli inkişafı, onun qazandığı uğurlar, hüquq sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların, o cümlədən 177 ölkəni bir araya gətirən Beynəlxalq Prokurorlar Assosiasiyasının işində fəal iştirak etdiyi yüksək dəyərləndirilir. Təsadüfi deyildir ki, ötən il sentyabr ayının 9-dan 13-dək Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının 23-cü illik konfrans və yığıncağında Azərbaycan Respublikasının Prokurorluğu xüsusi mükafatla - Assosiasiyanın Fəxri Sertifikatı ilə təltif edilmişdir. Sertifikat ölkəmizdə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı həyata keçirilmiş mütərəqqi islahatlar, Azərbaycan Respublikası Prokurorluğu ilə Assosiasiya arasında əməkdaşlıq, o cümlədən 2018-ci ilin aprel ayında Bakı şəhərində keçirilmiş Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclasının yüksək səviyyədə təşkil olunduğu nəzərə alınmaqla verilmişdir.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının 31 may 2018-ci il tarixli qanunu ilə “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018-ci illər) Azərbaycan Respublikasının yubiley medalı təsis edilmiş və onun əsasnaməsi də təsdiq olunmuşdur. Eyni zamanda, 2018-ci il oktyabrın 1-də prokurorluq işçilərinin peşə bayramı günü və Milli Prokurorluğun yaradılmasının 100 illik yubileyi münasibətilə dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycan Respublikası prokurorluq orqanlarının əməkdaşlarına və veteranlarına təbrik məktubu ünvanlamışdır. Məktubda deyilir ki, prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir. Məhz atılan bu addımlar dövlət başçısı səviyyəsində prokurorluq işçilərinə göstərilən qayğının bir daha təsdiqidir.

Dövlət başçısı tərəfindən prokurorluq orqanlarına diqqət, qayğı və dəstək bu gün də davam edir. Məhz bu qayğıya cavab olaraq Xəzər rayon prokurorluğunun işçiləri də üzərilərinə düşən məsuliyyəti, möhtərəm Prezidentimizin yüksək etimadını dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa çalışırlar. Ölkəmizdə həyata keçirilən uğurlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən rayon prokurorluğunun işçiləri bundan sonra da rayonun digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyinin, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

**Fəxri Ələsgərov,**
*Xəzər rayon prokuroru,*
*baş ədliyyə müşaviri*

# Cinayət prosesində informasiya təhlükəsizliyinin təmin olunması

*(Məxfilik və konfidensiallıq)*

Müasir dövrdə hər bir fərdin, cəmiyyətin və dövlətin həyatında informasiyanın, informasiya resurslarının və texnologiyalarının rolunun müqayisəolunmaz səviyyədə artması informasiya təhlükəsizliyi məsələsini ön plana çıxarır. İnformasiya təhlükəsizliyi məsələsi səciyyəvi keyfiyyət xüsusiyyətləri ilə yeni aktual xarakter alır və milli təhlükəsizlik məsələsinə çevrilir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Kosepsiyası"nın 4.3.11-ci bəndində göstərilir ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün ölkəmizdə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturunu inkişaf etdirilir və möhkəmləndirilir. Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədi ilə obyektiv və mühüm məlumatlar toplanılır.

İnformasiya təhlükəsizliyini tənzimləmək məqsədi ilə dövlət sirri təşkil edən məlumatların mühafizəsinin hüquqi mexanizmləri daim sistemli surətdə təkmilləşdirilir. Eyni zamanda, hüquqi və inzibati mexanizmlər vətəndaşların hüquqlarını və dövlət strukturlarının fəaliyyəti üzərində demokratik nəzarəti təmin edir.

Respublikamızda demokratik islahatların, vətəndaş cəmiyyəti quruculuğunun daha da dərinləşdirildiyi, söz və məlumat azadlığının tam təmin edilməsi sahəsində məqsədyönlü addımlar atıldığı, dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirildiyi, habelə qlobal informasiya şəbəkəsinin mövcudluğu şəraitində və müasir dövrün geosiyasi reallıqları kontekstində dövlət sirrini təşkil edən "məxfi" məlumatların və digər konfidensial məlumatların, yəni istintaq və məhkəmə sirləri, şəxsi həyatın toxunul-mazlığı, peşə, kommersiya və qanunla qorunan digər sirləri təşkil edən məlumatların ibtidai istintaq zamanı müvafiq təhdidlərdən daha etibarlı mühafizəsi və informasiya təhlükəsizliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir.[1]

Məxfilik və konfidensiallıq hüquq ədəbiyyatında, eləcə də istintaq və məhkəmə təcrübəsində kifayət qədər araşdırılmamış hüquq institutlarındandır. Cinayət prosesində konfidensiallığın ayrı-ayrı növləri müəyyən qədər tədqiqat obyekti olsa da, bu məsələ demək olar ki, kompleks araşdırılmamışdır.[2]

Dilçi mütəxəssislər konfidensial sözünü "məxfi", "gizli" mənalarında tərcümə etmişlər.[3] Hüquq ədəbiyyatında "konfidensial", "sirr", "məxfi" və "gizli" anlayışlarının hüquqi təbiəti, məzmunu, mahiyyəti və qarşılıqlı münasibətləri ilə əlaqədar kifayət qədər elmi mübahisələr və problemlər vardır.[4] Lakin tədqiqat obyektimizə və qarşıya qoyduğumuz məqsədə bilavasitə aidiyyəti olmadığından, burada qanunvericilik aktlarının mövcud vəziyyətinin müqayisəli tədqiq edilməsi ilə kifayətlənilməsini məqsədəmüvafiq hesab edirik.

Nə qədər təəccüblü olsa da, qeyd edilməlidir ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində "istintaq sirri" anlayışından istifadə olunmamışdır. İstintaq sirri ilə əlaqədar prosessual münasibətləri hüquqi tənzimləyən Azərbaycan Respublikası CPM-nin 222-ci maddəsi "İbtidai araşdırma materiallarının yayılmasının yolverilməzliyi", istintaq sirrinin yayılmasına görə cinayət məsuliyyəti müəyyən edən Azərbaycan Respublikası CM-nin 300-cü maddəsi isə "Təhqiqat və ibtidai istintaq məlumatlarını yayma" adlanır.

"İstintaq sirri" anlayışından «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun 5.3-cü maddəsində istifadə olunur. Həmin maddədə göstərilir ki, dövlət, peşə, kommersiya və istintaq sirri təşkil edən məlumatların açıqlanmasına yol verilmir.

[1] Seyfulla Aslanov. İstintaq sirri (cinayət mühakimə icraatında konfidensiallığın hüquqi tənzimlənməsi – milli qanunvericilik və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ). Bakı, 2015, səh:229.

[2] Seyfulla Aslanov. Cinayət mühakimə icraatı zamanı konfidensiallığın qorunması (Azərbaycan Respublikası CPM-nin 23-cü fəsli) // Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. 1-ci cild (Ümumi hissə) – hüquq elmləri doktoru, professor Cəfər Mövsümovun redaktəsi ilə, Bakı: "Digesta" nəşriyyatı, 2003-cü il, səh: 660-668.

[3] Qarayev R.M. Rusca-Azərbaycanca hüquq lüğəti. Bakı, "Qanun" nəşriyyatı, 2000, səh.97.

[4] Seyfulla Aslanov. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnda "şəxsi həyat"in anlayışı və səciyyəvi keyfiyyət xüsusiyyətləri // "Hüquqi dövlət və qanun" jurnalı, 2013-cü il, № 11, səh: 25-34.

Bundan əlavə, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun 34.4-cü maddəsində də "istintaq sirri" hüquqi anlayış kimi işlədilmişdir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində "məxfi" anlayışından bir hal istisna olmaqla, demək olar ki, istifadə olunmamışdır. (Maddə 432.4. Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaqın bütün mərhələlərində aşağıdakı hüquqların təmin edilməsinin əsas prosessual təminatlarına riayət edilməlidir: 432.4.5. məxfilik hüququ). Göründüyü kimi, CPM-da "məxfi" sözünün işlədildiyi bu yeganə halda da, həmin anlayışın mahiyyətinə uyğun olmayaraq, "konfidensial" sözünün əvəzinə işlədilmişdir.

Eyni zamanda, CPM-da dövlət sirrini təşkil edən "məxfi" informasiyalar "konfidensial" informasiya kimi işlədilməklə, tamamilə fərqli hüquqi statusa və hüquqi rejimə malik olan bu iki anlayış əsassız olaraq eyniləşdirilmiş, onların səciyyəvi keyfiyyət xüsusiyyətləri nəzərə alınmamışdır. Belə ki, CPM-nin "Cinayət mühakimə icraatı zamanı konfidensiallığın qorunması" adlanan 23-cü fəsli üç maddədən ibarətdir: Şəxsi və ailə sirrinin qorunması (Maddə 199), Dövlət sirrinin qorunması (Maddə 200), Peşə və kommersiya sirrinin qorunması (Maddə 201).

Göründüyü kimi, dövlət sirri təşkil edən, yəni dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən "məxfi" informasiyalar "konfidensial" informasiyalardan, yəni istintaq və məhkəmə sirləri, şəxsi həyatın toxunulmazlığı, ailə, mənzil, yazışma, peşə (həkim, vəkil, notariat), kommersiya və qanunla qorunan digər sirlərdən fərqləndirilməmişdir. Başqa sözlə desək, mahiyyətinə, səciyyəvi keyfiyyət xüsusiyyətlərinə, xarakterinə və hüquqi rejiminə görə bir-birindən əsaslı surətdə fərqlənən anlayışlar eyniləşdirilmişdir.

Bunlardan əlavə, CPM müvafiq maddələri ilə digər qanunların maddələri arasında ziddiyyət yaranmışdır. Məsələn, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində informasiyaların təsnifatı aparılaraq göstərilir ki, əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyalar hüquqi rejiminə görə məxfi və gizli (konfidensial) olur. Dövlət sirri məxfi, vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat), kommersiya, istintaq və məhkəmə sirləri konfidensial xarakter daşıyır.

Qeyd olunanlar eynilə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 34.3 (Əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyalar hüquqi rejiminə görə məxfi və gizli (konfidensial) olur) və 34.4-cü (Dövlət sirri məxfi, vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədi ilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat), kommersiya, istintaq və məhkəmə sirləri konfidensial xarakter daşıyır) maddələrində də öz əksini tapmışdır.

CPM-dən fərqli olaraq, "Kommersiya sirri haqqında" Azərbaycan Respublikası Qanununda "konfidensial" anlayışı işlədilməli olan normalarda əsassız olaraq, "məxfi" anlayşından istifadə edilmişdir. Belə ki, həmin qanunun 3.0.2-ci (məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi) və 7.1-ci (Mülki-hüquq müqavilələrinə məxfilik haqqında şərtlərin daxil edilməsi, yaxud bu müqavilələrlə bərabər yazılı formada razılaşma bağlanması kommersiya sirri rejiminin müəyyən edilməsinin zəruri şərtidir.) maddələrində göstərilən informasiyalar hüquqi rejiminə görə dövlət sirrinə aid edilən "məxfi" məlumatlar olmayıb, əldə olunmasına qanunla məhdudiyyət qoyulan "konfidensial" məlumatlardır.

"Kommersiya sirri haqqında" Azərbaycan Respublikası Qanununda olduğu kimi, Azərbaycan Respublikasının Mülki Məcəlləsində də "məxfi" anlayşından hüquqi statusuna və hüquqi rejiminə uyğun istifadə edilməmişdir. Bunlara MM-nin 65.3.2-ci (Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin iştirakçıları: ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair məxfi məlumatı açıqlamamalıdırlar) və 106-1.6.1-ci (Səhmdar cəmiyyətinin səhmdarının vəzifələri aşağıdakılardır: qanuna və (və ya) nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq) maddələrində yol verilmişdir.

Odur ki, məxfilik və konfidensiallıq məsələlərinin vahid qaydada hüquqi tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının CPM-nin "Cinayət-prosessual qanunvericiliyin əsas anlayışları" adlanan 7-ci maddəsinə müvafiq əlavələr edilməlidir (məxfi informasiya – dövlət sirri təşkil edən, yəni dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən, yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən və məxfilik dərəcəsinə müvafiq olaraq "məxfi", "tam məxfi" və "xüsusi əhəmiyyətli" məxfilik qrifi müəyyənləşdirilən məlumatlar və ya belə məlumatların daşıyıcıları; konfidensial informasiya - istintaq və məhkəmə sirləri, şəxsi həyatın toxunulmazlığı, ailə, mənzil, yazışma, peşə (həkim, vəkil, notariat), kommersiya və qanunla qorunan digər sirlər, habelə vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə olunmasına məhdudiyyət qoyulan məlumatlar).

Bu sahədə diqqət tələb edən məsələlərdən biri də, Azərbaycan Respublikasının Cinayət-Prosessual

Məcəlləsi ilə dövlət sirri haqqında qanunvericilik aktlarının təkmilləşdirilməsi işinin qarşılıqlı əlaqədə aparılmamasından ibarətdir. Belə ki, Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədi ilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması ilə əlaqədar yaranan münasibətləri 7 sentyabr 2004-cü il tarixdə qəbul edilmiş «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununu ilə tənzimlənir. Lakin nəzərə almaq lazımdır ki, «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanunu ilə yanaşı, bu sahədə münasibətlərin hüquqi tənzimlənməsində "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar, Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 23 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı», 24 avqust 2002-ci il tarixli 771 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinin kütləvi informasiya vasitələrində yayılmasının qarşısının alınması Qaydası", 3 iyun 2005-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları", Azərbaycan Respublikası Prezidentinin «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2004-cü il 5 noyabr tarixli Fərmanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş "Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi Qaydası", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli, 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası", "Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması Qaydası", "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sirri ilə işləməyə buraxılması Qaydası", "Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması üzrə ekspert rəyinin hazırlanması və təsdiq edilməsi Qaydası" və "Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası nəzarətin həyata keçirilməsi Qaydaları" mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədi ilə dövlət sirrinin mühafizəsi, bu işin daha etibarlı təşkili və hüquqi tənzimlənməsi sahəsində normativ hüquqi tənzimləmənin daim təkmilləşdirilməsinə baxmayaraq, cinayət-prosessual qanunvericilik sahəsində qeyd olunan iş lazımı səviyyədə aparılmamışdır.

Digər tərəfdən, dövlət sirrinin mühafizəsi tənzimləyən qanunvericilik aktlarının sayının çoxluğu (yuxarıda həmin normativ hüquqi aktların yalnız bir hissəsi sadalanmışdır) cinayət təqibini həyata keçirən hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən onların sistemli surətdə öyrənilməsi işini əhəmiyyətli dərəcədə çətinləşdirir. Ali məktəblərdə bu sahədə tədrisin səviyyəsinin aşağı olması da müəyyən mənfi rol oynayır. Hər bir müstəntiqin və yaxud hüquqmühafizə orqanlarının digər əməkdaşının qarşısında bu sahədə normativ tənzimləməni kifayət səviyyədə öyrənmək və düzgün tətbiq etmək tələbi qoymaq, praktikada müəyyən çətinlik yaradır.

Odur ki, qeyd olunan problemin həllinə müəyyən yardım göstərilməsi məqsədilə tərəfimdən təkliflər paketi hazırlanmış, dövlət sirrinin mühafizəsi tənzimləyən qanunvericilik aktları ilə cinayət-prosessual qanunvericilik arasında müqayisəli təhlillər aparılmış, bu sahədə MDB ölkələrinin müsbət təcrübəsi öyrənilmişdir. Məsələn, Ukrayna Respublikasının 2012-ci il CPM-nin 517-518-ci maddələrində müəyyənləşdirilmiş hüquq normaları (məhkəmə və istintaq orqanlarının cinayət prosesində dövlət sirrinin mühafizəsinin təmin olunması sahəsində vəzifələri; dövlət sirri təşkil edən məlumat və məlumat daşıyıcılarının mühafizəsinin təmin edilməsinin dövlət sirri haqqında qanunvericiliklə müəyyən edilmiş vahid qaydası olan məxfilik rejiminə məhkəməyədək, habelə məhkəmə icraat zamanı ciddi əməl olunması; cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə təhqiqatçının, müstəntiqin, prokurorun və ya hakimin CPM-də nəzərdə tutulmuş hallarda və qaydada qəbul etdiyi prosessual qərarlarda dövlət sirrini açıqlayan məlumatların əks olunmaması; dövlət sirrini təşkil edən məlumatların və belə məlumatların daşıyıcılarının cinayət işinə və cinayət təqibi ilə bağlı digər materiallara əlavə edilməməsi, onların istintaq və məhkəmə baxışı dövründə qanunvericiliklə müəyyən olunmuş qaydada mühafizə olunması üçün müvafiq istintaq orqanının məxfi-rejimli struktur qurumunda saxlanılması; dövlət sirrini özündə əks etdirən məlumatlarla bağlı cinayət işləri üzrə ekspertizanın aparılmasının məxfilik rejiminin tələbləri nəzərə alınmaqla həyata keçirilməsi; əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sirrini özündə əks etdirən məlumatlarla bağlı cinayət işləri üzrə icraatda iştirakının xüsusi qaydaları və s.) nəzərə alınmaqla, Azərbaycan Respublikasının CPM-də müvafiq əlavə və dəyişikliklərin aparılması məqsədəmüvafiq hesab olunmalıdır.

Yuxarıda göstərilənlərə əsasən, dövlət sirrinin cinayət prosesində daha etibarlı mühafizəsi, məxfilik və konfidensiallıq məsələlərinin hüquq tənzimlənməsində vahid qayda yaradılması məqsədilə CPM ilə yanaşı digər qanunlarda və normativ hüquqi aktlarda müvafiq dəyişikliklər aparılmalı, onlar qanunvericilik texnikasının tələblərinə uyğun təkmilləşdirməlidir.

**Seyfulla Aslanov,**
*Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə), baş ədliyyə müşaviri*

# Məhkəmə-hüquq islahatları ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsini şərtləndirir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın israrlı tələbi ilə növbəti dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də köklü islahatlar həyata keçirilməyə başlanıldı. Məlum olduğu kimi, hüquqi islahatların təməlini ulu öndərimizin təşəbbüsü əsasında ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası təşkil etmişdir. Müstəqil Azərbaycanın ilk ali qanunu qəbul edildikdən sonra ardıcıl surətdə aparılan məhkəmə-hüquq islahatlarının əsas məqsədi ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət mexanizmində nüfuzlu və müstəqil bir təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi, cinayət və mülki mühakimə icraatında demokratik prinsiplərin həyata keçirilməsi, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətinin şəffaflığının təmin edilməsi və sair məsələlərin konseptual həlli olmuşdur. İslahatların ilkin mərhələsində görülmüş nəhəng işlər nəticəsində qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, üçpilləli məhkəmə sistemi təsis edilmiş, şəffaf müsabiqə əsasında yeni hakimlər seçilməklə müvafiq vəzifələrə təyin olunmuşlar. Yeri gəlmişkən qeyd olunmalıdır ki, bu müsabiqədə ölkənin tarixində ilk dəfə olaraq namizədlərin nəzəri biliklərinin səviyyəsi test üsulu ilə keçirilmiş imtahan vasitəsilə yoxlanılmışdır. Eyni zamanda qanunvericilikdə məhkəmə hakimiyyətinin müstəqilliyi və hakimlərin statusunun əsasları, habelə hüquqi dövlətə xas olan ədalət mühakiməsinin prinsipləri müəyyən edilmiş, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılmış, hakimlərin maddi və sosial təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Sirr deyil ki, ulu öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasətini yüksək peşəkarlıqla zamanın tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən möhtərəm prezidentimiz İlham Əliyevin zəngin elmi biliklərinin, siyasi iradəsinin, yorulmaz fəaliyyətinin və mükəmməl liderlik qabiliyyətinin, eləcə də iqtidarla xalq arasında olan sıx bağlılığın sayəsində dövlətimiz daha da qüdrətlənmişdir. Qüdrətli dövlətin güclü iqtisadiyyatı mövcud olan ictimai münasibətlərin yenilənməsinə və müasir ictimai münasibətlərin yaranmasına rəvac vermişdir ki, bu da müvafiq hüquqi bazanın təkmilləşdirilməsinin zəruriliyini şərtləndirmişdir. Məhkəmələrin işinin səmərəliliyinin artırılması və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 28 dekabr 2004-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Məhkəmə-Hüquq Şurası haqqında" və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanunlarını imzaladıqdan sonra, qeyd olunan normativ hüquqi aktlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə görülmüş tədbirlər nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən mahiyyətcə yeni qurum-Məhkəmə-Hüquq Şurası təşkil edilir və ilk dəfə yaradılmış Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim vəzifələrinə namizədlərin seçilməsi prosesinə başlanılır. Məhkəmə sisteminin təkmilləşdirilməsinin növbəti mərhələsində isə regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin və insanların məhkəmələrə olan inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlər tədricən öz həllini tapmışdır. Bu məqamda "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı sözügedən sahəyə misilsiz töhfə olmuşdur. Belə ki, qeyd olunan normativ hüquqi aktla ölkəmizin müxtəlif bölgələrində yeni Apellyasiya Məhkəmələri-Bakı şəhərində Bakı Apellyasiya Məhkəməsi, Gəncə şəhərində Gəncə Apellyasiya Məhkəməsi, Sumqayıt şəhərində Sumqayıt Apellyasiya Məhkəməsi, Şirvan şəhərində Şirvan Apellyasiya Məhkəməsi, Şəki şəhərində Şəki Apellyasiya Məhkəməsi və digər

məhkəmələr-Naxçıvan şəhərində Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi, Bakı şəhərində 2 saylı Bakı yerli iqtisad məhkəməsi, Sumqayıt şəhərində Sumqayıt yerli iqtisad məhkəməsi və Şəki şəhərində Şəki yerli iqtisad məhkəməsi təşkil edilmişdir. Bununla da, paytaxtdan kənarda yaşayan vətəndaşların məhkəmələrə, xüsusən də apellyasiya instansiyasi məhkəmələrinə müraciət etmələri daha da asan və əlçatan olmuşdur. Bundan başqa, adıçəkilən fərman imzalandıqdan sonra apellyasiya məhkəmələrinin, yerli iqtisad məhkəmələrinin, müvafiq hərbi məhkəmələrin ərazi yurisdiksiyası, yeni təşkil edilmiş məhkəmələrdə hakimlərin sayı müəyyən edilmiş, digər məhkəmələrin hakimlərinin sayı artırılmış və hakimlərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi üçün zəruri tədbirlər görülmüşdür. Həmçinin, ədalət mühakiməsinin həyata keçirilməsinin yüksək mənəvi və mədəni meyarlarının müəyyən edilməsi məqsədilə Hakimlərin Etik Davranış Kodeksi hazırlanmışdır. Sadalananlarla yanaşı, hakimlər tərəfindən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və məhkəmə təcrübəsində nəzərə alınması məqsədilə adıçəkilən məhkəmənin bir çox işləri Azərbaycan dilinə tərcümə olunmaqla, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarının ixtiyarına verilmişdir. Bütün bunlar şübhəsiz ki, cinayət mühakimə icraatının daha ədalətli həyata keçirilməsinin və insan hüquqlarının etibarlı müdafiəsinin təmin olunmasına xidmət etmişdir.

Bu sahədə görülən böyük əhəmiyyətli işlərin digər bir hüquqi əsası isə ölkə başçısının "Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" 15 iyul 2010-cu il tarixli Fərmanı olmuşdur. Qeyd olunan Fərmana əsasən, paytaxtla yanaşı əyalətlərdə də yeni ağır cinayətlər məhkəmələri-Bakı şəhərində Bakı Ağır Cinayətlər Məhkəməsi, Lənkəran şəhərində Lənkəran Ağır Cinayətlər Məhkəməsi, Gəncə şəhərində Gəncə Ağır Cinayətlər Məhkəməsi, Şəki şəhərində Şəki Ağır Cinayətlər Məhkəməsi və digər məhkəmələr - Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi, 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi, Gəncə İnzibati-İqtisadi Məhkəməsi, Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi, Şəki İnzibati-İqtisadi Məhkəməsi və Şirvan İnzibati-İqtisadi Məhkəməsi təşkil edildi. Eyni zamanda, inzibati-iqtisadi məhkəmələrin və ağır cinayətlər məhkəmələrinin ərazi yurisdiksiyası müəyyən edildi, Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin say tərkibi növbəti dəfə artırıldı.

Məlum olduğu kimi dövlət orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində insanların müxtəlif xidmətlərdən istifadə etmək imkanları asanlaşır, həmin xidmətlərin keyfiyyət və səmərəliliyi artır, informasiya cəmiyyətinin dayanıqlı və davamlı inkişafına etibarlı zəmin yaranır. Müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqinin məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin edilməsinə xidmət edəcəyini nəzərə alan müdrik lider cənab İlham Əliyev ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi məqsədi ilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncam imzalamışdır. Bununla da, məhkəmələrdə şəffaflığın artırılması, prosessual hərəkətlərin izlənilməsi, məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması, ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulu və ümumi olaraq məhkəmələrin fəaliyyətində informasiya texnologiyalarının tətbiqi və səmərəliliyin artırılması təmin olunmuşdur.

Cəzaların icrası sahəsində həyata keçirilən ardıcıl islahatlara baxmayaraq, aparılmış təhlillər göstərirdi ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti zəruri tələblər səviyyəsində təmin edilmir, ictimai işlər cəzasının icrası prosesində müəyyən çətinliklər yaranır, cəzanı icra edən orqan və müəssisələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından kifayət qədər istifadə olunmurdu. Bundan başqa, ibtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, eləcə də iqtisadi sahədə cinayətlərə görə həbs qətimkan tədbirindən geniş istifadə edilməsi, habelə sözügedən cinayətlərə görə azadlıqdan məhrum etmə cəzasının tətbiq olunması dinamikasının artması penitensiar müəssisələrin yüklən-

məsinə və həmin növ cəza təyin edilmiş məhkumların sayının çoxalmasına səbəb olurdu. Qeyd olunanlar, eləcə də dövlət idarəçilik sisteminin dövrün tələblərinə uyğun müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən mütərəqqi tədbirlər penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin də dövrün tələblərinə uyğun yenidən qurulmasının və səmərəli idarəetmənin təşkilinin zəruriliyini şərtləndirirdi. Bütün bunları nəzərə alan dövlət başçısı cənab İlham Əliyev penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, müasir texnoloji vasitələrin tətbiq edilməsi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncam imzaladı. Müdrik və humanist siyasətin növbəti təzahürü olan bu normativ hüquqi aktda penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi, idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirlərinin davam etdirilməsi, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələrinin tətbiq olunması, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə, ölkəmizdə ilk dəfə olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin yaradılması nəzərdə tutulurdu. Eyni zamanda, məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş qaydada çəkilməsi, məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət edilməsinin təmin olunması, bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması üçün tədbirlər görülməsi; ictimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısının alınması, ictimai işlər və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarətin təmin edilməsi; azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması imkanları araşdırılmaqla, bu fəaliyyətdə sahibkarların iştirakının stimullaşdırılması da sərəncamda öz əksini tapmışdır. Qeyd olunanlarla bərabər, sərəncamda penitensiar xidmətin yüksək peşəkar kadr korpusunun formalaşdırılması, vəzifələrə təyinatın daha çevik və qısa müddətdə aparılması, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi, işçilərin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, habelə onların sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur ki, bu, sözügedən sahədə çalışan işçilərin xidməti vəzifələrinə daha məsuliyyətlə yanaşmalarına rəvac vermişdir. Sərəncamda, həmçinin, ibtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunması, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi; cinayət qanunvericiliyinin prinsiplərinə və cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət edilməsi, cinayət təqibi və cəzaların icrası zamanı qeyri-prosessual münasibətlərə yol verilməməsi, korrupsiya və vəzifədən sui-istifadə hallarına qarşı daha ciddi mübarizə aparılması üçün zəruri tədbirlərin görülməsi də qeyd olunmuşdur ki, bütün bunlar əsassız həbsin qarşısının alınmasına və ədalətli cəza təyin olunmasının təmin edilməsinə hesablanmışdır. Sadalananlarla yanaşı, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması, cinayət hüquq normalarının sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəza növlərinin əlavə olunması, eləcə də mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi, həmçinin, törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması, azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz edilməsi, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad olunması və şərti məhkum etmə institutlarının daha geniş tətbiqi, həbsə alternativ olan qətimkan tədbirinin tətbiq edilməsi hallarının genişləndirilməsi, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz olunması qaydasının

sadələşdirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması istiqamətlərində qanun layihələrinin hazırlanması sərəncamda Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Baş Prokurorluğuna tövsiyə edildiyindən və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırıldığından, bununla əlaqədar qısa zamanda müvafiq qanun layihələri hazırlanıb Milli Məclisə təqdim edilmiş və mütərəqqi müddəaları özündə ehtiva edən yeni qanunlar qəbul olunmuşdur. Qeyd edilənlərdən əlavə, sərəncamda, Azərbaycan Respublikasının Baş Prokurorluğuna həbs qətimkan tədbirinin seçilməsi barədə vəsatətlərə baxılarkən ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün araşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatların müstəsna hallarda həbsin tətbiq edilməsinə dair cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş əsaslar mövcud olduqda verilməsi, məhkəmələrə isə həbs qətimkan tədbiri seçilərkən şəxsin ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və həmin qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğunun araşdırılması, həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimatlara baxarkən digər qətimkan tədbirlərinin seçilməsinin qeyri-mümkün olduğuna dair dəlillərin yoxlanılması, cəzanın növü və həddini müəyyən edərkən onun sosial ədalətin bərpası, məhkumun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə tətbiq edildiyinin rəhbər tutulması və cəzanın təyin edilməsi əsaslarına dair Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinə riayət olunmasına xüsusi diqqət yetirmələri tövsiyə olunmuşdur ki, bu dəyərli və humanist tövsiyələr möhtərəm Prezidentin insan hüquq və azadlıqlarına verdiyi yüksək qiymətin növbəti təzahürü idi.

Ölkəmizdə insan hüquq və azadlıqlarına xüsusi önəm verilməsindən bəhs edərkən, humanizm prinsiplərini daim uca tutan və sonsuz xeyirxah əməlləri ilə hər kəsin rəğbətini qazanan nəcib insanın-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu sahədə gördüyü əhəmiyyətli işləri, o cümlədən onun təşəbbüsü ilə qəbul olunan qanunları və amnistiya aktlarını da vurğulamaq yerinə düşər. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi fəaliyyət göstərdiyi dövrdə, məhz onun təşəbbüsü ilə bilavasitə insan hüquq və azadlıqlarının müdafiəsini, eləcə də vətəndaşların qanuni mənafelərinin qorunmasını özündə əks etdirən çoxsaylı qanunlar və on minlərlə insana şamil olunan 4 amnistiya aktı qəbul edilmişdir ki, bütün bunlar insan amilinə verilən böyük dəyərin təcəssümü olmuşdur.

Əldə olunan nailiyyətlər və qazanılan ardıcıl uğurlar fonunda ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında da yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri etdi. Buna görə də, möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu istiqamətdə yeni mərhələnin əsasını qoyan və məqsədi müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək üçün məhkəməyə müraciət imkanlarını daha da genişləndirmək, məhkəmələrin fəaliyyətində şəffaflığı artırmaq, məhkəmə icraatının effektivliyini yüksəltmək, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsini təmin etmək, süründürməçiliyin, eləcə də digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirləri gücləndirmək olan “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 3 aprel 2019-cu il tarixli Fərman imzaladı. Qəti əminliklə demək olar ki, cənab Prezidentin kompleks tədbirlərin görülməsini nəzərdə tutan sözügedən Fərmanının həyata keçirilməsi məhkəmələrin fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınmasında, qeyri-prosessual münasibətlərin, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılmasında, bu sahədə şəffaflığın artırılmasında müstəsna əhəmiyyət kəsb etməklə, ədalətli məhkəmə qərarlarının qəbul olunması, onların vaxtında və tam icra edilməsi, bununla da, vətəndaşların hüquqlarının və qanuni mənafelərinin məhkəmə müdafiəsinin daha etibarlı təmin olunması və ədalət mühakiməsinə olan ictimai etimadın artması ilə nəticələnəcəkdir.

Göründüyü kimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sahəsində islahatlar uğurla davam etdirilir ki, bütün bunlar da Azərbaycanımızın hərtərəfli qüdrətlənməsinə və xalqın rifahının daha da yaxşılaşdırılmasına hesablanmışdır.

**Firad Əliyev,**
*Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi – Hərbi Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri, ədliyyə müşaviri*

# Baş Prokurorluqda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilərin andiçmə mərasimi keçirilib





Dekabrın 28-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilərin andiçmə mərasimi keçirilmişdir.

Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilərin ilk növbədə Fəxri xiyabana gələrək xalqın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoymuşlar.

Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkənin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, ulu öndər Heydər Əliyevin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbul olunmuş gənc hüquqşünasların Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun







əhəmiyyətli hissəsini təşkil etməsi, onların tutduqları vəzifələrdə səmərəli fəaliyyəti, həmin gənclərin bir çoxunun rəhbər və yuxarı təsnifatlar üzrə vəzifələrə irəli çəkilməsi ölkə həyatının bütün sahələrində gənclərin əməyindən geniş istifadə olunması barədə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişlərinin icrasının nəticələridir.

Xüsusi vurğulanmışdır ki, bu gün şəffaf və ədalətli prosedurlar əsasında müsabiqə yolu ilə prokurorluq orqanlarında işləmək hüququ əldə etmiş gənclərin qazandığı uğurlar məhz ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan dövlət gənclər siyasəti nəticəsində mümkün olmuşdur.

Bildirilmişdir ki, hərtərəfli inkişaf edən ölkəmizdə gənclərin xarici dillərə, müasir informasiya-kommunikasiya texnologiyalarına yiyələnməsi, respublikanın ictimai-siyasi həyatında yaxından iştirakı və dövlət idarəetmə sistemində təmsil olunmaları üçün lazımi şərait yaradılmışdır.

Qeyd edilmişdir ki, prokurorluq orqanlarına qulluğa qəbulla bağlı 2019-cu ildə keçirilmiş müsabiqədə namizədlərin yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə,




hüquqi aktları düzgün tətbiq etmək bacarığına, sağlam mənəviyyata, məntiqi düşünmə qabiliyyətinə və prokurorluqda işləmək üçün zəruri olan digər keyfiyyətlərə malik olmaları, o cümlədən prokurorluqda qulluq keçmək arzuları, prokurorluq orqanlarında mövcud olan vakant ştat vahidləri nəzərə alınmaqla 29 gənc hüquqşünas qulluğa qəbul edilmişdir.

Diqqətə çatdırılmışdır ki, 2000-ci il aprelin 26-da ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən müşavirədə əsası qoyulmaqla, prokurorluqda bu gün də uğurla davam etdirilən hərtərəfli islahatlar prosesinin ən mühüm istiqamətlərindən biri kimi müsabiqə yolu ilə qulluğa qəbulun alternativi olmamaqla, bu yol prokurorluğun kadr tərkibinin komplektləşdirilməsinin ən mütərəqqi vasitəsidir. 2002-ci ildən başlayaraq müsabiqə yolu ilə qulluğa qəbul edilmiş 902 gənc mütəxəssis hazırda prokurorluq işçilərinin ümumi sayının 70 faizini təşkil edir.

Müsbət hal kimi qeyd edilmişdir ki, müsabiqə yolu ilə qulluğa qəbul edilmiş gənc hüquqşünaslardan 58 nəfəri xidməti fəaliyyətlərinin nümunəvi icrasına görə irəli çəkilərək hazırda prokurorluq orqanlarında müxtəlif rəhbər vəzifələrdə, o cümlədən 30 nəfər rayon (şəhər) və ərazi hərbi prokuroru vəzifələrində çalışır.



Azərbaycan Respublikası Baş prokurorunun müavini, Müsabiqə komissiyasının sədri Namiq Əsgərov qulluğa qəbulla əlaqədar müsabiqənin keçirilməsi ilə bağlı mərasim iştirakçılarına ətraflı məlumat verilmişdir.

Sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edərək, işə qəbul olunanlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli surətdə and içmişlər.

Müsabiqədə müvəffəqiyyət qazanan gənclər prokurorluğa işə qəbulun obyektiv, ədalətli və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün yaradılmış şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmiş və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz vermişlər.

Baş prokuror Zakir Qaralov mərasimə yekun vuraraq prokurorluğa qulluğa qəbul olunan gəncləri təbrik edərək, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarına əmin olduğunu bildirmişdir.

Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilmişdir.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən müxtəlif sahələr üzrə tədbirlər təşkil olunub

## Prokurorluq orqanlarının iş prinsipi ilə tanışlıq tələbələrdə maraq doğurub



Naxçıvan Dövlət Universitetinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilmiş "Hüquqşünaslıq" ixtisası üzrə 1-ci kurs tələbələri oktyabrın 29-da prokurorluqda olublar. Onlar əvvəlcə buradakı kitabxana ilə tanış olub, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumat alıblar. Sonra tələbələrə prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, slaydlar vasitəsilə cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri haqqında məlumatlar verilib.



Tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə əlaqədar sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb.

Bildirilib ki, Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair təsdiq olunan tədbirlər planına əsasən Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrıayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması həyata keçirilir. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və bu tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonda suallar cavablandırılıb.

Tələbələr həmin gün Naxçıvan şəhər prokurorluğunda da olublar.

## Naxçıvan Muxtar Respublikasında "Kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında əlaqələrin gücləndirilməsi" mövzusunda tədbir keçirilib



Oktyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən "Muxtar respublikanın kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında əlaqələrin gücləndirilməsi" mövzusunda tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Təhminə Babayeva muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının 2019-cu ilin ötən dövründəki fəaliyyəti barədə məlumatı diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova və Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov tədbirdə çıxış edərək mətbuat xidmətlərinin teleradio və qəzetlərlə əməkdaşlıq imkanlarını diqqətə çatdırıblar. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, "Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova və Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının üzvü Səməd Canbaxşıyev mətbuat xidmətləri ilə teleradio və qəzetlər arasında əməkdaşlığın qurulmasında yol verilən nöqsanlardan bəhs etmiş, qarşılıqlı əməkdaşlığın səmərəli təşkili ilə bağlı fikirlərini bildiriblər.

Diskussiya şəraitində keçən tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov, Vergilər Nazirliyinin aparat rəhbəri Əli Şabanov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Zərnigar Orucəliyeva, Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri Zəkəriyyə Gözəlov, Maliyyə Nazirliyinin aparat rəhbəri Tural Şirəlizadə və Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Arif Bayramov fəaliyyətin yeni tələblər səviyyəsində qurulması ilə əlaqədar təkliflər veriblər.

Müzakirələr zamanı Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Əlahiddə Ümumqoşun Ordunun, Daxili İşlər Nazirliyinin, Dövlət Miqrasiya Xidmətinin, Səhiyyə Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Statistika Komitəsinin mətbuat xidmətlərinin materiallarının keyfiyyətlə hazırlandığı diqqətə çatdırılmış, həmin əməkdaşlar tərəfindən informasiyalarla yanaşı, veriliş və məqalələrin də işləndiyi qeyd olunub. Digər mətbuat xidmətlərinin də fəaliyyətlərinin bu istiqamətdə qurulması, kəmiyyətdən çox keyfiyyətə diqqətin artırılmasının əhəmiyyəti vurğulanıb. Həmçinin mətbuat xidmətlərinin televiziya və qəzetlərdə yeni veriliş və rubrikaların açılması ilə bağlı təklifləri nəzərə alınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələrşöbəsinin müdiri, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədri Ülvi Hüseynli çıxış edərək deyib ki, Naxçıvan Muxtar RespublikasıAli Məclisi Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar RespublikasıAli Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının ilk iclası və media nümayəndələri ilə görüş keçirilib. Naxçıvan Muxtar Respublikası AliMəclisinin Sədri cənab Vasif Talıbov görüşdə kütləvi informasiya vasitələrində fəaliyyətin təşkili ilə bağlı mühüm vəzifələr müəyyənləşdirib, media ilə dövlət orqanlarının mətbuat xidmətləri arasında əlaqələrin gücləndirilməsi ilə bağlı tapşırıqlar verib. Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən muxtar respublikanın kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında əlaqələrin gücləndirilməsi mövzusunda tədbir keçirilir.

Qeyd olunub ki, təşkilatların fəaliyyəti barədə mətbuatda informasiyaların verilməsi ilə iş bitmir. Həyata keçirilən dövlət siyasətinin mahiyyəti açılmalı, təhlillər aparılmalı, görülən işlərin nəticəsi, əldə olunan uğurlar ictimaiyyətə çatdırılmalıdır. Mətbuat xidmətləri ictimaiyyəti maraqlandıran məsələlərlə bağlı məlumatları yubatmamalı, qəzet və teleradio əməkdaşları da dövlət qurumları tərəfindən təqdim edilən informasiyalara operativ münasibət göstərməli, həmin materialların aktuallığı və ictimai əhəmiyyəti nəzərə alınaraq ictimailəşdirilməli, qarşılıqlı əməkdaşlıq gücləndirilməlidir.

## "Sülh aylığı" çərçivəsində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları tərəfindən tədbirlər keçirilib

Sülh günü ilk dəfə 1981-ci ildə BMT tərəfindən təsis edilib və elə həmin ildən də sentyabrın hər üçüncü çərşənbə axşamı qeyd edilib. 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif edilən qətnaməyə əsasən məhz sentyabrın 21-i Sülh günü, ümumdünya atəşkəs günü kimi təqdim olunur. Sülh bəşəriyyətin ehtiyac duyduğu ən qiymətli vasitə olmaqla yanaşı, həm də BMT-nin ali vəzifəsidir. Adıçəkilən bəyannamədə deyilir: "O, danışıqlarımızın aparıcı qüvvəsidir. O, həm də sülhməramlı fəaliyyət və preventiv diplomatiyadan tutmuş insan haqları və inkişafın genişləndirilməsinə qədər dünyanın hər yerində gördüyümüz bütün işləri birləşdirən bir məfhumdur".

Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, zorakılıqlar baş alıb gedir, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir. Dünyanın müxtəlif qütblərində saysız-hesabsız insan qrupları üçün sülh hələ də əlçatmazdır. Azərbaycan xalqının Beynəlxalq Sülh Gününü qeyd etməsi isə, təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. 1994-cü ildən atəşkəs rejimi elan olunsa da, buna birtərəfli qaydada əməl edilir. Ermənistan nəinki atəşkəsə əməl etmir, üstəlik, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərini hələ də yerinə yetirilməməkdədir.

Sülh – hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdən biridir. Azərbaycan Respublikası bu anlayışı üstün tutularaq hər il avqust ayının 21-dən sentyabr ayının 21-dək "Sülh aylığı" kimi qeyq edir. Azərbaycan Respublikası Baş Prokurorluğunun 28 avqust 2019-cu il tarixli 13/308-3098 nömrəli məktubuna əsasən "Sülh aylığı" çərçivəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Belə ki, muxtar respublikanın prokurorluq orqanları tərəfindən kütləvi informasiya vasitələrində 4 halda, o cümlədən 1 halda “Naxçıvanın səsi radiosunda” 2 halda mətbuatda, 1 halda “Naxçıvan xəbərləri.com” internet portalında, 36 halda isə əhali ilə görüşlər keçirilib.

Həmçinin Naxçıvan şəhər prokurorluğu tərəfindən 22.08.2019-cu il tarixdə Naxçıvan şəhəri 3 saylı Mİİ-də, 29.08.2019-cu il tarixdə Qaraçuq kənd icra nümayəndəliyində, 05.09.2019-cu il tarixdə 2 saylı Sahə İnzibati Ərazi Dairəsində, 13.09.2019-cu il tarixdə 5 saylı MİI-də, 20.09.2019-cu il tarixdə 1 saylı Sahə İnzibati Ərazi Dairəsində, Şərur rayon prokurorluğu tərəfindən 22.08.2019-cu il tarixdə rayonun Kürçülü, 23.08.2019-cu il tarixdə Kürkənd, 26.08.2019-cu il tarixdə Muğancıq Mehrab, 20.09.2019-cu il tarixdə Muğancıq Müslüm kəndlərində, Babək rayon prokurorluğu tərəfindən 29.08.2019-cu il tarixdə Babək qəsəbəsində, 03.09.2019-cu il tarixdə rayonun Şıxmahmud, 10.09.2019-cu il tarixdə Hacıvar, 16.09.2019-cu il tarixdə Cəhri kəndlərində, Culfa rayon prokurorluğu tərəfindən 28.08.2019-cu il tarixdə rayonun Saltaq, 06.09.2019-cu il tarixdə Qazançı, 11.09.2019-cu il tarixdə Milax, 12.09.2019-cu ildə Teyvaz, 18.09.2019-cu il tarixdə Ərəfsə kəndində, Ordubad rayon prokurorluğu tərəfindən rayon İcra Hakimiyyətinin mətbu orqanı olan “El həyatı” qəzetinin 17.08.2019-cu il tarixli 34-cü sayında “İnsanlığın ən böyük dəyəri – Sülh”

mövzusunda məqalə dərc olunub, həmçinin 02.09.2019-cu il tarixdə rayonun Nüsnüs kəndində, 04.09.2019-cu il tarixdə Gənzə və Anabat, 06.09.2019-cu il tarixdə Dəstə, 10.09.2019-cu il tarixdə Yuxarı Əndəmic, 12.09.2019-cu il tarixdə Kələki, 16.09.2019-cu il tarixdə Biləv və Behrud kəndlərində, Şahbuz rayon prokurorluğu tərəfindən rayon İcra Hakimiyyətinin mətbu orqanı olan "Oğuz səsi" qəzetinin 18.09.2019-cu il tarixli 34-cü sayında "Sülh bəşəriyyətin arzu etdiyi dəyərlərdəndir" müvzusunda məqalə dərc olunub, həmçinin 28.08.2019-cu il tarixdə rayonun Ayrınc, 05.09.2019-cu il tarixdə Aşağı Qışlaq, 12.09.2019-cu il tarixdə Yuxarı Qışlaq kəndlərində, 19.09.2019-cu il tarixdə isə rayon uşaq kitabxanasında, Kəngərli rayon prokurorluğu tərəfindən 03.09.2019-cu il tarixdə rayonun Şahtaxtı, 09.09.2019-cu il tarixdə Xok kəndlərində, 13.09.2019-cu il tarixdə Qıvraq qəsəbəsində, 16.09.2019-cu il tarixdə Qıvraq qəsəbə tam orta məktəbində, 18.09.2019-cu il tarixdə Xok kənd tam orta məktəbində, 20.09.2019-cu il tarixdə Şahtaxtı kənd tam orta məktəbində, Sədərək rayon prokurorluğu tərəfindən isə 18.09.2019-cu il tarixdə "Naxçıvan xəbərləri.com" saytında "21-Sentyabr Beynəlxalaq Sülh Günüdür", 21.09.2019-cu il tarixdə "Naxçıvanın səsi" radiosunda "21-Sentyabr Beynəlxalaq Sülh Günüdür" mövzusunda çıxışlar edilib, həmçinin, 04.09.2019-cu il tarixdə Sədərək kəndində, 12.09.2019-cu il tarixlərdə rayonun Heydərabad qəsəbəsində, 20.09.2019-cu il tarixdə Qaraağac kəndində, vətəndaşlarla görüşlər keçirərək "21 sentyabr-Beynəlxalq Sülh Günüdür" mövzusunda söhbətlər aparılıb.

## Sədərək rayon prokurorluğu tərəfindən maarifləndirici tədbir keçirilib

Rayon prokurorluğunun təşkilatçılığı ilə oktyabr ayının 17-də Heydərabad qəsəbə tam orta məktəbində "Könüllü fəaliyyət və onun qanunla nizamlanması" mövzusunda tədbir keçirilib.



Tədbirdə rayon prokurorluğunun müstəntiqi Elvin Zeynalov bildirib ki, həyatda elə işlər var ki, qarşılıqsız, əvəzsiz yerinə yetirilir. Üstəlik bu işlərin görülməsi, insanın təkcə özü üçün yox digər insanlara, bütövlükdə cəmiyyətə köməklik məqsədi daşıyır. Buna da könüllü fəaliyyət deyilir. Dünyanın bir çox ölkəsində olduğu kimi ölkəmizdə də könüllü fəaliyyət hüquqla nizama salınmış, qanunla daha konkret vəziyyətə gətirilmişdir.

Bildirilib ki, könüllü fəaliyyətin hüquqi tənzimlənməsi və hüquqi əsasları 9 iyun 2009-cu il tarixdən qüvvədə olan "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qeyd edilən qanunun məqsədi ölkəmizdə hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətlərdir. Həmin qanunun normaları izah edilib.

Sonda Elvin Zeynalov qeyd edib ki, könüllü fəaliyyətin ölkəmizdə həyata keçirilməsinin sərhədləri beynəlxalq əməkdaşlıqla daha da genişləndirilir. Belə ki, Azərbaycan Respublikasında könüllü fəaliyyətin təşkilatçıları Azərbaycan Respublikasının ərazisində könüllü fəaliyyəti həyata keçirmək üçün xarici könüllüləri dəvət edə bilərlər. Beynəlxalq könüllü fəaliyyətin təşkilatçıları, habelə könüllü əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində könüllü fəaliyyətlə yalnız Azərbaycan Respublikasının könüllü fəaliyyət təşkilatçıları ilə birgə məşğul ola bilərlər. Qanunla həmçinin, Azərbaycan Respublikasında könüllü fəaliyyətin təşkilatçılarına və Azərbaycan Respublikasının vətəndaşlarına xarici dövlətin ərazisində həmin dövlətin qaunvericiliyinə uyğun olaraq könüllü fəaliyyət ilə məşğul olmağa hüquq verilir.

Tədbirin sonunda məktəblilərin maraqlandıran suallar cavablandırılıb.

## Ordubad rayon prokurorluğu tərəfindən maarifləndirici tədbir keçirilib



Ordubad rayon prokurorluğunun təşkilatçılığı ilə oktyabrın 19-da Ordubad rayonu Dəstə kənd tam orta məktəbdə məktəbin yuxarı sinif şagirdləri və müəllim kollektivi ilə maarifləndirici tədbir keçirilib.

Tədbirdə Ordubad rayon prokuroru köməkçisi Zamin Nəzərəliyev "Vətəni müdafiə hər bir vətəndaşın borcudur" mövzusunda, Ordubad rayon prokurorluğunun müstəntiqi Murtuz Babasoy "Uşaq hüquqlarının qorunması dövlətimizin əsas vəzifəsidir" mövzusunda çıxış edərək müvafiq qanunvericiliyin normalarının izahı verilib.

Qeyd edilib ki, bu günün məktəblisi sabahın əsgəridir. Doğma Vətənimizin müdafiəsinin şərəf və şöhrəti Azərbaycan əsgərinin payına düşür. Əmin ola bilərik ki, Azərbaycanın işğal olunmuş əraziləri məhz şanlı əsgərlərimiz tərəfindən azad olunacaq, Azərbaycan dünya miqyasında daha da güclü və məğlubedilməz olacaqdır.

Tədbirin sonunda şagirdləri və müəllimləri maraqlandıran məsələlərə aydınlıq gətirilərək verilən suallar cavablandırılıb.

## Naxçıvan şəhər prokurorluğu tərəfindən maarifləndirici tədbir keçirilib



Naxçıvan şəhər prokurorluğunun təşkilatçılığı ilə oktyabrın 21-də Naxçıvan şəhər Əli Sultanlı adına 10 nömrəli tam orta məktəbdə məktəbin yuxarı sinif şagirdləri və müəllim kollektivi ilə maarifləndirici tədbir keçirilib.

Tədbirdə Naxçıvan şəhər prokurorluğunun böyük müstəntiqi Abdulla Quliyev "Ölkəmizin qanunvericiliyində uşaq hüquqlarının rolu" mövzusunda çıxış edərək bildirib ki, yetkinlik yaşına çatmayanlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir. Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsinə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər. O da vurğulanıb ki, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi prinsipini əsas tutmalıdırlar.

Tədbirdə şəhər prokurorunun köməkçisi Aygül Əsədova “Vətəndaşların ilkin hərbi qeydiyyata alınması və hərbi çağırışdan boyun qaçırmağa görə məsuliyyət” mövzusu üzrə çıxış edərək müvafiq məlumatları dinləyicilərin diqqətinə çatdırıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirilərək verilən suallar cavablandırılıb.

## Gələcəyin hüquqşünasları Naxçıvan şəhər prokurorluğunda olublar



Naxçıvan Dövlət Universitetinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilmiş “Hüquqşunaslıq” ixtisası üzrə birinci kurs tələbələri noyabrın 1-də şəhər prokurorluğunda olublar.

Tələbələr əvvəlcə şəhər prokurorluğunun kitabxanası ilə tanış olublar.

Sonra Naxçıvan şəhər prokuroru Elsevər Quliyev ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, prokurorluğun fəaliyyət istiqamətləri, vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında tələbələrə məlumat verib.

Daha sonra şəhər prokurorluğunun böyük müstəntiqi Abdulla Quliyev cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri və onların sənədləşdirilməsi qaydaları haqqında tələbələri məlumatlandırıb. Tələbələr dindirməyə hazırlıq və onun keçirilməsinin taktiki üsulları, kriminalistik araşdırmanın ümumi müddəaları barədə də məlumat alıblar.

Tələbələr qanunvericilik bazası və qanunvericiliyin sistemləşdirilməsi işi ilə də tanış olublar.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

## Kəngərli rayon prokurorluğunda “Prokurorluğun normativ hüquqi aktları” informasiya sistemindən istifadə qaydaları ilə bağlı tədbir keçirilib

Noyabrın 25-də Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsnin təşkilatçılığı ilə Kəngərli rayon prokurorluğu işçilərinin iştirakı ilə Şərur rayon prokurorluğunda Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanan və xüsusi proqram təminatı ilə idarə olunan “Prokurorluğun normativ hüquqi aktları” informasiya sistemindən istifadə qaydaları ilə bağlı tədbir keçirilib.

Qeyd olunub ki, baza 2001-dən indiyədək qəbul edilən, dəyişdirilən və ya ləğv edilən müxtəlif növ (əmr, sərəncam, göstəriş, qayda, əsasnamə, təlimat, reqlament və digər növlü) hüquqi normativ aktın, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi plenum qərarının mətnindən ibarətdir. Aktların mətninin dəqiqliyini təmin etmək üçün hər bir aktın kağız formatlı mətni əsasında onun elektron formatı hazırlanıb, sonrakı müddətdə bu akta edilən dəyişikliklər mətnə “haşiyə” formasında əlavə edilib, bu yolla hasil edilən məlumatlar ilkin və ilkin aktı dəyişən aktların əlaqələri izlənməklə yenidən yoxlanıb, nəhayət sənədlərin üzərində korrektə işi aparılıb.

Proqram təminatı Elm-Tədris Mərkəzinin “İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektoru”nun mütəxəssisləri tərəfindən hazırlanıb. Proqram bazanın yüksək istehlak göstəricilərini (axtarış, təhlil və s.) təmin etməklə yanaşı bazanın internet şəbəkəsi üzərindən operativ qaydada yenilənməsi imkanı yaradır.

Sistem informasiya təhlükəsizliyini təmin edir. İnformasiya sistemindən yalnız prokurorluq işçiləri üçün nəzərdə tutulub. İstehlakçıların sayı xüsusi “açar”la (rəqəmsal formatda) məhdudlaşdırılır. Məlumat bazasına buraxılış əldə etmək üçün hər bir istehlakçıya administrator təfindən fərdi “açar” (parol) verilir. Parol proqram ilk dəfə aktivləşdirdikdə təqdim edilir. Bazada aparılan yenilənmələr barədə məlumat hər bir istehlakçıya internet üzərindən avtomatik qaydada çatdırılır. İstehlakçı yenilənmələrin diskə yüklənməsi barədə sorğuya razılıq verdiyi halda bu, yenə də avtomatik şəkildə baş verir. Diskdəki məlumatları fərdi kompüterlərə yükləmək və avtonom qaydada istifadə etmək də mümkündür.

"Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" məlumat bazası Elm-Tədris Mərkəzi tərəfindən idarə olunur, ona görə də bazadan istifadə ilə bağlı ortaya çıxan suallarla bağlı Mərkəzin internet səhifəsi (www.etmprok.az) və ya elektron poçt (support@etmprok.az, stcpros@yahoo.com) ünvanları vasitəsi ilə müraciət etmək olar.

Qeyd olunub ki, sistem prokurorluq işçiləri tərəfindən prokurorluğun normativ aktlarından, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi plenum qərarınından istifadəsini və prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılmasını daha da yaxşılaşdıracaqdır.

Sonda suallar cavablandırılıb və sistemə həmçinin Azərbaycan Respublikasının cinayət işlərinə dair hüquqi yardım sahəsində ikitərəfli beynəlxalq müqavilələrin də əlavə edilməsi fikri səsləndirilib.

## Sədərək rayon prokurorluğu tərəfindən maarifləndirici tədbir keçirilib



Sədərək rayon prokurorluğu tərəfindən dekabrın 20-də Sədərək rayon 1 nömrəli tam orta məktəbinin müəllim və şagird kollektivi ilə "Ailədə uşaqların hüquqları" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə çıxış edən rayon prokurorluğunun müstəntiqi Elvin Zeynalov bildirib ki, insanların cəmiyyətdə ən vacib və dəyərli ittifaqı ailədir. Ailəni də bütöv tamamlayan o ailədə dünyaya gələn uşaqlardır. Uşaq həyatda insanın ən dəyərli varlığı və sərvəti, sabahı və gələcəyidir. Uşaq hüquqları, qanunlara və əxlaqa uyğun olaraq dünyadakı bütün uşaqların doğuşdan sahib olduqları: təhsil, səhiyyə, yaşamaq, fiziki, psixoloji və cinsi istismara qarşı qorunmaq, müdafiə olunmaq kimi hüquqlarının hamısının vəhdətdə qəbul edilməklə başa düşülən beynəlxalq məfhumdur. Bu gün dünyada uşaq hüquqları ilə əlaqədar olaraq 20 noyabr 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilən və 193 ölkə tərəfindən imzalanıb təsdiq olunan BMT Uşaq Hüquqları Konvensiyası mövcuddur. Azərbaycan Respublikası 21 iyul 1992-ci il tarixli və 236№-li qanunla BMT-nin «Uşaq hüquqları haqqında» Konvensiyasını ratifikasiya etmişdir.

Bundan başqa, Respublikamızda uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası və bir sıra qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunudur. Bu qanun bir sıra beynəlxalq sənədlərə, xüsusilə də «İnsan hüquqları haqqında» Ümumdünya Bəyannaməsi (1948), Uşaq hüquqları Bəyannaməsi (1959), BMT-nin Uşaq hüquqları Konvensiyası (1989), Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsinə (1990) uyğun şəkildə hazırlanmış və uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqlarını, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir. Eyni zamanda Azərbaycan Respublikasının Ailə Məcəlləsində də uşaqlar hüquqları müasir və konkret şəkildə təsbit olunmuşdur. Elvin Zeynalov Ailə Məcəlləsində uşaqların ailədə yaşamaq və tərbiyə olunmaq, öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq, müdafiə, öz fikrini bildirmək, ad, ata adı və soyad daşımaq və uşağın əmlak hüquqları kimi ayrı-ayrı maddələrdə təsbit edilmiş hüquqlarının hər biri haqqında geniş və sadə formada məlumat vermişdir.

Sonda tədbirdə iştirak edənləri maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması istiqamətində fəaliyyətini gücləndirməklə yanaşı, bu sahədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlar və digər dövlətlərin ixtisaslaşmış orqanları ilə qurulmuş qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsini daim diqqətdə saxlayır.

Bu istiqamətdə formalaşmış müsbət tendensiyanın davamı olaraq, ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə səmərəli əməkdaşlığını uğurla davam etdirir.

Dekabrın 3-dən 6-dək Vyetnamın paytaxtı Hanoy şəhərində qeyd edilən təşkilatın Asiya İnkişaf Bankı (ADB), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) və Vyetnam hökuməti ilə birgə təşkilatçılığı əsasında "İnfrastruktur layihələrində korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Müxtəlif ölkələrin yüksək vəzifəli dövlət rəsmiləri, eləcə də anti-korrupsiya qurumlarının rəhbərlərinin iştirak etdiyi tədbirdə büdcə vəsaitləri hesabına reallaşdırılan infrastruktur layihələrində korrupsiya risklərinin müəyyən edilməsi yolları və ona qarşı təsirli tədbirlərin görülməsi, eləcə də bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərində dürüstlük standartlarının təşviqi imkanları müzakirə edilmişdir. Görüşlərdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

İxtisaslaşmış anti-korrupsiya qurumlarının və bir sıra beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdiyi panel müzakirələrdə geniş təqdimatla çıxış edən nümayəndə heyətinin rəhbəri korrupsiya amilinin qlobal müstəvidə cəmiyyətlərin sabitliyinə, davamlı iqtisadi inkişafa və demokratik təsisatların qurulması prosesinə göstərdiyi mənfi təsirlərdən danışmış, ölkələrin bu sahədə daxili imkanları ilə yanaşı, beynəlxalq əməkdaşlıq əlaqələrini də səfərbər etməsinin əhəmiyyətini qeyd etmişdir. Korrupsiyaya qarşı mübarizənin Prezident cənab İlham Əliyevin Azərbaycanda həyata keçirdiyi dövlət siyasətinin başlıca istiqamətlərindən biri olduğunu vurğulayan nümayəndə heyətinin rəhbəri ölkəmizdə həyata keçirilən institusional və qanunvericilik tədbirləri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin



fəaliyyəti, həmçinin korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin uğurlu nümunəsini təşkil edən "ASAN Xidmət" modeli barədə məlumat verərək ölkəmizin bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirdiyini bildirmiş, müxtəlif beynəlxalq və regional təşkilatlar, o cümlədən digər ölkələrin ixtisaslaşmış anti-korrupsiya qurumları ilə qurulmuş səmərəli əməkdaşlıq əlaqələri barədə məlumat vermişdir.

Bundan başqa, nümayəndə heyətinin rəhbəri çıxışında Azərbaycanın yürütdüyü iqtisadi-sosial siyasətinin mərkəzində azad biznes və investisiya mühitinin inkişaf etdirilməsinin dayandığını və ölkəmizdə bu sahənin daha da tərəqqisi üçün ardıcıl islahatların həyata keçirildiyini qeyd etmiş, bu il həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm elementini təşkil edən kommersiya məhkəmələrinin və mediasiya qurumlarının təsis edilməsi, bu islahatların müsbət nəticələrinin ölkəmizin beynəlxalq reytinqlərdəki mövqelərində öz əksini tapdığını bildirmişdir.

Mötəbər reytinq hesabatı olan Dünya Bankının "Doing Bussines 2019" hesabatında Azərbaycanın mövqeyinin 190 ölkə arasında 25-ci yerdə, kiçik investorların maraqlarının qorunması indikatoru üzrə 2-ci yerdə, biznesə başlama indikatoru üzrə isə ilk onluqda qərarlaşması ilə dünyanın ən çox islahat aparan ölkəsi elan olunması barədə tədbir iştirakçılarına ətraflı məlumat verən Baş prokurorun müavini bu göstəricilərin ölkəmizin sahibkarlıq mühitinə də töhfə verdiyini bildirmiş, korrupsiyaya qarşı mübarizə standardlarının tətbiqinin hər bir sahədə olduğu kimi özəl sektor və investisiya mühitində də təşviq edildiyini, bu gün Azərbaycanda öz anti-korrupsiya meyarlarını və etik davranış qaydalarını formalaşdıraraq tətbiq edən investisiya şirkətlərinin faiz nisbətinin günü-gündən artdığını diqqətə çatdırmışdır.

Dekabrın 6-da nümayəndə heyətinin rəhbəri, həmçinin dövlət və özəl sektorlarda korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması təşəbbüslərində mövcud çətinliklərin həlli və müsbət təcrübələrin təşviqi kimi mövzuları əhatə edən tədbirin Yüksək Səviyyəli Seqmentində iştirak edərək müzakirələrə qatılmışdır. Tədbirdə iştirak edən Vyetnam Baş nazirinin müavini, bir sıra ölkələrin anti-korrupsiya qurumlarının rəhbərləri, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının baş katibinin müavini və digərləri nailiyyətləri qeyd etməklə korrupsiyaya qarşı mübarizə siyasətinin gələcək inkişafının prioritet istiqamətlərinə dair öz fikirlərini bölüşmüşlər.

Tədbir çərçivəsində Kamran Əliyevlə Vyetnamın korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumu olan Baş Dövlət Müfəttişliyinin rəis müavini Nguyen Van Thanhın rəhbərlik etdiyi nümayəndə heyəti arasında ikitərəfli görüş keçirilərək cinayətkarlığa qarşı mübarizənin müxtəlif aspektləri, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılmışdır.

Konfrans müddətində həmçinin, nümayəndə heyətimizlə tədbirdə iştirak edən Çin Xalq Respublikası, Koreya Respublikası, Pakistan, Qırğız Respublikası və digər ölkələrin nümayəndə heyətləri, eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və Asiya İnkişaf Bankının rəsmiləri arasında ikitərəfli və çoxtərəfli görüşlər keçirilərək səmərəli fikir mübadiləsi aparılmış, iştirakçılara Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata

keçirilən tədbirləri əks etdirən materiallar təqdim edilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri Anar İmanov iştirak etmişdir.

***

Dekabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Assembleyasının 8-ci Sessiyası öz işinə başlamışdır.

Ayrı-ayrı ölkələrin dövlət rəsmilərinin və nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxslərinin qatıldığı tədbirdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, reallaşdırılan islahatlar və ortaya çıxan problemlər müzakirə edilmişdir.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikası Prokurorluğunun, Xarici İşlər və Daxili İşlər nazirliklərinin əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil etmişdir.




Konfransda çıxış edən Kamran Əliyev ölkəmizdə korrupsiyaya qarşı mübarizənin Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tərəqqi strategiyasının mühüm hissəsini təşkil etdiyini, aşkarlıq və şəffaflıq prinsiplərinin ölkəmizin iqtisadi-sosial inkişaf siyasətinin mərkəzində durduğunu bildirmişdir.

Nümayəndə heyətinin rəhbəri ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri, korrupsiyanın qarşısının alınmasında “ASAN Xidmət” modeli, bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti, ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri barədə geniş məlumat verərək, Azərbaycanın BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının implementasiyası ilə bağlı I mərhələni yüksək nəticələrlə tamamlamasını, hazırda isə II icmal mərhələsinin uğurla davam etdirildiyini bildirmişdir.

Tədbirdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq təhlükəsizlik idarəsinin rəisi Yalçın Rəfiyev Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatı adından çıxış edərək Hərəkat üzvlərinin korrupsiyanın qarşısının alınmasında və korrupsiyaya qarşı mübarizədə BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına verdiyi önəm, korrupsiyanın təhlükəsizlik, davamlı inkişaf və insan hüquqlarının qorunmasına mənfi təsiri, eləcə də innovativ yanaşmalar və texnoloji yeniliklərdən istifadə ilə korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti barədə konfrans iştirakçılarını məlumatlandırmışdır.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Tunisin Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Xidmətinin rəisi Çavki Təbibin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilmiş, cinayətkarlığa qarşı mübarizənin müxtəlif aspektləri, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə edilmişdir. Bu sahədə səylərin birləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Tunis Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Xidməti arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Bundan başqa, Azərbaycan nümayəndə heyəti ilə Beynəlxalq Anti-Korrupsiya Akademiyasının icraçı direktoru xanım Kristian Pohn-Hufnaglın rəhbərlik etdiyi nümayəndə heyəti arasında ikitərəfli görüş keçirilmişdir. Azərbaycanın təşkilatın ən aktiv üzvlərindən olduğunu məmnunluqla qeyd edən xanım Pohn-Hufnagl, ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələrə görə minnətdarlığını bildirmişdir.

Kamran Əliyev öz növbəsində Azərbaycanın qurumun akademik proqramlarında geniş təmsil olunduğunu, bunun əməkdaşların peşəkarlığının artırılmasında mühüm rol oynadığını bildirmişdir. Görüşdə, həmçinin Akademiyanın Anti-Korrupsiya Təlimləri üzrə Magistr proqramının növbəti modulunun 2020-ci ilin aprel ayında Bakı şəhərində keçirilməsinə dair müvafiq sənəd imzalanmışdır.

Bununla yanaşı, nümayəndə heyətinin üzvləri tədbir çərçivəsində təşkil edilmiş müxtəlif iclas və panellərə qatılaraq müzakirələrdə fəal iştirak etmişdir.

Konfransda Azərbaycan nümayəndə heyəti ilə Rusiya Federasiyası, Ukrayna, İtaliya, Monqolustan, Belçika Krallığı, Malaziya və digər ölkələrin, eləcə də bir sıra beynəlxalq təşkilatların nümayəndə heyətləri arasında ikitərəfli və çoxtərəfli görüşlər keçirilərək səmərəli fikir mübadiləsi aparılmış, iştirakçılara ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri əks etdirən materiallar təqdim edilmişdir.






Tədbirdə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Fövqəladə və Səlahiyyətli səfiri Mahir Əliyev iştirak etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti model kimi tövsiyə edilib




Prokurorların dövlətin cinayət ədliyyə sistemində və qanunun aliliyinin qorunmasında müstəsna rolu və Avropa Şurasına üzv dövlətlərin prokurorları arasında əməkdaşlığın vacibliyini nəzərə alaraq 2005-ci ilin iyul ayında AŞ Nazirlər Komitəsinin qərarı ilə Avropa Prokurorlarının Məşvərət Şurası (CCPE) yaradılmışdır.

Avropa Şurasına üzv dövlətlərin yüksək vəzifəli prokurorlarını birləşdirən qurum hər il plenar iclaslar təşkil etməklə prokuror fəaliyyətinə aid aktual mövzular üzrə rəylər hazırlayıb Nazirlər Komitəsinə təqdim edir.

Cari ilin 21-22 noyabr tarixlərində Parisdə Şuranın 14-cü plenar iclası keçirilmişdir.

İki günlük plenar iclasda ekspert qrupu tərəfindən "Korrupsiya, iqtisadi və maliyyə cinayətlərinə qarşı mübarizədə prokurorların rolu" adlı 14 saylı Rəy geniş müzakirə edilərək qəbul edilmişdir.

Tədbirdə Azərbaycan Respublikasını təmsil edən və sənədin hazırlanmasında işçi qrupunun üzvü olan Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov Rəyin müzakirəsi zamanı ölkəmizdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən imzalanan mütərəqqi qanunvericilik aktları, prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması, eləcə də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) ilə 15 ildən artıqdır ki uğurlu əməkdaşlıq edir.

Həmçinin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Anti-Korrupsiya Şəbəkəsi də Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsinin beynəlxalq aləmdə səmərəli anti-korrupsiya fəaliyyətinin nümunəvi modeli kimi tövsiyə etmişdir.

Ölkəmiz tərəfindən Rəyin mətninə verilən təkliflər nəzərə alınaraq yekun sənəddə öz əksini tapmışdır.

Tədbir çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirilmiş, aktual məsələlər müzakirə olunmuşdur.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib

Dekabrın 10-dan 12-dək İsveçin paytaxtı Stokholm şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) Baş Assambleyasının növbəti iclası keçirilmişdir.





Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Daxili təhlükəsizlik şöbəsinin rəisi Sahib İsmayılov və Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyev təmsil etmişdir.

Beynəlxalq, regional və qeyri-hökumət təşkilatlarının, eləcə də ayrı-ayrı dövlətlərin 130-dan artıq nümayəndəsinin iştirak etdiyi "Korrupsiyanın əsas mexanizmlərinin təhlili – qlobal çağırışlar və qabaqlayıcı tədbirlər" mövzusunda keçirilən iclasda İsveç Krallığının yüksək vəzifəli şəxsləri çıxış edərək tədbirin əhəmiyyəti və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişlər.

Tədbirdə dünyanın korrupsiyaya qarşı mübarizə aparan qurumlarının nümayəndələri arasında təcrübə mübadiləsi, bu sahədə yaranan problemlərə dair müvafiq müzakirələr aparılmış, paralel panellər çərçivəsində antikorrupsiya təhsili sahəsində yeni ehtiyaclar və çağırışlar, dövlət satınalmaları və Avropada aparılan antikorrupsiya tədbirləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə aparılan mütərəqqi islahatlar, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən institusional və qanunvericilik islahatları barədə ətraflı məlumat vermişdir. Anti-korrupsiya təhsilinin korrupsiyanın qarşısının alınmasında vacib komponentlərdən biri olduğu nəzər alınaraq, qurumun üzvlərinə nəzəri cəhətdən praktik biliklərə keçməyə imkan verən yeni metodologiyanın hazırlanması təklif edilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar maraqla qarşılanmışdır.

İclasda təşkilati məsələlərə baxılaraq qurumun rəhbər heyətinə seçkilər keçirilmiş və korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsinə dair Bəyannamə qəbul edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**“Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

“Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” 2007-ci il oktyabrın 25-də Lansarotedə imzalanmış Avropa Şurasının Konvensiyası Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 oktyabr 2019-cu il
№ 1681-VQ

**“Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında”**

## AVROPA ŞURASININ KONVENSİYASI

### Preambula

Avropa Şurasının üzv dövlətləri və bu Konvensiyanı imzalayan digər tərəflər,

Avropa Şurasının məqsədinin öz üzvləri arasında daha böyük birliyə nail olmaq olduğunu nəzərə alaraq,

hər bir uşağın ailəsi, cəmiyyət və dövlət tərəfindən onun yetkinlik yaşına çatmamış şəxs statusunun tələb etdiyi müdafiə tədbirlərindən yararlanmaq hüququna malik olduğunu nəzərə alaraq,

uşaqların cinsi istismarının, xüsusilə də uşaq pornoqrafiyasının və fahişəliyinin, habelə uşaqlara qarşı cinsi zorakılığın bütün formalarının, o cümlədən xaricdə törədilən hərəkətlərin uşaqların sağlamlığına və psixi-sosial inkişafına zərərli olduğunu qeyd edərək,

uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılığın, xüsusilə həm uşaqların, həm də cinayətkarların informasiya və kommunikasiya texnologiyalarından (İKT) artan dərəcədə istifadə etməsi ilə bağlı həm milli, həm də beynəlxalq səviyyədə narahatlıq yaradan miqyasa çatdığını, habelə uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın qarşısının alınması və onlarla mübarizənin beynəlxalq əməkdaşlıq tələb etdiyini qeyd edərək,

uşaqların rifahının və ən yüksək maraqlarının bütün üzv dövlətlərin qəbul etdikləri fundamental dəyərlər olduğunu və bu dəyərlərin heç bir ayrı-seçkiliyə yol vermədən qorunmalı olduğunu nəzərə alaraq,

Avropa Şurasının Dövlət və Hökumət Rəhbərlərinin 3-cü Zirvə Toplantısında (Varşava, 16-17 may 2005-ci il) qəbul edilmiş və uşaqların cinsi istismarını dayandırmaq məqsədilə tədbirlərin hazırlanmasına çağıran Fəaliyyət Planına istinad edərək,

xüsusilə də Nazirlər Komitəsinin uşaqların və gənclərin cinsi istismarına, pornoqrafiyasına, fahişəliyinə və alverinə dair R (91) 11 saylı Tövsiyəsinə, uşaqların cinsi istismardan müdafiəsinə dair Rec (2001)16 saylı Tövsiyəsinə, “Kibercinayətkarlıq haqqında” Konvensiyaya (№ 185), xüsusilə onun 9-cu maddəsinə, habelə Avropa Şurasının “İnsan alverinə qarşı mübarizə haqqında” Konvensiyasına (№ 197) istinad edərək,

“İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanı (1950-ci il, № 5), Dəyişdirilmiş Avropa Sosial Xartiyasını (1996-cı il, № 163) və “Uşaqların hüquqlarının yerinə yetirilməsi haqqında” Avropa Konvensiyasını (1996-cı il, № 160) nəzərə alaraq,

həmçinin BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasını, xüsusilə onun 34-cü maddəsini, Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolunu, BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyasını tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında” Protokolunu, habelə Beynəlxalq Əmək Təşkilatının “Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair” Konvensiyasını nəzərə alaraq,

Avropa İttifaqı Şurasının “Uşaqların cinsi istismarına və uşaq pornoqrafiyasına qarşı mübarizə haqqında” Çərçivə Qərarını (2004/68/JHA), Avropa İttifaqı Şurasının “Cinayət prosesində qurbanların statusu haqqında” Çərçivə Qərarını (2001/220/JHA) və Avropa İttifaqı Şurasının “İnsan alverinə qarşı mübarizə haqqında” Çərçivə Qərarını (2002/629/JHA) nəzərə alaraq,

bu sahədə digər müvafiq beynəlxalq sənəd və proqramları, xüsusilə Uşaqların Kommersiya məqsədilə Cinsi İstismarına qarşı 1-ci Ümumdünya Konqresində (27-31 avqust 1996-cı il) qəbul edilmiş Stokholm Bəyannaməsini və Fəaliyyət Planını, Uşaqların Kommersiya məqsədilə Cinsi İstismarına qarşı 2-ci Ümumdünya Konqresində (17-20 dekabr 2001-ci il) qəbul edilmiş Yokohama Qlobal Öhdəliyini, Uşaqların Kommersiya məqsədilə Cinsi İstismarına qarşı 2-ci Ümumdünya Konqresinə hazırlıq Konfransında (20-21 noyabr 2011-ci il) qəbul edilmiş Budapeşt Öhdəliyi və Fəaliyyət Planını, BMT Baş Assambleyasının “Uşaqlar üçün yararlı dünya” adlı S-27/2 saylı qətnaməsini və 3-cü Zirvə Toplantısından sonra qəbul edilmiş və Monako Konfransında (4-5 aprel 2006-cı il) işə başlamış “Avropanı uşaqlar üçün və uşaqlarla qurmaq” adlı üçillik proqramını lazımi qaydada nəzərə alaraq,

cinayətkarların kimliyindən asılı olmayaraq uşaqları cinsi istismardan və cinsi zorakılıqdan qorumaq və qurbanlara yardım etmək kimi ümumi məqsədə səmərəli şəkildə töhfə verməyə qətiyyətli olaraq,

uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılığın bütün formalarına qarşı mübarizənin qabaqlayıcı, müdafiəedici və cinayət-hüquqi aspektlərinə yönələn hərtərəfli beynəlxalq sənədin hazırlanmasına və xüsusi monitorinq mexanizminin yaradılmasına olan ehtiyacı nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəlmişlər:

## Fəsil I
## MƏQSƏDLƏR, AYRI-SEÇKİLİYƏ YOL VERİLMƏMƏSİ PRİNSİPİ VƏ ANLAYIŞLAR

**Maddə 1. Məqsədlər**

1. Bu Konvensiyanın məqsədləri:

a) uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın qarşısının alınması və buna qarşı mübarizənin aparılması;

b) cinsi istismarın və cinsi zorakılığın qurbanı olan uşaqların hüquqlarının müdafiəsi;

c) uşaqların cinsi istismarına və onların cinsi zorakılığına qarşı milli və beynəlxalq əməkdaşlığın təşviq edilməsidir.

2. Tərəflərin Konvensiyanın müddəalarını səmərəli surətdə həyata keçirmələri məqsədilə bu Konvensiyada xüsusi monitorinq mexanizmi yaradılır.

**Maddə 2. Ayrı-seçkiliyə yol verilməməsi prinsipi**

Tərəflərin bu Konvensiyanın müddəalarını yerinə yetirmələri, xüsusilə qurbanların hüquqlarının müdafiəsi üzrə tədbirlərin qəbul edilməsi cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və sosial mənsubiyyət, hər hansı milli azlıqlara aidiyyət, əmlak, doğum, seksual oriyentasiya, sağlamlıq durumu, əlillik və ya digər status kimi əlamətlərə görə ayrı-seçkilik olmadan təmin edilir.

**Maddə 3. Anlayışlar**

Bu Konvensiyanın məqsədləri üçün:

a) "uşaq" - 18 yaşdan aşağı istənilən şəxsi ifadə edir;

b) "uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılıq" – bu Konvensiyanın 18-23-cü maddələrində göstərilən davranışı əhatə edir;

c) "qurban" – cinsi istismara və ya cinsi zorakılığa məruz qalmış uşağı ifadə edir.

## Fəsil II
## QABAQLAYICI TƏDBİRLƏR

**Maddə 4. Prinsiplər**

Hər bir Tərəf uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın bütün formalarının qarşısını almaq və uşaqları qorumaq üçün zəruri qanunvericilik və ya digər tədbirləri görür.

**Maddə 5. Uşaqlarla təmasda çalışan şəxslərin işə götürülməsi, təlimi və məlumatlılıq səviyyəsinin artırılması**

1. Hər bir Tərəf təhsil, səhiyyə, sosial müdafiə, məhkəmə və hüquq mühafizə sektorlarında və idman, mədəniyyət və istirahət fəaliyyətləri sahələrində uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşaqların müdafiəsi və onların hüquqları barədə məlumatlılığı artırmaq üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

2. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 1-ci hissədə göstərilən şəxslərin uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılıq, onları ifşa etmək vasitələri və 12-ci maddənin 1-ci hissəsində nəzərdə tutulmuş imkan barədə kifayət qədər biliyə malik olması təmin edilsin.

3. Hər bir Tərəf öz qanunvericiliyinə uyğun olaraq bütün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, uşaqlarla müntəzəm təmasla bağlı olan peşəyə namizədlərin uşaqların cinsi istismarına və ya onlara qarşı cinsi zorakılığa görə məhkum olunmamasının bu peşə fəaliyyəti ilə məşğul olmasının şərtlərinə aid olması təmin edilsin.

**Maddə 6. Uşaqların maarifləndirilməsi**

Hər bir Tərəf bütün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, ibtidai və orta təhsil zamanı cinsi istismar və cinsi zorakılıq təhlükələri, habelə özünü müdafiə vasitələri barədə uşaqların öz inkişaf səviyyəsinə uyğun məlumat alması təmin edilsin. Zəruri hallarda valideynlərlə birgə təqdim edilən bu məlumat cinsi tərbiyəyə aid daha ümumi kontekst çərçivəsində verilir və təhlükəli vəziyyətlərə, xüsusilə yeni informasiya və kommunikasiya texnologiyalarından istifadəni əhatə edən vəziyyətlərə xüsusi diqqət yetirir.

**Maddə 7. Qabaqlayıcı müdaxilə proqramları və ya tədbirləri**

Hər bir Tərəf zəruri hallarda bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı əməli törədə biləcəklərindən ehtiyatlanan şəxslərin əməli törətmə təhlükəsini qiymətləndirmək və qarşısını almaq üçün nəzərdə tutulmuş səmərəli müdaxilə proqramları və ya tədbirlərindən istifadə etmək imkanını təmin edir.

**Maddə 8. Geniş ictimaiyyət üçün nəzərdə tutulmuş tədbirlər**

1. Hər bir Tərəf geniş ictimaiyyətə ünvanlanan və uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılıq fenomeni, həmçinin mümkün qabaqlayıcı tədbirlər barədə məlumatın təqdim edilməsi kampaniyaları təşviq edir və ya keçirir.

2. Hər bir Tərəf bu Konvensiyaya uyğun müəyyən edilmiş cinayət əməllərini təbliğ edən materialların yayılmasının qarşısını almaq və ya qadağan etmək üçün bütün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

**Maddə 9. Uşaqların, özəl sektorun, media və vətəndaş cəmiyyətinin iştirakı**

1. Hər bir Tərəf uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılıq ilə mübarizəyə dair dövlət siyasətləri, proqramları və ya digər təşəbbüslərin işlənib hazırlanması və həyata keçirilməsində uşaqların inkişaf səviyyəsinə uyğun olaraq iştirakını təşviq edir.

2. Hər bir Tərəf özəl sektoru, xüsusilə də informasiya və kommunikasiya texnologiyası sektorunu, turizm və səyahət sənayesini, bank və maliyyə sektorlarını, habelə vətəndaş cəmiyyətinin uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın qarşısını almaq və özünütənzimləmə və ya birgə tənzimləmə əsasında daxili normaları tətbiq etmək məqsədilə siyasətlərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirakını təşviq edir.

3. Hər bir Tərəf media müstəqilliyinə və mətbuat azadlığına riayət etməklə, uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın bütün aspektləri ilə bağlı müvafiq məlumatların kütləvi informasiya vasitələri tərəfindən təqdim edilməsini təşviq edir.

4. Hər bir Tərəf uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın qarşısının alınması və uşaqların müdafiəsi məqsədilə vətəndaş cəmiyyəti tərəfindən həyata keçirilən layihə və proqramların maliyyələşdirilməsini o cümlədən zəruri hallarda fondların yaradılması vasitəsilə təşviq edir.

**Fəsil III**
**İXTİSASLAŞMIŞ VƏ ƏLAQƏLƏNDİRİCİ ORQANLAR**

**Maddə 10. Əlaqələndirmə və qarşılıqlı fəaliyyət üzrə milli tədbirlər**

1. Hər bir Tərəf uşaqların cinsi istismardan və onlara qarşı cinsi zorakılıqdan müdafiəsi, bu cür halların qarşısının alınması və onlara qarşı mübarizəyə məsul müxtəlif orqanların, xüsusilə təhsil, səhiyyə, sosial xidmətlər, hüquq mühafizə və məhkəmə orqanları arasında milli və ya yerli səviyyədə əlaqələndirməni təmin etmək üçün zəruri tədbirlər həyata keçirir.

2. Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, aşağıdakılar yaradılsın və ya təyin edilsin:

a) ayrıca vəsaitləri və məsuliyyət dairəsini təmin etməklə uşaq hüquqlarının təşviqi və müdafiəsi üzrə müstəqil səlahiyyətli milli və ya yerli təsisatlar;

b) şəxsi məlumatların qorunması tələblərinə əməl etməklə, uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılıq fenomeninə nəzarət etmək və onu qiymətləndirmək məqsədilə milli və ya yerli səviyyədə və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq etməklə məlumatların toplanması mexanizmləri və ya koordinasiya mərkəzləri.

3. Hər bir Tərəf uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın daha yaxşı səviyyədə qarşısını almaq və bu cür hallarla mübarizə aparmaq üçün səlahiyyətli dövlət orqanları, vətəndaş cəmiyyəti və özəl sektor arasında əməkdaşlığı təşviq edir.

**Fəsil IV**
**QABAQLAYICI TƏDBİRLƏR VƏ QURBANLARA YARDIM**

**Maddə 11. Prinsiplər**

1. Hər bir Tərəf qurbanlara, onların yaxın qohumlarına və onların qayğısına məsul hər hansı şəxsə lazımi dəstək göstərilməsi üçün səmərəli sosial proqramlar hazırlayır və çoxşaxəli strukturlar təsis edir.

2. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, qurbanın yaşı müəyyən olmadığı və qurbanın uşaq olduğuna inanmaq üçün səbəblər mövcud olduğu hallarda uşaqlar üçün nəzərdə tutulmuş müdafiə və yardım tədbirləri onların yaşı müəyyən edilənədək tətbiq edilsin.

**Maddə 12. Cinsi istismar və ya cinsi zorakılıqla bağlı şübhəli hallar barəsində məlumat verilməsi**

1. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, uşaqlarla təmasda çalışan müəyyən peşə sahibləri üçün qanunvericiliklə nəzərdə tutulmuş konfidensiallıq qaydalarının həmin şəxslərin uşağın cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmasına inanmaq üçün ciddi əsaslar olduğu hər bir hal barədə uşaqların müdafiəsinə məsul xidmətlərə məlumat vermək imkanlarına maneə yaratmaması təmin edilsin.

2. Hər bir Tərəf uşaqların cinsi istismarı və ya onlara qarşı cinsi zorakılıq barədə məlumatı və ya vicdanlı şübhəsi olan hər bir şəxsi bu faktlar barədə müvafiq xidmətlərə məlumat verməyə həvəsləndirmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

**Maddə 13. Yardım almaq üçün məlumat xidmətləri**

Hər bir Tərəf konfidensiallıq şəraitində və ya anonimliyə riayət etməklə müraciət edənlərə məsləhət vermək üçün telefon, yaxud İnternet yardım xidmətləri kimi məlumat xidmətlərinin yaradılmasını təşviq etmək və dəstəkləmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

**Maddə 14. Qurbanlara yardım**

1. Hər bir Tərəf qurbanlara fiziki və psixi-sosial durumlarının bərpasında qısa və ya uzun müddətdə yardım etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir. Bu hissəyə əsasən həyata keçirilən tədbirlərdə uşağın mövqeyi, tələbatı və problemləri nəzərə alınır.

2. Hər bir Tərəf qurbanlara yardımla məşğul olan qeyri-hökumət təşkilatları, digər müvafiq təşkilatlar və ya vətəndaş cəmiyyətinin digər elementləri ilə əməkdaşlıq etmək üçün qanunvericiliklə nəzərdə tutulmuş şərtlərə əsasən tədbirlər həyata keçirir.

3. Valideynlər və ya uşağa qayğı göstərən şəxslər onun cinsi istismarında və ya ona qarşı cinsi zorakılıqda iştirak etdiyi hallarda 11-ci maddənin 1-ci hissəsinin tətbiqi üçün həyata keçirilən müdaxilə tədbirləri aşağıdakıları əhatə edir:

güman edilən cinayətkarı təcrid etmək imkanı;

qurbanı ailəsindən təcrid etmək imkanı. Bu cür təcrid-etmənin şərtləri və müddəti uşağın ən yüksək maraqlarına uyğun müəyyən edilir.

4. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, qurbana yaxın olan şəxslərin zəruri hallarda terapiya yardımı, xüsusilə təxirəsalınmaz psixoloji yardım almaq imkanı təmin edilsin.

**Fəsil V**
**MÜDAXİLƏ PROQRAMLARI VƏ YA TƏDBİRLƏRİ**

**Maddə 15. Ümumi prinsiplər**

1. Hər bir Tərəf uşaqlara qarşı seksual xarakterli cinayətlərin yenidən törədilməsi təhlükəsinin qarşısını almaq və ya belə təhlükəni azaltmaq məqsədilə 16-cı maddənin 1-ci və 2-ci hissələrində göstərilən şəxslər üçün səmərəli müdaxilə proqramlarını və ya tədbirlərini öz qanunvericiliyinə müvafiq olaraq təmin və ya təşviq edir. Bu cür proqramlardan və ya tədbirlərdən istifadə etmək imkanı qanunvericilikdə təsbit olunmuş şərtlərə uyğun olaraq, cinayət təqibi ərzində həbsxanada və ya kənarda hər zaman mövcud olmalıdır.

2. Hər bir Tərəf səlahiyyətli orqanlar, xüsusilə səhiyyə və sosial xidmət orqanları, habelə məhkəmələr və 16-cı maddənin 1-ci və 2-ci hissələrində göstərilən şəxslərlə işə məsul digər orqanlar arasında tərəfdaşlığın və ya əməkdaşlığın digər formalarının inkişafını öz qanunvericiliyinə müvafiq olaraq təmin və ya təşviq edir.

3. Hər bir Tərəf 16-cı maddənin 1-ci və 2-ci hissələrində göstərilən şəxslərin bu Konvensiyaya uyğun müəyyən edilmiş cinayət əməllərinin təhlükəliliyinin və yenidən törətməsi risklərinin qiymətləndirilməsini zəruri proqram və ya tədbirlərin müəyyən edilməsi məqsədilə öz qanunvericiliyinə müvafiq olaraq təmin edir.

4. Hər bir Tərəf həyata keçirilən proqram və tədbirlərin səmərəliliyinin qiymətləndirilməsini öz qanunvericiliyinə müvafiq olaraq təmin edir.

**Maddə 16. Müdaxilə proqramları və tədbirləri yönəldilən şəxslər**

1. Hər bir Tərəf bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayət əməlinə görə barələrində cinayət təqibi aparılan şəxslərin 15-ci maddənin 1-ci hissəsində

göstərilən proqram və ya tədbirlərə müraciət etmək imkanım müdafiə tərəfinin hüquqlarına, həmçinin ədalətli və qərəzsiz məhkəmə araşdırılmasına dair tələblərə zərərli və ya zidd olmayan şərtlərlə, xüsusilə təqsirsizlik prezumpsiyası prinsipinə aid müddəalara əməl etməklə öz qanunvericiliyinə müvafiq olaraq təmin edir.

2. Hər bir Tərəf bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayət əməlini törətməsinə görə məhkum edilmiş şəxslərin 15-ci maddənin 1-ci hissəsində göstərilən proqram və ya tədbirlərə müraciət etmək imkanını öz qanunvericiliyinə müvafiq olaraq təmin edir.

3. Hər bir Tərəf müdaxilə proqramları və ya tədbirlərinin seksual xarakterli cinayət əməlini törətmiş uşaqların, o cümlədən cinayət məsuliyyəti yarandığı yaşa çatmamışların inkişaf tələbatlarına uyğun, onların seksual davranış problemlərini həll etmək məqsədilə işlənib hazırlanmasını və ya uyğunlaşdırılmasını öz qanunvericiliyinə müvafiq olaraq təmin edir.

**Maddə 17. Məlumat və razılıq**

1. Hər bir Tərəf 16-cı maddədə göstərilən və müdaxilə proqramları və ya tədbirləri təklif edilən şəxslərin bu təklifin səbəbləri barədə tam məlumat almasını və faktları tam şəkildə bilərək proqram və ya tədbirə razılıq verməsini öz qanunvericiliyinə müvafiq olaraq təmin edir.

2. Hər bir Tərəf müdaxilə proqramı və ya tədbirlərinin təklif edilən şəxslərin onlardan imtina etmək imkanı, habelə məhkum olunmuş şəxslərin bu cür imtinanın mümkün nəticələri barədə xəbərdar olmasını öz qanunvericiliyinə müvafiq olaraq təmin edir.

## Fəsil VI
## MADDİ CİNAYƏT HÜQUQU MÜDDƏALARI

**Maddə 18. Cinsi zorakılıq**

1. Hər bir Tərəf bütün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, aşağıda göstərilən qəsdən törədilmiş əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsi təmin edilsin:

a) qanunvericiliyin müvafiq müddəalarına əsasən seksual xarakterli hərəkətlər üçün qanunla müəyyən edilmiş yaşa çatmamış uşaqla seksual xarakterli hərəkətlər;

b) uşaqla aşağıdakı hallarda seksual xarakterli hərəkətlər etmə:

məcbur etməklə, güc tətbiq etməklə və ya hədə-qorxu gəlməklə; yaxud

uşağın etibarından, onun üzərində nüfuzdan və ya təsirdən, o cümlədən ailə

daxilində sui-istifadə etməklə; yaxud

uşağın xüsusilə zəif vəziyyətindən, yəni əqli və ya fiziki əlilliyə və ya asılılıq vəziyyətinə görə sui-istifadə etməklə.

2. Yuxarıdakı 1-ci hissənin məqsədləri üçün hər bir Tərəf uşaqla seksual xarakterli hərəkətlər etmə qadağan olunan yaş həddini müəyyən edir.

3. 1-ci hissənin "a" bəndinin müddəaları yetkinlik yaşına çatmamış uşaqlar arasında razılıq əsasında seksual xarakterli hərəkətlərə şamil edilmir.

**Maddə 19. Uşaq fahişəliyi ilə bağlı cinayət əməlləri**

1. Hər bir Tərəf bütün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, aşağıda göstərilən qəsdən törədilmiş əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsi təmin edilsin:

a) uşağı fahişəliyə cəlbetmə və ya uşağı fahişəliyə vadaretmə;

b) uşağı fahişəliklə məşğul olmağa məcburetmə və ya bundan mənfəət əldəetmə, yaxud bu cür məqsədlər üçün onun başqa cür istisması;

c) uşaq fahişəliyi xidmətlərindən istifadəetmə.

2. Bu maddənin məqsədləri üçün "uşaq fahişəliyi" termini - ödəniş qismində pul, yaxud hər hansı digər formada mükafatı və ya ödənişi, bu mükafatın, vədin və ya ödənişin uşağa, yaxud üçüncü şəxsə verilməsindən asılı olmayaraq etməklə, yaxud vəd etməklə uşaqdan seksual xarakterli hərəkətlər üçün istifadə edilməsi faktını ifadə edir.

**Maddə 20. Uşaq pornoqrafiyası ilə bağlı cinayət əməlləri**

1. Hər bir Tərəf bütün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, aşağıda göstərilən haqsız və qəsdən törədilmiş əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsi təmin edilsin:

a) uşaq pornoqrafiyasının istehsalı;

b) uşaq pornoqrafiyasını təklifetmə və ya təqdimetmə;

c) uşaq pornoqrafiyasını yayma və ya ötürmə;

d) uşaq pornoqrafiyasını şəxsi istifadə və ya başqa şəxs üçün əldəetmə;

e) uşaq pornoqrafiyasını saxlama;

f) informasiya və kommunikasiya texnologiyaları vasitəsilə bilərəkdən uşaq pornoqrafiyasını əldəetmə.

2. Bu maddənin məqsədləri üçün "uşaq pornoqrafiyası" termini - həqiqətən və ya simulyasiya şəkildə açıq-aydın seksual xarakterli hərəkətlər edən uşağı göstərən, yaxud ilk növbədə seksual məqsədlər üçün uşağın cinsiyyət orqanlarını nümayiş etdirən istənilən materialı ifadə edir.

3. Hər bir Tərəf aşağıdakı pornoqrafik materialların istehsalına və saxlanmasına 1-ci hissənin "a" və "e" bəndlərini tam və ya qismən şamil etməmək hüququnu özündə saxlaya bilər:

müstəsna olaraq mövcud olmayan uşağın simulyasiyalı təqdimatından və ya həqiqətə oxşayan təsvirlərindən ibarət olan;

18-ci maddənin 2-ci hissəsinin tətbiqi üçün müəyyən edilmiş yaş həddinə çatmış uşaqların iştirakı ilə olan, belə təsvirlər onlar tərəfindən öz razılığı ilə və yalnız öz şəxsi istifadəsi üçün hazırlandıqda və ya saxlanıldıqda.

4. Hər bir Tərəf 1-ci hissənin "f" bəndini tam və ya qismən tətbiq etməmək hüququnu özündə saxlaya bilər.

**Maddə 21. Uşağın pornoqrafiya tamaşalarında iştirakı ilə bağlı cinayət əməlləri**

1. Hər bir Tərəf bütün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, aşağıda göstərilən qəsdən törədilmiş əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsi təmin edilsin:

a) uşağı pornoqrafiya tamaşalarında iştirak etməyə cəlbetmə və ya uşağı bu cür tamaşalarda iştirak etməyə vadaretmə;

b) uşağı pornoqrafiya tamaşalarında iştiraka məcburetmə və ya bundan mənfəət əldəetmə, yaxud bu cür məqsədlər üçün onun başqa cür istisması;

c) uşaqların iştirakı ilə pornoqrafiya tamaşalarına bilərəkdən gəlmə.

2. Hər bir Tərəf 1-ci hissənin "c" bəndinin tətbiqini yalnız uşaqların 1-ci hissənin "a" və "b" bəndlərinə uyğun cəlb edilməsi və ya məcbur edilməsi halları ilə məhdudlaşdıra bilər.

**Maddə 22. Uşaqlara qarşı əxlaqsız hərəkətlər**

Hər bir Tərəf 18-ci maddənin 2-ci hissəsinin tətbiqi üçün müəyyən edilmiş yaş həddinə çatmamış uşaqların, hətta iştirak etmədən cinsi zorakılıq hərəkətləri və ya seksual fəaliyyəti müşahidə etməyə məcbur etməyə görə cinayət məsuliyyətini müəyyən etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

**Maddə 23. Seksual xarakterli məqsədlər üçün uşaqların təqib edilməsi**

Hər bir Tərəf 18-ci maddənin 2-ci hissəsinin tətbiqi üçün müəyyən edilmiş yaş həddinə çatmamış uşaqla görüş barədə yetkinlik yaşına çatmış şəxs tərəfindən informasiya və kommunikasiya texnologiyaları vasitəsilə, ona qarşı 18-ci maddənin 1-ci hissəsinin "a" bəndinə və ya 20-ci maddənin 1-ci hissəsinin "a" bəndinə uyğun müəyyən edilmiş cinayəti törətmək məqsədilə qəsdən təklif etməyə görə, belə təklifdən sonra bu görüşün baş verməsi üçün praktiki hərəkətlər edildikdə, cinayət məsuliyyətini müəyyən etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

**Maddə 24. Təhrikçilik və ya köməklik və cinayət törətməyə cəhd**

1. Hər bir Tərəf bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayətə qəsdən törədilən təhrikçiliyə və ya köməkliyə görə cinayət məsuliyyətini müəyyən etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

2. Hər bir Tərəf bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayətə qəsdən cəhd etməyə cinayət məsuliyyətini müəyyən etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

3. Hər bir Tərəf 20-ci maddənin 1-ci hissəsinin "b", "d", "e" və "f' bəndlərinə, 21-ci maddənin 1-ci hissəsinin "c" bəndinə, 22 və 23-cü maddələrə müvafiq olaraq müəyyən edilmiş cinayətlərə 2-ci hissəni tam və ya qismən tətbiq etməmək hüququnu özündə saxlaya bilər.

**Maddə 25. Cinayət qanununun qüvvəsi**

1. Hər bir Tərəf aşağıdakı hallarda törədilən bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayətlə bağlı öz yurisdiksiyanı müəyyən etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir:

a) öz ərazisində; yaxud

b) həmin Tərəfin bayrağı altında hərəkət edən su gəmisində; yaxud

c) həmin Tərəfin qanunlarına əsasən qeydiyyata alınmış hava gəmisində; yaxud

d) öz vətəndaşı tərəfindən; yaxud

e) onun ərazisində daimi yaşayış yeri olan şəxs tərəfindən törədildikdə.

2. Hər bir Tərəf onun vətəndaşına və ya onun ərazisində daimi yaşayan şəxsə qarşı törədilən bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayətlə bağlı öz yurisdiksiyanı müəyyən etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirməyə çalışır.

3. Hər bir Tərəf imzalama, yaxud ratifikasiya, qəbuletmə, təsdiq və ya qoşulma barədə sənədi təhvil verdiyi zaman bu maddənin 1-ci hissəsinin "e" bəndində müəyyən edilən yurisdiksiyaya dair müddəaları tətbiq etməmək və ya yalnız müəyyən hallarda və ya şərtlərlə tətbiq etmək hüququnu özündə saxlaması barədə Avropa Şurası Baş katibinin ünvanına bəyannamə verə bilər.

4. Bu Konvensiyanın 18, 19-cu maddələrinə, 20-ci maddənin 1-ci hissəsinin "a" bəndinə və 21-ci maddənin 1-ci hissəsinin "a" və "b" bəndlərinə uyğun olaraq müəyyən edilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək üçün hər bir Tərəf bütün lazımi qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 1-ci hissənin "d" bəndi ilə bağlı yurisdiksiya cinayət törədildiyi yerdə ona görə məsuliyyətin müəyyən edilməsi ilə şərtləndirilməsin.

5. Hər bir Tərəf imzalama, yaxud ratifikasiya, qəbuletmə, təsdiq və ya qoşulma barədə sənədi təhvil verdiyi zaman 18-ci maddənin 1-ci hissəsinin "b" bəndinin ikinci və üçüncü yarımbəndlərinə uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı bu maddənin 4-cü hissəsinin tətbiqini öz vətəndaşının onun ərazisində daimi yaşaması hallan ilə məhdudlaşdırmaq hüququnu özündə saxlaması barədə Avropa Şurasının Baş katibinin ünvanına bəyannamə verə bilər.

6. Bu Konvensiyanın 18, 19-cu maddələrinə, 20-ci maddənin 1-ci hissəsinin "a" bəndinə və 21-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş cinayətlərə görə məsuliyyətə cəlbetmə üçün hər bir Tərəf bütün lazımi qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 1-ci hissənin "d" və "e" bəndləri ilə bağlı yurisdiksiya cinayət təqibinin yalnız qurbandan şikayət daxil olduqdan və ya cinayət törədildiyi dövlətdən məlumat daxil olduqdan sonra başlamaq imkanı ilə şərtləndirilməsin.

7. Hər bir Tərəf güman edilən cinayətkarın onun ərazisində olduğu və sırf onun vətəndaşlığına görə başqa Tərəfə verilmədiyi hallarında bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətə görə yurisdiksiyanı müəyyən etmək üçün bütün lazımi qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

8. Bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətə görə yurisdiksiyaya malik olduğunu bir neçə Tərəflər iddia etdikdə aidiyyəti Tərəflər zəruri hallarda cinayət təqibini həyata keçirmək üçün ən münasib yurisdiksiyanı müəyyən etmək üçün məsləhətləşmə aparırlar.

9. Beynəlxalq qanunun ümumi qaydalarına xələl gətirmədən, bu Konvensiya Tərəfin öz qanunvericiliyinə uyğun olaraq həyata keçirdiyi hər hansı cinayət təqibini istisna etmir.

**Maddə 26. Hüquqi şəxslərin məsuliyyəti**

1. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, fərdi surətdə, yaxud aşağıdakı əsaslarla hüquqi şəxsin strukturunda rəhbər vəzifə tutan həmin hüquqi şəxsin orqanı kimi çıxış edən hər hansı fiziki şəxs tərəfindən hüquqi şəxsin mənafeyi üçün törədilmiş, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətə görə həmin hüquqi şəxsi məsuliyyətə cəlb etmək imkanı təmin edilsin:

a) hüquqi şəxsi təmsil etmək səlahiyyəti;

b) hüquqi şəxs adından qərar qəbul etmək səlahiyyəti;

c) hüquqi şəxs daxilində nəzarəti həyata keçirmək səlahiyyəti.

2. 1-ci hissədə artıq nəzərdə tutulmuş hallardan başqa, hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 1-ci hissədə göstərilmiş fiziki şəxs tərəfindən nəzarətin olmaması səbəbindən bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətin hüquqi şəxsin

göstərişi ilə fiziki şəxs tərəfindən həmin hüquqi şəxsin mənafeyi üçün törətməsi hallarında hüquqi şəxsi məsuliyyətə cəlb etmək imkanı təmin edilsin.

3. Tərəfin hüquqi prinsiplərinə uyğun olaraq hüquqi şəxsin məsuliyyəti cinayət, mülki və ya inzibati hüquqi xarakterli ola bilər.

4. Bu cür məsuliyyət cinayət əməlini törətmiş fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə xələl gətirmir.

**Maddə 27. Cəzalar və tədbirlər**

1. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərə görə onların ağırlığı nəzərə alınmaqla səmərəli, mütənasib və kəsərli cəzaların nəzərdə tutulması təmin edilsin. Bu cəzalar ekstradisiyaya əsas verə biləcək azadlıqdan məhrumetmə ilə bağlı cəzalan ehtiva edir.

2. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 26-cı maddəyə uyğun olaraq məsuliyyətə cəlb edilmiş hüquqi şəxslər barəsində səmərəli, mütənasib və kəsərli cəzaların, o cümlədən cinayət və ya qeyri-cinayət qaydasında cərimələrin, habelə aşağıdakılar daxil olmaqla digər tədbirlərin təyin edilməsi təmin edilsin:

a) dövlət imtiyazlarını və ya yardımı almaq hüququndan məhrumetmə;

b) kommersiya fəaliyyəti ilə məşğul olmaq hüququndan müvəqqəti və ya daimi məhrumetmə;

c) məhkəmə nəzarəti altına vermə;

d) məhkəmə qaydasında ləğvetmə.

3. Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki,

a) aşağıdakıların götürülməsi və müsadirəsi nəzərdə tutulsun:

bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayət əməllərini törətmək və ya onların törədilməsinə kömək etmək üçün istifadə edilən əşyalar, sənədlər və ya digər vasitələr;

bu cinayət əməllərinin törədilməsi nəticəsində əldə edilmiş gəlir, yaxud dəyəri belə gəlirlərə uyğun olan əmlak;

b) bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayət əməlinin törədilməsi üçün istifadə edilmiş hər hansı müəssisənin, bona fide üçüncü tərəflərin hüquqlarına xələl gətirmədən müvəqqəti və ya daimi bağlanması, yaxud uşaqlarla təmasla bağlı peşəkar və ya könüllü fəaliyyətin həyata keçirilməsi zamanı cinayət törətmiş şəxslərə müvəqqəti və ya daimi bu fəaliyyətin həyata keçirilməsinin qadağan edilməsi nəzərdə tutulsun.

4. Hər bir Tərəf cinayətkarlar barəsində valideyn hüquqlarından məhrumetmə, yaxud məhkum olunmuş şəxslər üzərində nəzarət kimi digər tədbirləri tətbiq edə bilər.

5. Hər bir Tərəf bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hər hansı cinayət əməlinin qurbanları üçün preventiv və yardım proqramlarını maliyyələşdirmək üçün bu maddəyə uyğun olaraq müsadirə edilmiş, cinayət yolu ilə əldə edilmiş gəlirlərin və ya əmlakın xüsusi fonda yönəlməsini müəyyən edə bilər.

**Maddə 28. Ağırlaşdırıcı hallar**

Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, aşağıdakı hallar cinayət əməlinin tərkib elementi kimi müəyyən edilmədiyi təqdirdə, bu Konvensiyaya müvafiq olaraq müəyyən edilmiş cinayətlərlə bağlı cəzaların müəyyən edilməsi zamanı qanunvericiliyin müvafiq müddəalarına uyğun olaraq ağırlaşdırıcı hallar kimi nəzərə alınması imkanı təmin edilsin:

a) cinayət nəticəsində qurbanın fiziki və ya əqli sağlamlığına ciddi zərər yetirildikdə;

b) cinayət işgəncə və ya ciddi zorakılıq hərəkətləri ilə müşayiət olunduqda;

c) cinayət xüsusilə zəif qurbana qarşı törədildikdə;

d) cinayət ailə üzvü, uşaqla yaşayan şəxs və ya səlahiyyətindən sui-istifadə etmiş şəxs tərəfindən törədildikdə;

e) cinayət bir qrup şəxs tərəfindən törədildikdə;

f) cinayət mütəşəkkil cinayətkar qrup tərəfindən törədildikdə;

g) cinayətkar əvvəllər eyni xarakterli cinayətləri törətməsinə görə məhkum olunduqda.

**Maddə 29. Məhkumluq**

Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, cəza müəyyən edilərkən digər Tərəfin bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı çıxarılmış hökmləri nəzərə alınsın.

## Fəsil VII
## İSTİNTAQ, CİNAYƏT TƏQİBİ VƏ PROSESSUAL HÜQUQ

**Maddə 30. Prinsiplər**

1. Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, istintaq və cinayət təqibinin uşağın ən yüksək maraqları naminə və onun hüquqlarına riayət etməklə aparılması təmin edilsin.

2. Hər bir Tərəf qurbanlara müdafiə yanaşmasını qəbul edir ki, istintaq və cinayət təqibi nəticəsində uşağın keçirdiyi sarsıntı ağırlaşmasın və zəruri hallarda, cinayət hüquqi tədbirlərin tətbiqindən sonra yardım göstərilsin.

3. Hər bir Tərəf istintaq və cinayət təqibinin prioritet surətdə və heç bir əsassız ləngitmə olmadan aparılmasını təmin edir.

4. Hər bir Tərəf bu fəsilə əsasən tətbiq edilən tədbirlərin "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinə müvafiq olaraq, müdafiə hüquqlarına və ədalətli və qərəzsiz məhkəmə araşdırılmasına dair tələblərə xələl gətirmədiyini təmin edir.

5. Hər bir Tərəf öz qanunvericiliyinin əsas prinsiplərinə müvafiq olaraq zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki,

bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı, zəruri hallarda gizli əməliyyat-axtarış tədbirlərinə yol verməklə səmərəli istintaqın və cinayət təqibinin keçirilməsi təmin edilsin;

istintaq bölmələrinə və ya xidmətlərinə 20-ci maddəyə uyğun olaraq müəyyən edilmiş cinayətlərin qurbanlarını, o cümlədən informasiya və kommunikasiya texnologiyaları vasitəsilə ötürülən, yaxud təqdim edilən fotoşəkillər və ya audiovizual çəkilişlər kimi uşaq pornoqrafiyası materialını təhlil etməklə müəyyən etmək səlahiyyəti verilsin.

**Maddə 31. Ümumi müdafiə tədbirləri**

1. Hər bir Tərəf istintaq və cinayət təqibinin bütün mərhələlərində qurbanların hüquq və maraqlarının, o cümlədən onların şahid kimi xüsusi ehtiyaclarının, xüsusilə aşağıdakılar vasitəsilə müdafiəsi üçün zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir:

a) onlara öz hüquqları və onlar üçün mümkün olan xidmətlər, habelə bu cür məlumat almaqdan imtina etmədiyi halda, şikayətləri ilə bağlı görülən tədbirlər, ittihamlar, ümumiyyətlə istintaq və cinayət təqibinin gedişatı, habelə onların bu məsələdə rolu və işin nəticələri barədə məlumat verilməsi;

b) ən azı qurbanların və onların ailələrinin təhlükəyə məruz qala biləcəkləri hallarda onlara cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş şəxsin müvəqqəti və ya yekun olaraq azad edilməsi barədə zəruri hallarda məlumat verilməsi;

c) qanunvericiliyin prosessual normalarına uyğun qaydada onlar üçün ifadə vermək, sübutlar təqdim etmək, habelə öz mövqeyinin, ehtiyaclarının və fikirlərinin bilavasitə və ya vasitəçinin köməyilə nəzərə alınması vasitələrini seçmək imkanının yaradılması;

d) onların hüquq və mənafelərinin lazımi qaydada təqdim edilməsi və nəzərə alınması üçün onlara müvafiq yardım xidmətlərinin göstərilməsi;

e) onların şəxsi həyatının, şəxsiyyətinin və təsvirlərinin qorunması, habelə onların müəyyən olunmasına gətirib çıxara biləcək hər hansı məlumatın yayılmasının qarşısını almaq məqsədilə öz qanunvericiliyinə müvafiq olaraq tədbirlər həyata keçirməklə;

f) onların, habelə ailələrinin və onların tərəfindən çıxış edən şahidlərin təqib, qisasalma və təkrarən qurbana çevrilmə kimi təhlükələrdən qorunması;

g) səlahiyyətli orqanlar tərəfindən uşağın ən yüksək maraqlan üçün başqa qaydanın müəyyən edilməsi, yaxud istintaq və ya cinayət təqibi üçün belə təmasın tələb olunması hallan istisna edilməklə, məhkəmə və hüquq mühafizə orqanlarının binalarında qurbanlarla cinayətkarlar arasında təmasın olmamasının təmin edilməsi.

2. Hər bir Tərəf qurbanların səlahiyyətli orqanlarla ilkin təmasından başlayaraq onlar üçün müvafiq məhkəmə və inzibati proses barədə məlumatın mümkün olmasını təmin edir.

3. Hər bir Tərəf qurbanların cinayət prosesində iştirak etmək hüququna malik olduğu hallarda hüquqi yardımdan, tələb edildikdə isə pulsuz hüquqi yardımdan istifadə etmək imkanını təmin edir.

4. Hər bir Tərəf qurbanın qanunvericiliyə müvafiq olaraq cinayət prosesində iştirak etmək hüququna malik olduğu, lakin valideyn məsuliyyətini daşıyanların qurbanla maraqların toqquşmasına görə belə prosesdə uşağı təmsil etmək hüququndan məhrum edildiyi halda məhkəmə orqanlarına qurban üçün qanuni nümayəndəni təyin etmək imkanını təmin edir.

5. Hər bir Tərəf qruplara, fondlara, cəmiyyətlərə, yaxud hökumət və ya qeyri-hökumət təşkilatlarına bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı cinayət təqibi zamanı, qurbanların razılığı ilə, onlara yardım etmək və ya dəstək vermək imkanını öz qanunvericiliyində nəzərdə tutulmuş şərtlərə uyğun olaraq qanunvericilik və ya digər tədbirlər vasitəsilə təmin edir.

6. Hər bir Tərəf bu maddənin müddəalarına uyğun olaraq qurbanlara verilən məlumatların onların yaşına və kamillik dövrünə uyğun qaydada və onların başa düşdükləri dildə verilməsini təmin edir.

**Maddə 32. İcraatın başlanması**

Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı istintaqın və ya cinayət təqibinin qurbanın irəli sürdüyü şikayət və ya ittihamdan asılı olmaması, habelə qurban hətta öz ərizəsini geri götürdüyü halda icraatın davam edə biləcəyi təmin edilsin.

**Maddə 33. Məsuliyyətə cəlbetmə müddətləri**

Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 18-ci maddəyə, 19-cu maddənin 1-ci hissəsinin “a” və “b” bəndlərinə və 21-ci maddənin 1-ci hissəsinin “a” bəndinə uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı cinayət məsuliyyətinə cəlbetmə müddətinin qurbanın yetkinlik yaşına çatmasından sonra icraatın səmərəli qaydada başlanmasına imkan yaradan müddətdə, habelə cinayət əməlinin ağırlığına mütənasib müddətdə davam etməsi təmin edilsin.

**Maddə 34. İstintaq**

1. Hər bir Tərəf zəruri tədbirlər həyata keçirir ki, istintaqı həyata keçirən şəxslər, bölmələr və ya xidmətlərin uşaqların cinsi istismarı və ya onlara qarşı cinsi zorakılıqla mübarizə sahəsində ixtisaslaşmış və ya həmin şəxslərin bu məqsədlə təlim keçmiş olması təmin edilsin. Bu bölmələr və ya xidmətlər münasib maliyyə resursları ilə təmin edilir.

2. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, qurbanın həqiqi yaşı ilə bağlı qeyri-müəyyənliyin cinayət işinin başlanmasına mane olmadığı təmin edilsin.

**Maddə 35. Uşaqdan ifadə alma**

1. Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, aşağıdakılar təmin edilsin:

a) faktlar barədə səlahiyyətli orqanlara məlumat daxil olduqdan sonra heç bir əsassız ləngimə olmadan uşaqdan ifadə almaq üçün müsahibə keçirilir;

b) zəruri hallarda uşaqdan ifadə almaq üçün müsahibə bu məqsədlə yaradılmış və ya uyğunlaşdırılmış yerdə keçirilir;

c) uşaqdan ifadə almaq üçün müsahibə bu məqsədlə təlim keçmiş mütəxəssislər tərəfindən keçirilir;

d) mümkün və münasib olduqda uşaqdan ifadə almaq üçün müsahibələr eyni şəxslər tərəfindən keçirilir;

e) müsahibələr yalnız cinayət təqibi məqsədləri ilə tələb olunan mümkün qədər az sayda olmalıdır;

f) uşağı qanuni nümayəndəsi və ya münasib olduqda, onun seçimi ilə yetkinlik yaşına çatmış şəxs, bu şəxslə bağlı onun iştirakının qadağan edilməsi barədə qərar olduğu hallar istisna edilməklə, müşayiət edə bilər.

2. Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, qurbanla, müvafiq hallarda isə uşaq şahidi ilə bütün müsahibələrin videoçəkiliş aparmaqla keçirilməsi və bu videoyazıların məhkəmə icraatı zamanı sübut kimi qəbul edilməsi imkanı qanunvericiliyin normalarına müvafiq qaydada təmin edilsin.

3. Qurbanın yaşı qeyri-müəyyən olduğu və qurbanın uşaq olduğuna inanmaq üçün səbəblər mövcud olduğu hallarda 1-ci və 2-ci hissələrdə nəzərdə tutulmuş tədbirlər onun yaşı müəyyən edilənədək tətbiq edilir.

**Maddə 36. Cinayət mühakiməsi**

1. Hər bir Tərəf hüquq peşəsi sahiblərinin müstəqilliyinə dair normalara əməl etməklə zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, icraat iştirakçıları, xüsusilə hakimlər, prokurorlar və vəkillər üçün uşaqların hüquqları, habelə uşaqların cinsi istismarı və onlara qarşı seksual zorakılıqla bağlı təlimlərin keçirilməsi təmin edilsin.

2. Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri

həyata keçirir ki, öz qanunvericiliyinin normalarına müvafiq olaraq aşağıdakılar təmin edilsin:

a) məhkəmə iclasının qapalı keçirilməsi barədə hakim tərəfindən qərar qəbul edilməsi;

b) qurbanın məhkəmə zalında iştirak etmədən, yəni müvafiq kommunikasiya texnologiyalarından istifadə etməklə məhkəmə iclasında ifadə verməsi.

**Fəsil VIII**
**MƏLUMATLARIN QEYDƏ ALINMASI VƏ SAXLANMASI**

**Maddə 37. Seksual xarakterli cinayət törətməyə görə məhkum olunmuş şəxslər barəsində məlumatların qeydiyyatı və saxlanması**

1. Bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərin qarşısının alınması və onlarla bağlı cinayət təqibinin keçirilməsi məqsədilə hər bir Tərəf bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətləri törətməsinə görə məhkum olunmuş şəxslərin şəxsiyyəti və genetik profilinə (DNT) dair məlumatların şəxsi məlumatların qorunmasına dair müvafiq müddəalara və qanunvericilikdə nəzərdə tutulmuş digər müvafiq normalara və təminatlara uyğun qaydada toplanması və saxlanması üçün zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir.

2. Hər bir Tərəf imzalama və ya ratifikasiya, qəbuletmə, təsdiq və ya daxilolma sənədini təhvil verən zaman Avropa Şurasının Baş katibinə 1-ci bəndin məqsədləri üçün məsul vahid milli orqanın adını və ünvanını təqdim edir.

3. Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, 1-ci hissədə göstərilən məlumatı öz qanunvericiliyində və müvafiq beynəlxalq sənədlərdə müəyyən edilmiş şərtlərə uyğun olaraq digər Tərəfin səlahiyyətli orqanına ötürmək imkanı təmin edilsin.

**Fəsil IX**
**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

**Maddə 38. Beynəlxalq əməkdaşlıq üzrə ümumi prinsiplər və tədbirlər**

1. Tərəflər bu Konvensiyanın müddəalarına uyğun olaraq və müvafiq beynəlxalq və regional sənədlər, habelə mümkün qədər geniş dərəcədə vahid və ya qarşılıqlı olan qanunvericilik və normalar əsasında əldə edilmiş razılaşma vasitəsilə aşağıdakı məqsədlər üçün bir-birləri ilə əməkdaşlıq edirlər:

a) uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın qarşısının alınması və bu cür hallara qarşı mübarizə aparılması;

b) qurbanları müdafiə və yardımla təmin edilməsi;

c) bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı istintaq və ya cinayət təqibinin aparılması.

2. Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, şəxs onun yaşamadığı Tərəfin ərazisində bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətin qurbanı olduğu halda onun yaşadığı dövlətin səlahiyyətli orqanlarına şikayət etmək imkanı təmin edilsin.

3. Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımı və ya ekstradisiyanı müqavilənin olması ilə şərtləndirən Tərəfə bu cür müqavilə bağlanmadığı Tərəfdən hüquqi yardım və ya ekstradisiya ilə bağlı sorğu daxil olduqda o, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı bu Konvensiyanı cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ya ekstradisiya üçün hüquqi əsas hesab edə bilər.

4. Hər bir Tərəf, münasib hallarda, uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılığın qarşısının alınması və bu cür hallarla mübarizənin üçüncü dövlətlərin yardım proqramlarına daxil edilməsinə səy göstərir.

**Fəsil X**
**MONİTORİNQ MEXANİZMİ**

**Maddə 39. Tərəflər Komitəsi**

1. Tərəflər Komitəsi Konvensiyaya tərəfdar çıxan dövlətlərin nümayəndələrindən ibarətdir.

2. Tərəflər Komitəsi Avropa Şurasının Baş katibi tərəfindən çağırılır. Onun ilk yığıncağı bu Konvensiya onu imzalayan onuncu dövlətə münasibətdə qüvvəyə mindikdən sonra bir il ərzində keçirilir. Sonrakı yığıncaqlar Tərəflərin ən azı üçdə birinin və ya Baş katibin tələbi ilə keçirilir.

3. Tərəflər Komitəsi öz reqlamentini qəbul edir.

**Maddə 40. Digər nümayəndələr**

1. Avropa Şurasının Parlament Assambleyası, İnsan hüquqları üzrə komissar, Cinayət Problemləri üzrə Avropa Komitəsi (CDPC), habelə Avropa Şurasının digər müvafiq hökumətlərarası komitələri Tərəflər Komitəsinə öz nümayəndəsini təyin edir.

2. Nazirlər Komitəsi Tərəflər Komitəsi ilə məsləhətləşmə apardıqdan sonra Avropa Şurasının digər orqanlarını nümayəndə təyin etməyə dəvət edə bilər.

3. Vətəndaş cəmiyyəti nümayəndələri, xüsusilə də qeyri-hökumət təşkilatları Avropa Şurasının müvafiq qaydaları ilə müəyyən edilmiş prosedura əməl etməklə Tərəflər Komitəsinə müşahidəçi qismində qəbul edilə bilər.

4. Yuxarıda göstərilən 1-3-cü hissələrə uyğun olaraq təyin edilmiş nümayəndələr Tərəflər Komitəsinin yığıncaqlarında səsvermə hüququna malik olmadan iştirak edir.

**Maddə 41. Tərəflər Komitəsinin funksiyaları**

1. Tərəflər Komitəsi bu Konvensiyanın yerinə yetirilməsinə nəzarət edir. Bu Konvensiyanın yerinə yetirilməsinin qiymətləndirilməsinə dair prosedur Tərəflər Komitəsinin reqlamentində müəyyən edilir.

2. Tərəflər Komitəsi uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın qarşısını almaq və bu cür hallarla mübarizə aparmaq qabiliyyətini artırmaq məqsədilə onlar arasında məlumat, praktika və ən yaxşı təcrübələrin toplanmasına, təhlilinə və mübadilə edilməsinə yardım göstərir.

3. Tərəflər Komitəsi həmçinin münasib hallarda:

a) bu Konvensiyanın səmərəli surətdə həyata keçirilməsinə və tətbiqinə, o cümlədən bu Konvensiyaya əsasən verilmiş hər hansı bəyanat və ya qeyd-şərtin problemlərini və təsirini müəyyən etməyə yardım göstərir;

b) bu Konvensiyanın tətbiqi ilə bağlı hər hansı məsələyə dair rəy bildirir, habelə mühüm hüquqi, siyasi və ya texnoloji proseslər barədə məlumat mübadiləsinə yardım göstərir.

4. Avropa Şurasının Katibliyi Tərəflər Komitəsinə bu maddəyə uyğun olaraq öz funksiyalarının yerinə yetirilməsində yardım göstərir.

5. Bu maddənin 1, 2 və 3-cü hissələrində göstərilən fəaliyyət barədə məlumat müntəzəm qaydada Cinayət Problemləri üzrə Avropa Komitəsinə (CDPC) verilir.

## Fəsil XI
## DİGƏR BEYNƏLXALQ SƏNƏDLƏRLƏ ƏLAQƏ

**Maddə 42. BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası və onun Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolu ilə əlaqə**

Bu Konvensiya BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası və onun Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolunun müddəalarından irəli gələn hüquq və öhdəliklərə təsir göstərmir və onların imkan verdiyi müdafiənin səmərəliliyini artırmaq, habelə orada əks etdirilən standartları inkişaf etdirmək və tamamlamaq məqsədini daşıyır.

**Maddə 43. Digər beynəlxalq sənədlərlə əlaqə**

1. Bu Konvensiya Tərəflərin tərəfdar çıxdığı və ya çıxacağı, habelə bu Konvensiyada baxılan məsələlərə dair müddəaları əks etdirən, cinsi istismarın və cinsi zorakılığın uşaq qurbanlarını daha geniş müdafiə və yardımla təmin edən beynəlxalq sənədlərin müddəalarından irəli gələn hüquq və öhdəliklərə təsir göstərmir.

2. Bu Konvensiyanın Tərəfləri bu Konvensiyanın müddəalarını gücləndirmək və ya burada təsbit edilmiş prinsiplərin tətbiqini təşviq etmək məqsədilə bu Konvensiyada baxılan məsələlər üzrə bir-birləri ilə ikitərəfli və ya çoxtərəfli müqavilələr bağlaya bilərlər.

3. Avropa İttifaqının üzvləri olan Tərəflər öz qarşılıqlı münasibətlərində bu Konvensiyanın məqsəd və məramına xələl gətirmədən və onun digər Tərəflərlə tam surətdə tətbiqinə xələl gətirmədən konkret məsələni idarə edən və konkret iş üzrə tətbiq edilən Birlik və ya Avropa İttifaqı normalarının mövcud olduğu halda Birliyin və Avropa İttifaqının qaydalarını tətbiq edir.

## Fəsil XII
## KONVENSİYAYA DÜZƏLİŞLƏR

**Maddə 44. Düzəlişlər**

1. Tərəfin bu Konvensiyaya düzəliş edilməsi ilə bağlı irəli sürdüyü hər hansı təklif Avropa Şurasının Baş katibinə təqdim edilir və onun tərəfindən Avropa Şurasının üzv dövlətlərinə, bu Konvensiyanı imzalamış, tərəfdar çıxmış dövlətə, Avropa İttifaqına, 45-ci maddənin 1-ci hissəsinin müddəalarına uyğun olaraq bu Konvensiyanı imzalamağa dəvət edilmiş hər bir dövlətə, habelə 46-cı maddənin 1-ci hissəsinin müddəalarına uyğun olaraq bu Konvensiyaya qoşulmağa dəvət edilmiş hər bir dövlətə göndərilir.

2. Tərəfin təklif etdiyi hər hansı düzəliş Cinayət Problemləri üzrə Avropa Komitəsinə (CDPC) göndərilir və o, Nazirlər Komitəsinə həmin təklif edilən düzəliş barədə öz rəyini təqdim edir.

3. Nazirlər Komitəsi təklif edilən düzəlişi və CDPC-nin təqdim etdiyi rəyi nəzərdən keçirir və bu Konvensiyaya tərəfdar çıxmış Avropa Şurasının üzvü olmayan dövlətlərlə məsləhətləşmə apardıqdan sonra düzəlişi qəbul edə bilər.

4. Bu maddənin 3-cü hissəsinə uyğun olaraq Nazirlər Komitəsinin qəbul etdiyi hər hansı düzəlişin mətni qəbul edilməsi üçün Tərəflərə təqdim edilir.

5. Bu maddənin 3-cü hissəsinə uyğun olaraq qəbul edilən hər hansı düzəliş bütün Tərəflərin Baş katibə düzəlişi qəbul etməsi barədə məlumat təqdim etdiyi gündən bir ay müddətinin bitməsindən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

## Fəsil XIII
## YEKUN MÜDDƏALAR

**Maddə 45. İmzalanma və qüvvəyəminmə**

1. Bu Konvensiya Avropa Şurasının üzv dövlətləri, onun işlənib hazırlanmasında iştirak etmiş Avropa Şurasının üzvü olmayan dövlətlər, habelə Avropa Birliyi tərəfindən imzalanması üçün açıqdır.

2. Bu Konvensiya ratifikasiya, qəbuletmə və ya təsdiq üçün açıqdır. Ratifikasiya, qəbuletmə və ya təsdiq barədə sənədlər Avropa Şurasının Baş katibinə saxlanca təqdim edilir.

3. Bu Konvensiya Avropa Şurasının ən azı 3 üzvü daxil olmaqla 5 imzalayan tərəfin əvvəlki hissənin müddəalarına uyğun olaraq Konvensiya müddəalarının qəbul etməsi barədə razılıq bildirdikləri tarixdən sonra üç ay müddətinin bitməsindən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

4. Konvensiyanın müddəalarını qəbul etməsi barədə razılıq bildirən 1-ci hissədə göstərilən hər hansı dövlətə və Avropa İttifaqına münasibətdə Konvensiya ratifikasiya, qəbuletmə və ya təsdiq sənədi saxlanc üçün təqdim edilən tarixdən üç ay müddətinin bitməsindən sonra növbəti aynı birinci günü qüvvəyə minir.

**Maddə 46. Konvensiyaya qoşulma**

1. Bu Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi bu Konvensiyanın Tərəfləri ilə məsləhətləşmə apardıqdan və onların yekdil razılığını aldıqdan sonra Avropa Şurası Nizamnaməsinin 20-ci maddəsinin "d" bəndində nəzərdə tutulmuş səs çoxluğu ilə qəbul edilmiş qərarla və Nazirlər Komitəsində iştirak etmək səlahiyyətinə malik olan Razılığa gələn dövlətlər nümayəndələrinin yekdil səs çoxluğu ilə Konvensiyanın işlənib hazırlanmasında iştirak etməmiş Avropa Şurasının üzvü olmayan hər hansı dövləti bu Konvensiyaya qoşulmağa dəvət edə bilər.

2. Konvensiyaya qoşulan hər hansı dövlətə münasibətdə Konvensiya qoşulmaya dair sənədin Avropa Şurasının Baş katibinə saxlanca verildiyi tarixdən üç ay müddətinin bitməsindən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

**Maddə 47. Ərazi üzrə tətbiqi**

1. Hər bir dövlət və ya Avropa İttifaqı bu Konvensiyanı imzalayarkən və ya ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənədi saxlanca təqdim edərkən bu Konvensiyanın hansı ərazi və ya ərazilərə tətbiq edilməsini göstərə bilər.

2. Hər bir Tərəf daha sonra Avropa Şurası Baş katibinin adına bəyanat verməklə, bu Konvensiyanın təsir dairəsini həmin bəyanatda göstərilmiş, beynəlxalq münasibətlərinə görə məsuliyyət daşıdığı və ya adından öhdəlik götürmək səlahiyyətinə malik olduğu hər hansı bir digər əraziyə münasibətdə genişləndirə bilər. Konvensiya belə əraziyə münasibətdə Avropa Şurasının Baş katibi tərəfindən belə bəyanatın alındığı tarixdən etibarən üç ay müddətinin bitməsindən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki hissəyə uyğun olaraq təqdim edilmiş hər hansı bəyanat həmin bəyanatda göstərilən hər hansı bir

əraziyə dair Avropa Şurası Baş katibinin adına bildiriş təqdim edilməklə geri götürülə bilər. Geriyə götürmə Avropa Şurasının Baş katibi tərəfindən müvafiq bəyanatın alındığı tarixdən etibarən üç ay müddətin bitməsindən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

**Maddə 48. Qeyd-şərtlər**

Dəqiq surətdə müəyyən edilən qeyd-şərtlər istisna edilməklə, bu Konvensiyanın istənilən müddəası ilə bağlı heç bir qeyd-şərt edilə bilməz. Hər hansı qeyd-şərt istənilən vaxt geri götürülə bilər.

**Maddə 49. Denonsasiya**

1. Hər bir Tərəf Avropa Şurası Baş katibinin adına bildiriş göndərməklə bu Konvensiyanı istənilən zaman denonsasiya edə bilər.

2. Belə denonsasiya Avropa Şurasının Baş katibi tərəfindən bildirişin alındığı tarixdən üç ay sonra növbəti ayın birinci günü qüvvəyə minir.

3. Avropa Şurasının Baş katibi Avropa Şurasının üzv dövlətlərinə, bu Konvensiyanı imzalamış və ya ona tərəfdar çıxmış hər bir dövlətə, Avropa Birliyinə, 45-ci maddəyə uyğun olaraq bu Konvensiyam imzalamaq üçün dəvət olunmuş hər bir dövlətə, habelə 46-cı maddəyə uyğun olaraq bu Konvensiyaya qoşulmaq üçün dəvət olunmuş hər bir dövlətə aşağıdakılar barədə bildiriş göndərir:

a) hər hansı imzalanma;

b) hər hansı bir ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənədlərin saxlanca təqdim edilməsi;

c) 45-ci və 46-cı maddələrə uyğun olaraq bu Konvensiyanın qüvvəyəminmə tarixi;

d) 44-cü maddəyə uyğun olaraq qəbul edilmiş hər hansı düzəliş və onun qüvvəyəminmə tarixi;

e) 48-ci maddəyə uyğun olaraq edilmiş hər hansı qeyd-şərt;

f) 49-cu maddəyə əsasən edilmiş hər hansı denonsasiya;

g) bu Konvensiya ilə əlaqədar hər hansı bir hərəkət, bildiriş və ya məlumat.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

2007-ci il 25 oktyabr tarixində Lansarotedə, ingilis və fransız dillərində tam autentik olaraq imzalanan hər iki mətn bir nüsxədə olmaqla, eyni qüvvəyə malikdir, həmin nüsxə Avropa Şurasının arxivlərində saxlanılacaqdır. Avropa Şurasının Baş katibi Konvensiyanın təsdiq edilmiş surətlərini Avropa Şurasının hər bir üzv dövlətinə, Konvensiyanın hazırlanmasında iştirak edən Avropa Şurasının üzvü olmayan dövlətlərə, Avropa Birliyinə və bu Konvensiyaya qoşulmaq üçün dəvət olunmuş hər bir dövlətə göndərir.

## "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyasına dair Azərbaycan Respublikasının

## BƏYANATI

1. Azərbaycan Respublikası bəyan edir ki, Konvensiyanın müddəaları Ermənistan Respublikasına münasibətdə Azərbaycan Respublikası tərəfindən tətbiq edilməyəcəkdir.

2. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində (Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu) Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermir (Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin sxematik xəritəsi əlavə olunur).

3. Azərbaycan Respublikası bəyan edir ki, bu bəyanatın 1-ci və 2-ci bəndlərinin müddəalarını istənilən zaman dəyişdirmək və ya ləğv etmək hüququnu özündə saxlayır və digər Tərəflər hər hansı bu cür dəyişikliklər və ya ləğvetmələr haqqında yazılı şəkildə məlumatlandırılacaqlar.



## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD, 1626-VQD nömrəli, 9 iyul tarixli 1636-VQD nömrəli, 12 iyul tarixli 1660-VQD və 1662-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 391-1-ci maddə əlavə edilsin:

**“Maddə 391-1. Xüsusi notarius işləmiş şəxs tərəfindən notariat hərəkətləri barədə sənədlərin dövlət notariat arxivinə təhvil verilməməsi**

Fəaliyyətinə xitam verilmiş xüsusi notarius tərəfindən aparılmış notariat hərəkətləri barədə sənədlərin bir ay müddətində dövlət notariat arxivinə təhvil verilməməsinə görə –

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.”.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 oktyabr 2019-cu il
№ 1673-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” və “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**1.** “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991, № 3, maddə 39; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 515) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**2.** “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №7, maddə 515; 2005, № 10, maddə 874; 2010, № 4, maddə 276; 2013, № 11, maddə 1303) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 9.1-ci maddədə “Azərbaycan Respublikasının Konstitusiyasında” sözlərindən sonra “və “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda” sözləri əlavə edilsin;

**2.2.** 9.2-ci maddə ləğv edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 oktyabr 2019-cu il
№ 1674-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" və "Təhsil haqqında" qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9) 35-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** birinci abzasda "tibbi, defektoloji və psixoloji" sözləri "tibbi və defektoloji, habelə "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji" sözləri ilə əvəz edilsin;

**1.2.** ikinci abzasda "sosial və psixoloji reabilitasiyasına" sözləri "sosial reabilitasiyasına, psixoloji reabilitasiya və psixoloji korreksiyasına" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12 (I kitab), maddə 697; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281; 2014, № 11, maddə 1372; 2015, № 11, maddə 1272; 2018, № 5, maddə 885) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 5.7-ci, 9.1.6-cı maddələrdə, 11.1-ci maddənin üçüncü cümləsində və 16.3-cü maddədə "sosial-psixoloji reabilitasiya" sözləri "psixoloji reabilitasiya və psixoloji korreksiya" sözləri ilə əvəz edilsin;

**2.2.** 11.2-ci maddəyə "psixoloqla" sözündən əvvəl "klinik (tibbi)" sözləri əlavə edilsin və həmin maddədə "sosial-psixoloji reabilitasiya və" sözləri "psixoloji reabilitasiya və psixoloji korreksiya, habelə" sözləri ilə əvəz edilsin;

**2.3.** 14.5-ci maddədə "sosial-psixoloji reabilitasiyasını" sözləri "psixoloji reabilitasiya və psixoloji korreksiyasını" sözləri ilə əvəz edilsin və həmin maddəyə "psixoloq" sözündən əvvəl "klinik (tibbi)" sözləri əlavə edilsin.

**Maddə 3.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanunu) 5.6.3-cü maddəsində "sosial-psixoloji reabilitasiya" sözləri "psixoloji reabilitasiya və psixoloji korreksiya" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681; 2006, № 2, maddə 75; 2007, № 1, maddə 5; 2016, № 2 (I kitab), maddə 195, № 12, maddə 2030) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 11.7.2-ci maddədə "sosial, psixoloji və digər kömək" sözləri ""Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada psixoloji yardım, habelə sosial və digər kömək" sözləri ilə əvəz edilsin;

**4.2.** 13.2.1-ci maddədə "psixoloji-tibbi-pedaqoji reabilitasiyasını" sözləri "tibbi-pedaqoji reabilitasiyasını, habelə psixoloji reabilitasiyasını və psixoloji korreksiyasını" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 694; 2013, № 5, maddə 458; 2014, № 11, maddə 1346) 15.1-ci maddəsinə "psixoloji" sözündən sonra "reabilitasiya və psixoloji korreksiyası" sözləri əlavə edilsin.

**Maddə 6.** "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 444, № 12, maddə 1210) 3.0.10-cu maddəsində "yardım, psixoloji reabilitasiya" sözləri "və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada psixoloji yardım" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**7.1.** 14.20-ci maddəyə "təşkil olunur" sözlərindən sonra "və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə, psixoloji yardım həyata keçirilir" sözləri əlavə edilsin;

**7.2.** aşağıdakı məzmunda 32.3.18-1-ci maddə əlavə edilsin:

**"32.3.18-1.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 oktyabr 2019-cu il
№ 1675-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836; 2017, № 8, maddə 1512) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1.0.8-ci maddədə "psixi" sözü "psixoloji" sözü ilə əvəz edilsin;

**1.2.** 7.0.1-ci, 15.0.5-ci və 19.2.3-cü maddələrə "reabilitasiya" sözündən sonra "və psixoloji korreksiya" sözləri əlavə edilsin;

**1.3.** 8.0.6-cı maddədə "psixoloji" sözündən əvvəl "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada" sözləri əlavə edilsin.

**Maddə 2.** "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 8.0.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.0.12-ci maddə əlavə edilsin:

**"8.0.12.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq.";

**2.2.** 23.0.3-cü maddədə "psixoloji vəziyyətinin reabilitasiyasını" sözləri "psixoloji yardımı" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 272) 7.0.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

**"7.0.4.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**Maddə 4.** "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347, № 7, maddə 767; 2016, № 6, maddə 987; 2018, № 10, maddə 1979, № 11, maddə 2226; 2019, № 4, maddə 579) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 15.1.22-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"15.1.22.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;";

**4.2.** 22.4-cü maddədən "və psixoloji" sözləri çıxarılsın.

**Maddə 5.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986) aşağıdakı dəyişikliklər edilsin:

**5.1.** 10.23-cü maddəyə "təşkil olunur" sözlərindən sonra "və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə, psixoloji yardım həyata keçirilir" sözləri əlavə edilsin;

**5.2.** aşağıdakı məzmunda 18.2.5-1-ci maddə əlavə edilsin:

**"18.2.5-1.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 oktyabr 2019-cu il
№ 1676-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6,

maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225; 2019, № 4, maddələr 570, 579, № 5, maddələr 796, 812) 10.2.9-1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"10.2.9-1.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**Maddə 2.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1659-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 86.0.16-cı maddədən "və psixoloji" sözləri çıxarılsın;

**2.2.** 87.1.17-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"87.1.17.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**Maddə 3.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD, 1626-VQD nömrəli, 9 iyul tarixli 1636-VQD nömrəli, 12 iyul tarixli 1660-VQD və 1662-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 215-1-ci maddə əlavə edilsin:

**"Maddə 215-1. Psixoloji yardım haqqında qanunvericiliyin pozulması**

**215-1.1.** Psixoloji yardım almağa məcbur etməyə görə –

beş yüz manat məbləğində cərimə edilir.

**215-1.2.** Klinik psixoloji yardım göstərilməsi zamanı klinik (tibbi) psixoloq tərəfindən dərman preparatlarının təyin, o cümlədən insan orqanizmini mexaniki və ya digər təsirlərə (cərrahiyyə, lazer, ionlaşdırıcı şüa, ultrasəs, elektrokonvulsiv terapiya) məruz qoyan müalicə üsullarından istifadə edilməsinə görə –

fiziki şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər min iki yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**215-1.3.** Psixoloji yardım sahəsində psixoloji yardım alan şəxslərin həyatına, sağlamlığına, psixoloji rifahına və ya ləyaqətinə zərər yetirə biləcək tədqiqatlar aparılmasına görə –

fiziki şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min iki yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 oktyabr 2019-cu il
№ 1677-VQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, № 11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982; 2018, № 5, maddə 884) aşağıdakı məzmunda 7.1.2-1-ci maddə əlavə edilsin:

**"7.1.2-1.** Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi və onlardan istifadə edilməsi qaydalarını müəyyən edir; ".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 oktyabr 2019-cu il
№ 1684-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1280-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 399; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692, № 10, maddə 872; 2006, № 12, maddə 1007; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2011, № 2, maddə 71; 2013, № 12, maddə 1491; 2015, № 2, maddə 73; 2016, № 3, maddə 415; 2017, № 5, maddə 686; 2019, № 1, maddə 33) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 2-ci maddədə "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin;

**1.2.** 7-ci maddənin ikinci hissəsindən "və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış qoşun birləşmələrinin" sözləri çıxarılsın və həmin hissəyə "idarələri," sözündən sonra "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar)," sözləri əlavə edilsin.

**Maddə 2.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD və 1661-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 1.0.3-cü maddədə ", Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarında və Azərbaycan Respublikasının qanunvericiliyi ilə yaradılmış digər silahlı birləşmələrdə" sözləri "və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin;

**2.2.** 21.2.3-cü maddəyə "müvafiq icra hakimiyyəti orqanlarında" sözlərindən sonra "və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri əlavə edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 oktyabr 2019-cu il
№ 1685-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə və 96-cı maddəsinin VI hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

**Maddə 1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihəsini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına mənsubdur.

**Maddə 2. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi**

Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü (bundan sonra – vətəndaşların qanunvericilik təşəbbüsü) hüququndan istifadə ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, bu Qanundan, Azərbaycan Respublikasının Seçki Məcəlləsindən, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun (qərar) layihəsinə dair tələblər**

**3.1.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında

təqdim etdiyi qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 50-ci, 53-58-ci və 62.4-cü maddələrində müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

**3.2.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun (qərar) layihəsində (bundan sonra – layihə) aşağıdakı məsələlər nəzərdə tutula bilməz:

**3.2.1.** dövlət büdcəsi, dövlət rüsumu, vergilər və gömrük işi;

**3.2.2.** əmək haqqının məbləği və onun ödənilməsi qaydası;

**3.2.3.** cinayət və ya inzibati xətalar;

**3.2.4.** ailə münasibətləri;

**3.2.5.** ərazi quruluşu və inzibati ərazi bölgüsü;

**3.2.6.** dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi;

**3.2.7.** seçki və referendum;

**3.2.8.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad;

**3.2.9.** amnistiya;

**3.2.10.** seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.

**3.3.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında Konstitusiya qanunlarının layihələri təqdim oluna bilməz.

**Maddə 4. Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupunun yaradılması**

**4.1.** Layihəni Azərbaycan Respublikası Milli Məclisinin (bundan sonra – Milli Məclis) müzakirəsinə təqdim etmək təklifi ilə çıxış edən seçki hüququ olan ən azı 300 nəfər Azərbaycan Respublikasının vətəndaşı tərəfindən vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupu (bundan sonra – təşəbbüs qrupu) yaradılır.

**4.2.** Bir təşəbbüs qrupu öz fəaliyyəti dövründə yalnız bir layihəni Milli Məclisin müzakirəsinə təqdim etmək təklifi ilə çıxış edə bilər.

**4.3.** Təşəbbüs qrupunun yaradılmasının məqsədləri Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan layihənin dəstəklənməsi üçün imza toplanması və qanunvericilik təşəbbüsü ilə çıxış edən vətəndaşların mənafelərinin müdafiə edilməsidir.

**4.4.** Təşəbbüs qrupunun ilk iclasında onun yaradılması barədə qərar qəbul olunur, təşəbbüs qrupunun sədri və ən azı iki sədr müavini, həmçinin seçki dairələri üzrə koordinatorları seçilir və təklif olunan layihənin mətni təsdiq olunur. Həmin iclasın protokolu iclasın sədri və katibi tərəfindən imzalanır və iclasda iştirak edən vətəndaşların siyahısı protokola əlavə olunur. Bu siyahıda onların soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti, həmçinin vətəndaşın təklif olunan layihənin lehinə və ya əleyhinə səs verməsi qeyd olunur. Siyahıda qeyd edilən hər bir vətəndaş özünə aid məlumatları imzası ilə təsdiq edir.

**4.5.** Təşəbbüs qrupunu onun sədri təmsil edir. Sədr müvəqqəti olmadıqda onun səlahiyyətlərini sədrin müəyyən etdiyi müavinlərdən biri icra edir.

**4.6.** Təşəbbüs qrupunun iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Təşəbbüs qrupunun iclasında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

**Maddə 5. Təşəbbüs qrupunun və layihənin qeydiyyatı**

**5.1.** Təşəbbüs qrupu onun yaradıldığı gündən bir ay ərzində təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması üçün ərizə ilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müraciət edir.

**5.2.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

**5.2.1.** bu Qanunun 4.4-cü maddəsinə uyğun olaraq tərtib olunmuş təşəbbüs qrupunun yaradılması, onun sədrinin və müavinlərinin, həmçinin seçki dairələri üzrə koordinatorlarının seçilməsi və layihənin təsdiqi barədə iclas protokolu və həmin protokola əlavə edilən iclas iştirakçılarının siyahısı;

**5.2.2.** bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib edilmiş layihə (kağız daşıyıcısında və eyni zamanda, elektron daşıyıcıda);

**5.2.3.** layihənin qəbul edilməsi zərurətinin əsaslandırılması;

**5.2.4.** layihəyə dair ekspert rəyləri;

**5.2.5.** layihəni hazırlamış şəxslərin siyahısı;

**5.2.6.** layihəyə aid digər sənədlər (təşəbbüs qrupunun qərarına əsasən).

**5.3.** Bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulan sənədlər Mərkəzi Seçki Komissiyasına daxil olduğu gündən iki ay ərzində Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun və təklif olunan layihənin bu Qanuna uyğun olaraq qeydiyyata alınması və yaxud bundan imtina edilməsi barədə qərar qəbul edilir.

**5.4.** Mərkəzi Seçki Komissiyası təşəbbüs qrupunun təqdim etdiyi sənədlər əsasında təşəbbüs qrupunun yaradılmasının bu Qanunun tələblərinə uyğunluğunu yoxlayır. Təşəbbüs qrupunun təqdim etdiyi layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər layihənin bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olub-olmaması barədə bir ay ərzində rəyin hazırlanması üçün Mərkəzi Seçki Komissiyası tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir. Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaitinin istifadəsini nəzərdə tutan layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq bir ay ərzində maliyyə ekspertizası rəyinin hazırlanması üçün həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

**5.5.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərar qəbul edildiyi gündən həmin layihə Milli Məclisə təqdim edilənədək layihədə dəyişiklik edilə bilməz.

**5.6.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alındığı gündən 3 iş günü müddətində təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarın surəti və imza toplanması üçün imza vərəqələrinin nümunəsi təşəbbüs qrupunun sədrinə təqdim edilir, həmçinin təşəbbüs qrupunun sədrinə, müavinlərinə və seçki dairələri üzrə koordinatorlarına müvafiq vəsiqələr verilir.

**5.7.** İmza toplanması üçün imza vərəqələrinin və təşəbbüs qrupunun sədrinə, müavinlərinə və seçki dairələri üzrə koordinatorlarına verilən vəsiqələrin nümunələri Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunur.

**5.8.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınmasından aşağıdakı hallarda imtina edilir:

**5.8.1.** təşəbbüs qrupunun yaradılmasının bu Qanunla müəyyən edilmiş qaydası pozulduqda;

**5.8.2.** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinə əsasən təşəbbüs qrupunun təqdim etdiyi layihə bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olmadıqda;

**5.8.3.** Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaitinin istifadəsini nəzərdə tutan layihəyə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinə əsasən layihənin tətbiqinin maliyyələşdirilməsi üçün müvafiq vəsait olmadıqda.

**5.9.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınmasından imtina barədə Mərkəzi Seçki Komissiyasının qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

**Maddə 6. Layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanması qaydası**

**6.1.** Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanması təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alındığı gündən iki ay ərzində yalnız təşəbbüs qrupunun üzvləri tərəfindən həyata keçirilir.

**6.2.** Təşəbbüs qrupunun üzvləri Azərbaycan Respublikasının seçki hüququ olan ən azı 40 min vətəndaşının imzasını toplamalıdırlar. İmzaların toplanması ən azı 60 seçki dairəsinin ərazisini əhatə etməli və hər seçki dairəsinin ərazisindən ən azı 500 imza toplanmalıdır.

**6.3.** İmza toplanması üçün imza vərəqəsində layihənin adı, imza toplayan təşəbbüs qrupu üzvünün soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti, təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarın tarixi və nömrəsi, təklif olunan layihəni dəstəkləyən vətəndaşın soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti göstərilməlidir.

**6.4.** Təşəbbüs qrupunun imza toplayan üzvü vətəndaşa təklif olunan layihənin tam mətnini təqdim etməli, layihənin məzmununu izah etməli və oxuması üçün vaxt verməlidir.

**6.5.** Bir imza vərəqəsinə yalnız eyni seçki dairəsinin ərazisi üzrə seçici siyahılarında olan vətəndaşlar daxil edilir.

**6.6.** Layihəni dəstəkləyən vətəndaş imza vərəqəsində öz imzasını qoyur, soyadını yazır və imzalama tarixini qeyd edir.

**6.7.** Layihəni dəstəkləyən vətəndaş yalnız bir dəfə imza qoya bilər.

**6.8.** Dövlət orqanlarının, bələdiyyə qurumlarının və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində vətəndaşları imza qoymağa məcbur etmək və ya imza qoymağa imkan verməmək, yaxud bunlara görə onları hər hansı formada mükafatlandırmaq qadağandır.

**6.9.** İmza toplanması prosesinin və vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı bu Qanunla nəzərdə tutulan digər tədbirlərin maliyyələşdirilməsi üçün xarici dövlətlərin, beynəlxalq təşkilatların, xarici hüquqi şəxslərin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, həmçinin təsisçisi xarici dövlət, beynəlxalq təşkilat, xarici hüquqi şəxs, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan hüquqi şəxslərin vəsaitindən istifadə oluna bilməz. Bu qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarının ləğv edilməsi üçün əsas hesab edilir.

**6.10.** Azərbaycan Respublikasının seçki hüququ olan ən azı 40 min vətəndaşının imzası toplandıqdan sonra vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokol tərtib edilir, təşəbbüs qrupunun sədri və seçki dairələri üzrə koordinatorları tərəfindən imzalanır.

**6.11.** Vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokolun nümunəsi Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunur.

**Maddə 7. İmza vərəqələrində olan məlumatların yoxlanılması və imza toplanmasının nəticələrinin təsdiqi**

**7.1.** Bu Qanunun 6.10-cu maddəsində nəzərdə tutulan protokol imzalandığı gündən bir ay ərzində həmin protokolun 2 nüsxəsi və imza vərəqələri təşəbbüs qrupu tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim olunur. Mərkəzi Seçki Komissiyasına təqdim edilən imza vərəqələri nömrələnməli və qovluq formasında səhifələnməlidir.

**7.2.** Mərkəzi Seçki Komissiyası sənədləri qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, təqdim olunmuş imza vərəqələrinin sayının vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokola uyğunluğunu yoxlayır, sonra isə onların qəbul edilmə tarixini qeyd edərək, təşəbbüs qrupunun sədrinə, qəbul edilmiş imza vərəqələrinin sayını və oradakı imzaların sayını göstərməklə, sənədlərin qəbulu barədə yazılı arayış verir.

**7.3.** Mərkəzi Seçki Komissiyası iki ay müddətində Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu maddəsi ilə müəyyən edilmiş qaydada imza vərəqələrində olan məlumatların düzgünlüyünü, həmçinin təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsini yoxlayır.

**7.4.** Aşağıdakı imzalar qeyri-düzgün (etibarsız) hesab edilir:

**7.4.1.** Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu maddəsinə əsasən qeyri-düzgün (etibarsız) hesab edilən imza;

**7.4.2.** bu Qanunun 6.6-6.9-cu maddələrinin tələbləri pozulmaqla toplanmış imza;

**7.4.3.** imza vərəqəsinə imza qoymuş vətəndaşlar eyni seçki dairəsinin ərazisi üzrə seçici siyahılarında olmadıqda, yaxud imza vərəqəsi imza toplayan təşəbbüs qrupunun üzvü tərəfindən imzalanmadıqda və ya onun imzası qeyri-düzgün olduqda həmin imza vərəqəsindəki bütün imzalar.

**7.5.** İmza vərəqələrinin yoxlanılmasının nəticələri haqqında Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq yaradılmış işçi qrupunun rəhbəri (Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvü) tərəfindən protokol tərtib edilir, imzalanır və qərar qəbul olunması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Protokolda vətəndaşların yoxlanılmış imzalarının sayı, habelə əsası qeyd olunmaqla etibarsız sayılmış imzaların sayı göstərilir. Protokol Mərkəzi Seçki Komissiyasının müvafiq qərarına əlavə olunur.

**7.6.** Bu Qanunun 7.7-ci maddəsində nəzərdə tutulan hallar olmadıqda, Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsi barədə qərar qəbul edilir. Həmin qərarın və bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti qərarın qəbul edildiyi gündən 3 iş günü müddətində təşəbbüs qrupunun sədrinə təqdim olunur.

**7.7.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarının qəbul edilməsi üçün əsaslar aşağıdakılardır:

**7.7.1.** imzaların toplanması zamanı bu Qanunun 6.8-ci və 6.9-cu maddələrinin tələblərinin pozulması;

**7.7.2.** bu Qanunun 7.1-ci maddəsində göstərilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;

**7.7.3.** etibarlı imzaların lazımi saydan az olması.

**7.8.** Bu Qanunun 7.7.2-ci maddəsində göstərilən hallar müəyyən edildikdə, təşəbbüs qrupunun sədrinə bu barədə yazılı məlumat verilir və müvafiq çatışmazlıqların Mərkəzi Seçki Komissiyasının müvafiq iclasının tarixinə ən geci 3 iş günü qalanadək aradan qaldırılması üçün vaxt verilir.

**7.9.** Cinayət məsuliyyətinə səbəb ola biləcək hüquqpozmanın əlamətləri aşkar edildikdə Mərkəzi Seçki Komissiyası təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq sənəd və materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.

**7.10.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarının və bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti həmin qərarın qəbul edildiyi gündən 3 iş günü müddətində təşəbbüs qrupunun sədrinə təqdim olunur. Lazımi sayda imzaların olmadığı aşkar olunduğu hallarda təşəbbüs qrupu bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti ilə yanaşı, imzaların etibarsız sayılmasının əsasları göstərilməklə müvafiq qovluğun nömrəsi, müvafiq imza vərəqəsindəki sətrin nömrəsi qeyd olunan yoxlamanın nəticəsi barədə cədvəlin surətini də almaq hüququna malikdir.

**7.11.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

**Maddə 8. Layihənin Milli Məclisə təqdim edilməsi və müzakirəsi**

**8.1.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarı qəbul edildiyi gündən bir ay ərzində layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər təşəbbüs qrupu tərəfindən Milli Məclisə təqdim olunur.

**8.2.** Layihə təqdim olunmuş şəkildə iki ay ərzində Milli Məclisin müzakirəsinə çıxarılır və səsə qoyulur. Layihədə yalnız texniki xarakter daşıyan dəyişikliklər edilə bilər.

**Maddə 9. Layihənin geri çağırılması**

**9.1.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim olunmuş layihə yekun oxunuşda baxılana qədər təşəbbüs qrupunun iclasında üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş qərar əsasında geri çağırıla bilər.

**9.2.** Layihənin geri çağırılması haqqında qərarın qəbul edildiyi iclasın protokolu iclasın sədri və katibi tərəfindən imzalanır, həmçinin layihənin geri çağırılmasını dəstəkləyən təşəbbüs qrupunun üzvlərinin siyahısı protokola əlavə olunur. Bu siyahıda onların soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti qeyd olunur. Siyahıda qeyd edilən hər bir vətəndaş özünə aid məlumatları imzası ilə təsdiq edir.

**9.3.** Bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan protokol Milli Məclisə daxil olduqda geri çağırılmış layihə Milli Məclisin gündəliyindən çıxarılır və təşəbbüs qrupunun sədrinə bu barədə məlumat verilir.

**Maddə 10. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 oktyabr 2019-cu il
№ 1689-VQ

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148, № 11, maddə 2194, № 12 (I kitab), maddə 2487; 2019, № 4, maddə 580) 15-ci maddəsinin II hissəsinin beşinci abzasına “araşdırılması üçün” sözlərindən sonra “ekspertlərdən və ya” sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 noyabr 2019-cu il
№1694-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 6, maddə 481, № 8, maddələr 694, 710; 2009, № 6, maddə 399, № 11, maddə 878; 2010, № 3, maddə 171, № 4, maddə 273, № 11, maddə 944; 2011, № 2, maddələr 71, 72; 2012, № 11, maddə 1040; 2015, № 10, maddə 1089; 2016, № 6, maddə 984; 2017, № 5, maddə 729, № 7, maddə 1252; 2018, № 3, maddə 398, № 12 (I kitab), maddə 2473; 2019, № 5, maddə 797) 2.1-ci maddəsində "Dövlət məhkəmə ekspertizası" sözləri "Məhkəmə ekspertizası" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 noyabr 2019-cu il
№1695-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305, № 11, maddə 1965; 2018, № 1, maddə 12, № 3, maddə 395, № 5, maddə 888, № 7, (I kitab), maddə 1442; 2019, № 1, maddə 22, № 7, maddə 1206) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 79-cu maddənin üçüncü hissəsinin yeddinci abzasında "verir" sözündən sonra ", verilmiş izahların aktuallığını təmin etmək məqsədilə onların yenilənməsini təşkil edir" sözləri əlavə edilsin;

**1.2.** aşağıdakı məzmunda 79-1-ci maddə əlavə edilsin:

**"Maddə 79-1. Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması**

Vahid məhkəmə təcrübəsi məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə formalaşdırılır.

Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırır.

Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə Ali Məhkəmənin Plenumu məsələyə baxır və belə nöqsanlara yol verilməməsi üçün müvafiq izahı nəzərdə tutan qərar qəbul edir.

Ali Məhkəmə Plenumunun məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlarla bağlı qərarı qəbul edildikdən sonra nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqi təşkil edilir. Monitorinq ən azı 1 il müddətində həyata keçirilir. Monitorinqin aparılması qaydasını Ali Məhkəmənin təklifləri əsasında Məhkəmə-Hüquq Şurası müəyyən edir.

Monitorinqin nəticələri hakimlərin fəaliyyətinin Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilməsi zamanı nəzərə alınır.";

**1.3.** 80-ci maddəyə aşağıdakı məzmunda onuncu hissə əlavə edilsin:

"Ali Məhkəmənin Plenumu onun sonuncu iclasından ötən dövr ərzində Azərbaycan Respublikası Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Prosessual məcəllələrində müəyyən edilmiş qaydada müvafiq kollegiyaların bütün hakimlərindən ibarət tərkibdə qəbul etdiyi qərarları (qərardadları) nəzərdən keçirir və Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə mövcud izahına dəyişikliklər edir və ya yeni izah verir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№ 1708-VQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 7; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 11, maddə 928; 2007, № 1, maddə 4, № 3, maddə 211; 2018, № 2, maddə 147) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Qanunun adında "Dövlət məhkəmə ekspertizası" sözləri "Məhkəmə ekspertizası" sözləri ilə əvəz edilsin;

**1.2.** Preambulanın birinci abzasında "Dövlət məhkəmə ekspertizası fəaliyyətinin (bundan sonra - məhkəmə ekspertizası fəaliyyəti)" sözləri "məhkəmə ekspertizası fəaliyyətinin" sözləri ilə əvəz edilsin;

**1.3.** 1-ci maddə üzrə:

**1.3.1.** dördüncü abzasda "marağı olmayan" sözlərindən sonra ", məhkəmə eksperti şəhadətnaməsi almış" sözləri əlavə edilsin;

**1.3.2.** beşinci abzasda "təyin" sözündən sonra "(sifariş)" sözü əlavə edilsin;

**1.3.3.** yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"məhkəmə ekspertizası tədqiqatının metodu - məhkəmə ekspertizasının predmeti ilə bağlı işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslərin tədqiqi zamanı tətbiq edilən üsul və vasitələr sistemidir.";

**1.4.** 6-cı maddənin birinci hissəsinin birinci cümləsində, 8-ci maddənin üçüncü hissəsinin birinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-cu maddənin ikinci hissəsinin üçüncü abzasında, üçüncü hissəsinin üçüncü abzasında, 10-cu maddənin birinci hissəsinin yeddinci abzasında, 12-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında, üçüncü hissəsinin ikinci abzasında, dördüncü hissəsində, beşinci hissəsinin səkkizinci abzasında, 13-cü maddənin birinci hissəsinin ikinci abzasında, 16-cı maddədə, 17-ci maddədə, 18-ci maddənin ikinci hissəsinin ikinci cümləsində, 19-cu maddənin ikinci, üçüncü hissələrində və altıncı hissəsinin birinci cümləsində (birinci halda), 20-ci maddənin birinci hissəsində, 24-cü maddənin üçüncü hissəsinin ikinci cümləsində, 25-ci maddənin birinci və dördüncü hissələrində, 26-cı maddənin ikinci hissəsinin dördüncü abzasında, üçüncü hissəsinin üçüncü cümləsində "təyin" sözündən sonra "(sifariş)" sözü əlavə edilsin;

**1.5.** 8-ci maddənin üçüncü hissəsinin ikinci cümləsinə "(qərardadda)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

**1.6.** 9-cu maddə üzrə:

**1.6.1.** birinci hissədə "(qərardadı) aldıqdan" sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan" sözləri əlavə edilsin;

**1.6.2.** ikinci hissənin ikinci abzasında "icra edilmədən" sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə rəsmi müraciəti təmin edilmədən" sözləri əlavə edilsin;

**1.6.3.** ikinci hissənin dördüncü abzasında "(qərardadda)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

**1.6.4.** üçüncü hissənin ikinci abzasında "(qərardad)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə" sözləri əlavə edilsin;

**1.7.** 10-cu maddənin birinci hissəsi üzrə:

**1.7.1.** ikinci abzasda "(qərardadı) aldıqdan" sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan" sözləri əlavə edilsin;

**1.7.2.** dördüncü abzasda "qərarda" sözündən sonra "(qərardadda) və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

**1.8.** 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 11. Məhkəmə eksperti**

Ali təhsilli və müəyyən ekspertiza ixtisası üzrə xüsusi biliklərə malik Azərbaycan Respublikasının vətəndaşı məhkəmə eksperti ola bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxs, din xadimi, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, cinayət törətdiyinə görə məhkum olunmuş, barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş şəxs məhkəmə eksperti ola bilməz.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən şəxs məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün məhkəmə eksperti şəhadətnaməsini (bundan sonra – şəhadətnamə) almalıdır.

Məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən

ekspertlərə dövlət məhkəmə eksperti şəhadətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən və özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs özəl məhkəmə eksperti şəhadətnaməsini almaq üçün müvafiq dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədlə yanaşı aşağıdakı tələblərdən birinə cavab verdiyini təsdiq edən sənədləri təqdim etməlidir:

1) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə ən azı 10 il işlədiyini;

2) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinin olduğunu;

3) xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərinin (diplom, sertifikat və sair) mövcudluğunu.

Şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs şəhadətnamə almaq üçün həmin siyahıda olmayan sənəd təqdim etdikdə, həmin sənədin siyahıya daxil edilməsi məsələsi araşdırılır və bu sənəd siyahıya daxil edildiyi halda ona şəhadətnamə verilməsi üçün əsas qismində çıxış edir.

Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən internet informasiya ehtiyatı vasitəsilə təşkil edilən məhkəmə ekspertizası fəaliyyətinə dair qanunvericiliyin ümumi tələbləri, ekspert rəyinin tərtib edilməsi qaydaları və etik davranış kodeksinin müddəalarına dair icbari təlimdə iştirak etməlidir. Təlimin keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Müvafiq icra hakimiyyəti orqanı özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslərlə müsahibə keçirir.

Özəl məhkəmə ekspertlərinə şəhadətnamələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Şəhadətnamənin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Şəhadətnamə almış şəxs barədə ətraflı məlumat müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərhal Məhkəmə Ekspertləri Reyestrinə daxil edilir. Şəxs yalnız şəhadətnamə aldıqdan və barəsində məlumat Reyestrə daxil edildikdən sonra məhkəmə eksperti qismində fəaliyyət göstərə bilər.

Reyestrə daxil edilmiş şəxslər məhkəmə ekspertizasının aparılması və ekspert rəyinin hazırlanması ilə əlaqədar məhkəmə ekspertləri üçün bu Qanunla və müvafiq prosessual qanunvericiliklə nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir, vəzifələri yerinə yetirirlər.

Məhkəmə eksperti yalnız şəhadətnamədə qeyd edilən məhkəmə ekspertizası ixtisası (ixtisasları) üzrə ekspert rəyi verə bilər.

Məhkəmə eksperti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən məhkəmə ekspertinin etik davranış kodeksinin tələblərinə riayət etməlidir.

Müvafiq icra hakimiyyəti orqanlarının məhkəmə ekspertizası idarələrinin ekspertlərinə bu orqanların işçiləri üçün qanunla müəyyən edilmiş qaydada xüsusi rütbələr verilir.

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertlərinin bu Qanunun tələblərinə riayət etməsinə nəzarət edir.";

**1.9.** aşağıdakı məzmunda 11-1 – 11-5-ci maddələr əlavə edilsin:

**"Maddə 11-1. Məhkəmə ekspertinin fəaliyyətinə xitam verilməsi**

Aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməni ləğv edərək məhkəmə ekspertinin fəaliyyətinə xitam verir:

şəxs öz arzusu ilə şəhadətnamənin ləğv olunması barədə yazılı ərizə verdikdə;

şəhadətnamə almaq üçün təqdim edilən sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edildiyi aşkar olunduqda;

şəhadətnamə aldıqdan sonra 5 il ərzində məhkəmə eksperti qismində fəaliyyət göstərmədikdə;

attestasiyadan keçə bilmədikdə və ya attestasiya keçməkdən yayındıqda;

qanunvericiliyin tələblərini kobud və ya mütəmadi pozmaqla ekspertiza apardıqda;

ekspertin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyəti olmayan şəxs hesab olunması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspertin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə və ya ekspert Azərbaycan Respublikasından daimi yaşayış üçün başqa ölkəyə köçüb getdikdə;

ekspert məhkum edildikdə, onun barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspert barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verildikdə;

ekspert vəfat etdikdə, məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməsi ləğv edilmiş ekspertin adını Məhkəmə Ekspertləri Reyestrdən çıxarır.

Şəhadətnaməsi ləğv edilmiş ekspertə qəbul edilmiş qərarla bağlı üç iş günü müddətində məlumat verilir.

**Maddə 11-2. Məhkəmə ekspertlərinin attestasiyası**

Məhkəmə ekspertləri 5 ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilirlər. 20 ildən artıq müddətdə ekspert qismində fəaliyyət göstərən şəxslər attestasiyadan azaddırlar.

Attestasiya nəticəsində məhkəmə ekspertizası idarələrinin ekspertlərinə ixtisaslaşmasından və hazırlıq səviyyəsindən asılı olaraq ixtisas dərəcəsi verilir.

Attestasiyanın keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 11-3. Məhkəmə Ekspertlərinin Reyestri**

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertizası idarələrinin ekspertləri və özəl məhkəmə ekspertləri barədə məlumatları Məhkəmə Ekspertlərinin Reyestrinə daxil edir.

Reyestrin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Reyestr açıqdır, müvafiq icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində yerləşdirilir və məlumatlar daim yenilənir.

Reyestrə daxil edilməyən şəxslərin məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olması qadağandır və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 11-4. Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri**

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin reyestrə daxil edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ekspertlər məhkəmə ekspertizasının aparılması zamanı Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət

Reyestrinə daxil olan tədqiqat metodlarından istifadə edir. Ekspert Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinə daxil olmayan metoddan yalnız həmin metodun aşağıdakı bütün şərtlərə cavab verdiyini ekspert rəyində əsaslandırmaqla istifadə edə bilər:

1) qanunda nəzərdə tutulmuş norma və prinsiplərə zidd deyildir;

2) elmi cəhətdən əsaslandırılmışdır;

3) insanların həyat və sağlamlığı və ətraf mühit üçün təhlükəsizdir.

**Maddə 11-5. Məhkəmə ekspertizasının metodik fondu**

Məhkəmə ekspertizalarının elmi-metodik materiallarından ibarət xüsusi fond yaradılır. Həmin materialların elektron nüsxələri fonda daxil edilir.

Fondun yaradılması və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

**1.10.** 12-ci maddənin beşinci hissəsi üzrə:

**1.10.1.** ikinci abzasda "idarəsinin" sözündən sonra "ekspertlərinə həmin idarənin" sözləri əlavə edilsin;

**1.10.2.** üçüncü abzasda "başqa" sözündən əvvəl "məhkəmə ekspertizası idarəsinin ekspertlərinə" sözləri əlavə edilsin;

**1.11.** 13-cü maddənin birinci hissəsinin yeddinci abzasında "təhqiqat aparan şəxsə, müstəntiqə və ya məhkəməyə (hakimə)" sözləri "məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxsə" sözləri ilə əvəz edilsin;

**1.12.** 19-cu maddə üzrə:

**1.12.1.** altıncı hissənin birinci cümləsində "işləyib hazırlamaq" sözlərindən sonra ", ekspertizanın aparılmasının ümumi müddəti daxilində ayrı-ayrı tədqiqatların icra müddətlərini təyin etmək və onlara əməl olunmasına nəzarət etmək" sözləri əlavə edilsin;

**1.12.2.** dördüncü-səkkizinci hissələr müvafiq olaraq beşinci-doqquzuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Şəxsin anlaqlı olub-olmaması ilə bağlı məhkəmə-psixiatrik ekspertizasının aparılması üçün ən azı üç məhkəmə ekspertindən ibarət tərkibdə komissiya təşkil edilir.";

**1.13.** 21-ci və 22-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 21. Məhkəmə ekspertizasının aparılmasının əsasları**

Məhkəmə ekspertizası Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş hallarda təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilir. Təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilmiş ekspertiza məhkəmə ekspertizası idarələrinin ekspertləri tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində nəzərdə tutulmuş hallarda fiziki və ya hüquqi şəxslər, həmin şəxslərin vəkilləri və nümayəndələri (qanuni nümayəndələri) məhkəmə ekspertizasının aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarələrinə və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdir. Bu halda məhkəmə ekspertizası həmin şəxslərlə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə ekspertləri arasında bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş edən şəxslərin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda şübhəli, təqsirləndirilən şəxs və ya onların müdafiəçisi, yaxud mülki cavabdeh məhkəmə ekspertizasının aparılmasını məhkəmə ekspertizası idarələrinə sifariş vermək üçün rəsmi müraciət etmək hüququna malikdir.

**Maddə 22. Məhkəmə ekspertizasının aparılması**

Məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxs tədqiqatın aparılması və ekspert rəyinin verilməsi üçün suallar siyahısını, tədqiqat obyektləri və iş üzrə materialları məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə təqdim edir.

Məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxs Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müqayisəli tədqiqat üçün nümunələr götürür və onları işə əlavə edir. Nümunənin götürülməsi məhkəmə ekspertizası fəaliyyətinin bir hissəsidirsə, bu hərəkət məhkəmə ekspertizasını aparan ekspert tərəfindən həyata keçirilir.

Tədqiqat prosesində ekspert tərəfindən eksperimental nümunələr hazırlana bilər və bu hal ekspertin rəyində göstərilməlidir. Ekspertizanı təyin etmiş orqan və ya şəxs bu cür nümunələrin hazırlanmasında iştirak edə bilər və onun bu hərəkəti tərtib etdiyi protokolda əks etdirilir.

Məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar məcəllələrinə müvafiq olaraq müəyyən edilir.";

**1.14.** 22-1-ci maddə ləğv edilsin;

**1.15.** 23-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 23. Məhkəmə ekspertizası fəaliyyətinin təşkili**

Məhkəmə ekspertlərinin fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının məhkəmə ekspertizası idarələrində, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında, özəl hüquqi şəxslərdə, habelə özəl məhkəmə eksperti tərəfindən ayrıca şəkildə təşkil edilə bilər.

Məhkəmə-tibb (məhkəmə-psixiatriya), məhkəmə-ballistik, məhkəmə partlayış-texniki, pul nişanları və qiymətli kağızların, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin, dərman vasitələrinin məhkəmə ekspertizaları yalnız məhkəmə ekspertizası idarələri tərəfindən həyata keçirilir.

Məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən şəxslər və qurumlar məhkəmə ekspertizasının aparılması üzrə fəaliyyətini ekspert təcrübəsinin ümumiləşdirilməsi, ekspertlərin peşəkar hazırlığı və onların ixtisaslaşdırılması, o cümlədən ekspert praktikasının vahid elmi-metodik üsullarla öyrənilməsi əsasında həyata keçirirlər.

Məhkəmə ekspertizası idarələri məhkəmə ekspertlərinə metodik köməklik göstərir.

Məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

**1.16.** 43-cü maddədə "vəzifəli şəxslər və vətəndaşlar" sözləri "şəxslər" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№1709-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 63.1-ci maddədə "və məhkəmə tərəfindən təyin edilən" sözləri ", məhkəmə tərəfindən təyin edilən və ya işdə iştirak edən şəxslərlə ekspertizanın aparılması barədə müqavilə bağlamış" sözləri ilə əvəz edilsin;

**1.2.** 97.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

**1.3.** aşağıdakı məzmunda 97.4-1-ci maddə əlavə edilsin:

**"97.4-1.** İşdə iştirak edən şəxslər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Məhkəmə təqdim edilmiş əşya və sənədləri ekspert tədqiqatının obyekti kimi qəbul etmədikdə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

**1.4.** 99-cu maddə üzrə:

**1.4.1.** 99.1-ci maddənin ikinci cümləsində "Məhkəmə" sözündən sonra "və işdə iştirak edən şəxslər" sözləri əlavə edilsin;

**1.4.2.** 99.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"99.2.** Ekspertiza məhkəmə ekspertizası idarəsinin ekspertləri və ya özəl məhkəmə ekspertləri tərəfindən keçirilir. Ekspertizanın keçirilməsi bir neçə ekspertə həvalə edilə bilər.";

**1.4.3.** 99.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu zaman işdə iştirak edən şəxslər tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb edə və ekspertə izahlar verə bilərlər.";

**1.5.** 101-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 101. Ekspert rəyi**

**101.1.** Ekspert ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu gündən 1 ay, bu Məcəllənin 172.2-ci maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə 10 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal məhkəməyə göndərir. Bu Məcəllənin 172.3-cü maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə ekspert rəyi 3 günədək müddətdə verilir.

**101.2.** Ekspertizanın aparılmasını bu Məcəllənin 101.1-ci maddəsində göstərilən müddətlərdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə məhkəməyə dərhal məlumat verilir. Bu halda tədqiqatların mürəkkəblik dərəcəsi nəzərə alınmaqla ekspertizanın aparılması müddəti məhkəmə ilə yazılı formada razılaşdırılır.

**101.3.** Ekspert rəy verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə, ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə məhkəməyə vəsatət göndərir. Vəsatətdə tələb olunan tədqiqat materiallarının dəqiq və tam siyahısı göstərilir.

**101.4.** Məhkəmə tərəfindən ekspertin həmin vəsatətinə 3 gün müddətində baxılır və əlavə tədqiqat materiallarının əldə edilməsi müəyyən vaxt tələb etdikdə məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat verilməklə bu Məcəllənin 101.1-ci maddəsində nəzərdə tutulan müddətlər uzadılır.

**101.5.** Ekspertin həmin vəsatəti bu Məcəllənin 101.4-cü maddəsində nəzərdə tutulan müddətdə təmin edilmədikdə məhkəmə ekspertizası idarəsinin rəhbəri ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadını icra olunmadan geri qaytarmaq hüququna malikdir.

**101.6.** Ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və məhkəmə tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir. Əgər ekspert ekspertiza apararkən iş üçün əhəmiyyəti olan, haqqında sual qoyulmayan halları müəyyən edirsə, o, bu hallar barədə mülahizələrini öz rəyinə daxil etməyə haqlıdır.

**101.7.** Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir.

**101.8.** Bu Məcəllənin 101.1-ci və 101.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərə riayət etmədikdə məhkəmə ekspertizası idarəsi məhkəmə tərəfindən yüz manat məbləğində cərimə edilə bilər.";

**1.6.** aşağıdakı məzmunda 101-1-ci və 102.3-cü maddələr əlavə edilsin:

**"Maddə 101-1. İşdə iştirak edən şəxslərin təşəbbüsü ilə ekspertizanın aparılması**

**101-1.1.** İşdə iştirak edən şəxslər onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə rəsmi müraciət etmək hüququna malikdirlər.

**101-1.2.** İşdə iştirak edən şəxsin sifarişi ilə ekspertiza həmin şəxslə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə eksperti arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

**101-1.3.** Ekspert ekspertizanı sifariş etmiş şəxsə müqavilədə göstərilən müddətdə yazılı rəy verir. Ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri məhkəmə tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.";

**"102.3.** Məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə əlavə və ya təkrar ekspertiza təyin edə bilər. İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

**1.7.** 132-ci maddəyə "ərizəsi üzrə" sözlərindən sonra ", habelə bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatəti əsasında" sözləri əlavə edilsin;

**1.8.** 257-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"İşin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqda və ya bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatətinə baxılması zərurəti yarandıqda, işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya məhkəmənin təşəbbüsü ilə iş üzrə icraat təzələnir.";

**1.9.** 418-ci maddə üzrə:

**1.9.1.** 418.1-ci maddədə "tətbiq olunmaması" sözlərindən sonra ", o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması" sözləri əlavə edilsin;

**1.9.2.** aşağıdakı məzmunda 418.6-cı maddə əlavə edilsin:

**"418.6.** Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması qətnamənin və ya qərardadın ləğv edilməsinə yalnız o halda əsas olur ki, qətnamə və ya qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.";

**1.10.** aşağıdakı məzmunda 418-1-ci maddə əlavə edilsin:

**"Maddə 418-1. Kasasiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

**418-1.1.** Ali Məhkəmənin məhkəmə tərkibi işə kasasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

**418-1.2.** Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılarkən müvafiq təqdimatı verən məhkəmə tərkibinin daxil olduğu Ali Məhkəmənin kollegiyasının sədri iclasa sədrlik edir. İclas mülki və kommersiya kollegiyaların hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

**418-1.3.** Ali Məhkəmənin mülki və kommersiya kollegiyaları mübahisəli hüquqi məsələyə birgə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

**418-1.4.** Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

**418-1.5.** Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqedən fərqli qərar qəbul olunmasını zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.";

**1.11.** 424.2.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 424.2.6-cı maddə əlavə edilsin:

**"424.2.6.** kasasiya instansiyası məhkəməsinin qərarı bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmuşsa.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№1710-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421; 2018, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 10.4-cü maddə ləğv edilsin;

**1.2.** aşağıdakı məzmunda 265.5-ci maddə əlavə edilsin:

**"265.5.** Şəxsin anlaqlı olub-olmaması ilə bağlı məhkəmə-psixiatrik ekspertizasının aparılması üçün ən azı üç məhkəmə ekspertindən ibarət tərkibdə komissiya təşkil edilir.";

**1.3.** 273.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"273.4.** Tədqiqat üçün nümunənin götürülməsi məhkəmə ekspertizası fəaliyyətinin bir hissəsidirsə, bu hərəkət məhkəmə ekspertizasını aparan ekspert tərəfindən həyata keçirilir.";

**1.4.** 416-cı maddə üzrə:

**1.4.1.** 416.0.21-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 416.0.22-ci maddə əlavə edilsin:

**"416.0.22.** məhkəmə bu Məcəllənin 416.2-ci maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulmasına yol verdikdə.";

**1.4.2.** 416.0-cı, 416.0.1–416.0.22-ci maddələr müvafiq olaraq 416.1-ci, 416.1.1–416.1.22-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 416.2-ci maddə əlavə edilsin:

**"416.2.** Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması hökm və ya digər qərarın ləğv edilməsinə və ya dəyişdirilməsinə yalnız o halda əsas olur ki, həmin hökm və ya digər qərar Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.";

**1.5.** aşağıdakı məzmunda 419-1-ci maddə əlavə edilsin:

**"Maddə 419-1. Kasasiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

**419-1.1.** Ali Məhkəmənin məhkəmə tərkibi işə kasasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 416.2-ci maddəsində nəzərdə tutulmuş hökm və ya digər qərarının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin cinayət kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

**419-1.2.** Ali Məhkəmənin cinayət kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə Ali Məhkəmənin cinayət kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılarkən iclasa Ali Məhkəmənin müvafiq kollegiyasının sədri sədrlik edir. Ali Məhkəmənin cinayət kollegiyasının iclası həmin kollegiyanın hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

**419-1.3.** Ali Məhkəmənin cinayət kollegiyası bütün hakimlərindən ibarət tərkibdə mübahisəli hüquqi məsələyə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərarda təsbit edir.

**419-1.4.** Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 419-1.3-cü maddəsində nəzərdə tutulmuş qərarda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

**419-1.5.** Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 419-1.3-cü maddəsində nəzərdə tutulmuş qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 419-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.";

**1.6.** 421.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 421.1.4-cü maddə əlavə edilsin:

**"421.1.4.** kasasiya instansiyası məhkəməsinin qərarı bu Məcəllənin 416.2-ci maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmuşsa.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№ 1711-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, №11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (l kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Aşağıdakı məzmunda 29-1-ci maddə əlavə edilsin:

**“Maddə 29-1. Məhkəmə ekspertizası**

İnzibati məhkəmə icraatında məhkəmə ekspertizası ilə bağlı məsələlərin tənzimlənməsində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəaları tətbiq olunur.”;

**1.2.** 98.2-98.6-cı maddələr ləğv edilsin;

**1.3.** aşağıdakı məzmunda 98-1-ci maddə əlavə edilsin:

**“Maddə 98-1. Kasasiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

**98-1.1.** Ali Məhkəmənin məhkəmə tərkibi işə kasasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olan qərarında fərqli yanaşmanın tətbiqi zərurətinin əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

**98-1.2.** Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılarkən iclasa Ali Məhkəmənin müvafiq kollegiyasının sədri sədrlik edir. Ali Məhkəmənin inzibati kollegiyasının iclası həmin kollegiyanın hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

**98-1.3.** Ali Məhkəmənin inzibati kollegiyası bütün hakimlərdən ibarət tərkibdə mübahisəli hüquqi məsələyə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

**98-1.4.** Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 98-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

**98-1.5.** Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 98-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqedən fərqli qərar qəbul olunmasını zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 98-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№ 1712-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437,

1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383; Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1673-VQD, 1677-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** aşağıdakı məzmunda 82.2-1 – 82.2-7-ci maddələr əlavə edilsin:

**“82.2-1.** Bu Məcəllənin 82.1-ci maddəsində nəzərdə tutulmuş məqsədlər üçün hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) onun baxdığı inzibati xətalar haqqında işlər üzrə barəsində inzibati icraat aparılan fiziki və ya hüquqi şəxsin, fiziki şəxsin müdafiəçisinin və ya qanuni nümayəndəsinin, hüquqi şəxsin nümayəndəsinin, prokurorun, zərər çəkmiş şəxsin və ya onun nümayəndəsinin vəsatəti ilə ekspertiza təyin edə bilər. Həmin şəxslərin vəsatəti rədd edildikdə hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.

**82.2-2.** Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslər qarşılıqlı razılaşma əsasında konkret səlahiyyətli şəxsin ekspert təyin edilməsini hakimdən, səlahiyyətli orqandan (vəzifəli şəxsdən) xahiş edə bilərlər.

**82.2-3.** Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin ekspertiza keçirilən zaman baxılmalı olan sualları hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) təqdim etmək hüququ vardır.

**82.2-4.** Ekspert rəyinin alınmasına dair sualların yekun məzmununu hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) müəyyən edir. Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin təqdim etdiyi sualların rədd edilməsini hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) əsaslandırmağa borcludur.

**82.2-5.** Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) təqdim edilmiş əşya və sənədləri ekspert tədqiqatının obyekti kimi qəbul etmədikdə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.

**82.2-6.** Ekspertiza bu Məcəllənin müddəalarında nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçılarının hüquqlarına riayət olunmaqla keçirilir. Hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) və bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin ekspertizanın keçirilməsinin gedişi haqqında məlumat əldə etmək hüququ vardır.

**82.2-7.** Ekspertiza tədqiqatın xarakterindən asılı olaraq, həmçinin tədqiqat aparmaq üçün materialları məhkəməyə, səlahiyyətli orqana (vəzifəli şəxsə) gətirmək mümkün deyilsə, yaxud çətinlik törədirsə, məhkəmədə, səlahiyyətli orqanda, yaxud kənar yerdə keçirilə bilər. Bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin kənar yerdə keçirilən ekspertizada iştirakının ekspertlərin normal işinə maneçilik törədə bilməsi halları istisna olmaqla, onlar ekspertizanın keçirilməsində iştirak edə bilərlər. Bu zaman bu Məcəllənin 82.2-1-ci maddəsində nəzərdə tutulmuş şəxslər tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb edə və ekspertə izahlar verə bilərlər.”;

**1.2.** 82.5-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Ekspert ekspertiza təyin edilməsi haqqında hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərardadı məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 10 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal məhkəməyə, səlahiyyətli orqana (vəzifəli şəxsə) göndərir.”;

**1.3.** aşağıdakı məzmunda 82.6 – 82.8 və 82-1-ci maddələr əlavə edilsin:

**“82.6.** Ekspertizanın aparılmasını bu Məcəllənin 82.5-ci maddəsində göstərilən müddətdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) məlumat verilir. Bu halda tədqiqatların mürəkkəblik dərəcəsi nəzərə alınmaqla ekspertizanın aparılması müddəti hakimlə, səlahiyyətli orqanla (vəzifəli şəxslə) yazılı formada razılaşdırılır.

**82.7.** Ekspert rəy verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə ekspertiza təyin edilməsi haqqında qərardadın məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) vəsatət göndərir. Vəsatətdə tələb olunan tədqiqat materiallarının dəqiq və tam siyahısı göstərilir.

**82.8.** Hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən ekspertin həmin vəsatətinə 3 gün müddətində baxılır və əlavə tədqiqat materiallarının əldə edilməsi müəyyən vaxt tələb etdikdə məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat verilməklə bu Məcəllənin 82.5-ci maddəsində nəzərdə tutulan müddət uzadılır.

**Maddə 82-1. Şəxslərin təşəbbüsü ilə ekspertizanın aparılması**

**82-1.1.** İnzibati xətalar haqqında işlər üzrə barəsində inzibati icraat aparılan fiziki və ya hüquqi şəxs, fiziki şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi, zərər çəkmiş şəxs və ya onun nümayəndəsi onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün özəl məhkəmə ekspertinə və ya məhkəmə ekspertizası idarəsinə rəsmi müraciət etmək hüququna malikdirlər.

**82-1.2.** Barəsində inzibati icraat aparılan fiziki və ya hüquqi şəxsin, fiziki şəxsin müdafiəçisinin və ya qanuni nümayəndəsinin, hüquqi şəxsin nümayəndəsinin, zərər çəkmiş şəxsin və ya onun nümayəndəsinin sifarişi ilə ekspertiza həmin şəxslə özəl məhkəmə eksperti və ya məhkəmə ekspertizası idarəsinin rəhbəri arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

**82-1.3.** Ekspert müqavilədə göstərilən müddətdə yazılı formada rəy verir. Ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№ 1713-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; 2018, № 12 (I kitab), maddələr 2470, 2530; 2019, № 1, maddələr 5, 21, № 2, maddə 184) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 41.4-cü maddədə "qərarına əsasən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş müvafiq qurumların ekspertləri" sözləri "qərarı və ya maraqlı şəxslərlə bağlanan müqavilə əsasında məhkəmə ekspertizası idarələrinin ekspertləri və ya özəl məhkəmə ekspertləri" sözləri ilə əvəz edilsin;

**1.2.** 41.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"41.5.** Azərbaycan Respublikasının qanunvericiliyində başqa müddət nəzərdə tutulmamışdırsa, ekspert ekspertiza təyin edilməsi haqqında inzibati orqanın qərarı məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 30 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal inzibati orqana göndərir.";

**1.3.** aşağıdakı məzmunda 41.5-1-ci maddə əlavə edilsin:

**"41.5-1.** Ekspertizanın aparılmasını bu Qanunun 41.5-ci maddəsində göstərilən müddətdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə inzibati orqana məlumat verilir. Bu halda inzibati orqan tədqiqatların mürəkkəblik dərəcəsini nəzərə almaqla ekspertizanın aparılması müddətinin uzadılması barədə qərar qəbul edir.";

**1.4.** aşağıdakı məzmunda 41.8-ci maddə əlavə edilsin:

**"41.8.** Maraqlı şəxslər onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi məqsədilə öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdirlər.

Maraqlı şəxsin sifarişi ilə ekspertiza həmin şəxslə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə eksperti arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

Ekspert ekspertizanı sifariş etmiş şəxsə müqavilədə göstərilən müddətdə yazılı rəy verir. Maraqlı şəxsin sifarişi ilə aparılmış ekspertiza nəticəsində verilmiş ekspert rəyi inzibati orqan tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№ 1714-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347, № 11, maddə 1287; 2016, № 12, maddə 2032; 2017, № 6, maddə 1044, № 12, maddə 2188; 2018, № 7 (I kitab), maddə 1443) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Aşağıdakı məzmunda 11.0.3-1-ci maddə əlavə edilsin:

**"11.0.3-1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinə uyğun olaraq, məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması qaydasını Azərbaycan Respublikası Ali Məhkəməsinin təklifləri əsasında müəyyən edir;";

**1.2.** 13.3-cü maddənin ikinci cümləsində "həmçinin" sözündən sonra "məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələri," sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2019-cu il
№1715-VQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1538-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 oktyabr tarixli 836 nömrəli, 16 oktyabr tarixli 842 nömrəli və 12 noyabr tarixli 852 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 26-cı hissəyə "326," rəqəmlərindən sonra "363-2," rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 26-1-ci hissə əlavə edilsin:

**"26-1.** Məcəllənin 363-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**26-1.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**26-1.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından - bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 noyabr 2019-cu il
№ 862

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər və "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1512-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 628 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsində "orqanlar (qurumlar)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur;

**1.2.** həmin Qanunun 7.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1512-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 628 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 628) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

**"2.** Müəyyən edilsin ki:

**2.1.** "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci və 7.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**2.2.** həmin Qanunun 7.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

**2.3.** həmin Qanunun 7.1-ci maddəsində "orqanlar (qurumlar)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur.".

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun 7.3-cü maddəsinə uyğun olaraq, xarici dövlətin ərazisində Azərbaycan Respublikasının keçirdiyi təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydasını 3 ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Dövlət Himnini prokurorluq orqanları işçilərinin ifa etməsi, dinləməsi və oxuması qaydasını müəyyən etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 dekabr 2019-cu il
№ 891

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında

“Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717 VQR nömrəli Qərarını və “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair” Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 4 dekabr tarixli Qərarını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi buraxılsın.

**2.** Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2020 - ci il fevralın 9-na təyin edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 dekabr 2019-cu il
№ 1674

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında

Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, “Regional İnkişaf” İctimai Birliyi, “Bir” Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, “Formula 1” yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə **qərara alıram:**

**1.** 2020-ci il Azərbaycan Respublikasında “Könüllülər ili” elan edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında “Könüllülər ili” elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2019-cu il
№ 1748

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin şərh edilməsinə dair**

**14 oktyabr 2019-cu il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat şöbəsinin rəis müavini Aynur Osmanova, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Paşayevanın,

mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Fərhad Kərimovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin şərh olunmasına dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 90.9 və 91.7-ci maddələrinin şərh edilməsini xahiş etmişdir.

Sorğu onunla əsaslandırılmışdır ki, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkməsi göstərilsə də, bu əməlin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) hansı maddəsi ilə cinayət məsuliyyəti yaratması müəyyən deyildir.

Cinayət-Prosessual Məcəlləsinin 91.4-cü maddəsinə görə, müstəntiq, prokuror və ya məhkəmə təqsirləndirilən şəxsin hüquqlarını təmin etməklə yanaşı, onun xahişi ilə müdafiəyə hazırlıq üçün kifayət qədər vaxt verməlidir.

Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinə əsasən, şübhəli və ya təqsirləndirilən şəxsin öz hüquqlarından istifadə və ya bundan imtina etməsi onun ziyanına şərh edilməməli və ona münasib olmayan nəticələrə gətirib çıxarmamalıdır. Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə, şübhəli və ya təqsirləndirilən şəxsin üzərinə verdiyi ifadəyə və ya izahata görə heç bir məsuliyyət qoyula bilməz.

Cinayət Məcəlləsinin "Ədalət mühakiməsi əleyhinə olan cinayətlər" adlanan 32-ci fəslinin 296 və 297-ci maddələrində "bilə-bilə yalan xəbərçilik etmə" və "bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə"yə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Məcəllənin 296-cı maddəsindən fərqli olaraq, 297-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin subyekti şahid, zərərçəkmiş şəxs, ekspert və ya tərcüməçi kimi müəyyən edilmiş, şübhəli və ya təqsirləndirilən şəxsin isə cinayətin subyekti olması istisna edilmişdir.

Göstərilənlərə əsasən, sorğuverən hüquqtətbiqetmə təcrübəsində yaranan boşluğun aradan qaldırılması məqsədi ilə Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində nəzərdə tutulmuş şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkilməsinə görə Cinayət Məcəlləsinin hansı normasına əsasən cinayət məsuliyyətinə cəlb edilməsinə, eləcə də bunun hansı qaydada həyata keçirilməsinə aydınlıq gətirilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələlərlə əlaqədar aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən edilmişdir.

Konstitusiyada hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnun olması, şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilməməsi, cinayətin törədilməsində təqsirləndirilən şəxsin özünün təqsirsizliyini sübuta yetirməyə borclu olmaması müddəaları təsbit edilmişdir (Konstitusiyanın 26-cı maddəsinin I hissəsi və 63-cü maddəsinin II və III hissələri).

Konstitusiyanın 127-ci maddəsinin IV, VII və VIII hissələrində təsbit edilmiş və cinayət mühakimə icraatının həyata keçirilməsinin əsasını təşkil edən çəkişmə, tərəflərin bərabərliyi və məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququnun təmin edilməsi prinsipləri tərəflərin müstəqil şəkildə və öz mülahizələrinə əsasən iş üzrə, o cümlədən cinayət məsuliyyəti ilə əlaqədar mövqelərini müəyyən etmək və bu mövqeləri zəruri dəlillərlə əsaslandırmaq imkanını nəzərdə tutur.

Bu qayda "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Konvensiya) 13-cü maddəsində də öz əksini tapmışdır. Həmin maddəyə görə, bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.

Dövlətin ədalətli, qərəzsiz və səmərəli məhkəmə müdafiəsi hüququnu təmin etməsi öhdəliyi beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsiplərindən, xüsusilə də İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 8-ci maddəsindən, Konvensiyanın 6-cı maddəsindən, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 2-ci maddəsindən irəli gəlir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələlərin düzgün həlli üçün ilk növbədə, "bilə-bilə yalan xəbərçilik etmə", "bilə-bilə yalan ifadə vermə", "cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkmə" müddəalarına aydınlıq gətirilməsini vacib hesab edir.

Qanunverici, ədalət mühakiməsinin həyata keçirilməsi əsaslarını və qaydasını müəyyən edərkən işin qanuni, əsaslı və ədalətli həlli naminə cinayət prosesinin bütün mərhələlərində tələb olunan qaydalara riayət olunmasını təmin edən mexanizm nəzərdə tutmuşdur. Burada məqsəd cinayət hadisəsinə dair bütün halların müəyyən edilməsindən, onların düzgün hüquqi qiymətləndirilməsindən, cəmiyyətə və ayrı-ayrı şəxslərə dəymiş zərərin və şəxsin təqsirinin müəyyən edilməsindən ibarətdir. Buna isə aidlik, mümkünlük və etibarlılıq şərtlərinə cavab verən sübutların yoxlanılması və dəyərləndirilməsi əsasında nail olunur. Yalnız belə halda məhkəmə, təqsirləndirilən şəxsin törədilməsində ittiham olunduğu əməlin həqiqətən baş verib-verməməsini, əməlin cinayət olub-olmamasını, təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini və cinayət qanununun hansı norması ilə nəzərdə tutulmasını müəyyən edə bilər.

Məhz buna görə də düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olan zərər çəkmiş şəxsin, şahidin bilə-bilə yalan ifadə verməsi, ekspertin bilə-bilə yalan rəy verməsi, tərcüməçinin bilə-bilə yalan tərcümə etməsi, maddi sübutların, istintaq və məhkəmə hərəkəti protokollarının və digər sənədlərin saxtalığının məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilməsi, məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslar kimi müəyyən edilmişdir (Cinayət-Prosessual Məcəlləsinin 461.0.1-ci maddəsi).

Cinayət Məcəlləsinin 297.1-ci maddəsində məhkəmədə və ya ibtidai istintaqda şahid, zərərçəkmiş şəxs tərəfindən yalan ifadə vermə və ya ekspert tərəfindən bilə-bilə yalan rəy vermə, habelə tərcüməçi tərəfindən bilə-bilə yanlış tərcümə etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Bu maddənin dispozisiyasına görə, cinayətin subyektləri kimi şahid, zərərçəkmiş şəxs, ekspert və tərcüməçi müəyyən edilmişdir.

Göründüyü kimi, şübhəli və ya təqsirləndirilən şəxs bu cinayətin subyekti kimi nəzərdə tutulmamış və o, yalan ifadə verməyə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Konstitusiyanın 66-cı maddəsinə əsasən, heç kəs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

Cinayət-Prosessual Məcəlləsinin 90.7.10 və 91.5.10-cu maddələrinə müvafiq olaraq, şübhəli və ya təqsirləndirilən şəxsin ifadə (izahat) vermək, özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməkdən imtina etmək, habelə haqqında irəli sürülmüş ittihama dair izahat vermək və izahat verməkdən imtina etmək hüquqları vardır.

Cinayət Məcəlləsinin 297-ci maddəsinin Qeyd hissəsinin 2-ci bəndinə əsasən, şəxs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumlarına qarşı ifadə verməyə məcbur edilərək bilə-bilə yalan ifadə verdikdə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Şəxsin özünün və ya yaxın qohumlarının əleyhinə ifadə vermək öhdəliyindən azad edilməsi, yəni, şahidlik immuniteti ilə təmin edilməsi şəxsin özünə və ya yaxınlarına qarşı şahidlik etməyə hər hansı formada məcbur edilməsinin yolverilməzliyini ifadə edir. Bu hüququn mahiyyəti ondan ibarətdir ki, şəxs, nəinki ifadə verməkdən, eyni zamanda, cinayətin törədilməsində onun təqsirini təsdiqləyən digər sübutları da təqdim etməkdən imtina edə bilər və cinayət mühakimə icraatının istənilən mərhələsində bu hüquq təmin olunmalıdır. Lakin şahidlik immunitetinə malik olan şəxsin üzərinə işin hallarına dair ifadə vermək öhdəliyinin qoyulmasının qadağan edilməsi heç də bu şəxsin öz iradəsi əsasında müvafiq mülahizələri təqdim etmək imkanını istisna etmir.

Şübhəli və ya təqsirləndirilən şəxsin öz müdafiəsi üçün bəraətverici sübutları cinayət-prosessual qanunvericiliyində müəyyən edilmiş qaydalara uyğun təqdim etməsi mümkündür. Belə ki, Konstitusiyanın 26-cı maddəsinin I hissəsinin və Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin tələbləri baxımından şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə olunmaq məqsədilə ifadə verməkdən imtina etmək və ya digər şəxslərin hüquqlarını pozmadan, qanunla qadağan olunmayan müdafiə üsullarından istifadə etmək hüququ vardır.

Qeyd olunmalıdır ki, Konstitusiyanın 26-cı maddəsi hər kəsin hüquq və azadlıqlarının müdafiəsinin dövlət təminatını nəzərdə tutmaqla yanaşı, onların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş və qanunla qadağan olunmayan hərəkətləri müstəqil şəkildə həyata keçirmək imkanını leqallaşdırır və dəstəkləyir.

Lakin hər bir kəs öz hüquq və azadlıqlarının müdafiəsi zamanı qanunla qadağan olunmayan üsul və vasitələrdən istifadə edərkən, digər şəxslərin də hüquq və azadlıqlarını pozmamalıdır. Belə ki, Konstitusiyanın 71-ci maddəsinin II hissəsinə görə, hər kəsin hüquq və azadlıqları Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə

digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Qanun şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun sərhədlərini digər şəxslərin hüquqları, həmçinin onların şərəf və ləyaqəti, eyni zamanda, ədalət mühakiməsinin mənafeləri ilə məhdudlaşdırmışdır.

Qanunvericinin cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallarla bağlı şübhəli və ya təqsirləndirilən şəxsin verdiyi ifadə və ya izahata görə hüquqi məsuliyyəti müəyyən etməsi də müdafiə hüquqlarından sui-istifadənin qarşısının alınmasına yönəlmişdir. Konstitusiyanın 72-ci maddəsinin II hissəsinə əsasən, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, hər bir şəxs hüquqlarının müdafiəsində öz mülahizəsinə görə, istənilən üsul və vasitələrdən istifadə edə bilər, lakin bu zaman o, qanunla qadağan olunmuş hərəkətlərə yol verməməlidir. Belə qadağanın qanunvericilikdə birbaşa nəzərdə tutulması vacib deyil. Bu, müvafiq hüququn həyata keçirilməsinin qanunla müəyyən olunmuş qaydası ilə də şərtləndirilə bilər.

Cinayət Məcəlləsinin 296-cı maddəsində isə bilə-bilə yalan xəbərçilik etməyə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Yalan xəbərçilik, aşkar surətdə təqsirsiz şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkum edilməsi məqsədi ilə bilərəkdən yalan məlumatlar verilməsində ifadə olunur. Yalan xəbərçilik, həm cinayət barəsində məlumatdan, həm də təqsirsiz şəxsin təqsirləndirilməsindən ibarət ola bilər.

Nəzərə alınmalıdır ki, yalan xəbərçilik, təkcə konkret şəxsin və ya şəxslərin (onların soyadları, adları, əlamətləri göstərilməklə) cinayət törətməkdə yalandan ittiham olunmasında ifadə olunmur, bu əməl faktiki olaraq törədilməmiş cinayət hadisəsi barədə məlumat verilməsi ilə də həyata keçirilə bilər.

Yalan xəbərçiliyin əsas və bilavasitə obyekti cinayətlər barədə məlumatların baxılmasının və təhqiq edilməsinin müəyyən olunmuş qaydasıdır. Əlavə obyekt kimi isə barəsində yalan xəbərçilik edilmiş şəxslərin hüquqları və qanuni maraqları çıxış edir.

Obyektiv cəhətdən cinayət formal quruluşa malikdir. İctimai təhlükəli əməl həm aktiv hərəkətlərdə, yazılı formada, həm də şifahi formada xəbərçilikdə ifadə oluna bilər.

Subyektiv cəhətdən yalan xəbərçilik əməli yalnız qəsdən törədilir, yəni əməlin cinayət hesab olunması üçün verilən məlumatların yalan olması onları vermiş şəxsə əvvəlcədən məlum olmalıdır.

Xüsusilə qeyd olunmalıdır ki, şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsi haqqında məlumat verildikdə, cinayət təqibini həyata keçirən orqan irəli sürülən sübutlarla kifayətlənməməli, həm onları, həm də icraat zamanı əldə edilmiş digər sübutları cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırmalı və qiymətləndirməlidir.

Cinayət təqibi üzrə icraat zamanı sübut edilməli olan hallar Cinayət-Prosessual Məcəlləsinin 139-cu maddəsində müəyyən edilmişdir. Bunlara cinayət hadisəsinin başvermə faktı və halları; şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsi; cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətləri; əməlin törədilməsində şəxsin təqsirliliyi və s. daxildir.

Cinayət təqibi üzrə toplanmış sübutlar tam, hərtərəfli və obyektiv yoxlanılmalıdır. Yoxlama zamanı cinayət təqibi üzrə toplanmış sübutlar təhlil olunur və bir-biri ilə müqayisə edilir, yeni sübutlar toplanır, əldə olunmuş sübutların mənbəyinin mötəbərliyi müəyyənləşdirilir (Cinayət-Prosessual Məcəlləsinin 144-cü maddəsi). Qeyd olunduğu kimi cinayət-prosessual qanunvericiliyin tələbinə görə, təhqiqatçı, müstəntiq, prokuror, hakim qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər. Cinayət təqibi üzrə toplanmış sübutların kifayət etməsi dedikdə, müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübut etmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan versin (Cinayət-Prosessual Məcəlləsinin 145.2 və 146.1-ci maddələri).

Şübhəli və ya təqsirləndirilən şəxs müdafiə hüququnu həyata keçirərkən özünə bəraət qazandırmaq və ya məsuliyyətini yüngülləşdirmək məqsədilə ona qarşı irəli sürülmüş ittihamla əlaqədar sübutlar təqdim etməklə istintaqın və məhkəmə araşdırmasının gedişinə təsir etmək hüququna malikdir. Lakin bu zaman şübhəli və ya təqsirləndirilən şəxs cinayətin törədilməsinə aidiyyəti olmayan hər hansı bir şəxsin adını bilərəkdən çəkdiyi təqdirdə bilə-bilə yalan xəbərçiliyə görə məsuliyyət daşımalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, qanunverici, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində şübhədən və ya irəli sürülmüş ittihamdan müdafiə olunmaq üçün cinayətin törədilməsinə aidiyyəti olmayan şəxs haqqında bilərəkdən yalan məlumatların verilməsində ifadə olunan əməlləri istisna etmişdir və bu hal yalan xəbərçilik barəsində cinayət təqibi həyata keçirilən şəxsin özünümüdafiə vasitəsi kimi qəbul oluna bilməz.

Qeyd olunmalıdır ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) presedent hüququna əsasən, Konvensiyanın ədalətli məhkəmə araşdırılması hüququna dair 6-cı maddəsinin 3(c) yarımbəndi təqsirləndirilən şəxsə qarşı məhkəmə icraatının müdafiə hüququ adekvat şəkildə təmin edilmədən həyata keçirilməsinin qarşısının alınmasına yönəlmiş olsa da, məhdudiyyətsiz müdaxilə arqumentinin istifadəsini təmin etmir. Həmin hüquqdan istifadə edən zaman bilərəkdən cinayət mühakimə icraatında iştirak edən şahid və ya hər hansı başqa şəxsin cəzalandırılmalı olan davranışı haqqında yalan məlumat verilməsi halında təqib edilə bilməyəcəyini düşünmək cinayət törətməkdə ittiham olunan şəxslərin müdafiə hüququ anlayışını həddindən artıq şişirtmiş olardı (Brandstetter Avstriyaya qarşı iş üzrə 28 avqust 1991-ci il tarixli Qərar).

Bilə-bilə yalan xəbərçiliyin təhlükəliliyi ondan ibarətdir ki, verilən yalan məlumatın yoxlanılması və araşdırılması əsassız vaxt itkisinə, hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəsizliyinə gətirib çıxara və bunun nəticəsində günahsız şəxsin cinayət məsuliyyətinə cəlb edilib məhkum olunmasına səbəb ola bilər.

Qanunvericilikdə şübhəli və ya təqsirləndirilən şəxsin öz müdafiəsi çərçivəsində yalan ifadə verməsinə görə

hüquqi məsuliyyət nəzərdə tutulmasa da, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində "Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə" müddəasının nəzərdə tutulması onu ifadə edir ki, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququ hədsiz və sərhədsiz olmamalı və bu hüquq həyata keçirilərkən başqalarının hüquqlarını pozan hərəkətlərə yol verilməməlidir.

Qanunvericilikdə bilə-bilə yalan xəbərçiliyə görə məsuliyyətin müəyyən edilməsi ilə dövlətin insan ləyaqətini, onun hüquq və azadlıqlarını qorumaq, cinayətdən zərər çəkmiş şəxsin hüquqlarını və dəymiş zərərə görə kompensasiyanı təmin etmək, həmçinin ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə zəmanət vermək kimi konstitusiya öhdəlikləri icra edilmiş olur.

Konstitusiya Məhkəməsinin Plenumu qanunvericiliyin tələblərinə əsaslanaraq hesab edir ki, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin məzmununa əsasən, cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin ittihamdan müdafiə olunmaq məqsədi ilə verdiyi yalan ifadəsini və cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallara dair ifadəsini bir-birindən fərqləndirməlidir. Şübhəli və ya təqsirləndirilən şəxs törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verərkən ona Cinayət-Prosessual Məcəlləsinin 204.3-cü maddəsinə uyğun olaraq bilə-bilə yalan xəbərçilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.

Bundan sonra cinayət təqibini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin verdiyi məlumatı dəqiq və ətraflı yoxlamalı, zərurət olduqda müvafiq əməliyyat tapşırıqları verməli, haqqında xəbərçilik edilən şəxslə xəbər verən şübhəli və ya təqsirləndirilən şəxs arasındakı münasibətlərdə hər hansı qərəzin olub-olmamasını, onun kriminal meylliliyini, motiv və məqsədini aydınlaşdırmalıdır. Yalan xəbərçilik əməlinin mövcudluğu tam sübut olunduqdan sonra şübhəli və ya təqsirləndirilən şəxs təqsirləndirildiyi maddə ilə yanaşı, yalan xəbərçilik etmə əməlinə görə də cinayət məsuliyyətinə cəlb edilə bilər.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2011-ci il 20 may tarixli Qərarında vurğulanmışdır ki, Cinayət-Prosessual Məcəlləsinin 19.4.2-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanlar şübhəli və ya təqsirləndirilən şəxslərə onların hüquqlarını izah etməlidirlər.

Bu mənada Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, izah şübhəli və ya təqsirləndirilən şəxsi onun hüquqları haqqında təkcə məlumatlandırmaqdan ibarət olmamalı, həm də konkret prosessual hüquqların məzmununun açıqlanmasını, şübhəli və ya təqsirləndirilən şəxsin yol verəcəyi hərəkətin mümkün nəticələri haqqında xəbərdar olunmasını ehtiva etməlidir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Konstitusiyanın 26-cı maddəsinin I hissəsinin və Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin tələblərinə müvafiq olaraq, şübhəli və ya təqsirləndirilən şəxs özünü müdafiə etmək məqsədilə ifadə verməmək, yaxud digər şəxslərin hüquqlarını pozmadan qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququna malikdir.

– Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin "Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə" müddəası şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin cinayətdə iştirakı barədə bilə-bilə yalan məlumatların verilməsini nəzərdə tutur. Belə hərəkət özünü müdafiənin qanuni üsulu kimi qəbul edilə bilməz və bu əməl Cinayət Məcəlləsinin 296-cı maddəsi ilə bilə-bilə yalan xəbərçilik etmə cinayətinə görə məsuliyyət yaradır.

– Cinayət-Prosessual Məcəlləsinin 204.3-cü maddəsinə uyğun olaraq, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şübhəli və ya təqsirləndirilən şəxsə Cinayət Məcəlləsinin 296-cı maddəsində nəzərdə tutulmuş bilə-bilə yalan xəbərçilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinin I hissəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin tələblərinə müvafiq olaraq, şübhəli və ya təqsirləndirilən şəxs özünü müdafiə etmək məqsədilə ifadə verməmək, yaxud digər şəxslərin hüquqlarını pozmadan qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququna malikdir.

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin "Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə" müddəası şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin cinayətdə iştirakı barədə bilə-bilə yalan məlumatların verilməsini nəzərdə tutur. Belə hərəkət özünümüdafiənin qanuni üsulu kimi qəbul edilə bilməz və bu əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296-cı maddəsi ilə bilə-bilə yalan xəbərçilik etmə cinayətinə görə məsuliyyət yaradır.

3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 204.3-cü maddəsinə uyğun olaraq, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şübhəli və ya təqsirləndirilən şəxsə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296-cı maddəsində nəzərdə tutulmuş bilə-bilə yalan xəbərçilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.

4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

5. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:** **Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair**

**15 noyabr 2019-cu il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədrlik edən), Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi Rəşad Mustafayev və Azərbaycan Respublikası Milli Məclisi Aparatının sektor müdiri Eldar Əsgərovun, mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin hakimi Kamran Əkbərovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 320.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş hüquq verən rəsmi sənədi saxtalaşdırma müddəasının şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, T.Alışanlının Cinayət Məcəlləsinin 29 və 320.1-ci maddələri ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə ittiham aktına əsasən o, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Dövlət İmtahan Mərkəzi) tərəfindən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə 26 iyul 2018-ci il tarixində keçiriləcək qəbul imtahanında abituriyent qismində iştirak edəcək H.Quliyevin əvəzinə iştirak etməsinə dair təkliflə razılaşaraq, onun şəxsiyyət vəsiqəsini və imtahana buraxılış vərəqəsini əldə edərək imtahana gedib həmin sənədləri Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin (bundan sonra – Xüsusi Dövlət Mühafizə Xidməti) əməkdaşlarına təqdim etmişdir. Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları tərəfindən T.Alışanlının H.Quliyev olmadığı müəyyən olunaraq imtahan zalına buraxılmasının qarşısı alınmışdır. Bununla da, T.Alışanlı Dövlət İmtahan Mərkəzi tərəfindən H.Quliyevin adına kodlaşdırılmış, imtahan vermək və müvəffəqiyyət balı topladığı halda ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olmaq hüququ verən rəsmi sənəd olan cavab kartına sonuncunun adından məlumatları yazmağa yönəlmiş əməlini öz iradəsindən asılı olmayan səbəbdən başa çatdıra bilməyərək rəsmi sənəd olan cavab kartını istifadə etmək məqsədilə saxtalaşdırmağa cəhd etmişdir.

Müraciətedənin mövqeyinə görə, Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırmanın hansı hərəkətləri ehtiva etməsi konkret göstərilməmişdir. T.Alışanlı imtahana daxil olmaq üçün istifadə etdiyi sənədlərdə (şəxsiyyət vəsiqəsi və imtahana buraxılış vərəqəsində) hər hansı düzəliş və dəyişiklik etməmiş, habelə o, imtahanda iştirak etsə idi, cavab kartına H.Quliyevə aid məlumatları yazacaq və onun yerinə imtahan suallarını cavablandıracaqdı. Formal yanaşıldıqda T.Alışanlının cavab kartına yazacağı məlumatların yanlış olmadığı, məhz həmin cavab kartına yazılmalı olan məlumatlar olduğu müəyyən edilir. Bu baxımdan, T.Alışanlının qanunazidd davranışı özünü başqa şəxs, yəni H.Quliyev kimi təqdim etməsindən ibarətdir və bu əməldə Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş saxtalaşdırmanın mövcudluğu suallar yaradır.

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi T.Alışanlının qanunsuz olaraq başqa şəxsin adından həmin şəxsə aid olan məlumatların hüquq verən rəsmi sənədə daxil edilməsinin Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırma hesab olunub-olunmamasına hüquqi aydınlıq gətirilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 71-ci maddəsinin VIII hissəsinə əsasən, heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır.

Azərbaycan Respublikasında cinayətə görə məsuliyyəti müəyyən edən yeganə qanunvericilik aktı Cinayət Məcəlləsidir. Həmin Məcəllənin 10.1-ci maddəsinə görə, əməlin

(hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz.

Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

Beləliklə, cinayət hüququnun mühüm prinsiplərindən olan qanunçuluq prinsipinə uyğun olaraq yalnız Cinayət Məcəlləsində nəzərdə tutulan halda əməlin cinayət sayılmasına, belə əməli törədən şəxsin təqsirli hesab edilərək cinayət məsuliyyətinə cəlb edilməsinə yol verilir. Cinayət məsuliyyətinin əsasını cinayət tərkibinin əlamətlərini yaradan ictimai təhlükəli əməlin törədilməsi təşkil edir. Qanun cinayət sayılan əməlləri müəyyən edərkən həmin əməl üçün xarakterik olan əlamətləri də göstərir. Məhz bu əlamətlərin köməyi ilə törədilən hər hansı əməlin cinayət hüquq normasında nəzərdə tutulan cinayət olub-olmaması müəyyən edilir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyinə görə, hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər. Bu isə öz növbəsində Cinayət Məcəlləsinin əsaslandığı qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair" 2011-ci il 17 mart tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədi saxtalaşdırma müddəasının şərh edilməsi üçün bu maddənin dispozisiyasında nəzərdə tutulmuş cinayət əməlinin tərkib əlamətlərinin araşdırılması vacibdir.

Cinayət Məcəlləsinin qeyd edilən maddəsinə əsasən, hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma əməli cinayət məsuliyyəti yaradır.

Göstərilən cinayət əməli "İdarəetmə qaydası əleyhinə olan cinayətlər" fəslinə aid edilmiş və cinayətin obyekti qismində dövlət idarəetmə fəaliyyəti ilə bağlı münasibətlər çıxış edir. Cinayətin predmetini isə hüquq verən və ya vəzifədən azad edən vəsiqə və ya digər rəsmi sənədlər, dövlət təltifləri, möhürlər, ştamplar və blanklar təşkil edir.

Bu əməlin predmetini təşkil edən rəsmi sənədin anlayışının və əlamətlərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, sənədlərin idarəetmədəki əhəmiyyəti, sənəd dövriyyəsi sahəsinin genişlənməsi, yeni növ sənədlərin, o cümlədən elektron sənədin əmələ gəlməsi, cinayət qanununda rəsmi sənəd anlayışının və əlamətlərinin açıqlanmaması cinayətin tövsifində müəyyən çətinliklər yaradır.

Sənədin rəsmi sənədə aid edilməsi üçün o, bir sıra əlamətlərə malik olmalıdır. Bunun üçün sənəd səlahiyyətli şəxs tərəfindən tərtib və təsdiq edilməli, müəyyən edilmiş formaya uyğun olmalı, vacib rekvizitləri (möhürü, ştampı, imzanı və s.) əks etdirməlidir. Rəsmi sənədin əsas şərtlərindən biri də onun hüquqi əhəmiyyəti ilə bağlı olub təqdim edilə bilmə qabiliyyətinin, yəni sənəddə əks olunmuş məlumatın hüquq münasibətlərinə təsir etmək imkanının mövcud olmasını tələb edir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın 24-cü bəndinə əsasən, sənəd, ona rəsmi xarakter və hüquqi qüvvə verilməsi məqsədilə rəsmiləşdirilməlidir. Rəsmiləşdirmə sənədin imzalanması, təsdiq edilməsi, qeydə alınması və ona möhür vurulması vasitəsilə həyata keçirilir.

Beləliklə, rəsmi sənəd hüquq əhəmiyyətli faktları müəyyən edən, dövlət tərəfindən səlahiyyət verilmiş hüquqi və (və ya) fiziki şəxslər tərəfindən tərtib və təsdiq edilən, qanunla müəyyən olunmuş formaya malik olan, qeydiyyat, ciddi hesabatlılıq və dövriyyəsi nəzarət sisteminin təsiri altına düşən sənəddir.

Cinayət Məcəlləsinin 320.1-ci maddəsində təsbit edilən cinayətin predmetini təşkil edən rəsmi sənəd hüquqlar verməli və ya vəzifələrdən (öhdəliklərdən) azad etməlidir. Hüquqlar verməyən və ya vəzifələrdən azad etməyən sənədin saxtalaşdırılması, hazırlanması və ya satılması Cinayət Məcəlləsinin həmin maddəsində nəzərdə tutulmuş cinayət tərkibini yaratmır. Beləliklə, hər hansı sənədin Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlinin predmeti qismində çıxış etməsi üçün onun hüquq münasibətlərinə (onların yaranmasına, dəyişdirilməsinə və xitamına) təsir etməklə hüquq və vəzifələr yaratması, eləcə də hüquqların həyata keçirilməsi və ya vəzifələrin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar kimi hüquqi nəticələrə səbəb olma xüsusiyyətinin mövcudluğu mütləqdir.

Bu cinayət əməli obyektiv cəhətdən aşağıdakı hərəkətlər vasitəsilə törədilə bilər:

– hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi saxtalaşdırma;

– hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi qanunsuz hazırlama, habelə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama;

– hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi, habelə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı satma.

Saxtalaşdırma rəsmi sənədin məzmununun təhrif edilməsidir və saxta olmayan vəsiqəyə və ya rəsmi sənədə hər hansı vasitə ilə yanlış məlumatların daxil edilməsi, boş blankın belə məlumatlarla doldurulması, onun məzmununa dəyişikliklər edilməsi və s. üsullarla həyata

keçirilir və bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir.

Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməli formal tərkibli olmaqla, dispozisiyasında göstərilən hərəkətlərdən hər hansı birinin edildiyi andan başa çatmış hesab olunur.

Cinayətin subyekti qismində ümumi subyekt olmaqla 16 yaşına çatmış anlaqlı fiziki şəxs çıxış edə bilər.

Subyektiv cəhətdən isə cinayət birbaşa qəsdlə törədilir. Cinayət Məcəlləsinin 320.1-ci maddəsinə görə, məqsəd (rəsmi sənəddən, dövlət təltifindən, ştampdan, möhürdən və blankdan istifadə etmək) cinayət tərkibinin zəruri əlamətidir və həmin əməllərin törədilməsində belə məqsəd olmazsa, bu cinayətin tərkibini yaratmır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın (bundan sonra – Qaydalar) 6.4-cü bəndində abituriyentin yol verməsi qadağan olunan hərəkətlər müəyyən edilmişdir. Belə hərəkətlərdən biri saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərməkdir.

Qaydaların 6.5-ci bəndinə əsasən, abituriyentin bu Qaydaların 6.4-cü bəndində göstərilən hərəkətlərə yol verməsi halları Dövlət İmtahan Mərkəzi tərəfindən aşkar edildikdə, onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 181-ci maddəsində təhsil haqqında qanunvericiliyin pozulması hesab edilən konkret əməllərə görə məsuliyyət müəyyən edilmişdir. Lakin həmin maddədə inzibati məsuliyyət yaradan əməllər sırasında imtahanların keçirilməsi qaydalarının pozulması, o cümlədən imtahanda başqasının yerinə iştirak etmə və ya imtahana öz yerinə başqasını göndərmə əməli nəzərdə tutulmamışdır.

Beləliklə, Qaydalarla saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək qadağan edilsə də, İnzibati Xətalar Məcəlləsində qeyd edilən əməllər inzibati xəta kimi nəzərdə tutulmamışdır.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında abituriyent qismində iştirak edən şəxslərə doldurulmaq üçün təqdim edilən cavab kartları hər il texniki tapşırıqla forması təsdiq olunan, hər bir abituriyentin adına tərtib edilməklə kodlaşdırılan, boş blank formasında olan hüquq verən rəsmi sənəddir. Cavab kartının verilən sual kitabçasındakı sualların cavablandırılması məqsədilə müvafiq abituriyent tərəfindən doldurulması nəticəsində həmin abituriyentin bilik səviyyəsi müəyyən edilir və bunun nəticəsində o, ali və ya orta ixtisas təhsili müəssisələrində təhsil almaq hüququ əldə etmiş olur.

Cavab kartını müvafiq abituriyentin deyil, başqa şəxsin doldurması hüquq verən rəsmi sənədin saxtalaşdırılması kimi xarakterizə edilməlidir. Belə ki, cavab kartının başqa bir şəxs tərəfindən doldurulması nəticəsində cavab kartında müvafiq abituriyentin deyil, onun əvəzinə imtahanda iştirak edən şəxsin bilik səviyyəsinin nəticələri öz əksini tapır. Bu isə cavab kartının mahiyyət etibarilə saxtalaşdırılması deməkdir.

Digər tərəfdən, cavab kartının ikinci cədvəlində "özünüz haqqında məlumatı yazın, bəyannaməni oxuyun və imzalayın" qrafası mövcuddur ki, həmin hissədə abituriyent tərəfindən soyad, ad, ata adı, doğum yeri və doğum tarixi, ayı, günü, orta təhsil müəssisəsinin adı, yaşayış ünvanı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsinə dair məlumatlar şəxsən doldurulur, bundan sonra, həmin bənddə göstərilmiş "öz imzamla bu bənddə soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi göstərilən şəxs olduğumu təsdiq edirəm, əks təqdirdə qanunla müəyyən edilmiş məsuliyyəti daşıyacağam" məzmunlu bəyannamənin qarşısında imza edilir. Bu baxımdan, imtahanda başqasının əvəzinə iştirak edən şəxs cavab kartına qanunsuz olaraq başqa şəxsin adından həmin şəxsə aid məlumatları daxil etməklə və həmin abituriyentin əvəzindən imzalamaqla hüquq verən rəsmi sənədi saxtalaşdırma əməlini törətmiş olur.

Bu əməli törədərkən şəxsin məqsədi hüquqazidd vasitə ilə, yəni saxtalaşdırdığı cavab kartından istifadə etməklə başqasının ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olunmasını təmin edərək onun hüquqi statusunu dəyişdirməkdir. Şəxsin belə davranışı idarəetmə sahəsindəki münasibətlərə xələl yetirir, ictimai, habelə şəxsi mənafelərə zərər vurur. Belə ki, öz yerinə imtahana başqasını göndərən şəxs digər abituriyentlərlə ədalətsiz və qanunazidd rəqabət apararaq son nəticədə onların hüquqlarını pozur. Belə əməllər, eyni zamanda, inkişaf edən müasir cəmiyyət üçün faydalı mütəxəssislərin hazırlanması prosesinə maneçilik yaradır, dövlət tərəfindən təmin edilən sosial ədalət prinsipinə və elmi dəyərlərə olan etimadı şübhə altına alır. Halbuki, təşkil edilən imtahanların məqsədi abituriyentlərin bilik səviyyəsini müəyyən etməklə onların əldə etdikləri nəticəyə uyğun olaraq sıralanması və müvafiq ali və ya orta ixtisas təhsili müəssisələrində yerləşdirilməsidir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə əsasən, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, bu Qanunun 26.5-ci və 26.5-3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, müsabiqə yolu ilə həyata keçirilir.

Konstitusiyanın vətəndaşların vəzifələrinin əsasını müəyyən edən 72-ci maddəsinin II hissəsinə uyğun olaraq, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Bu baxımdan, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hər bir şəxs hər hansı hərəkəti edərkən həmin hərəkətin digər şəxslərin qanunla qorunan hüquqlarını, eləcə də qanunun tələblərini pozub-pozmadığını düşünməli və bununla bağlı məsuliyyətini dərk etməlidir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə sax-

talaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin edilməsini nəzərdə tutur ki, bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir, o, əsassız və qanunsuz olaraq hər hansı hüquq əldə edir və ya vəzifədən azad edilir, eləcə də hüquqlarının həyata keçirilməsi və ya vəzifələrinin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar əldə edir;

– Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq hüququ verən rəsmi sənədə qanunsuz olaraq başqasının adından digər şəxs tərəfindən məlumatların daxil edilməsi, onun əvəzinə imzalanması və s. hərəkətlər rəsmi sənədin saxtalaşdırılması kimi qəbul olunmalı və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə tövsif edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin edilməsini nəzərdə tutur ki, bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir, o, əsassız və qanunsuz olaraq hər hansı hüquq əldə edir və ya vəzifədən azad edilir, eləcə də hüquqlarının həyata keçirilməsi və ya vəzifələrinin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar əldə edir.

2. Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq hüququ verən rəsmi sənədə qanunsuz olaraq başqasının adından digər şəxs tərəfindən məlumatların daxil edilməsi, onun əvəzinə imzalanması və s. hərəkətlər rəsmi sənədin saxtalaşdırılması kimi qəbul olunmalı və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə tövsif edilməlidir.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:** **Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair**

**4 dekabr 2019-cu il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

sorğuverən orqanın nümayəndəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimovun,

cavabverən orqanın nümayəndələri Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyevin,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin sorğusu əsasında konstitusiya məhkəmə icraatı qaydasında "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, tərəflərin nümayəndələrinin çıxışlarını və ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə

müraciət edərək “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasını məqsədəmüvafiq hesab etmişdir.

Sorğuda göstərilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 99 səs çoxluğu ilə “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Qərar qəbul edilmişdir.

Həmin Qərar ilə Azərbaycan Respublikasının Prezidentindən Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti hesab etmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin Qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl hazırkı şəraitdə Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zəruridir.

Azərbaycan Respublikası Prezidentinin sorğusu ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd edir.

Sorğudan və ona əlavə edilmiş sənədlərdən göründüyü kimi, Azərbaycan Respublikasının Milli Məclisi “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərar qəbul etmişdir.

Həmin Qərara əsasən, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti hesab etmişdir ki, Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatların daha da sürətləndirilməsi üçün Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına, yenilənməsinə, ölkənin dinamik inkişafı və hərtərəfli dərin islahatlar strategiyasına uyğunlaşdırılmasına ehtiyac duyulur. Qərarda, həmçinin qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisi ölkədə həyata keçirilən islahatların genişləndirilməsi və dərinləşdirilməsi prosesindən kənarda qalmamalıdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəlmiş və növbədənkənar seçkilərin keçirilməsinin zəruri olduğunu bildirmişdir.

Sorğuda qaldırılan məsələnin həlli üçün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının bəzi normalarına diqqət yetirilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə görə, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 82-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin I hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu məsələnin həlli üçün Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinin I hissəsində nəzərdə tutulan “vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə” müddəasının yaranmış vəziyyətə uyğun açıqlanmasını zəruri hesab edir.

Azərbaycan Respublikasının Milli Məclisi hakimiyyətin bölünməsi prinsipinə əsasən qanunvericilik hakimiyyətini həyata keçirdiyi üçün əsas vəzifəsi qanunların və qərarların qəbul edilməsidir və onun müəyyən etdiyi ümumi qaydalar, habelə həll etdiyi məsələlər Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində təsbit edilmişdir.

Müasir demokratik cəmiyyət üçün parlamentin fəallığı böyük əhəmiyyət kəsb edir. Qabaqcıl və mütərəqqi hüquqi aktların qəbul edilməsi ölkədə ictimai münasibətlərin ədalət və hüququn aliliyi əsasında tənzimlənməsini təmin edir. Bu baxımdan, qanunvericinin üzərinə düşən vəzifələrin məhz ölkənin sürətli inkişafına cavab verəcək şəkildə həyata keçirilməsi vacibdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsində təsbit edilmiş “vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə” müddəası ilə bağlı qeyd edir ki, aradan qaldırıla bilməyən səbəblər dedikdə, parlamentin mövcud tərkibdə vəzifələrinin icra edilməsini qeyri-mümkün edən səbəblər başa düşülür. Bu baxımdan, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyası ilə ona verilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini obyektiv qiymətləndirməklə öz işini davam etdirib-etdirməməsinin mümkünlüyünə dair qərar qəbul edə bilər.

Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarından da göründüyü kimi, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqe ortaya qoymuºdur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyətinin parlamentin öz səlahiyyətlərini artıq həyata keçirə bilməməsi barədə qəti mövqeyinin formalaşmasını nəzərə alaraq hesab edir ki, “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar

seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarı Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması üçün Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinin I hissəsində müəyyən edilmiş əsası yaradır.

Belə olan halda Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılması Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğundur.

Həmçinin qeyd edilməlidir ki, parlament buraxıldıqda qanunvericilik hakimiyyətinin fasiləsiz fəaliyyətinin təmin edilməsi, növbədənkənar parlament seçkilərinin keçirilməsi zamanı parlamentin səlahiyyətlərinin müəyyən dərəcədə saxlanılması zəruridir.

Bununla bağlı qeyd edilməlidir ki, Azərbaycan Respublikası Konstitusiyasının 111-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktik işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinə görə isə, Azərbaycan Respublikasının Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Göründüyü kimi, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti dövlətin, cəmiyyətin və insanların qorunması üçün Azərbaycan Respublikası Prezidentinin hərbi və fövqəladə vəziyyətin elan edilməsi barədə fərmanlarının təsdiq olunması və s. bu kimi həyati əhəmiyyətli funksiyaların həyata keçirilməsi ilə də bağlıdır. Buna görə həmin funksiyaların icrası ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinin parlamentin yeni tərkibi formalaşanadək saxlanılması zəruri hesab edilməlidir.

Eyni zamanda, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərlə, habelə bir sıra beynəlxalq təşəbbüslərlə bağlı müxtəlif beynəlxalq parlamentlərarası əməkdaşlıq qurumlarının fəaliyyətində iştirak edirlər. Bu səbəbdən parlament buraxıldıqdan sonra da həmin səlahiyyətlərin müvəqqəti saxlanılması zəruri hesab edilir.

Qeyd olunanları nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışı fəaliyyətə başlayanadək müstəsna olaraq Azərbaycan Respublikası Konstitusiyasının 111-ci və 112-ci maddələrində, 95-ci maddəsinin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərin, habelə beynəlxalq təşkilatlarda təmsilçilik funksiyalarının həyata keçirilməsi üçün V çağırış Azərbaycan Respublikası Milli Məclisinin müvafiq səlahiyyətlərinin saxlanılması zəruridir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinin I hissəsinə uyğun hesab edilməlidir;
- “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğun hesab edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndini, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinin I hissəsinə uyğun hesab edilsin.
2. “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının 981–ci maddəsinə uyğun hesab edilsin.
3. Qərar elan edildiyi andan qüvvəyə minir.
4. Qərar “Azərbaycan”, “Respublika”, “Xalq qəzeti”, “Bakinski raboçi” qəzetlərində, “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı”nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:** **Fərhad ABDULLAYEV**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**
**№ 10/85**

Bakı şəhəri 31 oktyabr 2019-cu il

**Azərbaycan Respublikası Baş prokurorunun bəzi əmrlərinə dəyişikliklər edilməsi haqqında**

Qanunçuluğun və vətəndaş məmnunluğunun təmin edilməsi, fiziki və hüquqi şəxslərə qayğı, həssaslıqla yanaşılması, müraciətlərin qəbulu üzrə fəaliyyətin daha da təkmilləşdirilməsi, prokurorluğun fəaliyyəti ilə bağlı sualların birbaşa və ya araşdırıldıqdan sonra cavablandırılması, məlumatlandırılması və izah edilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Çağrı Mərkəzi"nin yaradılması haqqında" 27.09.2019-cu il tarixli 10/72 nömrəli əmrin imzalanması və həmin əmrlə Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Qaynar xətt" əlaqə mərkəzinin yaradılması haqqında" 20.05.2005-ci il tarixli 09/55 nömrəli əmrinin ləğv edilməsi ilə əlaqədar, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrinə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 11-ci bəndin birinci abzasında "Baş Prokurorluğun" sözlərindən sonra "Çağrı Mərkəzi"nə" sözləri əlavə edilsin, "mərkəzlərinə" sözü "mərkəzinə" sözü ilə, "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Qaynar xətt" əlaqə mərkəzinin yaradılması haqqında" 20.05.2005-ci il tarixli 09/55 nömrəli" sözləri "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Çağrı Mərkəzi"nin yaradılması haqqında" 27.09.2019-cu il tarixli 10/72 nömrəli" sözləri ilə, ikinci abzasında "Qaynar xətt" əlaqə mərkəzlərinə" sözləri isə "Çağrı Mərkəzi"nə və "Qaynar xətt" əlaqə mərkəzinə" sözləri ilə əvəz edilsin;

**1.2.** 12-ci bənddə "Baş Prokurorluğun, habelə" sözləri "Baş Prokurorluğun "Çağrı Mərkəzi"nin, habelə" sözləri ilə, "mərkəzlərinin" sözü isə "mərkəzinin" sözü ilə əvəz edilsin;

**1.3.** 35.1.2-ci və 40.1-ci bəndlərdə "Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının sədrindən," sözlərindən sonra "Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibindən," sözləri əlavə edilsin;

**1.4.** 35.1.4-cü bənddə "Qaynar xətt" əlaqə mərkəzinə" sözləri "Çağrı Mərkəzi"nə" sözləri ilə əvəz edilsin;

**1.5.** 39-cu bəndin üçüncü abzasında "Qaynar xətt" əlaqə mərkəzi" sözləri "Çağrı Mərkəzi" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Baş prokurorunun 01.03.2017-ci il tarixli 10/13 JV2-İİ əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"a aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 2.1.19-cu bənddə "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Qaynar xətt" əlaqə mərkəzinin yaradılması haqqında" 20.05.2005-ci il tarixli 09/55 nömrəli" sözləri "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Çağrı Mərkəzi"nin yaradılması haqqında" 27.09.2019-cu il tarixli 10/72 nömrəli" sözləri ilə əvəz edilsin;

**2.2.** 3.4.1-ci bəndin birinci yarımbəndində "Azərbaycan Respublikası Prezidentinin köməkçilərindən" sözləri "Azərbaycan Respublikası Prezidentinin və vitse- prezidentlərinin köməkçilərindən" sözləri ilə əvəz edilsin, "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından," sözlərindən sonra isə "Azərbaycan Respublikası vitse-prezidentlərinin fəaliyyətini bilavasitə təmin edən struktur qurumlardan, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasından, Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasından," sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Çağrı Mərkəzi"nin yaradılması haqqında" 27.09.2019-cu il tarixli 10/72 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Çağrı Mərkəzi"nin fəaliyyətinin təşkili haqqında Qaydalar"ın 9-cu bəndində "492-55-40" rəqəmləri "492-01-38" rəqəmləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Baş prokurorunun 06.04.2001-ci il tarixli 02/61 Na-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun reqlamenti"nin 4.1-ci və 9.7-ci bəndlərində "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" sözləri "Vətəndaşların müraciətləri haqqında" sözləri ilə əvəz edilsin.

**5.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**
**№ 10/91**

Bakı şəhəri 5 noyabr 2019-cu il

## Prokurorluğunun bəzi normativ hüquqi aktlarına dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə edilmiş dəyişikliklərin təcrübədə tətbiqini təmin etmək məqsədi ilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluq üzrə 19.01.2010-cu il tarixli 10/11 nömrəli əmrlə təsdiq edilmiş "Rayon (şəhər) prokurorluqlarında işçilər arasında vəzifə bölgüsünün yeni Nümunəvi Forması"nda "həbs qətimkan tədbirinin seçilməsi və onun müddətinin" sözləri "həbs və ev dustaqlığı qətimkan tədbirlərinin seçilməsi və onların müddətlərinin" sözləri ilə əvəz edilsin.

**2.** Baş Prokurorluq üzrə 06.05.2015-ci il tarixli 10/40 nömrəli əmrlə təsdiq edilmiş "Rayon (şəhər) və ərazi hərbi prokurorlarının fəaliyyətinin yoxlanılması Qaydalarının 7.14-cü bəndində "həbs qətimkan tədbirinin" sözləri "həbs və ev dustaqlığı qətimkan tədbirlərinin" sözləri ilə əvəz edilsin.

**3.** Baş Prokurorluq üzrə 03.09.2015-ci il tarixli 10/79 nömrəli əmrlə 18.05.2001-ci il tarixli 02/80 nömrəli əmrə əlavə edilmiş "Rayon (şəhər) prokurorluqları tərəfindən görülmüş işlərə dair yarımillik və illik yazılı hesabatlarda əks etdirilən məsələlərin Siyahısı"nın 14 və 15-ci bəndlərində "həbs qətimkan tədbirinin" sözləri "həbs və ev dustaqlığı qətimkan tədbirlərinin" sözləri ilə əvəz edilsin.

**4.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün prokurorluq orqanlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**
**№ 10/92**

Bakı şəhəri 5 noyabr 2019-cu il

## Baş Prokurorluq üzrə "İbtidai araşdırma zamanı tərtib olunan prosessual sənədlərin yeni nümunəvi formalarının tətbiqi barədə" 11.06.2015-ci il tarixli 10/58 nömrəli əmrdə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə edilmiş dəyişikliklərin təcrübədə səmərəli tətbiqini təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluq üzrə "İbtidai araşdırma zamanı tərtib olunan prosessual sənədlərin yeni nümunəvi formalarının tətbiqi barədə" 11.06.2015-ci il tarixli 10/58 nömrəli əmrlə təsdiq edilmiş qətimkan tədbirləri ilə bağlı 5 nümunəvi forma dəyişdirilsin və yeni 8 nümunəvi forma tətbiq edilsin (13 ədəd nümunəvi forma əlavə olunur).

**2.** Yenilənmiş nümunəvi formalar əsasında Baş Prokurorluğun rəsmi saytında yerləşdirilmiş nümunəvi formalara dəyişikliklər edilsin, həmçinin yeni hazırlanmış nümunəvi formalar həmin sənədlərə əlavə edilsin.

**3.** İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlara tapşırılsın ki, müvafiq icra hakimiyyəti orqanlarının müstəntiq və təhqiqatçılarına prosessual sənədlərin yeni nümunəvi formalarından istifadə etməyi tövsiyə etsinlər.

**4.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün prokurorluq orqanlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**
**№ 10/93**

Bakı şəhəri 6 noyabr 2019-cu il

## Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Prokurorluğunun barəsində sərəncam vermək səlahiyyətinə malik olduğu dövlət sirri təşkil edən məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula biləcək ziyanın kəmiyyət və keyfiyyət göstəricilərinin səviyyələri və qiymətlərinin müəyyən edilməsi məqsədilə Ekspert komissiyasının yaradılması haqqında" 08.05.2017-ci il tarixli 10/32 nömrəli Əmrində dəyişikliklər edilməsi barədə

Prokurorluqda aparılmış kadr dəyişikliklərini nəzərə alaraq və "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Prokurorluğunun barəsində sərəncam vermək səlahiyyətinə malik olduğu dövlət sirri təşkil edən məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula biləcək ziyanın kəmiyyət və keyfiyyət göstəricilərinin səviyyələri və qiymətlərinin müəyyən edilməsi məqsədilə Ekspert komissiyasının yaradılması haqqında" 08.05.2017-ci il tarixli 10/32 nömrəli Əmrində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** "Müavin" hissəsində "Şərafət Həsənov" sözləri "Ceyhun Məmmədov" sözləri ilə əvəz edilsin;

**1.2. "**Üzvlər" hissəsində "Günay İsmayılova" sözləri "Nigar Talibli" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**